# AZƏRBAYCAN NEFTİ DÜNYA SİYASƏTİNDƏ

AZƏRBAYCAN NƏŞRİYYATI

Bakı - 1997

"Azərbaycan nefti dünya siyasətində"
Çoxcildliyi Azərbaycan Respublikasının Prezidenti
**Heydər Əliyevin**
1994-cü ildə verdiyi tapşırığa əsasən
nəşr olunur

İlham Əliyev
Akif Muradverdiyev

Zəngin tarixi materiallar əsasında yazılmış "Azərbaycan nefti dünya siyasətində" çoxcildliyinin ikinci cildi əsasən XIX əsrin ikinci yarısından başlayaraq Bakı neftinin sənayeləşməsindən, neftin əsrin yanacağına çevrilməsindən, neft emalı və neft kimyasının inkişafından, neft ticarətinin və onun nəqlinin müasir tələblərə çatdırılmasından, Bakı neft sənayesinə xarici kapitalın axınından, onun transmilli şirkətlərlə birgə fəaliyyətlərindən və nəhayət Azərbaycanda milli sahibkarlığın təşəkkülündən bəhs edir.

Kitab geniş oxucu kütləsi uçun nəzərdə tutulmuşdur.

© "Azərbaycan" nəşriyyatı — 1997

# MÜNDƏRİCAT

Oxuculara

**Bakı - hadisələrlə zəngin şəhər**

**Azərbaycan neft sənayesinin inkişafı (1872-1920-ci illər)**

**Azərbaycanda neft emalı sənayesinin yaranması**

**Neft ticarətinin inkişafı və Bakı neftinin nəqli**

**Azərbaycan neft sənayesinin inhisarları**

**Azərbaycan neft sənayesində xarici kapitalın rolu**

**Azərbaycan neft sənayesinin sonrakı inkişafında 9 fevral 1890-cı il qanununun əhəmiyyəti**

**Əllə (kustar üsulla) neft hasilatı**

İstifadə olunmuş ədəbiyyat

# OXUCULARA

Üç min ildən çox tarixi olan Bakı XIX əsrin əvvəlində kiçik bir liman şəhəri idi. Ərəb və İran tarixçilərinin dövrümüzədək gəlib çatmış yazılı məlumatları isə IX-XI əsrlərə aiddir. Bu mənbələrdə Bakının adı ilk növbədə Abşeronun neft və qaz fontanları, mineral su bulaqları və palçıq vulkanları ilə bağlı xatırlanır. Artıq X əsrdə bir çox səyyahların əsərlərində Bakının adına rast gəlinirdi. Əlverişli coğrafi mövqeyi, rahat limanı onun Yaxın və Orta Şərq ölkələri, Avropa və Asiya ilə ticarət əlaqələrinin inkişafı üçün imkan yaratdığından, Bakı getdikcə Xəzər dənizinin əsas liman şəhərinə və mühüm yükboşaltma məntəqəsinə çevrilirdi.

Bakının tarixi uzaq əsrlərin dərinliklərinə gedib çıxır. Biz isə oxucuya bu qədim şəhərin XIX əsrdən başlayaraq sürətli inkişafına və çiçəklənməsinə, onun dünyanın neft paytaxtına çevrilməsinə təkan verən, misli-bərabəri olmayan məşhur Bakı neftinin sənaye istehsalına başlanıldığı dövrdən danışacağıq.

"Azərbaycan nefti dünya siyasətində" adlanan bu kitabın ikinci cildində o vaxtkı Bakının müfəssəl dəqiq təsvirini verməyə cəhd edilməmişdir. Əsas məqsədimiz köhnə, doğma Bakının əsl obrazlı simasını, həmin dövrün ən iri neft sənaye mərkəzi kimi əhəmiyyətini, onun XIX əsrin ikinci yarısı — XX əsrin əvvəllərindəki neft hasilatındakı sıçrayışının təsiri ilə dəyişməsi və abadlaşdırılmasını əks etdirməkdir. Kitabda o dövrdə Azərbaycanın və xüsusilə Bakının bütün Avropa və Yaxın Şərq üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyi əyani surətdə açıqlanır.

Bakıda neft mədənlərinin və onlarla birlikdə ticarət və sənayenin, gəmiçilik və dəmir yolu nəqliyyatının möcüzəli inkişafı nəticəsində 1897-ci ildə Bakıda artıq 150 min artıq əhali yaşayırdı. Bu dövrdə Bakı sürətlə böyüyərək, neft mədənlərinin, zavodların yerləşdiyi "Qara şəhər"i və "Ağ şəhər"i də əhatə edirdi.

Tanınmış ingilis səyyahı Karl Marvin Bakı neft sənayesinin canlı təsvirini özünün "Bakı—Avropanın nefti" (1886-cı il) və "Əbədi odlar ölkəsi" adlı kitablarında yüksək bədii bacarıq və sənətkarlıqla qələmə alaraq Avropa oxucularına çatdırmışdır. Doğrudur, hər iki kitab əsasən texniki və iqtisadi məsələlərə həsr olunsa da, Bakının gözəlliyi və onun insanlarının mehribanlığı haqda heç vaxt yazılmamışdı.

Sonradan daha bir jurnalistin, İngiltərənin "Petroleum Uorld" jurnalının redaktoru C. Henrinin Bakıya səfəri zamanı o da əvvəlki müəlliflər kimi gördüklərindən müqəssir olmuş və görülmüş nəhəng işlərin həcmindən, Bakının gözəlliyindən, şəhərin çoxmillətli əhalisinin tarixindən maraqlı kitab yazmışdır.

Son bir neçə qərinə idi ki, Bakının müasir sənayesi, qədim adət və ənənələrində qeyri-təbii qüvvələr bir-biri ilə culğalaşmışdı, bu da gec-tez bəşəriyyəti lərzəyə salmalı idi.

XIX əsrin sonunda Bakıda yaranmış şərait öz inkişafı ilə hələ zirvəsinə çatmamış, sənaye öz vüsətini almamışdı.

Bu kitabda toplanmış istər tarixi, istərsə də statik məlumatlar dünyanın hər yerində neft sənayeçiləri üçün maraq doğura bilər. Çünki yazılan məlumatlar əsasən yeni ilə köhnənin, milli antaqonizm və iqtisadi rəqabətin toqquşması nəticəsində mürəkkəb bir qabarmanın məhsuludur.

Bakı neft sənayesində baş vermiş texniki tərəqqi mədənlərin mənzərəsini dəyişərək, Avropada və Amerikadakı maliyyə və ticarət tarazlığını pozub alt-üst etmişdi. Ədəbi və elmi qaynaqlarda Bakı haqqında, onun əsas sənaye sahəsi olan neft sənayesinin mənşəyi, inkişafı, keçmiş vəziyyəti barədə məlumat qismən az olduğundan, belə bir kitabın yazılması əhəmiyyətlidir.

Kitabın tarixi aspekti ilə yanaşı, burada Bakı neft sənayesinin romantik tərzdə inkişafından bəhs edən maraqlı məlumatları da oxuya bilərsiniz. Kitabda qeyd olunur ki, XIX əsrin sonuna yaxın Azərbaycan neft sənayesinin texniki tərəqqisi nəticəsində, 1872-ci ildə 1,4 milyon pud neft çıxarıldığı halda, 1894-cü ildə neft hasilatı 340 milyon puda, yəni ABŞ-dakı səviyyəyə çatmışdı. Sonralar (1901-çn ilədək) Azərbaycan neft hasilatına görə dünyada birinci yerə çıxmışdı. Lakin dünya bazarında birincilik xammalın həcmi ilə deyil, bu bazarda başlıca məhsul sayılan kerosinin həcmi ilə müəyyən edilirdi. Bu cəhətdən üstünlük Amerika sənayesinə məxsus olaraq qalırdı. Bakı neftayırma sənayesində müvəffəqiyyətlərin ən böyük göstəricisi burada istehsal edilən kerosinin xaricə daşınması (1883-cü il) oldu. Artıq 1885-ci ildə Amerika kerosini Rusiyanın bazarlarından sıxışdırılıb çıxarıldı.

Beləliklə, qısa müddət ərzində Bakıda misli görünməmiş iqtisadi yüksəliş baş verdi. Şəhərdə güclü sənaye potensialı yaradıldı, neft hasilatı, emalı və satışı üzrə yüzlərlə iri və xırda şirkətlər açıldı. Bu cür kəskin sıçrayış həmin dövr üçün çox diqqətə layiqdir. Belə ki, neft sahəsində qabaqcıl texnika və texnologiyaya malik olan inkişaf etmiş ölkələr Azərbaycanın neftçıxarma sənayesindən xeyli geridə qalmışdı. Dünya neft hasilatının yarıdan çoxunu verməklə Bakı hətta Amerika Birləşmiş Ştatları kimi qabaqcıl ölkəni çox-çox geridə qoymuşdu.

Kitabda Bakının məşhur neft fontanlarından da maraqlı faktlar verilmişdir. Bilavasitə həmin fontanların fəvvarə verdiyinin şahidi olmuş K.Marvin yazır ki, avqustun 19-da başlayan fontan ram edilmədən dekabrın 10-dək vurmaqda davam etdi. Buradan gün ərzində çıxan neftin miqdarını müxtəlif adamlar müxtəlif şəkildə, biri— 400000-500000 pud arasında olduğunu, qonşu mədən sahibinin hesablanmasına görə quyudan yüz on dörd gün ərzində 13640000 pud, yaxud 220000 ton neft çıxdığını söyləyirdilər. Bəziləri isə iddia edirdilər ki, ən azı 30000000 pud neft hədər getmişdi.

Amerikada bu xəbəri eşitmiş bir neft mühəndisi qeyd edirdi ki, "Pensilvaniyada olsa idi, bu quyu öz sahibinə böyük var-dövlət gətirərdi." Bununla belə hər gün quyudan beş min funt-sterlinq dəyərində neft axıb gedirdi, ancaq K.Marvin bu fontan haqda öz gördüklərini belə yazmışdı: "Quyudan çıxan neft aşağı töküldü, fışıltı, uğultu bir neçə mil aralıda belə eşidilirdi. Neft fontanı gözəl bir mənzərə yaratmışdı. O vaxtadək bundan böyük neft fontanı olmamışdı. Fontanın birinci zərbəsi əvvəlcə buruğun üstünü, sonra isə yanlarını vurub dağıtdı, ancaq quyunun üstündəki şalban qalmışdı ki, çıxan neftin ona toxunması üzündən süréti zəifləyirdi. Buruğun özünün hündürlüyü 70 fut idi. Qumlu neft fontanı buruğun damını və yanlarını uçurandan sonra fəvvarə üç o qədər də hündürlüyə qalxdı".

Bax, belə bir möcüzəli fontan nəticəsində xam neft həmin dövrdə öz qiymətini itirdi. Bir neftayırma zavodunun sahibi 700000 pud neftə cəmi otuz funt-sterlinq verib çənlərini doldurdu. Heç kəs neftin bir puduna 4/3 qəpikdən artıq vermirdi. Halbuki, əvvəllər neftin bir pudu 2, yaxud 3 qəpiyə idi.

Kitabda qeyd edilir ki, neftin bu cür axıb hədər yerə getməsi böyük narahatçılığa səbəb oldu. Bakıda neft mədənlərinin sahibkarları toplaşıb bu çətinliyin aradan qaldırılmasını müzakirə etməyə başladılar. Nəhayət, Sankt-Peterburqa, mərkəzi hökumətə müraciət olundu. Bakıya oradan iki mühəndis göndərildi. Peterburq alimlərinin verdiyi məsləhət də heç bir nəticə vermədi.

1886-cı ilin əvvəllərində Bakıya gəlmiş professor Enkler, doktor Böhm və doktor Yurkenenin müşayiətilə Bakı neft mədənlərinin və orada 11 fontan vuran quyunun olduğunu görmüşdülər. Bunlardan beşi Nobel qardaşlarına məxsus idi.

Böyük rus alimi D.İ.Mendeleyev özünün "Bakinskoe neftnoe delo" kitabında 1886-cı ildə yazırdı: "Bakıda gördüklərim və öyrəndiklərim məndə belə bir fikir oyatdı ki, Rusiyanın mərkəzində zavodlar yaradılması barədə daha ucadan və daha təkidlə danışmaq hər şeydən mühümdür — bunun vaxtı çatmışdır".

Azərbaycan neft sənayesinin inkişafının ilk dövrlərində Bakıda xarici və yerli kapitalın hesabına yaradılmış iri neftayırma zavodlarının (V.A.Kokorev, N.İ.Vitte, C.Məlikov, H.Z.Tağıyev zavodları) meydana çıxması məhz bununla izah olunurdu.

1877-çi ildə xam neftdən ağ neft alınması üçün aksiz vergilərinin ləğvi, Bakının və bütün Rusiyanın zavodlarında neft emalının nəzərə çarpacaq yüksəlişinə səbəb oldu. Bakıda və Rusiyanın digər şəhərlərində neftayırma zavodlarının və neftdən alınan məhsulların miqdarı sürətlə artmağa başladı. 1879-cu ildə yeni inşa edilmiş, həmin dövr üçün ölkənin və xaricin qabaqcıl texnikası və emal texnologiyası bazası əsasında təkmilləşdirilmiş qurğuların sayı 180-ə çatdı. Qədim ənənələr: neftayırma zavodlarını bilavasitə xammalların çıxarıldığı ərazidə, yəni Abşeronda tikmək ənənəsi ölkə sənayesində amiranə mövqe tutmaq iddiasında olan çar Rusiyasının güclü və hərtərəfli hücumuna uzun müddət dözə bilməzdi. Rusiyanın iri şəhərlərində neft emalı zavodlarının tikintisinə başlandı ki, bu da həmin zavodlara Bakıdan xam neftin və neft tullantılarının daşınmasının həcmini xeyli artırmağı tələb edirdi.

Ümumən neft emalının uzun davam edən tarixinə dair bir çox məlumatlar kitabda öz əksini tapmışdır. Bakının dünya neft sənayesi mərkəzinə çevrilməsi prosesində mühüm amillərdən biri kimi neftin nəqlinin aparıcı rolu ətraflı təsvir edilmişdir. Neft sahibkarlarının birinci qurultayında göstərilirdi ki, regionda üstün mövqe tutan Bakının neft sənayesi Avropaya yol tapması ilə, yalnız bununla o, transmilli sənaye ola bilər.

Ona görə də neftin nəqli məsələsinə qayıdaq. İki dənizi —Xəzəri və Qara dənizi birləşdirən Bakı-Tiflis dəmir yolu açılandan sonra Bakı neftini kütləvi surətdə daşımaq mümkün oldu.

Beləliklə, XX əsrin əvvəllərində Bakı ticarət portu yük dövriyyəsinin həcminə görə Rusiyanın bütün ticarət portları arasında birinci yeri tuturdu. Nəticədə ən iri neft sənayesi şirkətləri — "Nobel qardaşları şirkəti", "Xəzər - Qara dəniz cəmiyyəti", sahibkar H.Z.Tağıyev özlərinin neftdaşıyan gəmi donanmalarını yaratdılar.

Nefti və neft məhsulları Rusiyada və xarici ölkələrdə satılmaq üçün gəmilərlə Xəzər dənizi vasitəsi ilə Həştərxana yalnız altı aylıq naviqasiya ərzində daşına bilirdi. Buna görə də ilin qalan vaxtlarında Rusiyada və xarici ölkələrdə xam neft ehtiyatları olmayan neftayırma zavodları işləmirdi. Eyni zamanda 1880-1881-ci illərdə Bakının özündə o qədər xam neft yığılıb qalmışdı ki, hasilatı müvəqqəti dayandırmalı olmuşdular. Neftin həddindən artıq istehsal edilməsi böhranı ilk dəfə 1882-ci ildə baş verdi, dörd ildən sonra yenidən təkrar olundu. Dünya bazarında çoxlarının hesablaşdıqları iri sənaye mərkəzinə çevrilmiş Bakını dəmir yolu vasitəsi ilə Qara dənizlə birləşdirmək tələb olunurdu. Ona görə də çox böyük xərclə də olsa, Zaqafqaziya dəmir yolunun çəkilməsi məhz Bakı neft sənayesinin tələbatını ödədi, onun gələcək inkişafına təkan verərək, başlıca rol oynadı.

"Neft sahəsi" yaradılmasının iqtisadi cəhətdən sərfəli olub-olmayacağını müəyyənləşdirmək üçün, ötən əsrin 70-ci illərində Yollar Nazirliyinin Dəmir Yolları Departamenti Şimali Amerikanın neft sərvətlərini Abşeronun neft ehtiyatları ilə müqayisə etmişdi. Bu müqayisədə Abşeron yarımadasının böyük perspektivlərə malik, zəngin neft diyarı olduğu göstərildi.

Belə bir şəraitdə iri neft sahibkarları xam neftdən ancaq kerosin deyil, daha çox mazut alınmasının xeyrini aydın görürdülər. Həm də mazuta görə çar hökumətinə vergi ödənilmirdi. Bu, neftayırma sənayesinin inkişafında mühüm amilə çevrilib, neftayırma zavodlarında emalın strukturunu xeyli dəyişdirdi.

Azərbaycanın görkəmli maarifçilərindən biri Həsən bəy Zərdabi haqlı olaraq qeyd edirdi ki, uzun müddət "Zaqafqaziyanın şərq hissəsinə tauna tutulmuş ölkə kimi baxırdılar... Nəhayət, Bakı qəzasının daş-kəsəkli və susuz düzənliklərində neft fontanları vuranda, hamı təbiətin bu möcüzəli hadisəsinə heyrətlə baxdı. Fontan sahibləri çox tezliklə milyonlar qazandılar və hər tərəfdən buraya kapital və bilik axıb gəldi, keçmiş inzibati yurdun yerində həyat cağladı...".

Neft sənayesinin tənzimlənməsində nəqliyyatın rolu təkcə bununla müəyyənləşmirdi ki, neft məhsullarının daşınması və satışı sürətlənmişdi. Həm də 1883-cü ildən başlayaraq dəmir yolu özü neft yanacağının istehlakçısına çevrildi. Əvvəllər neftayırma zavodlarında tullantı kimi bir kənara atılan mazutdan indi yanacaq kimi istifadə edilməyə başlandı.

Azərbaycan neft emalı sənayesinin başlıca ixrac məhsulu uzun müddət ağ neft idi. Bakı ağ nefti tədricən Amerika ağ neftini əvvəlcə Rusiya şəhərlərindən, sonra isə Qara və Aralıq dənizləri rayonu və Şərq ölkələrindən sıxışdırırdı.

1883-cü ildə neft sənayesində böhran başlandı. Belə ki, nəhəng neft fontanları nəticəsində hasil olunan bol məhsul neft sənayesini daha da inkişaf etdirmək əvəzinə onu böhrana sürüklədi. Bununla əlaqədar neft sahibkarları bir-birinin ardınca hökumətə müraciət edərək, vəziyyətin yoxlanması üçün komissiya təşkil olunub, nəticələrinin müzakirə edilməsini çar hökumətindən tələb edirdilər. Nəticədə çar 16 fevral 1884-cü ildə vəziyyəti müzakirə etmək üçün Bakıda konfrans keçirilməsi haqda fərman verdi. Elə həmin il konfrans keçirildi, bunun nəticəsində Bakı ilə Batum arasında Zaqafqaziya dəmir yolunda yük daşınması nəzərə çarpacaq dərəcədə artdı. Bir sözlə, neft və neft məhsullarının Qara dəniz limanlarına, oradan isə Avropa bazarlarına daşınması üçün ucuz nəql vasitəsi təmin etmiş dəmir yolu sahibkarları istehsalı genişləndirməyə həvəsləndilər.

Beləliklə, Bakı nefti ABŞ və Almaniyanın neft sənayesi ilə sərt rəqabətə girərək, özü üçün dünya bazarlarına çıxış tapdı.

Karl Marvinin qeydlərində göstərilir ki, Bakı neftindən yeni yanacaq materialı — benzin alanlardan biri H.Z.Tağıyev olmuşdur. Marvin yazırdı: "Bəzi zavodlarda benzini ayırmaq üçün nefti qabaqcadan qızdırırlar. Tağıyevin zavodunda bunun üçün bir buxar qazanı var. Onun içərisində bir neçə dəfə qatlanan borular yerləşir. Borularla buxar buraxılır, bunun nəticəsində neft 100" qızır. Özü də yüngül karbohidrogenlər bu temperaturda qaynayaraq ayrılır. Başqa zavodlarda benzini məxsusi olaraq ayırmır, sadəcə çölə atırlar...".

Dünya bazarlarında alıcı axtaran və böhranın gücünü zəiflətməyə çalışan Bakı neft sənayeçiləri hər vasitə ilə öz əmtəələrini nümayiş etdirməyə çalışırdılar. Bakı zavodlarının neft məhsulları eksponatları ümumdünya sərkilərinə çıxarılmışdı: 1878-ci ildə Parisdə, 1880-ci ildə Brüsseldə, 1881-ci ildə Londonda keçirilmiş sərkilərdə ekspertlər Roqozin zavodlarının eksponatlarına xüsusilə yüksək qiymət vermişdilər.

Bakıdan Londona qayıtdıqdan sonra Karl Marvin ingilis neft şirkətlərinə təklif etmişdi ki, İngiltərədə neftin xüsusi paroxodlarla daşınmasını təşkil etsin. Lakin ona etiraz etmişdilər ki, belə paroxodlar Atlantik okeanı və Bisgay körfəzi küləklərinə tab gətirə bilməz. Onlar Xəzəri sakit dəniz hesab edirdilər.

Kitabın axırıncı fəsillərində tanınmış neft maqnatlarının, bank sahiblərinin, ayrı-ayrı xarici şirkətlərin Bakıya gəlmələrinin tarixi və gördükləri işlərlə tanış olacaqsınız. Təbii ki, xarici sənaye-maliyyə maqnatları Bakı neft mədənlərini ələ keçirmək üçün çox böyük səy göstərirdilər. Bakı neft mədənlərini və bütövlükdə Abşeronun neftli torpaqlarını istənilən yolla ələ keçirmək üçün son dərəcə maraqlı idilər. Xarici sahibkarlar öz məqsədlərinə nail olmaq naminə istənilən vasitə ilə xarici kapitalı Bakıya bir sıra kanallarla nüfuz edirdilər: mövcud müəssisələrin qiymətli kağızlarını almaq yolu ilə, təsisçilik fəaliyyəti vasitəsilə (yəni müxtəlif səhmdar cəmiyyətlər təşkil etmək yolu ilə), uzun müddətli kreditlər vermək yolu ilə və s.

Kitabın son fəsillərinin birində iri xarici kapitalın Bakı neft sənayesinə nüfuz etməsinin tarixi ardıcıllığından bəhs olunur. Bildiyiniz kimi, R.Nobel Bakıya digər xarici kapitalistlərdən əvvəl gəlmişdi. Öz iri sahibkarlıq fəaliyyətinə başlamaq məqsədi ilə ikinci dəfə 1875-ci ildə Bakıya gələn Robert Nobel çox iri olmayan neft müəssisəsi ələ keçirmək istəyirdi. Çünki o, birinci səfərində Bakıdan keçib İrana gedərkən, neftin necə əhəmiyyətli olduğunu dərk etmişdi. Neft sənayesi ilə həddindən çox maraqlandığından o, qardaşı Lüdviqi də bu işə sövq etməyə nail olaraq, onu inandırdı ki, kiçik bir neft müəssisəsinin yaradılmasında Robertə kömək etsin. Bundan sonra Bakıya qayıdıb 1875-1876-cı illərdə Bakının neft sənayesində ilk addımlarını atdı. O, neft sənayesinin böyük imkanlarına və gələcəyinə inanırdı. Ancaq Bakı neft sənayesində baş verən hərc-mərclik və başqa əngəllərdən çəkinməyərək inadla öz məqsədinə nail olurdu. Nobel şirkətinin uğurları neftin nəqli işini dahiyanəliklə təşkil etmək, onu həyata keçirmək üçün Nobellərin malik olduğu mühəndislik bacarığı və istedadı ilə bağlı idi. Xarici neft məhsullarının keyfiyyətcə üstünlük təşkil edib yerli məhsulları sıradan çıxardığı bir şəraitdə R.Nobel istehsal və nəql etdiyi məhsulların keyfiyyətini qaldırıb rəqabətə davamlı vəziyyətə gətirdi. Bu rəqabətdə o qalib gəldi. Şübhəsiz ki, ancaq nadir və yüksək istedada malik adam Nobelin əldə etdiyi uğurlara çata bilərdi.

Bakıya Nobeldən 10 il sonra gəlmiş məşhur fransız bankiri Rotşild öz qarşısına, əsasən, uzun müddətli kreditlər, yəni borc əməliyyatları və neft ticarətilə məşğul olmaq vəzifəsini qoymuşdu. Nəhəng kapitala və kredit-ticarət əməliyyatları təcrübəsinə malik olan Rotşildin şirkəti öz fəaliyyətini sürətlə genişləndirərək Bakıdakı sahibkarlara güclü təsir göstərirdi. Rotşild özünün bütün işgüzar əməliyyatlarını "Xəzər-Qara dəniz

ticarət və sənaye cəmiyyəti" vasitəsilə aparırdı, "Mazut" cəmiyyəti isə onun ən iri neft ixracı və neft ticarəti şirkəti idi. Belə ki, misal üçün o, "Xəzər-Qara dəniz ticarət və sənaye cəmiyyəti" vasitəsilə bir çox neft emalı zavodlarının sahiblərinə kreditlər verərək, müqaviləyə əsasən onlar üzərinə elə bir öhdəlik qoymuşdu ki, öz istehsal etdikləri ağ nefti xarici bazarlarda satış üçün irəlicədən müəyyən edilmiş qiymətlərlə Rotşildə təhvil versinlər. Beləliklə, Rotşild kredit verməklə onlarca zavod sahibini özündən tam asılı vəziyyətə salmışdı. Onlar öz kreditorlarının bütün tələblərini itaətlə yerinə yetirirdilər. Bir sözlə, Rotşild yerli sahibkarları son dərəcədə müflisləşdirir, onlara qarşı çox ciddi maliyyə sanksiyaları tətbiq edirdi. Nəticədə yerli mədən sahibləri məcburiyyət qarşısında qalıb, öz mədənlərini dəyər-dəyməzə satıb canlarını qurtarırdılar. Elə bu amansızlıqlar nəticəsində Rotşildin şirkəti qısa müddət ərzində 135 kiçik və orta müəssisəni öz təsiri altına almağa nail oldu.

Bakı neft sənayesi hələ XIX əsrin sonu — XX əsrin əvvəllərində Amerika neft kralı Rokfellerin və onun başçılıq etdiyi "Standart oyl" şirkətinin diqqətini cəlb etmişdi. Lakin Amerika kapitalının Azərbaycan neft sənayesində iştirakı son dərəcədə zəif idi.

Amerika kapitalı burada yağ istehsalı ilə məşğul olan "Vakuum oyl və K" şirkəti vasitəsilə təmsil edilirdi. Bu cəmiyyətin əsas kapitalı 2,4 mln. rubl idi ki, bunun da 1,2 milyonu Amerikanın payına düşürdü. Lakin XX yüzilliyin əvvəllərində Amerika kapitalının Bakı neft mədənlərinə axını nəzərə çarpacaq dərəcədə gücləndi.

Amerika inhisarları özlərinin Azərbaycan neft sənayesinə münasibətlərində heç də onun uğurla inkişafına kömək etmək arzusunda deyildilər. Əksinə, onlar beynəlxalq bazarlarda "Standart oyl"un təhlükəli rəqibi olan Azərbaycan neftinin ixracını ləngitmək məqsədi güdürdülər. Amerika neft krallarının Bakı məsləhətçisinin fikrincə, "Standart oyl" şirkəti Amerika neft inhisarının səviyyəsini saxlamaq naminə Bakıdan neft ixracını qəsdən azaltmaqda günahlandırılmamaq, eləcə də Rusiyada daxili bazarları ələ keçirmək məqsədilə, Nobel və Rotşildlə saziş bağlayıb, onlarla birgə işləməli idi.

İngiltərə ilə Rusiyanın müharibədən əvvəl siyasi və iqtisadi yaxınlaşması, eləcə də Antanta blokunun yaranması ingilis kapitalının Rusiya neft sənayesində nüfuz qazanması üçün əlverişli şərait yaratdı.

Azərbaycan neft sənayesinə xarici kapitalın cəlb edilməsinin qatı tərəfdarından biri də çar hökumətində Maliyyə naziri S.Vitqe olmuşdu.

Amerika neft krallarının Azərbaycan neftinə marağı Birinci dünya müharibəsi illərində xüsusilə yüksəldi. S.A.Kaderin yazdığına görə, Rotşild və Nobelin ümumi tabeliyi altında olan və məxsusən Amerika neft sənayeçilərinə qarşı mübarizə üçün yaradılmış "Consolibated Petroleum C°", xüsusi müqaviləyə əsasən 1916-cı ildə "Standart oyl"un London bölməsi ilə birləşdi. "Xəzər-Qara dəniz ticarət və sənaye cəmiyyəti", "Mazut" və "Russkie novıe standart" cəmiyyətlərinin direktorları Rusiya neft sənayesini təmsil edir və eyni zamanda Amerikanın "Standart oyl" şirkətinin London bölməsinin direktorları sayılırdılar.

Kitabda Bakı neft sənayesinə müxtəlif ölkələrin xarici kapitalının nüfuz etməsindən danışarkən, qısaca olaraq bütövlükdə xarici kapital və Rusiya hökumətinin ona münasibəti haqqında oxucu üçün maraqlı məlumatlar verilir.

Bakı neft sənayesinə xarici kapitalın güclü axını yerli sahibkarlar və neft işində marağı olan dairələr arasında kəskin narazılıq doğurdu. Belə ki, hələ 1885-ci ildə — Bakıda neft sənayesinin kapitalist inkişafının ilkin mərhələsində Həsən bəy Zərdabi Nobelin işğalçılıq fəaliyyətini nəzərdə tutaraq, ürək ağrısı ilə yazırdı: "Savadsız (təhsilsiz) yaşamaq qeyri-mümkündür, xüsusilə də bizim diyarda. Onun sərhədləri xaricindəki sivil qonşular gündən-günə irəliləyərək bizim əmlak və varidatımıza sahib olur. Bir az da keçsə, biz onların rəncbərləri və mallarını daşımaları üçün arabaçılara çevriləcəyik".

Xarici sahibkarların işğalçılıq siyasətinə qarşı etiraz bu məsələyə dair dərc olunmuş bir sıra əsərlərin səhifələrində öz parlaq əksini tapmışdır. Hökumət, Bakı neft sənayesində xarici kapitalın zorla möhkəmlənməsi əleyhinə etirazını bildirən yerli sakinlərdən yüzlərcə müraciət alırdı. Bütün bunları nəzərə alaraq, çar hökuməti əcnəbilər haqqında bir sıra xüsusi qanunlar qəbul etməyə və neft işi ilə məşğul olmaq sahəsində onların hüquqlarını məhdudlaşdırmağa məcbur oldu.

Çar Rusiyasının və onun Qafqazdakı canişinlərinin təzyiqinə baxmayaraq Bakı neft sənayesində yerli sahibkarlıq tədricən inkişaf etməyə başladı. Bakının ayrı-ayrı rayonlarında çətinliklə də olsa, neftli torpaqlar, kiçik nəqliyyat vasitələri, balaca neftayırma sexləri yerli sakinlərin əlinə keçdi.

Beləliklə, XIX əsrin sonunda nəhayət milli burjuaziya yetişdi və gələcəkdə Azərbaycanın siyasi, iqtisadi, elmi və mədəni inkişafında böyük rol oynadı. Hacı Zeynalabdin Tağıyev, Ağamusa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Ağabala Quliyev və bir çox başqalarının Azərbaycanın, xüsusilə də Bakının sürətli inkişafı üçün gördükləri işdən kitabda bəhs edilir.

Doğrudur, H.Z.Tağıyevin sahibkarlıq fəaliyyəti çox parlaq olduğundan, onun haqqında məlumatlara müasir ədəbi və elmi qaynaqlarda tez-tez rast gəlmək olur. Ona baxmayaraq milli burjuaziyanın görkəmli nümayəndələrinin sahibkarlıq fəaliyyətinin tarixinin öyrənilməsinin zəruriliyi və onların fəaliyyətinin işıqlandırılması, Azərbaycan milli burjuaziyasının təşəkkül tapma və inkişaf etmə şəraitini yaxşı təsəvvür etmək imkanı hamımıza lazımdır.

...Avropada nüfuzlu sayılan "Brokhauz və Yefron" ensiklopediyalarında böyük kimyaçı alim D.İ.Mendeleyev tərəfindən yazılmış məqalədə deyilirdi:

"...Hacı Zeynalabdin Tağıyev Bakı neft sənayesində əsas hərəkata təkan verən şəxslərdən biridir. Bakıda, Bibiheybətdə dəniz qırağında ağıla gəlməyən qüvvə ilə inadla quyu qazmağa başlayır və qazdığı çoxlu quyuların hamısı güclü fontan vurur. Neft hasil edilən yerin lap yaxınlığında böyük zavod tikir, Rusiya şəhərlərilə ticarətə başlayır, işlərini çox ehtiyat və bacarıqla elə idarə edir ki, Bakıda baş verən çoxlu böhrandan salamat çıxır".

Əcnəbilərdən fərqli olaraq, məhz adları hörmətlə yad edilən milli sahibkarlar Azərbaycanın müstəqillik qazanmasında, milli dövlətin yaranmasında misilsiz xidmətlər göstərmişlər.

Nəhayət Birinci dünya müharibəsinin başlanması ilə böyük dövlətlərin müharibəyə sövq edilməsində neft amili qısaca da olsa, kitabda öz əksini tapmışdır. Bununla bağlı Elliot Alvesin müharibənin ilk günlərində söylədiyi sözlər obyektiv gerçəkliyi bir daha sübut edir. O deyirdi: "Ordu da, donanma da dünyanın bütün qızılları və xalqları da neft sahibi olanlar qarşısında gücsüz və acizdirlər". Tarix sübut etdi ki, bu həqiqətən də belədir.

XX əsrin başlanğıcı ilə dünyanın siyasi iqtisadiyyatı bir sıra köklü struktur dəyişikliklərinə məruz qaldı. Dünyada kapitalın və texnologiyanın mobilliyi artdı. Eləcə də transmilli neft şirkətləri, ayrı-ayrı kapital sahibləri arasında münasibətlərin hər iki tərəf üçün səmərə konsepsiyası işlənib hazırlandı. Lakin son mərhələdə Bakı əldən-ələ keçməklə, xüsusilə bolşevik-erməni talanlarından sonra, onun neft sənayesi ciddi ziyan çəkərək ağır vəziyyətə düşdü.

Beləliklə, Birinci dünya müharibəsinin sonunda hərbi diplomatik mübarizə son nəticə etibarilə Azərbaycan neft sənayesinin Sovetlərin əlinə keçməsi ilə nəticələndi.

**Akademik A. Mirzəcanzadə**

## BAKI – HADİSƏLƏRLƏ ZƏNGİN ŞƏHƏR

Bakı XIX əsrin son iyirmi beş ili ərzində özünün saysız-hesabsız mədənlərinin neməti və bir çox neftayırma zavodlarının istehsal etdiyi məhsullarla neft dünyasında hökmranlıq etməyə başlamışdır. Bütöv bir nəslin yaşadığı dövr ərzində Bakı dünyanın bu vacib əmtəəsi ilə ticarətdə tarazlığı saxlamış, onun qara qızılla dolu yeraltı xəzinələri bu mühüm məhsula olan tələbatı ödəməklə dünyada Amerika monopoliyasının qarşısını almış və Atlantik okeanının bu tayında neftin bahalaşmasına imkan verməmişdir. Buxarla işləyən qazma qurğuları tətbiqi Bakıda quyuların əllə qazılmasına son qoymuşdur.

Neft istehsalı sahəsində Bakının misli-bərabəri yoxdur. Dünyada elə bir neft şəhəri tapılmaz, həm zəngin neft ehtiyatları, həm də özünün qədim tarixi, adət-ənənələrilə, Bakı ilə müqayisə edilə bilsin.

Uzaq Kaliforniyanın neft mədənlərinin arasında yerləşən Los-Ançeles, Kanadanın neft paytaxtı Petrolea, Texas ştatında neft sənayesinin inkişafı nəticəsində yaranmış Bomont qədim polyakların ana vətəni Qalisiyada geniş bir ərazidə səpələnmiş neft mədənləri arasında boy atmış Borislav, Rumıniyadakı Kampina və onlarla digər neft istehsalı mərkəzləri heç vəchlə Bakı ilə müqayisə edilə bilməz. Bakı dünyadakı bütün neft şəhərlərinin ən qədimi, böyüyüdür. Əgər neft — dünyanın hökmdarıdırsa, Bakı — onun əyləşdiyi taxtdır.

C. Henri qeyd edirdi ki," Bakı unikal şəhərdir; onun canlı məxluqatla bağlı həyatı qiyamlar, üsyanlar və məhəbbət əfsanələri ilə, xatirələrlə doludur; əhalisi bir-biri ilə qeyri-adi ziddiyyətdə, münaqişədə olan xalqlardan və millətlərdən yaranmış bir kütlədən ibarətdir, bir-biri ilə antaqonizm təşkil edən təsirlər bura xas olan bir cəhətdir, bütün bunlar Bakı sakinlərinin özünəməxsus, gözə görünməz sirləridir, bunlardan ən böyüyü isə hüdudsuz neft yataqlarının Bakıya məxsusluğudur. Onun ticarət aləmindəki nailiyyətləri heç də əvvəldə söylənilənlərdən geri qalmır.

Bu ölkədə biz rus neftindən danışırıq: əslində isə Bakı neftindən söhbət açmalıyıq, çünki Rusiyanın bütün nefti Bibiheybət və Balaxanı — Sabunçu — Ramana neft mədənlərindən gəlir. Bu iki qurum dünyada ən məşhur neft mədənləridir ki, böyük Rus imperiyasının lap cənub ucqarında yerləşir. Amerikanın nefti Pensilvaniya, Ohayo, İndiana, Texas, Kaliforniya və digər bir neçə ştatda çıxarılır və bu mənada bu neft doğrudan da Amerika neftidir, daha Abşeron yarımadasının Rus nefti kimi qəribə səslənmir."

1905-ci ildə Londonun aparıcı səhər qəzetlərinin birinin ilk səhifələrində qeyd edilmişdir ki, Bakının ən böyük problemi budur ki, onu tez-tez dünyaya tamamilə yanlış formada və tərzdə, özü də həmişə yox, xüsusilə milli zəminlə əlaqədə təqdim etmişlər. Bu gün Bakının bir çox binaları dağılıb, ona görə də onun əvvəlki mənzərəsini tündləşdirib təsvir etmək mümkün deyil, ancaq bu qırğınlardan qabaq Bakı böyük və möhtəşəm bir şəhər idi. Müasir Bakı gözümüz önündə yaşadıqca onun keçmiş görünüşü, əhalisi və neft ticarəti haqqında bizə qarışıq, ziddiyyətli məlumatlar verilirdi. Bu məlumatlar elə bil gizli şəkildə çap olunan və bu gözəl şəhərin həyatını özündə əks etdirən gündəlik bir qəzetdən götürülmüşdür. Çünki "elə bil" sözlərini bu məlumatları əks etdirən cümlələrdən çıxarsaq, onda aşağıdakı deyilənlər Bakını əvvəllər görməmiş adamlarda yanlış təsəvvür yarada bilər: "Bakı çox zəngindir, amma çox da eybəcərdir... ilk təəssürat ürəkaçan deyil: yaxından tanışlıq da o qədər cəzbedici deyil". Bu böhtan, lakin kifayət qədər qərəzsiz qələmə alınmış cümlələrdir. Burda Bakı haqqında deyilənlərdən yəqin ki, ancaq üç söz (Bakı çox zəngindir) düzdür. Bakı şübhəsiz ki, tərif xatirinə yox, doğrudan da zəngindir bəzilərinin dediyi kimi, onda romantik dərəcədə bir zənginlik var. Bakı nefti ilə maraqlanan milyonçuların sayı Rusiyanın digər sənaye sahələri ilə maraqlananlardan qat-qat çox idi. Bunlardan bəzilərini, xüsusilə zənginlərinin adını çəkmək olar, məsələn, Nobel qardaşları (İsveç), Rotşild (fransız), Ceyms Vişau (ingilis) adlarını çəkmək olar. Onların neft şirkətlərinin Londonda ofisləri olmuşdur. Təəssüflər olsun ki, Azərbaycan öz müstəqilliyini qoruya bilmədiyindən, bu milyonçular neft quyularının, tankerlərinin, boru kəmərlərinin dağıdılmasından çoxlu ziyan çəkmişsələr də, lakin bununla belə onlar tarixdə milyonçu kimi qalmışlar. Bakının ən böyük neft krallarından bəziləri özlərinin neft verən sahələrini Britaniyanın və digər xarici ölkələrin şirkətlərinə satmaqla var-dövlət sahibi olmuşlar. Onlardan bir çoxları uzun illər neft istehsalı və neftayırma konsernlərində fəal surətdə çalışaraq böyük mövqe sahiblərinə çevrilmişlər. Bakının yerli neft milyonçuları özlərinə bir sıra gözəl saraylar tikdirmiş, öz xeyriyyəçilikləri ilə tarixdə qalmışlar. Bu sarayların memarlıq işlərini ölkənin məşhur memarları, bəzək işlərini İtaliyanın tanınmış rəssamları görmüşlər. Bir həqiqəti qeyd etmək lazımdır ki, təkcə Con Rokfelleri çıxmaqla Bakı Amerikada da xeyli adamı zənginləşdirmişdir.

Bakı doğrudan da zəngindir: bu elə bir şəhərdir ki, burda var-dövlət qədərsizdir. Yazırlar ki, Bakı özü böyüklükdə olan İngiltərə şəhərlərindən qat-qat zəngindir. Bu zənginliyinin mənbəyi neftdir.

Bakı xüsusilə əcnəbilər üçün, sonsuz müvəffəqiyyətlər şəhəri kimi tarixdə qalır. Bakının ticarət şəbəkəsi Həştərxanda, Nijnidə sona yetmir, öz neftinin qüdrətindən Volqa ilə hərəkət edərək imperiyanın lap mərkəzinə, oradan Baltik dənizinə, oradan da Avropaya, Xəzər dənizi vasitəsilə Yaxın və Uzaq Şərqə, İrana və Mərkəzi Asiyayadək qol-qanad açırdı.

Bakı nə üçün zəngindir? Sualın cavabı çox sadədir, çünki Bakı elə bir məhsul istehsal edir ki, onun bazarı sivil dünyanın özündən böyükdür, çünki bu məhsul dəvələrə yüklənib Asiya qitəsinin ən dərinliklərinə, Himalayın yolsuz-izsiz nöqtələrinə daşınır.

Daha ayrı bir məsələ ilə əlaqədar qəzetlər Bakı haqqında dünyaya yanlış məlumat vermişlər.

"Şəhərin başı üzərində qatı, qara tüstü buludu dayanıb, şəhərə hələ çox qalmış adamın burnuna tünd neft qoxusu gəlir, hər yer neft iylənir, hər şey Bakıda neft dadı verir".

Bu sətirlərin müəllifi Bakının həddindən artıq tutqun və qara pərdəyə bürünmüş bir mənzərəsini yaratmışdır. XIX əsrin sonunda Bibiheybət mədənləri öz şöhrətinin zirvəsinə çatanda, yəni həmin vaxt kiçik bir sahədə üç quyunun eyni vaxtda fontan vurması adi hal olanda, külək həmin neft fəvvarələrindən damlaları Bayıl burnundan qədim şəhərin üzərinə yağış kimi səpələyirdi. Bakıda yeganə qara rəngə boyanmış yerlər Bibiheybət və Qara şəhər idi. Balaxanı Bakıdan doqquz mil aralıdadır. Qala divarları içərisində Bakı bizim öz adi şəhərlərimizdən də təmizdir, onun neftli, natəmiz olması barədə yazılar, Bakıya gəlişi küləkli günlərdə neft fəvvarələrindən damlaların şəhərin üzərinə səpələnməsinin adi hal aldığı, taxta buruqların neft mədənlərində yanğın üçün ciddi təhlükə yaratdığı vaxtlarla eyni zamana təsadüf etmiş əcnəbilərin fikirlərinin təkrarından başqa bir şey deyil. Belə yanğınların qarşısını almaq üçün taxta buruqlar dəmir təbəqələrlə, yaxud odadavamlı kipsolitlə üzlənirdi. Bakının dünya ictimaiyyətinə yanlış şəkildə təqdim olunması ideyasının uydurma olduğunu məşhur rus səyyahı Karl Marvin hələ XIX əsrin sonunda yazmışdı, özü də elə bir vaxtda ki, memarlıqda bir metamorfoza baş vermiş şəhər yeni neft sənayesinin tələblərinə cavab vermək üçün böyük bir sürətlə müasirləşdirilmişdi. Yol qeydlərini "Bakı doğrudan da məni heyrətə gətirdi..." sözləri ilə başlayan Marvin bu cür etiraflardan sonra öz fikrini belə davam etdirir:"... Son illərdə Bakını təsvir edən və onun tərəqqisini bol-bol tərifləyən Rus mətbuatında dərc olunmuş saysız-hesabsız məlumatlar məndə elə bir qənaət yaratmışdır ki, sürətlə inkişaf edən bir mənzərənin şahidi olacağam, ancaq etiraf etməliyəm ki, Bakının belə böyük bir şəhər olduğunu heç ağlıma da gətirməzdim. Əksər ingilislər Xəzər dənizini "ölü" dəniz kimi qələmə alıb təbliğ etmişlər. Onlar belə hesab edirlər ki, Xəzərdə ya çox az bir fəaliyyət var, ya da tamamilə heç bir fəaliyyət yoxdur. Lakin onlar unudurlar ki, Xəzər əsl təbii həyat mənbəyi, ticarət yoludur, Rus imperiyasının ən nəhəng çayı Volqa ilə tərəqqi üçün zəmin yaradan dənizdir. Belə adamlar üçün Bakını bir an görmək Dik Svivellərin təbirincə desək "insanı riqtətə gətirən əsl mənzərəni" görmək kimi bir şeydir. Yüz illər bundan qabaq sanki yuxuya dalmış bir Azərbaycan şəhəri olan Bakı indi XX əsrin başlanğıcında çiçəklənən bir şəhərdir. Rus imperiyasının bütün yerlərindən çox Bakıda tikinti işləri getməkdədir... Bakı füsunkar bir körfəzdə yerləşir, bu körfəz ayparaya bənzəyir, ayparanın bir ucundan o biri uçuna məsafə yeddi mil, orbitinin uzunluğu isə on beş mildir. Körfəzin ağzından dənizə çıxan yerdə bir ada var, düz Plimutdakı dalğaqıran kimi. Bu ada körfəzi tərs küləklərdən qoruyur, minlərlə gəmi və qayıqlara lövbər salıb rahat dayanmağa imkan verir. Körfəzdə gəmiçiliyin bu cür inkişafı məni heyrətə saldı. Şahid olduq ki, şəhərin bu başından o başınadək hər yerdə Bakının görnüşü dəyişir. Hər yerdə köhnə evlər sökülür, yeniləri tikilirdi; küçələr hamarlanır və düzlənirdi, asfalt və daşla döşənirdi; iranlıların miskin dükanları iri Avropa mağazaları ilə əvəzlənirdi; qədim və böyük Qız qalasının ətrafı binalardan və torpaqdan təmizlənib üzə çıxarılmış və sanki hamının tamaşa etməsi üçün qoyulmuşdur. İki, yaxud üç ildən sonra Bakı bütün rahatlığı və sivilizasiyaya məxsus təmtərağı ilə, o cümlədən hazırda inşası ilə Rusiyada yaradılmış bir sindikatın məşğul olduğu tramvay xətti ilə tamamilə təzə bir şəhərə çevriləcək. Şəhər abadlaşıb inkişaf etdikcə, onun narahatlıq doğuran istilik, toz, içməli suyun yoxluğu, yağışın yağmasına, yaşıllığa ehtiyac kimi şeylər tədricən və kəskin şəkildə azalacaq".

Zaman neftlə bağlı yazan pamfletçi, məşhur rus səyyahı və aliminin peyğəmbəryana fikirlərinin doğruluğunu sübut etdi. Bakı şübhəsiz ki, yeni şəhərdir. XIX əsrin sonunda aparılmış siyahıyaalma nəticəsində Bakı, Bayıl, Ağ şəhər, Keşlə və Əhmədli kəndləri, Bibiheybət-Balaxanı-Sabunçu-Ramana neft mədənləri ərazisi, Balaxanı, Sabunçu, Ramana və Zabrat kəndlərinin əhalisi hamısı birlikdə götürüldükdə, 206757 nəfər olmuşdur. Siyahıyaalma burda 44 millətin nümayəndəsinin yaşadığını qeydə almışdır. Burada təxminən bütün Avropa, Orta Asiya, Kiçik Asiya, İran, Ərəbistan və hətta Həbəşistanda yaşayan millətlərin nümayəndələri məskunlaşmışdılar. Əsasən 13 millətin nümayəndələri çoxluq təşkil edir, onların hər birindən burda yaşayanların sayı 500 nəfərdən çox idi. Bunların içərisində birinci yeri ruslar (74254 nəfər), sonrakı yerləri isə azərbaycanlılar (53827), ermənilər (34259), farslar (18572), yəhudilər (5859), almanlar (5025), Cənub- Şərqi Rusiyadan gələn tatarlar (burada onlara Qazan tatarları deyirlər, 4157), ləzgilər (3857), gürcülər (2614), polyaklar (1548), yunanlar (617) tuturdular. Burada yaşayan daha səkkiz millətin — isveç, osetin, latış, slovak, fransız, litvalı, ingilis və türklərin nümayəndələrinin hər birinin sayı 100 nəfərdən azdır, sonrakı on yeddi millətin nümayəndələrinin hər birinin sayı 25 nəfərdən azdır.

| Kişi və qadın cinsindən olanlar | Şəhərdə | Şəhər | Neft | Cəmi |
|---|---|---|---|---|
| Kişi cinsi | 78863 | 11144 | 38080 | 128087 |
| Qadın cinsi | 59748 | 6121 | 12795 | 78664 |
| Cəmi: | 138611 | 17265 | 50875 | 206751 |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 1000 nəfər kişiyə düşən qadınların sayı | 758 | 549 | 336 | 614 |

Bakının ticarət baxımından və etnoqrafik cəhətdən özünəməxsus tarixi, memarlıq və hətta adi küçə mənzərələri var idi. Burada qədimliklə müasirlik həddindən artıq və qeyri-adi tərzdə bir-birinə qarışmışdı. Bütün bunlar hər yerdə görünürdü. Neft krallarının daş sarayları, ən yaxşı Avropa üslubunda tikilmiş, yüzlərlə gözəl ictimai binalar, Bakının qədim rəmzləri olan Qız qalası, İran şahlarının məscidi (1078), Xan sarayı (XV əsr Şərq memarlığının ən gözəl nümunələrindən biri, ondan təəssüflər olsun ki, Bakı qubernatorunun şəxsi iddiasından silah və hərbi sursat saxlamaq üçün anbar kimi istifadə edilirdi. Etnik münaqişə başlamazdan qabaq bələdiyyə orqanları ordu komandanlığından xahiş etmişdilər ki, sarayı muzeyə çevirməyə icazə versinlər. Xahiş rədd edildi, bəhanə də o oldu ki, bu qədim bina Mancuriyadan qayıdan yaralılar üçün xəstəxanaya çevriləcək), şahzadələrin qədim zamanlarda yaşadığı köhnə binalar, minlərlə balaca mağazalar, azərbaycanlıların məşhur Qafqaz xalça, döymə və toxuma sexləri, gümüş qablar, köhnə pal-paltar və hər cür qədim silah dükanları o qədər də bir-birindən seçilmirdilər.

Rusiyada şəhərlərinin hamısından çox Bakıda yaşayanlar elektrik işığı və telefondan istifadə edirdilər. Bu yuxarıda deyilənlərlə əlaqədə Bakı nə qədər müasirdisə, özünün qədim su daşıyan arabaları və dəvə karvanları ilə keçmişinə sədaqətini itirməmişdi. Yuxarıda qeyd edildiyi kimi Bakıda qədimliklə müasirlik bir-biri ilə çulğalaşmışdı; bu hətta şəhər qəbiristanlığında da özünü büruzə verirdi. Qədim qəbirlər Bakının arxasında təpənin döşündə aydın görünürdü. Onlardan bir az aşağıda azərbaycanlılarla yanaşı, minlərlə xristian qəbirləri var idi. Baş daşlarından düz duranı, yıxılanı da var idi, uzaqdan baxanda burdakı qarışıqlıq belə bir təsəvvür yaradırdı ki, sanki təpənin döşündən torpaq sürüşüb və belə bir mənzərənin yaranmasına səbəb olub. Qəbiristanlığın yanında, yerdə üç ingilis əbədi uyuyurdu. Bunlar A.V.Vaqstafor (Şibayev neft şirkətinin baş meneceri), cənab Viskin və cənab Fekrquson idilər, üçünün də qəbri bir-birinə yaxın idi.

Dəniz tərəfdən yaxınlaşdıqda təpənin döşündə yerləşən Bakının ağ yaşayış evləri və ictimai binalarının panoraması açılır, aşağıda Bayıldan tutmuş Qara şəhərədək yeddi millik bir məsafədə şəhərin işgüzar həyatı qaynayırdı.

Bayıldan ayparanın başlanğıc nöqtəsində gəmilərin daldalaşması üçün təbii limanda Xəzər donanması gəmiləri lövbər atır və buradan dənizə çıxırdı. Kanoner tipli bu kiçik gəmilərdir, şəhər uğrunda döyüşlərdə o qədər də ciddi maneə ola bilməzdilər. Nəhəng ağac bərələr yedək gəmiləri vasitəsilə nefti Bayılın arxasından ayparanın o başında yerləşən mənzərəli buxtadakı Qara şəhər və şəhər neftayırma zavodlarına daşıyırdı. Bakının gecə mənzərəsi də füsunkardır, təpənin döşündən aypara boyunca düzlənmiş işıqlar cərgələnmiş şəkildə yanır, onlar limanlara, gəmiqayırma və gəmi təmiri emalatxanalarına, sərnişin gəmilərinə işıq saçırdı.

Bakıda səfərdə olmuş polkovnik Stüart 1886-cı ildə öz səyahəti haqqında maraqlı bir hesabat yazmışdı, həmin hesabatda deyilirdi:

"Şəhər özü küləklərdən çox yaxşı qorunan bir körfəzdə yerləşir, körfəzdən cənubda, lap yaxınlıqda Bibiabad (Bibiheybət—mütərcim) adlı kiçik bir neft mədəni var, bu neft mədəninin yerləşdiyi sahə özü də ayrıca bir körfəzdir: şəhərə yaxın yerdə, iki körfəzin arasında gəmilərin yan alması üçün liman var. Sonra isə körfəzdə sahil boyu qərbdən şərqə uzanan xətt boyunca əvvəl şəhərin özü yerləşir — ticarət burda cəmlənmişdir, sonra isə Qara şəhər gəlir, neftayırma zavodlarının əksəriyyəti burda yerləşir. Buradan da şərqə doğru getdikcə Ağ şəhər gəlir, ən müasir və üstün neftayırma zavodları buradadır. Nobel qardaşlarının da neftayırma zavodu buradadır, bu zavod müasir tipli olsa da bədbəxtlikdən Qara şəhərə yaxın yerdədir. Qara şəhərlə Ağ şəhərin görünüşlərində kəskin bir fərq nəzərə çarpır; Ağ şəhərdə neftayırma zavodların sobalarının borularından qalxan tüstü demək olar ki, heç görünmür. Qara şəhərdə çox az istisnalar olmaqla sobaların borularından çıxan qara tüstü hər yanı bürüyür, borular qara tüstü püskürür".

Zorakılığa məruz qalmış, divarlarında güllə yerləri olan və yandırılmış binalar təmir olunandan sonra Bakı yenə də özünün əvvəlki cazibədar formasına qayıtdı. Heç kəs onun saysız-hesabsız qədim, lakin hələ də gözəlliyini itirməmiş binalarının möhtəşəm liman işıqlarını, gözəl körfəzlərini dana bilməz.

C.Kenri özünün "Bakı — hadisələrlə dolu şəhər" kitabında yazırdı ki, "Bakının çoxmillətli əhalisinin mənfi ünsürləri olan ermənilər ordan çıxıb getsə, xarabalıqlar təmir olunsa, sənaye və ticarət qaydasına düşüb sakitləşsə, adam bu qədim şəhərin sakit küçələrini tənha dolanaraq onu əvvəllərdə olduğu kimi görsə idi, onda atəşpərəstlərin Məkkəsi sayılan Bakıya, onlar üçün müqəddəs sayılan bu şəhərə heç kəs çirkli, eybəcər deməzdi. O, Rusiyanın ən mənzərəli, ən gözəl şəhərlərindən biri və birincisidir. Mənim fikrimcə əgər Bakıya su çəkilsə, suvarılsa idi, o gözəllikdə Avropanın şərq hissəsində tanınmış şəhərləri geridə qoyardı.

Bakı özünün yastı damlı evləri ilə doğrudan da Asiya şəhəridir; ancaq bir neçə barak tipli damları qırla, yaxud yaşıl rəngli dəmir təbəqələrlə örtülü binalar, günbəzi qızılı xristian kilsəsi burda rusların hökmranlığından xəbər verir. Bakının təsvirini verməyə cəhd etmiş hər kəs belə bir fikirlə razılaşardı ki, onun ən gözəl yeri Fars qalası, minarət və məscid, xan hamamları xərabələrinin izi qalmış qədim hissəsidir. Küçələri əyri-üyrü və dolanbac, yastı damlı, pəncərəsiz evləri olan bu qədim türk (Azərbaycan—mütərcim) şəhərində

fevral və sentyabr aylarında nə qədər qətllər baş vermişdir, buna baxmayaraq azərbaycanlılar Bakıda yaşayan ermənilərə hörmətlə yanaşır, onların məşğuliyyətlərinə şərait yaradırlar."

Abşeron yarımadası öz "əbədi" odları ilə lap qədim zamanlardan şərqlilərin diqqətini özünə cəlb etmişdi. Onlar bu daim yanan odları allahın təzahürü hesab edirdilər.

Oda sitayişin izləri yeni eradan əvvəl altıncı əsrə gedib çıxır. Zərdüştün davamçıları çox əsrlər boyu atəşgahlarda ilahi qüvvə kimi Bakının "əbədi" odlarına səcdə pərəstiş etmişlər. Həmin atəşgahlar yeni eranın 624-cü ilinədək mövcud olmuşdur. Qibbonun yazdığına görə həmin il imperator Herakl farslara qarşı müharibə apararkən, Bakıdan on mil cənubda Kür çayının Xəzərə töküldüyü çöllükdə qışlayır. Qibbon yazır ki, imperator Heraklın əmri ilə əsgərlər kahinlərin ibadət etdiyi məbədləri dağıdıb uçurtdular, müqəddəs odu söndürdülər. On iki ildən sonra, yəni 636-cı ildə Ərəblər Bakını ikinci dəfə fəth edərək, qılınc gücünə adamları atəşpərəstlikdən əl çəkib islam dininə keçməyə məcbur etdilər. Bir çox atəşpərəstlər hörmüzə, oradan da Hindistana qaçaraq, hazırkı pars məhəllələrinin əsasını qoydular. Bu atəşpərəst parslar tez-tez Abşeron yarımadasında ziyarətə gəlirlər.

1845-ci ildə bu əbədi odları təsvir edərək professor Berezin yazırdı: "Qafqaz sıra dağlarının şərq qurtaracağında, Bakıdan on mil aralı, Suraxanı kəndinin yanında məsaməli, çat-çat əhəng daşından tez alışan qaz fəvvarə vurur. Gündüzlər bu yanar qaz o qədər də cəzbedici deyil, ancaq gecələr bu od qaranlıq və kimsəsiz yeri işıqlandıranda mənzərə tam dəyişir, atəşpərəstlərin bu sadə məbədi sehirli bir qalaya çevrilir. Külək əsdikcə alovun rəngarəng dilləri havada sanki ecazkar bir rəqsi ifa edir. Külək davam etdikcə alovun dilləri uzanır, onların qurtardığı yerdə alov yeni bir güclə, yeni bir parlamaqla təzədən alışır. Heç də təəccüblü deyil ki, belə nadir gözəlliyə malik bir səhnə və əzəmət şərqlilərə ecazkar bir təsir bağışlayır, onlar bu əbədi odlarda sirli, müəmmalı və fövqəltəbii bir məna duyurlar. Yaddan çıxarmamalıyıq ki, dünyada oda sitayiş edən təkcə şərqlilər deyil; əslində dünyanın elə bir ölkəsi tapılmaz ki, orada atəşpərəstlər, oda sitayiş edənlər yaşamasın".

Təbii qazın insan müdaxiləsi olmadan yer altından üzə çıxması Bakının ətrafında bir çox yerlərdə, təkcə quruda yox, Xəzər dənizinin özündə də müşahidə olunurdu. Bibiheybətdən yarımsaatlıq məsafədə əgər dənizə bir kibrit atılsaydı, dənizin dibindən çıxan qaz dərhal alışar, alov dənizdə böyük bir sahənin üzərinə yayılardı. Ancaq külək və coşan dalğalar bu alovu söndürməyə qadir idi. Dənizdə qazın yanması xüsusilə gecələr, əsrarəngiz mənzərə yaradır. Qazın açıq dənizdə belə açıq şəkildə yanması çox-çox uzaqlardan da görünmürdü.

Bakının yaxınlığında baş qaldırmış buruqların yaratdığı fantastik mənzərə heç vaxt unudulmaz. Neftə bulaşmış buruqların ağac divarları dərin quyuların ağzını örtür, burdan gecə-gündüz fasiləsiz olaraq neft çıxarılırdı. Buruqları istismar edən insanların istirahət etməyə ixtiyarı yox idi. Ətrafdakı torpaqlar hamısı neft içindədir, rəngi qap-qara idi. Od düşsə lap Xəzər dənizinin özü kimi alışardı, çünki neft mədənləri artıq dənizədək çatmışdı.

Bakının neft mədənlərinin hər biri özlüyündə bir dövlət idi, hərəsinin öz qanunları və xüsusi ədalət prinsipləri vardı. Buradakı qanunlar yazılmamış qanunlar idi, ancaq onlara hökumətin yazılmış qanunlarından qat-qat çox hörmət olunurdu.

İkinci Dünya müharibəsinə qədər Parisdə yaşamış, neft milyonçusu ailəsində böyümüş bakılı Əsəd bəy neft mədənləri haqqında qeyd edir ki, onu "neftə çəkəndə" altı yaşı var imiş. Başqalarını isə buna iyirmi yaşında "çəkirdilər". "Neftə çəkmək"— adamı mədən sahiblərindən ibarət kübar sinfə təqdim etmək imiş. Xristianlar uşağı xaç suyuna çəkən kimi, neft sahibkarları da həddi-buluğa çatmış uşaqlarını yüksək cəmiyyətlə tanış edir, bu zaman ora yığışmış fəhlələrin və rəsmilərin gözü qarşısında yeni neft maqnatının üstünə bolluca neft çiləyirdilər. Proses bir neçə dəqiqə çəkərdi və buna "qızıl yağışı" deyərdilər.

Bəzən quyudan neft çıxarkən xırda toz kimi neft dumanı adamların üstünə qonardı, onda həmin adamlar özlərini xoşbəxt sanardılar.

Neft buruqları gözəl sənaye mənzərəsi yaradır, burda buxar, fabriklərin və şaxtaların qoxulu havası yoxdur. Göyə ucalmış yüzlərlə qüllələr nağıllardakı əfsanəvi meşəni xatırladır. Azərbaycanda belə bir fikir söyləyirdilər ki, neft mədənlərinin havası ciyər xəstəliklərinin dərmanıdır. Hətta milyonçu Musa Nağıyev öz səxavətini əsirgəmədən, neft mədənlərinin yanında vərəmlə xəstələnmişlər üçün bir sanatoriya da tikdirmək istəyirdi. Doğrusu, mədən havasının müalicəvi əhəmiyyətinin olub-olmadığını bilməsək də, ancaq doğrudan da xam neftin qoxusu adamın sanki yorğunluğunu çıxarır. Mədən fəhlələri bunu bilir və maraqlı bir tərzdə neftdən istifadə edirdilər. Onlar neft axıdılan kanallar boyu bol-bol neft hopmuş və ağırlaşmış gili yığır, onunla bədənlərini və əllərini yuyurdular. Bu həm də sabunu əvəz edirdi.

Bakının neft mədənlərində işləmək üçün Azərbaycanın müxtəlif bölgələrindən, Rusiyadan, Zəngəzurdan, Dağıstandan və İrandan fəhlələr gəlirdilər. Ruslar ağır işə yaramırdılar, onlar fəhlələrin ən narahatçılıq doğuran təbəqəsini təşkil edirdilər. Ən yaxşı işçilər şərqlilər sayılırdı, onlarda neft mədənlərində işləmək üçün tələb olunan məsuliyyət vardı. Bu iki qrup arasındakı fərq çox kəskin idi. Azərbaycanlılardan, farslardan, ləzgilərdən, ermənilərdən fərqli olaraq ruslar neft mədənləri və onların sahiblərinə nifrət edirdi, imkanları olduqca onlarla qarşıdurma yaratmağa çalışırdılar. Ruslardan fərqli olaraq azərbaycanlılar, farslar, ləzgilər və başqa millətlər mədən sahibləri ilə heç bir intriqa yaratmır, Avropa mədəniyyətini az-çox öyrənərək mədəndə özlərini təcrübəli,

dünyagörmüş şəxs kimi aparırdılar. Mədəndə işləmək bir növ onlar üçün mədəniyyətə, biliyə sahib olmaq demək idi.

Onlar var qüvvələri ilə işləyirdilər ki, kəndlərinə qayıdanda qazandıqları və qənaət etdikləri pulla nişanlanıb evlənsinlər.

Şəhərlə neft mədənləri arasında orda-burda kiçik yaşayış yerləri salınmışdı, onlarda oğrular, avara və sərsərilər, təsnifatı mümkün olmayan daha çox insan qrupları yaşayırdı. Bu yerlərdə baş verənlər sanki heç kəsi maraqlandırmırdı. Heç kəsin ağlına gəlmirdi ki, bu nəm, palçıqlı xarabalıqlar içərisində naməlum şəxslər mətbəə yaradaraq, orada qəzet çap edirlər. Bu qəzet neft mədənlərindəki şərait, Gürcüstan, Dağıstan, İran və Rusiyadakı vəziyyət barədə şəhərdə çıxan iri qəzetlərdən daha yaxşı məlumat verirdi. Mətbəənin yanında balaca bir oyuqda, qəzetin redaktoru yaşayırdı. Qəzetin adı "Bakı fəhləsi" idi. Redaktoru Tiflisdən bir gürcü pinəçinin oğlu idi. İlahiyyat fakültəsinin tələbəsi olmuş, Sibirdə həbsxanadan qaçmışdı. Həmin adam məşhur terrorçu İosif Cuqaşvili (gələcəyin İ.V. Stalini) idi.

1905-ci ilin sentyabr-oktyabr aylarında Bakıda yenidən milli zəmində qırğınlar başlandı. Ermənilər azərbaycanlıları qırır, onların sığınacaq tapdığı binaları yandırır və azərbaycanlıların əli toxunan hər şeyi dağıdırdılar. Sağ qalanlardan biri yazırdı: "Bu günlər yəqin ki, Pompeyin son günlərini xatırladırdı. Lakin Pompeydən daha dəhşətli idi, çünki oddan və tüstüdən sağ çıxanlar tüfəng və revolverlərlə öldürülürdülər. Yandırılan evlərdən o qədər tüstü qalxırdı ki, günorta saat 2-də belə günəş görsənmirdi. Bizim imdadımıza regionda baş vermiş dəhşətli zəlzələ çatdı".

Bakı xəbərləri bütün dünyaya yayıldı. İlk dəfə düşündülər ki, qoyulan investisiyalar əbəs ola bilər. "Standart oyl" şirkəti Amerika kerosini üçün Uzaq Şərqdə yeni bazarlar axtarmağa başladı. Rusiyanın özündə neft quyularının 2/3-si dağıdıldı, ixracat kəskin surətdə azaldı.

1905-ci il inqilabı başa çatsa da, neft regionu narahatlıq içindəydi. Bakı neftçilərinin nümayəndələri bolşevik deputatlar kimi Dumaya üzv seçildilər. Nobelin işlər müdiri Batumda küçədə öldürüldü. 1907-ci ildə Bakıda yenidən tətillər başladı. Bu tətillərin ümumi tətilə çevrilmək qorxusu vardı.

# AZƏRBAYCAN NEFT SƏNAYESİNİN İNKİŞAFI
## (1872-1920-ci illər)

Bakı regionu həmişə dünya neft sənayesinin mərkəzlərindən biri olmuşdur. Hələ XVIII əsrin axırlarında tətbiq olunan əmək bölgüsü — quyuların qazılması, neftin çıxarılması və nəqli neft hasilatı sənayesinin manifaktura istehsalı keyfiyyətləri kəsb etməsinə doğru aparırdı.

Təhkimçilik sisteminin ləğv edilməsi ilə 1872-ci ildə manufaktura sənayesi fabrik-zavod istehsalı mərhələsinə keçdi. XIX əsrin 70-90-cı illərində neft sənayesinin intensiv inkişaf dövrü, şəxsi sahibkarlıq erası başlandı. Məhz həmin illərdə neft istehsalında sənaye çevrilişi baş verdi — adi üsulla qazılan quyular, neftin sənaye üsulu ilə çıxarıldığı quyularla əvəz edildi.

Əgər XIX əsrin axırlarında təbii qazla birlikdə neft energetikanın tələbatının cəmi 3,9%-ini təmin edirdisə, XX əsrin 70-ci illərinin ortalarına yaxın o, Yer kürəsinin energetikasında həlledici rol oynamağa başlamışdır (63,2%). Bu dövrdə daş kömürün rolu xeyli azalmışdır (23,5%-ədək). 1900-cü ildən 1904-cü ilədək dünya neft hasilatı 126 dəfə, təbii qaz hasilatı 197 dəfə, daş kömür hasilatı isə təqribən 3 dəfə artmışdır. Bu faktlar göstərir ki, neft əsrin yanacağına çevrilmişdir. Onun dünya siyasətində rolu məhz bununla müəyyən edilirdi. Zəngin neft regionlarına, əsas nəqletmə yollarına, yeni neft kəmərlərinin tikintisinə və marşrutlarına nəzarət məsələləri iri dövlətlərin xarici siyasətində üstün yer tutmuşdur və tutmaqdadır.

Quyuların mexanizmlə qazılması nəticəsində adi üsulla qazılan quyuların sayı durmadan azalırdı. 1879-cu ildə daha belə quyu qazılmırdı. Mədənlərdə buxar maşınlarından getdikcə daha geniş istifadə edilirdi. 1872-ci ildə 1,4 milyon pud neft çıxarıldığı halda, 1894-cü ildə neft hasilatı 340 milyon puda, ABŞ-dakı səviyyəyə çatmışdı. Sonralar (1901-ci ilədək) Bakı neft hasilatına görə dünyada birinci yerə çıxmışdı. Lakin dünya bazarında birincilik xammalın həcmi ilə deyil, bu bazarda başlıca məhsul sayılan kerosinin həcmi ilə müəyyən edilirdi. Bu cəhətdən üstünlük Amerika sənayesinə məxsus olaraq qalırdı. Bakı neftayırma sənayesində müvəffəqiyyətlərin ən böyük göstəricisi burada istehsal edilən kerosinin xaricə daşınması (1883-cü il) oldu. Amerika kerosini Rusiyanın bazarlarından sıxışdırılıb çıxarıldı.

Bu minvalla neftin və neft məhsullarının Qara dəniz limanlarına, oradan da Avropa bazarlarına ucuz başa gələn yolla — dəmir yolu vasitəsi ilə daşınmasının təmin olunduğundan istehsalı genişləndirməyə meyllər artırdı. 1877-ci ildən 1882-ci ilədək olan dövrdə neft hasilatı 11,6 milyon puddan artıb 50 milyon puda çatmışdı və ya dörd dəfə çoxalmışdı, neftin və neft məhsullarının daşınması isə 6 milyon puddan artıb 31 milyon puda çatmışdır, yəni 5 dəfə çoxalmışdı. 1883-cü ildən 1890-cı ilədək həm neft hasilatını, həm də onun daşınmasının səviyyəsi xeyli artmışdı. Hasilat 60,4 milyon puddan artıb 603,8 milyon puda çatmışdı və ya 10 dəfə çoxalmışdı; neftin və neft məhsullarının daşınması 34,2 milyon puddan artıb 443,1 milyon puda çatmış və ya 13 dəfə çoxalmışdı. XIX əsrin axırlarına yaxın neftin və neft məhsullarının ümumi daşınmasının 20%-i dəmir yolunun payına düşürdü. Bu onu göstərir ki, neft məhsullarının dəniz vasitəsi ilə daşınması ucuz başa gəldiyindən Bakı limanında daşınmaların həcmi xeyli artmışdı.

1873-1880-ci illərdə Bakı neft sənayesi nə qədər tərəqqi etsə də, o bütün sahələrdə 1881-1890-cı illər arasındakı inkişaf ilə müqayisə edilə bilməz. Xam və emal olunan neft hasilatı, onun daxili bazara daşınması və xarici ticarət hətta 1883-cü ildə ağlagəlməz dərəcədə artmışdı. Yerli sahibkarların və rusların narazılıqlarına baxmayaraq, xarici şirkətlər özlərini göstərməkdə idi. Əvvəlki dövrün son ipində neft hasilatı 25000000 pud olduğu halda, 1881-ci ildə bu rəqəm 4000000 puda çatmışdı. Neft məhsullarının ixracı bu müddət ərzində 23400000 puddan 176300000 puda qalxmışdı. Aşağıdakı cədvəl bu dövrdə sənayenin inkişafını göstərir.

Neft emalı mərkəzinin Bakıda yox, Rusiyanın içərilərində yaradılmasının tərəfdarı olan Raqozin 1881-ci ildə maliyyə nazirinə memorandum təqdim edərək xam neftin ixracı üçün vergi qoymaq fikrini irəli sürdü. Məsələnin yoxlanılması məqsədilə Bunjun sədrliyi ilə komissiya təşkil olundu (bundan bir az sonra Bunj maliyyə naziri təyin edildi). Müzakirələrdə aparıcı sahibkarlardan yeddisi, yaxud səkkizi öz şöbə müdirləri ilə, bir də professorlar Mendeleyev və Lısenko iştirak edirdilər. Raqozin təklif edirdi ki, hər pud ixrac olunan xam neft üçün bir rubl vergi qoyulsun, professor Mendeleyevin fikrincə isə 30 qəpik də kifayət idi. İstehsalçılar vergiyə qarşı ciddi etiraz etdilər. Kokorev məsələni dərindən öyrənmək üçün vaxt istədi. Müzakirəni saxlamaq ümidilə burada iştirak edən sahibkarlar onun təklifini dəstəklədilər. Birinci müzakirə dayandırıldı, sahibkarlara vaxt verildi ki, öz rəylərini yazılı şəkildə təqdim etsinlər.

*Cədvəl 1*

| l | Hasilat | Lampa nefti | Sürtkü yağları mln. pudla | Qalıqlar | Xam neft | Cəmi | İstehsalın ixraca nisbəti |
|---|---|---|---|---|---|---|---|
| 880 | 25 | 7,8 | - | 7,0 | 0,4 | 15,2 | 60,8 |
| 881 | 40 | 11,6 | - | 9,3 | 2,5 | 23,4 | 58,5 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 882 | 50 | 12,6 | 0,3 | 12,6 | 1,6 | 27,3 | 54,6 |
| 883 | 60 | 14,2 | 1,2 | 12,2 | 1,9 | 29,5 | 49,2 |
| 884 | 89 | 21,7 | 1,4 | 28,5 | 2,5 | 54,1 | 60,8 |
| 885 | 115 | 27,4 | 1,6 | 35,6 | 2,8 | 67,4 | 58,6 |
| 886 | 123 | 32,4 | 0,8 | 35,7 | 3,0 | 71,9 | 58,5 |
| 887 | 155 | 44,0 | 2,3 | 41,5 | 3,4 | 91,2 | 58,8 |
| 888 | 182 | 50,0 | 2,6 | 58,5 | 3,8 | 114,9 | 63,1 |
| 889 | 192 | 61,1 | 3,4 | 88,6 | 4,2 | 157,3 | 81,9 |
| 890 | 226 | 67,8 | 4,6 | 97,1 | 6,8 | 176,3 | 78,0 |

İkinci müzakirə 1882-ci ilin martında, bir günə keçirildi. Həmin vaxt çar II Aleksandr qətlə yetirildiyindən müzakirəyə son qoyuldu. Bundan sonra Raqozini dəstəkləyən olmadığından, məsələ əvvəlki kimi qaldı.

Şübhəsiz ki, Bakıda sənayenin inkişafı dövründə tez-tez durğunluq halları da olurdu. Hətta bəzən əvvəlcədən açıq və qəti şəkildə bildirilirdi ki, sənaye dağılmaq üzrədir, lakin hər ilin sonunda məlum olurdu ki, sənaye irəliləməkdə davam edir və əvvəlcədən deyilmiş bəd xəbərlərin yalanlığı üzə çıxırdı. Məlum həqiqətdir ki, böyük şirkətlərin inkişafı kiçik şirkətlərin məhvi ilə nəticələnir. Bu məsələ Bakıda da müstəsnalıq təşkil etmirdi. 1880-ci ildə Bakı yaxınlığında 195 neft emalı müəssisəsi var idi. Bunlardan ancaq dördü iri müəssisə idi (bunlardan ikisi Mirzəyevə, biri Bakı neft şirkətinə, biri də Sarkisova məxsus idi). 1885-ci ilin sonunda onların sayı 136-ya enmiş və ancaq 100-ü işləyirdi. İldə 5000000 puddan çox kerosin istehsal edən iri zavodlardan ancaq 12-si, 100000-500000 pud istehsal edənlərdən 15-i, 1000000 puddan aşağı istehsal gücü olanlardan 109-u qalmışdı. Həmin 109 müəssisə əsasən iranlıların kiçik və köhnə müəssisələrindən ibarət idi. Hər birinin bir, yaxud iki distilyatoru olan zavodlar ildə ancaq bir neçə ay işləyirdilər. Altı ən iri zavod isə aşağıdakılar idi:

*Cədvəl* 2

| Müəssisə sahibləri | Kerosin tutumu (hər biri 10 ton olan sisternlərin sayı) |
|---|---|
| Nobel qardaşları Kaspi şirkəti (De Boer, menecer) | 22.200 |
| Batumi neft şirkəti | 5.160 |
| Palaşkovski və şirkəti | 4.680 |
| Tağıyev və Sarkisov | 3.300 |
| Bakı neft şirkəti | 2.500 |
| Şibayev və şirkəti | 1.700 |

Gəmiyə qoyulan 43.000 sisterndən 17.100-ü Nobel qardaşlarının idi. Onlar fəaliyyətə başlayandan 6.700-dən ancaq 10-u onlara məxsus idi.

Qara şəhərdən şərqdə yerləşən Ağ şəhər bu dövr ərzində böyümüş, sanitariya qaydaları və təmizlik baxımından sahmana salınmışdı. Bakının bir neçə ən yaxşı neftayırma zavodu, məsələn Şibayev, Palaşkovski, Oelrix və Bulfroyun müəssisələri, ən böyük sulfat turşusu zavodu burada yerləşirdi. Sulfat turşusu çox böyük həcmdə İrandan gətirilirdi.

1880-ci ildə Bakıda 143 neft emalı müəssisəsi (o cümlədən 15 iri zavod daxil olmaqla) vardı, onlardan yalnız 197-si işləyirdi. Bu müəssisələr 73.676.000 pud kerosin istehsal edirdi.

Neftçıxarma və neftayırma sənayesi ilə bərabər neft kəmərləri sistemi, neftin nəqli, qazma üsulları və sənayenin təşkilində inkişaf nəzərə çarpırdı. 1884-cü ildə neft mədənlərini emal müəssisələri ilə birləşdirən altı neft kəməri üç ildən də az müddət içərisində inkişaf edib on beşə, ümumi uzunluğu isə yüz milə çatmışdı.

1886-cı ildə Xəzər dənizində neft daşıyan iyirmi doqquz tanker var idi ki, bundan on biri Nobel qardaşlarına məxsus idi. Onlar bir dəfəyə 985.000 pud neft daşıyır və Bakı ilə Volqa arasında yeddi aylıq naviqasiya dövründə 28-30 səfər edirdi.

1889-cu ildə gəmi ilə neft daşınması aşağıdakı kimi artmışdı:

*Cədvəl 3*

| | Sayı | Minimum çəkisi,tonla | Maksimum çəkisi,tonla | Cəmi |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Tankerlər | 50 | 215 | 1.129 | 31.774 |
| Gəmi heyəti | 297 | - | - | 96.034 |
| Tikilməkdə olan tankerlər | 11 | 532 | 1.209 | 8.613 |

1890-cı ildə tankerlərin sayı 54-ə çatmışdı, onların ümumi tutumu 1.570.000 $fut^3$ idi. Neftin Xəzər dənizində tankerlərlə nəqli 1880-ci ildə 15.000.000 pud idisə, 1890-cı ildə bu rəqəm 118.600.000 puda çatmışdı.

Qəribə olsa da demək lazımdır ki, mümkün hasilatın lap bir hissəsinə tələbat olduğu, Bakı göllərində neftin yandırıldığı, quyuların ağzı bağlı qaldığı halda, Rusiyanın bir çox yerlərində Amerika neftini, yaxud Raqozinin neftayırma zavodunun məhsulunu Bakı neftindən ucuz qiymətə alırdılar. Bundan da qəribəsi odur ki, Zaqafqaziya dəmir yolunun yenicə açılmış Bakı-Tiflis bölməsi lampa neftini 8.000 mil uzaqda olan Amerikadan alırdı. Halbuki Tiflisdən 341 mil aralı olan Bakıda isə neft seli hədər yerə axıb gedirdi.

Sankt-Peterburq 1883-cü ildə Bakı neftinin ucuz qiymətə olmasına baxmayaraq, hələ də Amerika neftinə üstünlük verirdi (Amerika neftinin bir pudu 2,40 qəpik, Bakı neftinin bir pudu 1,30 qəpik idi). Səksəninci illərin əvvəllərində Rusiyanın qərb və cənub bölgələrində də Amerika nefti üstünlük təşkil edirdi. Ancaq Volqa çayı bölgəsində Bakının neft məhsullarının həddindən çox yığılıb qalması tədricən istehlakçıları özünə cəlb etdi. Burada Odessa vasitəsilə Rusiya bazarına daxil olan Amerika neftinin idxalını azaltdı. Bu təzə yaranmış bazarların yaradıcıları Odessa və Kiyev yəhudiləri idilər. Onlar məhsulun keyfiyyətinə fikir vermirdilər, əsas məsələ malın ucuzluğu idi. Bu da bir sıra emal müəssisələrinə imkan verirdi ki, ən aşağı keyfiyyətli məhsulları bazara çıxartsınlar. Hətta benzinə solyar yağı qatıb satırdılar. Bu hal o qədər davam etdi ki, axırda hökumət 1886-cı ildə alışma həddi 28"S-dən aşağı olan lampa neftinin satışını qadağan etdi.

Zaqafqaziya dəmir yolunun Bakı-Tiflis bölməsinin çəkilişi uzanırdı. Nəhayət, məlum oldu ki, dəmir yolunu çəkmək üçün icazə almış Palaşkovski və Bunj böyük maliyyə çətinliyi ilə rastlaşmış və müflisləşmişlər. Bu iki nəfər həm də neftin çıxarılması və emalı ilə də məşğul idilər.

Belə bir vəziyyət Rotşildlərin Bakıya gəlməsinə şərait yaratdı. Milyonların sahibi olan Rotşildlər bir müddət idi ki, Şimali Qafqazda neft sənayesi ilə məşğul idilər və Avropada kifayət qədər böyük neftayırma zavodu tikdirib lampa nefti istehsal edirdilər. Onlar 1883-cü ildə Batumda Xəzər — Qara dəniz şirkətini qeydiyyatdan keçirdilər. Şirkətin nizamnamə kapitalı 600.000 funt-sterlinq, məqsədi isə Bakı neftinin istehsalı, emalı və satışı idi. Zaqafqaziya dəmir yolunu çəkdirənlər Rotşildlərə müraciət edib maliyyə köməyi istədilər. Rotşildlər Batum şirkətinə məxsus neft mədənlərini və neftayırma zavodunu girov götürüb qısa bir müddətdə 2.000.000 funt-sterlinqdən artıq bir məbləği verdilər. Digər neft istehsalçılarına və emalçılarına gəldikdə isə Rotşildlərin Bakıya dönmələri onlar üçün lap vaxtında oldu. Əgər Rotşildlər bu məqamda Bakıya gəlməsəydilər, bu istehsalçı və emalçılar Nobel qardaşlarının mühəndis işi və maliyyə vəsaiti ilə rəqabətə davam gətirə bilməyəcəkdilər. Rotşildlər kerosini çox asanlıqla alır və əksər hallarda pulunu qabaqcadan ödəyirdilər. Bununla onlar özlərindən asılı etdikləri istehsalçıları bir çox böhranlardan sürüyüb çıxartdılar.

Zaqafqaziya dəmir yolunun tikintisi, nəhayət, 1883-cü ilin aprelində başa çatdı və may ayında işə düşdü. Bundan əvvəl Bakı nefti Avropaya çox cüzi miqdarda gedib çıxa bilirdi. Təəccüblü deyildi ki, bu neft Baltik dənizində tankerlərə doldurulana qədər çox uzun məsafədə su və quru yolu qət etməli idi. Zaqafqaziya dəmir yolunun tikilişi bu məsafəni azaldıb 560 milə endirdi və qısa yolla Bakı neftini Avropa istehsalçısına yaxın bir məsafəyə çatdırdı. Lakin bununla belə hələlik dəmir yolu ilə neftin daşınma haqqı da ucuz deyildi — 560 mil məsafəyə bir ton 20 şillinqə daşınırdı. Bu isə dəmir yolunun inşası işlərini o qədər də yaxşılaşdırmadı. Həmin dövrdə çəkilmiş bütün dəmir yollarında olduğu kimi, burada da hökumət səhmdarlara əldə olunacaq gəlirdən sabit bir faiz veriləcəyinə təminat yaratmışdı. Buna görə də onlar dəmir yolunun çəkilişinə maya qoysalar da, sonralar onun inkişafı üçün narahatçılıq keçirmirdilər. Bu zaman Rusiya dəmir yol xətlərində Nobel qardaşlarının 1.500 sistern neft və neft məhsulları daşıdığı halda, Zaqafqaziya dəmir yolunda ancaq bir neçə yüz sistern var idi. Bundan əlavə Suram keçidində qatarların hərəkətinə də məhdudiyyət qoyulmuşdu.

1886-cı ildə neft sənayesi sahibkarlarının III konfransında London Palatası və Neft Assosiasiyası adından iştirak edən polkovnik Stüart yazırdı: "Nə Bakıda, nə də Batumda ingilis şirkəti yoxdur. Potidə yalnız bir ingilis şirkəti var ki, o da əsasən şümşad ağacı, qarğıdalı, manqan və digər yerli materialların istehsalı və emalı ilə məşğuldur. Bu sahədə işlər yaxşı gedir, ancaq neft işi ilə məşğul olan ingilis şirkəti yoxdur. Bakıda neft emalçıları və istehsalçılarının əksəriyyəti iflasa uğramaq həddindədir. Ancaq bunlar o demək deyil ki, orada yaxşı iş yapmaq olmaz. Dünyada hər hansı bir iş Bakıdakı sistem üzrə, yaxud olduğu kimi tam əksinə aparılsa, onda müflisləşməkdən yan keçmək qeyri-mümkündür. Bakıdakı şirkətlərin başçılarından demək olar ki, hamısı iş adamı deyil. Onlar çox vaxt burada olmurlar, əgər orada tapılsalar belə deyə bilməzlər ki, işlərinin vəziyyəti necədir, gəlirəmi, ziyanamı işləyirlər?! İşlərini menecerlərinə tapşırıblar. Fəaliyyətləri ancaq pullar lazımi qaydada və vaxtında köçürülmədikdə yoxlanılır və nöqsan olduqda işdən birdəfəlik çıxarılırlar. Bakıda bir iri şirkət tanıyıram ki, iki il ərzində menecerini yeddi dəfə dəyişib. Şirkətlərin ofisləri ancaq səhər saat 8.30-dan 12-dək, günortadan sonra da iki saata yaxın açıq olur. Qalan vaxtı kart oynayırlar. Hər yerdə biabırçı israfçılıq, hələ ehtikarlıq bir yana qalsın, baş alıb gedir. Belə bir şəraitdə mənfəətin əldə edilməsi özü təəccüb doğurur. Bəzi əc-

nəbi tacirlər, almanlar və başqaları özləri öz işlərini görür, işlərini lazımi qaydada aparır və yaxşı pul qazanırlar. Fikrimcə, Batum, yaxud Potiya neft kəməri çəkilsə, ingilis tacirləri üçün yaxşı bir yol açılar. Batumda neft anbarları tikməklə yaxşı gəlir verən bir işə başlamaq, emal müəssisələrindən məhsul almaq olar. Məncə, Bakıda ingilis şirkəti yaradıb neft emal etməyə dəyməz, çünki orada onsuz da emal müəssisələri həddindən artıq çoxdur. Biznesin tərəqqisi üçün emal müəssisələrinin Qara dəniz sahilinə köçürülməsi lazımdır".

Neft kəmərinin praktik üstünlükləri olsa da, istehsalçıları buna tələsmirdilər. Lakin elə bu vaxt Batuma və İran körfəzinə neft kəmərlərinin çəkilişi ideyası ortaya atıldı.

1886-cı ilin ortalarınadək hökumət belə təkliflərin əleyhinə çıxırdı, çünki boru kəməri onun sərmayəçilərinə divident təminatı verməli idi, bir də ki, digər nəqliyyat növləri arasında rəqabətə son qoyulurdu. Layihəni irəli sürənlər sübut edirdilər ki, boru kəməri neftin nəqlində inhisar yaratsa belə, yenə də onun böyük əhəmiyyəti var. Buna görə də hökumət təklifin diqqətlə öyrənilməsi və razılığa gəlinməsi üçün bir komissiya yaratdı. Burada yeni bir məsələ ortaya çıxdı — boru kəməri xam, yaxud emal olunmuş neft üçün çəkilsin. Nəticədə məsələ yenidən öyrənilməyə başlandı. Əsas neftayırma zavodlarının sahibləri buna heç razı olmurdular, çünki xam neftin nəqli Batumda yeni bir neftayırma mərkəzinin yaranması demək idi. Kəmərin inşası başlayana qədər bir müddət keçdi. Nəzərdə tutulmuş kəmərin birinci — Mixalkovo-Batum hissəsinin çəkilişi yalnız 1900-cü ilin iyulunda başlandı, qalan hissəsi isə ancaq ilin sonunda işə düşdü.

Neftin müştərisi çox idi, lakin dəmir yol şirkətinin bunun üçün kifayət qədər sisterni yox idi. Sistern çatışmazlığı və Suram keçidinə qoyulmuş məhdudiyyət neft ticarətinin sərbəst və tam inkişafına mane olurdu. 1887-ci ildə hökumət bu maneələri aradan qaldırmaq üçün bir təklif irəli sürdü. Onun mahiyyəti bundan ibarət idi ki, neft ixrac edənlərə icazə verilirdi ki, neft boru kəmərinin bu başından o başına nasos ilə vurulsun. O başdan isə sisternlərə doldurub Batuma yola salınsın.

Sistern şirkəti sisternlərin lazımi qədər hazırlanıb verilməsindən inadkarlıqla imtina edirdi. Buna görə də 1888-ci ildə hökumət neftayıranlara icazə verdi ki, bu işin təşkili ilə özləri məşğul olsunlar. İri neftayırma müəssisələrinin sahibləri bundan dərhal istifadə etdilər. Təkcə Nobel qardaşları özləri üçün 465 sistern düzəltdirdilər.

Bütün bunlar Suram keçidində nəqliyyatın ümidsiz bir vəziyyətdə gərginləşməsi ilə nəticələndi. Bundan sonra hökumət neftayıranlara Qafqazın Bakı istiqamətində Batumdan 75 mil aralıda yerləşən Karşlla stansiyasına qədər boru kəməri çəkdirmələrinə icazə verdi.

1886-cı ildə Bakıda birinci sindikat yarandı. Bu ideyanın təşəbbüsçüləri Nobel qardaşları idi. Sindikata Hacı Zeynalabdin Tağıyevin və Arafelovun şirkətləri, eləcə də Kaspi şirkəti, Batum neft konsernləri daxil idi. Batum neft konserni əsasən Rotşildin əlində idi. Sindikatda Nobel qardaşları ağalıq edirdilər. 1888-ci ildə hökumət belə fikirləşirdi ki, neft sənayesi kifayət qədər inkişaf etdiyindən daxili istehlak üçün kerosinin hər puduna qırx qəpik vergi qoymağın vaxtı çatmışdır. Bu vergi 1892-ci il artırılıb hər pud üçün altmış qəpiyə çatdırıldı.

1888-ci ilə qədər neft mədənlərində, neft emalı müəssisələrində istehsalın, boru kəmərləri sisteminin inkişafı, məhsul ixracatı haqqında məlumatlar sadəcə olaraq proqnoz və ayrı-ayrı şəxslərin verdiyi hesablamalardan ibarət idi. 1889-cu ildə Neft İstehsalçıları Assosiasiyasının statistika bürosu yaradıldı. Həmin ildən də neft sənayesinin durmadan inkişaf etməsini statistik rəqəmlərdən izləyə bilərik. Eyni zamanda borunun göstəricilərinə nəzər salanda neftçıxarma mərkəzinin tədricən Balaxanı və Sabunçunun qərb hissəsindən Ramanaya doğru hərəkət etdiyini, Nobel qardaşlarının dərin qazma üsulunun tətbiqi ilə Bibiheybət və Ramana mədənlərinin yüksək sürətlə irəlilədiyinin şahidi olarıq.

Bu dövrdə üç qazma sistemindən istifadə olunurdu. Bunlardan ən çox tətbiq olunanı və müsbət nəticə verəni ştanq qazma üsulu idi. Həmin üsul qazmaçılar yüksək peşə qabiliyyətinə malik olmadığı halda daha sərfəli idi. Bakı mədənlərindəki quyuların əksəriyyətində bu üsuldan istifadə etməyə başladılar. Nəzərdə tutulmuş vaxt ərzində bu qayda ilə çox iş görmək mümkün idi. Ancaq mövcud sistem qazmaçılardan yüksək bacarıq və ustalıq tələb edirdi. Belə deyirdilər ki, Amerika qazmaçıları gün ərzində digər əcnəbilərdən daha çox qazma işi görürdülər. Ancaq onlar çox vaxt tələsdiklərindən qazma alətlərini itirirdilər. Lakin o qədər də cəldlikləri ilə fərqlənməyən İsveç, Danimarka, Almaniya qazmaçıları belə hallarda gün ərzində daha çox iş görürdülər.

Üçüncü qazma üsulundan Bakıda ancaq Nobel qardaşları istifadə edirdilər. Bu üsul fauvel, yaxud su ilə qazma üsulu kimi tanınırdı. Deyilən qayda ştanqla qazma üsuluna müəyyən qədər bənzəyirdi, lakin burada ştanq əvəzinə borunun özünün uzunluğundan istifadə olunurdu. Su nasosla boruya hər kvadrat düymə 50" təzyiqlə vurulurdu. Möhkəmləndirmə kiçik diametrli borularla həyata keçirilirdi. Qazma ştanq üsulu ilə olduğu kimi aparılırdı, ancaq quyuya enən borunun içinə su böyük təzyiqlə vurulurdu. Su qazma zamanı çıxan bütün torpağı, gili və s. təmizləyib çıxarırdı. Nobel qardaşları bu üsulla Balaxanıda dörd dərin quyu, Zığda isə bir sınaq quyusu qazdılar. Polkovnik Stüart Zığdakı bu quyuya baxmağa gələndə dərinlik 1946 futa çatmışdı, ancaq qazma davam edirdi. Hər dəfə iki fut qazandan sonra, qazmaçılar gözləyirdilər ki, su quyunun dibini təmizləyib çıxarsın. Burada qazma ustası işləyən bir fin deyir ki, dayaz quyularda bu üsulla kanat o qədər sürətlə işləyə bilməməsinə baxmayaraq, fauvel sistemi dərin quyular üçün əvəzsiz idi. Bunun üçün ancaq kiçik qazma

alətindən istifadə edilirdi. Bu quyu bir damcı olsa belə neft vermədi. Nobel qardaşlarının Balaxanıdakı 13 və 24 saylı quyuları bu sistemlə qazılmışdı. 24 saylı quyuda qazma gedə-gedə neft qəfildən fontan vurdu, təzyiq bütün alətləri quyudan havaya atdı.

Göstərdiyimiz dövrün sonunda neft sənayesinin vəziyyəti aşağıdakı cədvəldə göstərilir:

*Cədvəl 4*

| 1889 | Balaxanı | Sabunçu | Ramana | Bibiheybət | Cəmi |
|---|---|---|---|---|---|
| neft hasilatı, pudpa | 68911300 | 105563000 | _ | 17773400 | 19224700 |
| məhsul verən quyuların sayı | 126 | 135 | - | 17 | 278 |
| qazılmaqda olan quyuların sayı | - | - | - | - | 121 |
| qazıntısı başa çatmış quyu-ların sayı | 13 | 33 | 1 | _ | 47 |
| qazılmış dərinlik | futla | - | | - | 45.500 |
| neft hasil edən şirkətlərin sayı | | - | | _ | 58 |
| kerosin hasilatı | - | - | | - | 61145000 |
| 1890 | Balaxanı | Sabunçu | Ramana | Bibiheybət | Cəmi |
| neft hasilatı, pudla | 63337700 | 143355600 | 1546200 | 18027100 | 226226600 |
| məhsul verən quyuların sayı | 145 | 190 | 3 | 26 | 364 |
| qazılmaqda olan quyuların sayı | | - | - | - | 231 |
| qazıntısı başa çatmış quyuların sayı | 19 | 58 | 4 | 4 | 86 |
| qazılmış dərinlik | - | - | - | - | 103670 |
| neft hasil edən şirkətlərin sayv | - | - | - | - | 61 |
| kerosin hasilatı | - | - | - | - | 7367300 |

Sonrakı ildə mövcud quyulardan 7-si sıradan çıxmış, 14 təzə quyu işə salınmışdır.

1881-1890-cı illər dövrünün sona yetdiyi bir vaxtdan istismarına başlanmasına baxmayaraq, Ramana tez bir zamanda neft mədənləri arasında mühüm bir mövqe tutmuş, elə ilk günlərdən fontanlı neft sahəsi kimi şöhrət qazanmışdı. Bu neft mədənində 1895-ci ildə quyuların birində vuran fontandan 68400000 pud neft hasil oldu ki, bu da Bibiheybətlə Sabunçu mədənlərindəki fontanların verdiyi məhsuldan artıq idi. 1894-cü ildə Moskva-Qafqaz şirkətinin Ramana gölündə apardığı təmir-bərpa işləri nəticəsində Ramana mədənlərinin neft hasilatı xeyli artmışdır. Təkcə bu şirkət 1894-cü ildə Ramanadan 20000000 pud neft hasil etmişdir. Nəhayət Bibiheybət mədənlərinə gəldikdə isə o, öz nəhəng və güclü fontanları ilə hamını heyrətə salmışdı. 1896-cı ildə Abşeron yarımadasında 1050 futdan az dərinlikdən fontan vuran quyu yox idi. Doqquz fontan vuran quyunun məhsulu birlikdə 67479000 pud olmuşdu ki, bu da dərinliyi 1050 futdan artıq olan 228 quyunun birlikdə verdiyi neftin 1/3-i idi. Əslində Bibiheybətdəki iki fontan vuran quyunun məhsulu bütün fontan vuran quyuların verdiyi məhsulun cəminin 2/3-sindən artıq idi. Məsələn, bu quyulardan Zubalova məxsus quyu 1358 fut dərinlikdən 24495000 pud, K.Z.Tağıyevə məxsus quyu isə 1330 fut dərinlikdən 22092000 pud neft vermişdi. 1891-ci ildən 1904-cü ilədək Bibiheybətdə 49 quyu fontan vurmuşdu, bunlardan birlikdə 386500000 pud neft əldə edilmişdi,

bunlarla müqayisədə Ramanadakı fontan vuran 47 quyudan 302000000 pud, Sabunçudakı 42 fontan vuran quyudan 189800000 pud, bütünlükdə isə Abşeron yarımadasında 138 fontan quyusundan 878300000 pud neft alınmışdı.

*Cədvəl 5*

| | **Balaxanı** | | | | **Sabunçu** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| il | pudla | cəmi %-lə | neft vuran quyulvrn sayı | fontan vuran quyuların məhsulu | pudla | cəmi %-lə | neft vuran quyulvrn sayı | fontan vuran quyuların məhsulu |
| 1891 | 74175100 | 31.3 | 178 | 100000 | 163537500 | 55,2 | 227 | 30100000 |
| 1892 | 89881721 | 24,4 | 178 | - | 142347846 | 49 | 221 | 98300000 |
| 1843 | 71280230 | 21,9 | 185 | - | 132607774 | 1 | 214 | 28200000 |
| 1894 | 09843731 | 23.4 | 205 | - | 132421057 | 44.5 | 248 | 10100000 |
| 1895 | 78671733 | 20,4 | 243 | - | 142018109 | 37.6 | 266 | 18600000 |
| 1896 | 90388761 | 23,4 | 304 | 143000 | 147804573 | 38,2 | 311 | 14100000 |
| 1897 | 1003346 | 23,8 | 396 | - | 162610054 | 38,5 | 384 | 1400000 |
| 1898 | 108838439 | 22,4 | 485 | 1400000 | 179323697 | 37 | 457 | 20400000 |
| 1399 | 114854151 | 21,9 | 610 | - | 230767289 | 43.9 | 543 | 35700000 |
| 1900 | 124880087 | 20,8 | 736 | - | 251634159 | 41.9 | 665 | 11100000 |
| 1901 | 117783832 | 17,5 | 775 | - | 296264315 | 43,9 | 780 | 37800000 |
| 1902 | 101698072 | 15.9 | 720 | - | 267159044 | 41,9 | 751 | 9800000 |
| 1903 | 88859911 | 14.8 | 693 | - | 230464593 | 39,6 | 747 | 3000000 |
| 1904 | 82389431 | 13,3 | 732 | - | 218127012 | 35,5 | 792 | 5370000 |
| 1905 | 57854708 | 14,0 | - | - | 136681642 | 33.0 | - | 2350000 |
| 1906 | 66031437 | 15,0 | - | - | 186168024 | 36,3 | - | 2039782 |
| 1907 | 70928859 | 14,8 | - | - | 180644552 | 37,7 | - | 3970000 |
| 1903 | S6722273 | 14,6 | - | - | 195233628 | 41,3 | - | 1320000 |
| 1909 | 72876523 | 14,4 | - | - | 202512104 | 39,4 | - | - |
| 1910 | 68163237 | 13.6 | - | - | 182169033 | 38,2 | - | - |
| 1911 | 03856199 | 13,8 | - | - | 172907787 | 37,3 | - | 165753 |
| 1912 | 64780142 | 13,4 | - | - | 168298412 | 34,9 | - | 148514 |
| 1913 | 64261282 | 13,9 | - | | 159528596 | 34,4 | - | - |

| | **Ramana** | | | | **Bibiheybət** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| il | pudla | cəmi %-lə | neft vuran quyulvrn sayı | fontan vuran quyuların məhsulu | pudla | cəmi %-lə | neft vuran quyulvrn sayı | fontan vuran quyuların məhsulu |
| 1891 | 12968100 | 4.8 | 28 | 400000 | 23887700 | 8,7 | 25 | 8400000 |
| 1892 | 41041383 | 14.3 | 29 | 20100000 | 33262880 | 11,6 | 20 | 17300000 |
| 1893 | 73146364 | 22.5 | 33 | 44000000 | 47494729 | 114 | 26 | 37000000 |
| 1894 | 61701047 | 20,7 | 52 | 27200000 | 33785249 | 12.5 | 27 | 24500000 |
| 1895 | 111408645 | 29,5 | 62 | 68400000 | 47186073 | 18.2 | 31 | 29800000 |
| 1896 | 78088324 | 20,2 | 84 | 20600000 | 69855123 | 14,9 | 35 | 52100000 |
| 1897 | 98268133 | 22,8 | 106 | 30400000 | 62514479 | 19,9 | 38 | 43000000 |
| 1898 | 100523699 | 20,7 | 113 | 31400000 | 96526783 | 15,4 | 48 | 50900000 |
| 1899 | 98681782 | 18,8 | 38 | 23700000 | 80840807 | 18,2 | 58 | 21100000 |
| 1900 | 114836996 | 19,1 | 185 | 30100000 | 109207063 | 20,1 | 112 | 26600000 |
| 1901 | 124158817 | 18,5 | 219 | 22000000 | 133613181 | 20.1 | 143 | 38100000 |
| 1902 | 139943833 | 21,9 | 219 | 38500000 | 127433286 | 20,0 | 13 | 46100000 |
| 1903 | 119952259 | 20,1 | 221 | 13100000 | 157289515 | 26,4 | 177 | 37400000 |
| 1904 | 138442406 | 21.7 | 263 | 8500000 | 181090766 | 20,5 | | 22355000 |
| 1905 | 87596851 | 21.2 | - | 8470000 | 128684988 | 30,6 | - | 3130000 |
| 1906 | 96579831 | 21,2 | - | 8990000 | 128064631 | 28,2 | - | 550000 |
| 1907 | 89512320 | 18.7 | - | 2410000 | 131357273 | 27,4 | - | 535000 |
| 1908 | 78255455 | 16,8 | - | 1186830 | 19652129 | 4,2 | - | 3975464 |
| 1909 | 88081961 | 17,4 | - | 6340000 | 22769663 | 24,2 | - | 15230000 |
| 1910 | 96163625 | 13.1 | - | 8966618 | 118898899 | 23,8 | - | 6550000 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 911 | 83128853 | 17,9 | - | 1690000 | 102493888 | 22,1 | - | 8310000 |

*Çədvəl 6*

**Abşeron Yarımadasında hasilatın çvmi (Binvqödi daxil olmaqla)**

| il | pudla | məhsul verən quyuların sayı | fontan verən quyuların neft hasilatı, pudla | cəmi hasilat %-lə | qazma rekordu, futla |
|---|---|---|---|---|---|
| 1891 | 247568400 | 456 | 39000000 | 14 | 139,860 |
| 1892 | 286513840 | 448 | 75700000 | 26 | 81,690 |
| 1893 | 324529197 | 456 | 109200000 | 33,6 | 76,860 |
| 1894 | 297551084 | 532 | 61800000 | 20,4 | 90,013 |
| 1895 | 377426620 | 604 | 112800000 | 29,7 | 146,055 |
| 1896 | 386116781 | 735 | 86900000 | 22,5 | 196,889 |
| 1897 | 421727161 | 904 | 88800000 | 20,9 | 278887 |
| 1898 | 485943348 | 1107 | 113100000 | 23,2 | 406847 |
| 1899 | 525217415 | 1357 | 80500000 | 15,2 | 600761 |
| 1900 | 600763812 | 1710 | 67800000 | 11,3 | 581987 |
| 1901 | 671276263 | 1924 | 98000000 | 14,6 | 540481 |
| 1902 | 636831120 | 1840 | 94400000 | 14,8 | 282730 |
| 1903 | 596604805 | 1850 | 53500000 | 9 | 345485 |
| 1904 | 614971989 | 2012 | 36225000 | 5,9 | 435736 |
| 1905 | 408966858 | - | - | - | - |
| 1906 | 448336480 | - | 11983859 | 2,0 | - |
| 1907 | 473508392 | - | - | - | - |
| 1908 | 465173753 | - | 10085693 | 2.2 | - |
| 1909 | 497661651 | - | - | - | - |
| 1910 | 494274722 | - | 23610522 | 4.8 | - |
| 1911 | 452439168 | - | 25535810 | 5,6 | - |
| 1912 | 462877300 | - | 21834049 | 4,7 | - |
| 1913 | 447718455 | - | 19499931 | 4,4 | - |

Köhnə quyular getdikcə əhəmiyyətini itirirdi. Bunun iki səbəbi vardı: birincisi, neft verən köhnə quyular ildən ilə sayca azalır, onlardan böyük əksəriyyəti təmirə qoyulurdu, dərinləşdirilirdi, boş dayanaraq atılıb qalırdı. İkincisi, təbii haldır ki, uzun zaman istismar olunan təbəqədə neft tükənir, quyuların orta məhsuldarlığı o qədər azalır ki, artıq onların işlənməsi mənfəət vermirdi.

*Cədvəl* 7

**Nobel Qardaşları cəmiyyəti, Qurultaylar Soveti və müxtəlif şəxslər tərəfindən yanacaq üçün çıxarılmış və yığılmış neft (1902-1913-çü illər)**

| İl | Noböl Qdrdaşları cəmiyyəti tərəfindin bütün sahələrdən yanacaq üçün çıxarılıb | Qurultaylar Soveti tərəfindən arxlardan yığılıb | Müxtəlif şəxslər tərəfindən quyulardan, arxlardan və s.yığılıb | Cəmi (yanacaq üçün çıxarılıb və yığılıb) | Cəmi %-lə |
|---|---|---|---|---|---|
| 1902 | 2095854 | 1 449890 | 1830437 | 5376181 | 0,83 |
| 1903 | 2387711 | 1744000 | 1566218 | 5697929 | 0,95 |
| 1904 | 2690154 | 1581640 | 3137639 | 740&433 | 0.12 |
| 1905 | 1990861 | 970288 | 2178371 | 5139520 | 1,2 |
| 1906 | 1998355 | 589022 | 3645739 | 6233166 | 1,37 |
| 1907 | 2822639 | 826633 | 2378869 | 6028141 | 1.26 |
| 1908 | 3028311 | 1062962 | 310v426 | 7197699 | 1.52 |
| 1909 | 3280713 | 1206058 | 4296597 | 8783368 | 1,73 |
| 1910 | 2452451 | 1500064 | 4292131 | 8244646 | 1,64 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1911 | 2433781 | 1618243 | 6711879 | 10763903 | 2,32 |
| 1912 | 2323833 | 4190920 | 12400305 | 18915058 | 3,93 |
| 1913 | 1379508 | 1079155 | 13426625 | 15885288 | 3.43 |

Quyularda hasilatın sürətlə azalması onların istifadəyə verildiyi ilk illərdə baş verirdi. Ümumiyyətlə desək, istismara verildiyi dördüncü ilin sonunda quyunun hasilatı ilə hasilatın üçdə-biri qədər azdır. Sonrakı illərdə hasilatın azalması o qədər də nəzərə çarpmır, hasilatın azalması quyularda aparılan təmir işləri, bir də əsasən istismarın əvvəlində quyudan çıxan təbii qazın tükənməsi ilə bağlıdır, bu cür qaz məhsuldarlığın başlıca səbəbidir. Quyularda hasilatın azalması aşağıdakı cədvəldə göstərilmişdir:

*Cədvəl 8*

| ilkin hasilata nisbətdə, %-lə | ilkin hasilata nisbətdə,%-lə |
|---|---|
| 2-ci il .... .... 35,1 | 9-cu il .................... 89,2 |
| 3-cü il .... ... 58,8 | 10-cu il ... .... 92,6 |
| 4-cü il .... ... 67,1 | 11-ci il ... .... 94,4 |
| 5-ci il .... .... 76,7 | 12-ci il ... .... 94,8 |
| 6-cı il ... .... 82,2 | 13-cü il ... ..... 95,6 |
| 7-ci il .... .... 86,4 | 14-cü il ... ......96,8 |
| 8-ci il .... .... 88,4 | 15-ci il .. ...... 98,3 |

O biri neft mədənləri ilə müqayisədə Bibiheybətdə qazılıb istismara verilmiş quyuların sayı o qədər azdır ki, onlar köhnə quyularda neft hasilatının orta hesabla azalması haqqında çox çətin ki, müəyyən bir təsəvvür yarada bilər. Bununla belə Balaxanı — Sabunçu — Ramana neft mədənlərinə aid statistik məlumatların Bibiheybət mədənlərinin statistik göstəriciləri ilə müqayisəsi belə bir faktı üzə çıxarır ki, Bibiheybətdəki quyular orta hasilat baxımından o biri neft mədənlərindən daha çox sabit olmuşdur. Şübhəsiz ki, fəvvarələrin dayanması ilə əlaqədar olaraq istismarın ikinci ilində hasilat sürətlə azalır, ancaq başqaları ilə müqayisədə burda aylıq orta hasilatda kəskin nəzərə çarpan dəyişiklik baş verir.

Quyunun məhsuldarlığının azalması birinci il ilə müqayisədə ikinci ilə 62%, üçüncü ilə 70%, dördüncü ilə 68,4%, beşinci ilə 78,9%, altıncı ilə 83,3%, yeddinci ilə 87,9%, səkkizinci ilə 98,4% təşkil edir.

1890-cı ildən sonra istehsal olunmuş lapma neftinin çıxarılan xam neftə nisbəti sürətlə azalır, 1890-cı ildə lampa nefti çıxarılan xam neftin 32,6%-ini təşkil edirdi.

Xam neft və neft məhsulları Bakıdan kənarlara dəmir yolu, dəniz və arabalarla daşınırdı. 1900-cü ilədək bölgədə neft müəyyən radiusda aksiz vergisindən azad idi və ancaq araba ilə daşınırdı. 1900-cü ildə hökumət aksiz vergisindən azad olan yerlərin radiusunu daraldaraq, yalnız Ağ şəhər və Qara şəhərlə məhdudlaşdırıldı. Bundan sonra göstərilən yerlərdən araba ilə daşınan neftdən tam vergi alınırdı. Beləliklə tam yəqinliklə demək olar ki, araba ilə ixrac olunan və vergiyə cəlb etmək məqsədilə qeydiyyatdan keçirilən neft ya Bakı, ya da onun ətraflarında istehlakçılar tərəfindən işlədilmişdi.

Bakıdan dəniz yolu ilə ixrac olunan neft əsasən Həştərxana gedir və buradan daxili bazara paylanırdı. Neft buradan Petrovsk, Krasnovodsk və İrana da yola salınırdı. Petrovska yola salınan neftin əksəriyyəti Vladiqafqazdan Novorossiyskə, buradan da gəmi ilə digər yerlərə göndərilirdi. Lap az miqdarda neft isə Rusiyanın digər yerlərinə və Qara dəniz limanlarına gedib çıxırdı. Dəmir yoluna gəldikdə isə, o, 1899-cu ilin sonunadək tamamilə Zaqafqaziya dəmir yolu şirkətinin əlində idi. 1990-cı ildə Vladiqafqaz dəmir yolunun Bakı-Petrovsk qolu alındı və neft gediş-gəliş intensivləşdi. Dəmir yolu neft ixracında çox böyük əhəmiyyəti var idi. Lakin, bu yolla daşınma müəyyən qədər artsa da, tariflər həddindən yüksək olduğundan biznesin inkişafına imkan vermir. Bu marşrutla daşınan neftin həcmi 1900-cü ildə 1228166 pud, 1901-çi ildə 3140602 pud, 1902-ci ildə 4130593 pud, 1903-cü ildə 485285 pud, 1904-cü il- də 3993000 pud və1905-ci ilin birinci altı ayında 857488 pud olmuşdur. Zaqafqaziya dəmir yolu vasitəsilə daşınmanın 1901-ci ildən kəskin şəkildə artması, əsasən, neft kəmərinin işə düşməsi ilə bağlıdır. Bu neft kəməri dəmir yolunun daşıma gücünü xeyli artırdı. İndi o, ildə 100000000 pud neft daşımağa qadir idi, ancaq bununla belə o, Qara dənizdə neftin daşınması üçün nəqliyyata olan ehtiyacı ödəmirdi. Buna görə də xeyli miqdarda neft, xüsusilə lampa nefti dənizlə Petrovskiyə yola salınır, burdan da dəmir yolu ilə Novorossiyskiyə daşınırdı. 1894-cü ildən Bakıdan dəniz və dəmir yolu ilə ixrac olunan neftin, xüsusilə lampa neftinin miqdarı aşağıda göstərilmişdir:

*Cədvəl 9*

| İl | Pudla | İl | Pudla |
|---|---|---|---|
| 1894 | 5206357 | 1901 | 18366198 |
| 1895 | 10159680 | 1902 | 11151358 |
| 1896 | 18381200 | 1903 | 28524870 |
| 1897 | 4778271 | 1904 | 25756238 |

| | | | |
|---|---|---|---|
| 1898 | 8929459 | (ilk 6 ay) | |
| 1899 | 24058308 | 1905 | 13306615 |
| 1900 | 322440028 | | |

*Cədvəl 10*

**Bakıda neft və neft məhsullarının istehsalı və ixracı**

| il | xam neft msqvhsalı | kerosin istahsalı | sürtkü yağı istehsalı | qalıq | xam neft | digər məhsullar | cəmi | xam neft istehsalının çəmi faizlə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | milyon püd hesabı ilə | | | | |
| 1891 | 275 | 74 | 5.7 | 103,3 | 11,4 | 0,5 | 194.9 | 79,9 |
| 1892 | 286 | 78,6 | 5,6 | 116,6 | 11.5 | 0.3 | 212,6 | 74,3 |
| 1893 | 325 | 65,9 | 5,8 | 143,5 | 12 | 9.7 | 247,9 | 76,3 |
| 1894 | 297 | 71.2 | 6,4 | 193,6 | 16,4 | 0.7 | 286,3 | 97,1 |
| 1895 | 377 | 81 | 6,7 | 180,4 | 15,1 | 1,1 | 264,3 | 75,4 |
| 1696 | 386 | 86,5 | 8.9 | 185 | 25,5 | 1 | 306,9 | 79,5 |
| 1897 | 421 | 90,4 | 9.1 | 221,7 | 23,7 | 1.2 | 346,1 | 82,2 |
| 1898 | 466 | 94,7 | 10,5 | 242,4 | 43.8 | 1.4 | 292,9 | 80,8 |
| 1889 | 525 | 103,2 | 11.5 | 24,9 | 24,5 | 1.5 | 285,6 | 73,4 |
| 1900 | 601 | 123,9 | 13,6 | 284,4 | 30 | 2.2 | 443,1 | 73.7 |
| 1901 | 672 | 128,7 | 13,8 | 309,3 | 35,1 | 1.2 | 488.1 | 72.6 |
| 1902 | 636 | 120,2 | 14,6 | 342,5 | 34,1 | 2,2 | 513,8 | 80,8 |
| 1903 | 596,6 | 146,5 | 16,6 | 303,9 | 26,4 | 0,9 | 484,3 | 82,8 |
| 1904 | 614.6 | 15,5 | 15,5 | 302,6 | 18,7 | 1.4 | 491,8 | 80.0 |
| | | | | | | | | |

| il | ixraçın cəmi | dəniz yolu ilə | dəmir yolu ilə | dənizlə (faiz nisbəti) | dəmir yolu (faiz nisbəti) |
|---|---|---|---|---|---|
| | | | milyon pud hesabı ilə | | |
| 1889 | 157,6 | 110,2 | 47,4 | 70 | 30 |
| 1890 | 176,9 | 118,6 | 57,3 | 67.6 | 32,4 |
| 1891 | 194,4 | 132,6 | 61,8 | 68,3 | 31,7 |
| 1892 | 212,9 | 145,1 | 67.8 | 68,2 | 31,8 |
| 1093 | 248,1 | 174,7 | 73,4 | 70,4 | 29,6 |
| 1894 | 288.4 | 222,6 | 65,8 | 77.2 | 22.4 |
| 1895 | 284,3 | 216,1 | 68,2 | 76 | 24 |
| 1896 | 306,8 | 244,8 | 62 | 79,7 | 20,3 |
| 1897 | 346.1 | 266,8 | 79.3 | 77.1 | 22.8 |
| 1898 | 393 | 309,3 | 83,5 | 78,8 | 21,2 |
| 1899 | 385,3 | 301,7 | 83,6 | 78,3 | 21.7 |
| 1900 | 443,1 | 352,9 | 88,8 | 79,6 | 20,4 |
| 1901 | 488,1 | 383,8 | 101,9 | 78.6 | 20,85 |
| 1902 | 513,4 | 409,4 | 101,2 | 79,7 | 19.7 |
| 1903 | 494 | 386,3 | 105 | 78,2 | 21,2 |
| 1904 | 491,8 | 379,8 | 108,9 | 77.2 | 22,1 |
| | | | Birinçi altı ay | | |
| 1905 | 224, 8 | 190,9 | 32.5 | 84.4 | 14.4 |

Bakıda xam neftin qiyməti müxtəlif idi. Quyudan çıxarılandan sonra müəyyən olunmuş qiymətə Qara şəhərə nəql üçün hər puda 1/4 qəpik artırılırdı. Bu qiymət neftin yolda sızması və buxarlanmaya görə daha 1/4 qəpik artırılırdı, beləliklə mədənlərdə xam neftin qiyməti kobud şəkildə ifadə olunsa, Qara şəhərdəki qiymətdən yarım dəfə ucuz idi.

Bakıda lampa neftinin iki qiyməti var idi, biri daxili istehlakçılar üçün — çənlərlə, çəlləklərlə satılırdı, ikinci isə xarici istehlakçılar üçün — sisternlə satılırdı. Daxili istehlakçılar üçün qiymətlər müəyyən dərəcədə sabit idi. Güclü rəqabətin olmaması və tələbatın durmadan artmasına baxmayaraq daxili bazardakı qiymətlər ixrac qiymətləri kimi tez-tez dəyişirdi. Digər tərəfdən ixrac qiymətləri Bakının neft bazarını tənzimləyir, tez-tez, xüsusilə bazar qiymətləri qalxanda, daxili istehsal üçün istifadə olunan neftin də qiyməti onunla birlikdə artırdı.

*Cədvəl 11*

Mədənlərdə xam neftin qiyməti

| | **1891** | **1892** | **1893** | **1894** | **1895** | **1896** | **1897** | **1898** | **1899** | **1900** | **1901** | **1902** | **1003** | **1904** | **1905** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **yanvar** | 4 | 1,4 | 2,3 | 2,1 | 4,5 | 7,1 | 8,9 | 9,4 | 12,9 | 16,6 | 11,42 | 4,6 | 7,78 | 16,16 | 14,063 |
| **fevral** | 4 | 1,3 | 2,2 | 2 | 4,7 | 7,4 | 8,9 | 6,7 | 12,9 | 16,7 | 10,36 | 4,7 | 6,88 | 16,66 | 13,444 |
| **mart** | 43,5 | 1,2 | 1,4 | 2,3 | 4,3 | 7,5 | 7,6 | 8,9 | 12,8 | 17 | 10,4 | 5,35 | 7,71 | 15,88 | 14,302 |
| **aprel** | 3,6 | 1 | 1,2 | 2,6 | 5 | 7,7 | 7,6 | 8,8 | 12,9 | 17,9 | 7,37 | 9,42 | 8,76 | 14,54 | 15.033 |
| **may** | 3 | 0,7 | 0,6 | 2,6 | 6,9 | 7,1 | 8,5 | 6,5 | 12,1 | 17,8 | 7,88 | 7,54 | 9,6 | 15,11 | 17.026 |
| **iyun** | 2,7 | 0,7 | 0,5 | 2,3 | 7,2 | 8,1 | 7,2 | 9 | 12,9 | 17,7 | 9,4 | 7,64 | 7,25 | 14,21 | 20,584 |
| **iyul** | 2,5 | 1 | 0,6 | 3,2 | 7,1 | 8,2 | 7,6 | 10,1 | 12 | 17 | 7,5 | 7,03 | 7,6 | 12,72 | 20.713 |
| **avqust** | 2,2 | 0,0 | 1 | 3,8 | 8 | 8,1 | 7,5 | 10,2 | 13,25 | 16,6 | 7,53 | 7,44 | 8 | 13,67 | - |
| **sentyabr** | 2 | 1,2 | 1,6 | 3,7 | 9 | 7,7 | 7,6 | 11,1 | 13,75 | 14,5 | 5,73 | 7,14 | 8,54 | 15,17 | - |
| **oktyabr** | 1,5 | 1,1 | 1,6 | 3,7 | 8 | 6,2 | 7,9 | 11,1 | 16,1 | 12,5 | 7,36 | 7,98 | 9,41 | 15,23 | - |
| **noyabr** | 1,5 | 1,3 | 1,8 | 4 | 6,6 | 6,2 | 7,6 | 11 | 17 | 12,5 | 6,74 | 7,87 | 12,21 | 13,91 | - |
| **dekabr** | 1,5 | 1,5 | 1,5 | 4,5 | 7 | 8,6 | 8,5 | 12,1 | 15,5 | 11,5 | 5,45 | 6,94 | 16,99 | 13,74 | |
| qiymət orta hes. | 2,7 | 1,1 | 1,4 | 9,1 | 6,8 | 7,8 | 7,7 | 8,8 | 13,7 | 15,7 | 8,11 | 6,72 | 9,04 | 14,67 | - |

*Cədvəl 12*

**Neft qalıqlarının qiyməti**

**hər pudun qiyməti qəpiklə**

| | **1891** | **1892** | **1893** | **1894** | **1895** | **1896** | **1897** | **1898** | **1899** | **1900** | **1901** | **1902** | **1003** | **1904** | **1905** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **yanvar** | 4,6 | 2,5 | 2,6 | 3,1 | 5,3 | 7,8 | 8 | *9,2* | 12,6 | 15,2 | 13,66 | 5,5 | 7,03 | 14,21 | 14,875 |
| **fevral** | 4 | 2,5 | 2,6 | 2,9 | 5,5 | *7,4* | 8,9 | 9,3 | 12,4 | 15,4 | 13,46 | 6,3 | 7,26 | 14,02 | 4.825 |
| **mart** | 3,6 | 2 | *2* | 3,2 | 5,6 | 7,4 | 8,2 | 9,2 | 12,6 | 16,4 | 13,05 | 6,2 | 7,98 | 15,62 | 15.839 |
| **aprel** | 4 | 1,3 | 1,7 | 3,6 | 6 | 8 | 8 | 9,6 | 12,6 | 17,6 | 9,VZ | 9,68 | 8,53 | 16,66 | 17.529 |
| **may** | 4 | 1,1 | 1,3 | 3,8 | 5,9 | 8 | 8 | 9,1 | 12,5 | 18 | 9,25 | 8,37 | 6,75 | 15,66 | 17,5 |
| **iyun** | 4 | 1 | 1,2 | 3,7 | 5,3 | 8,2 | 8 | 10,1 | 12,9 | 18,8 | 9,61 | 9,28 | 8 | 15,12 | - |
| **iyul** | 3 | 1 | 1,2 | 4 | 5,8 | 8,6 | 6,2 | 11,3 | 13,9 | 18,4 | 8.50 | 6,61 | 8.75 | 13,92 | 22,M5 |
| **avqust** | 3 | 1 | 1,8 | 4,6 | 5.8 | 7,2 | 8 | 11,4 | 14,1 | 17,0 | 7,92 | 8,72 | 8,49 | 15,05 | - |
| **sentyabr** | 2,7 | 1 | 2,4 | 4,2 | 8,5 | 7,2 | 8,1 | 12,2 | 13,9 | 17,4 | 7,82 | 7,86 | 6,62 | 16,42 | - |
| **oktyabr** | 1,5 | 1 | 12,6 | 4,1 | 6,6 | 7,3 | 8,4 | 12,6 | 13,6 | 14,6 | 6,19 | 7,87 | 9,12 | 16,78 | - |
| **noyabr** | 2 | 1,2 | 2,8 | 4,6 | 6,6 | 7,5 | 8,7 | 12,7 | 14,2 | 13,6 | 7,44 | 10,21 | 13,72 | - | - |
| **dekabr** | 2 | 2 | 3,2 | 6 | 7 | 8,6 | 9 | 12 | 14,6 | 13,6 | 6,4 | 7,21 | 15,75 | 14,07 | |
| qiymət orta hes. | 3,3 | 1,8 | *2,1* | 3.8 | 6,1 | *7,7* | *8.2* | 10,7 | 15,3 | 16,4 | 8,6 | 7,89 | 6,74 | - | - |

"Neft sahəsi" yaradılmasının iqtisadi cəhətdən sərfəli olub — olmayacağını müəyyənləşdirmək üçün XIX əsrin 70-ci illərində Yollar Nazirliyinin Dəmir Yolları departamenti Şimali Amerikanın neft sərvətlərini Abşeronun neft sərvətləri ilə müqayisə etmişdi. Bu müqayisə Abşeron yarımadasının böyük perspektivlərə malik olduğunu göstərdiyinə görə, onu misal göstərməyi lazım bilirik.

Pensilvaniyada qazılmış 14.000 quyudan 3-4 mini işləyirdi. Abşeronda 100-dən az quyu qazılmışdı, onlardan təqribən 40-ı neft verirdi. Şimali Amerikada neft azı 1.500 fuq dərinlikdən çıxarılırdı. Abşeron yarmadasında isə işləyən quyuların dərinliyi 360 fut idi. Şimali Amerikada bir neft quyusunun orta gündəlik məhsuldarlığı 60 pud, Abşeronda 1.000 puodan çox idi. Neftin hər pudu orta hesabla Şimali Amerikada 36,5 qəpiyə, Balaxanı sahəsində isə 3-4 qəpiyə satılırdı.

Tanınmış dağ-mədən mühəndisi Q.D.Romanovski yazırdı: "İndi — Amerika petrol sahələri, xüsusilə də Pensilvaniya mədənləri öz sənaye əhəmiyyətini itirdiyi bir vaxtda bizim Bakı, heç şübhəsiz, dünyanın ən zəngin neft ölkəsi kimi ön plana çıxacaq".

"Neft sənayesi və fotogen istehsalından aksizlər haqqında qaydalar" layihəsi 1872-ci ilin fevralın 1-də Sankt-Peterburqda imperatorun təsdiqinə verildi və II Aleksandr bunun üzərində belə bir dərkənar qoydu: "Olsun".

Beləliklə, rus, xarici və yerli kapital maqnatları üçün Azərbaycan neftinə doğru geniş yol açıldı. 1872-ci il fevralın 17-də Sankt-Peterburq, Moskva, Tiflis və Bakı qəzetlərində Azərbaycan neft mədənlərinin dekabrın 7-si, 14-ü, 21-i və 28-nə nəzərdə tutulmuş qarşıdakı hərracları haqqında Qafqaz canişinliyi baş idarəsinin elanı dərc edildi. Bakı quberniyası, Quba, Şamaxı və Lənkəran qəzalarındakı bütün neft mədənləri 48 qrupa bölünmüşdü. Onların hər birində 10 desyatindən artıq sahə yox idi, burada bütün neft quyularının vəziyyəti və hər bir sahənin təxmini dəyəri göstərilirdi. Hərraclarda bir sıra rus və əcnəbi kapitalistlər iştirak edirdi. Bakı qəzetləri Almaniya, İngiltərə və İsveçdən iri kapitalistlərin ölkəmizə gəlməsi barədə xəbərlər verirdilər. V və XVI qruplara daxil olan mədənlər istisna edilməklə, bütün neft mədənləri satıldı. Yaranmış mübahisələr nəticəsində yerdə qalan sahə qrupları isə bir qədər gec alındı. Təkcə Bakı qəzasında olan neft quyularını komissiya rubl məbləğində dəyərləndirmişdi. Hərraclar zamanı Balaxanıdakı güclü "Vermişevski" fontanı ilə bağlı ayrı-ayrı sahələrin qiymətləri həddən artıq şişirdilmişdi. Hərraclar nəticəsində nəzərdə tutulduğundan 51/3 dəfə artıq məbləğ, yəni 2939137 rubl əldə edildi.

Abşeron neft mədənlərini hərraclarda əsasən iri kapitalistlər aldılar.

Deyilənə görə, xan öz xanlığında demək olar ki, bütün torpaqların sahibi idi. Bakı xanlığının Rusiya tərkibinə daxil olmasından sonra (1806) əvvəlcə şəxsən Hüseynqulu xana məxsus olan torpaqlar (xassə) və keçmiş dövlət torpaqları fondu (divani) Rusiya dövlət xəzinəsinin mülkiyyəti elan edildi. Qeyd etmək lazımdır ki, əkinçi kəndlinin öz pay torpağı üzərində qeyd-şərtsiz hüquqa malik olması prinsipi dünyanın bir çox ölkələrinin qanunvericiliyində təsbit edildiyi halda, çar üsul-idarəsi dövründə, eləcə də Azərbaycanın Rusiya tərkibinə daxil olmasından sonra Azərbaycana şamil edilmirdi. Eynilə, ən mühüm faydalı qazıntı yataqları da torpaq sahibinin deyil (Rusiyada feodal mülkədarlar, Azərbaycanda bəy-mülkədarlar istisna olmaqla), dövlət hakimiyyətinin tabeliyində idi. Bu torpaqları, torpaq sahibinin iradəsindən asılı olmayaraq arzu edənlərə belə verə bilərdilər. Yerli sakinlər belə özbaşınalıqlara qarşı qəti narazılıqlarını bildirdilər. Ona görə də Nazirlər Şurasının xüsusi jurnalının 1907-ci il 17 mart sayında da göstərilirdi: "Qafqazın kənd əhalisi kəndlilərə məxsus neftli torpaqların 1891-ci il 20 fevral qaydalarına uyğun olaraq xəzinə üçün müsadirəsinə son dərəcə mənfi yanaşır".

Ticarət və sənaye naziri neft sənayeçilərindən çoxsaylı şikayətlər aldıqdan sonra canişinə məktub yazaraq "neft kəşfiyyatı işində kəndlərin sakinlərinin yaratdığı maneələrə qarşı özündən asılı olan tədbirləri görməyi" xahiş etdi. Qafqaz canişininin sərəncamına əsasən, Şuranın üzvü N.F.Cunkovski Bakı şəhər qubernatoru Martınova təklif etdi ki, Bakı şəhəri kəndləri əhalisinin bu cür çıxışlarına qarşı ən ciddi tədbirlər görsün.

Abşeronun neftlə zəngin torpaqlarını çar öz yaxın adamlarına, xüsusilə də əyyanlarına səxavətlə paylayırdı. 1879-cu ildə çar fərmanına əsasən general-leytenant İ.D.Lazarev, knyaz F.Z.Vitrqenşteyn, general-leytenant D.M.Staroselski, general D.Çavçavadze, Kutaisinin sabiq general-qubernatoru A.Qaqarinin arvadı və bir çox başqalarına da hərraclarsız torpaq bağışlanmışdı. General-mayor A.P.Şuvalovun Suraxanıdakı sahəsi 37,5 desyatin olan neftli sahələri icarəyə verilməsi barədə ərizəsinin üzərində çarın dərkənarı var: "Göstərilən sahələri dərhal qraf Şuvalovun mülkiyyətinə verməli".

Azərbaycan tarixi arxivində saxlanılan sənədlər Abşeronun və Azərbaycanın digər bölkələrinin (Yelizavetpol, Xıdırzindan və s.) kəndli torpaqları fondunun talan edilməsini təsdiqləyir. 1872-73-cü illərdə çarın 1872-ci il 1 fevral tarixli fərmanına əsasən 5325 desyatin kəndli və icma torpağı satılmışdı.

"Kaspi" qəzeti 1908-ci il 28 oktyabr tarixli sayındakı "Rasxişenie boqatstva" ("Sərvətin talan edilməsi") məqaləsində ölənin təbii sərvətlərinin işlədilməsi və Abşeronun neftli torpaqlarının hərraca çıxarılmadan paylanılması zamanı yol verilən fırıldaqları təsvir edərək istefaya çıxmış Ticarət və sənaye nazirinin, həmçinin gizli müşavir Timiryazevin məsuliyyətə cəlb olunmasını tələb edirdi.

"Baku" qəzetinin 1909-cu il 14 oktyabr tarixli sayındakı "Maxinaçiya s neftlnımi uçastkami" məqaləsində oxuyuruq: "Senyavindən və kameryünker Mamontovdan başqa üstəlik pristav köməkçisi Asribekov da hərracsız və qanunu pozmaqla neftli sahələr ələ keçirməyə müvəffəq olmuşdur. Sonuncu şəxs 3 nəfərin adından vəsadət verir, özü də onlardan biri 3 il öncə vəfat etmişdir".

Xüsusilə 1907—1908-ci illərdə, Abşeronun neftlə zəngin torpaqlarının sürətlə talan edilməsi və kəndlilərin narazılığı barədə belə məqalələrlə Peterburq, Moskva, Bakı və Tiflisdə çıxan "Reç", "Qolos Moskvı", "Nova Rus", "Zakavkazska reç" və s. qəzetləri də çıxış edirdilər.

Neft sənayeçiləri qurultayı Şurasının bir sənədindən görünür ki, Abşeronun əsas neft rayonlarında (Balaxanı, Sabunçu, Ramana, Zabrat) XIX yüzilliyin sonlarında neftlə və Azərbaycanın sənayesinin digər sahələri ilə əlaqəsi olan 67467 adam yaşayırdı. Bu əhalinin 83%-ə yaxını Bakıya pul qazanmaq üçün köçmüş və mədən

sahələrində yaşayan gəlmələr idi. Lakin istər yerli, xüsusilə də Rusiya və İranın müxtəlif vilayətlərindən gəlmiş fəhlələrin mənzil-məişət şəraiti çox acınacaqlı idi.

Bakı qubernatoru canişin İ.İ.Vorontsov-Daşkova yazdığı 11 mart 1905-ci il tarixli 23 saylı məktubunda bunu etiraf etməyə məcbur olmuşdu: "Fəhlə və qulluqçuların böyük əksəriyyəti — özü də bunların demək olar ki, yarısı ailəli adamlardır — mədən ərazisində, qurğular olmayan sahələrdə darısqal tikililərdə yerləşməyə məcburdur. İşçilərin bir hissəsi kazarmalarda yaşayır. Bəzən kiçik bir otaqda hər iki cinsdən olan 10 nəfərə yaxın böyük və uşaq qalır".

Rus yazıçısı A.M.Qorki Bakıda 2 dəfə — 1892 və 1897-ci illərdə olmuş və Sabunçudakı fəhlə kazarmalarına baş çəkdikdən sonra yazmışdı: "... Qarmaqarışıq buruq meşəsi içərisində yerə yapışan, sarımtıl və bom-boz yonulmamış daşdan tələm-tələsik tikilmiş alçaq fəhlə qəsəbələri yerləşirdi. Bunlar qədim insan məskəninə çox bənzəyirdi. Mən heç vaxt insan yaşayan yerin ətrafında bu qədər müxtəlif çirkab və tullantı, sınıq pəncərə şüşələri və mağaraya bənzəyən otaqlarda belə miskin yoxsulluq görməmişəm".

Təkcə 1907-ci il ərzində Bakıda neft hasilatından 49,9 mln. rubl xalis gəlir əldə etmiş Rusiya hökuməti 1902-1907-ci illər ərzində 40 min fəhlə üçün bircə yaşayış binası və ya yataqxana, xəstəxana, məktəb, ictimai-mədəni tikili inşa etməmişdi.

Peterburqda çıxan "Novaya raboçaya qazeta" mədənlərdə fəhlələrin ağır iş şəraitini göstərərək yazırdı: "Azərbaycan kəndləri Sabunçu, Balaxanı, Ramana və Zabrat vaxtilə bir-birindən tarlalar, üzüm bağları ilə ayrılırdı. İndi bu sahə minlərlə quyu ilə qazıq-qazıq edilmiş, bütün mədənlərdən və yaşayış evlərindən axıdılan çirkab sularının əmələ gətirdiyi açıq arxlarla, iylənmiş su və neft çalaları ilə dolmuşdur... Gündüzlər günəş yandırır, səs-küy, gurultu eşidilir, gecələr isə üfunətdən nəfəs almaq olmur. İşini qurtarmısansa, evdə də eyni mənzərə ilə qarşılaşacaqsan."

Bakı neft sənayeçilərinin XXXIV qurultayında fəhlə rayonlarının nümayəndələri tələb edirdilər: "... e) Mədən sahələrində həqiqi sanitar nəzarəti təsis etmək zəruridir.... Biz hamamsız, içməli susuz, mənzilsiz, yaxşı çörək və ətsiz zülm çəkir, küçə və həyətlərdəki çirkab və tullantı içində boğuluruq; j) Neçə aydan bəridir ki, Balaxanı rayonu fəhlələrinin səyyar həkimi yoxdur və bu da ona görədir ki, şura çox az haqq verir; d) Qara şəhər rayonunda doğum məntəqəsi açmaq lazımdır, çünki zövcələrimizin hamiləlikdən azad olmaları üçün Qara və Ağ şəhərlərdə xüsusi yer yoxdur".

Nəhəng gəlir əldə edən hökumət və neft sənayeçiləri neftçi fəhlələrin balalarının təhsil alması üçün məktəblər açmaq qayğısına qalmırdılar. XIX yüzilliyin sonunadək Bakıda neft sənayeçiləri və dövlət hesabına saxlanılan bircə məktəb belə yox idi. Varlı azərbaycanlıların barmaqla sayıla biləcək sayda uşaqları dini və ya pullu məktəblərdə oxuyurdu. Balaxanıda ilk pullu ibtidai məktəb yalnız 1882-ci ildə açılmışdır. Qeyd edək ki, orada şərq dillərini görkəmli Azərbaycan şairi M.Ə.Sabir Tahirzadə tədris edirdi. Bakıda ilk qız gimnaziyası (1895) və Mərdəkanda sənət məktəbi (1892) öz xərcini ödəmə prinsipi bazasında H.Z.Tağıyevin təşəbbüsü ilə açılmışdı.

Hakimiyyət dairələri və neft sənayeçiləri fəhlələrin iş şəraitini yaxşılaşdırmaq, əmək haqqını artırmaq, yaşayış evləri, xəstəxana və ambulatoriyalar, məktəblər, mədəni-maarif məntəqələri, qadın məsləhətxanaları və doğum evləri tikmək əvəzinə, fəhlə sinfinin öz siyasi və iqtisadi hüquqları uğrunda arası kəsilməyən çıxışlarını qarşısını almaq üçün Bakının neft rayonlarında polis xidmətini gücləndirirdilər. Bakı neft sənayeçiləri qurultayı şurasının 1915-çi il üçün hesabatında aşağıdakı xərclər nəzərdə tutulurdu:

1. Fəhlə qəsəbələri üçün torpağın icarəyə götürülmə- si 1000 rubl;
2. Neft mədənləri ərazilərinin qurudulması — 30284 rubl;
3. Polis xərcləri — 593440 rubl;
4. Kitabxanalar — 220 rubl.

Qafqaz canişininin təsdiq etdiyi bu smetadan görünür ki, neft rayonlarında polis xidmətinin saxlanılması üçün xərclər şuranın ümumi məsrəflərinin 94%-ni təşkil edirmiş. Bundan əlavə hər il şəhər Duması büdcəsinin 40%-i (2,4 milyondan 0,94 milyon rubl) 1906-cı il oktyabrın 28-də çar fərmanı ilə təsis edilmiş Bakı şəhər bələdiyyəsinin saxlanılmasına sərf olunurdu. Şəhərdə Salyan alayından və 2 plastun batalyonundan (2400 sünkü) və 480 sünkü çıxara bilən 3 kazak polkundan ibarət qarnizon da vardı.

Kapitalizm dövründə Azərbaycan neft sənayesinin tarixini 3 əsas dövrə bölmək olar.

Birinci dövr — 1873-1898-ci illər. Bu vaxt yaranmaqda olan kapitalist istehsal münasibətləri Azərbaycan neft sənayesinin inkişafını sürətləndirdi və o, Amerika neft sənayesinə çatdı.

İkinci dövr — 1899-1901-ci illər. Azərbaycan neft sənayesi və neft emalı sahəsində birinci yeri tutaraq dünyada neft hasilatının yarıdan çoxunu təmin edirdi. Bu dövr neftin çıxarılma və emalı prosesinin iri neft maqnatlarının əlində cəmləşməsi və xarici kapitalın Azərbaycan neft sənayesinə daha sürətlə nüfuz etməsi ilə səciyyələnir.

Üçüncü dövr — 1902-1920-ci illər. Bu vaxt əcnəbilərin neft mədənlərinin vəhşicəsinə istismarı nəticəsində Azərbaycan neft sənayesi Amerika neft sənayesindən geridə qalmağa başladı, ancaq bununla belə dünya bazarında əsas neft təchizatçılarından biri olaraq qaldı. Rus və yerli sahibkarlar tədricən Azərbaycanın neft və digər sahələrindən sıxışdırılırdı.

1881-1909-cu illərdə dünya neft hasilatı ilə müqayisədə Azərbaycanda neft çıxarılması miqdarı cədvəldə göstərilir:

*Cədvəl 14*

| İllər | Dünya neft hasilatı | Abşeronda neft hasilatı | İllər | Dünya neft hasilatı | Abşeronda neft hasilatı |
|---|---|---|---|---|---|
| 1881 | 265000 | 41000 | 1896 | 964000 | 409000 |
| 1882 | 298000 | 51000 | 1897 | 985000 | 429000 |
| 1883 | 252000 | 60000 | 1898 | 1018000 | 490000 |
| 1884 | 288000 | 90000 | 1899 | 1078000 | 525000 |
| 1885 | 296000 | 116000 | 1900 | 1235000 | 604000 |
| 1886 | 352000 | 124000 | 1901 | 1384000 | 672000 |
| 1887 | 386000 | 168000 | 1902 | 1548000 | 644000 |
| 1888 | 409000 | 194000 | 1903 | 1639000 | 600000 |
| 1889 | 482000 | 207000 | 1904 | 1849000 | 620000 |
| 1890 | 632000 | 240400 | 1905 | 1823000 | 412000 |
| 1891 | 740000 | 289000 | 1906 | 1797000 | 454000 |
| 1892 | 723000 | 297000 | 1907 | 2216000 | 480000 |
| 1893 | 756000 | 345000 | 1908 | 2401000 | 468000 |
| 1894 | 739000 | 311000 | 1909 | 2532000 | 502000 |
| 1895 | 884000 | 401000 | | | |

Beləliklə, Bakı neft sənayesi icra sisteminin ləğvi nəticəsində neft hasilatını kəskin sürətdə artırdı.

Əgər 1871-ci ildə Abşeron yarımadasında maksimum neft hasilatı 1165285 pud idisə, icarə sisteminin ləğvindən dərhal sonra çıxarılan neftin həcmi kəskin surətdə artmağa başladı. Rəqəmlər aydın göstərir ki, Azərbaycan sənayesi 30 il ərzində neft hasilatını 576 dəfə artırmışdır.

Bu cür kəskin sıçrayış həmin dövr üçün çox diqqətəlayiqdir, belə ki, o zaman həmin dövr üçün qabaqcıl texnika və texnologiyaya malik xarici kapitalist ölkələri Azərbaycanın neftçıxarma sənayesindən xeyli geridə qalmışdılar. Dünya neft hasilatının yarıdan çoxunu verməklə Bakı hətta Şimali Amerika kimi qabaqcıl ölkəni çox-çox geridə qoydu.

*Cədvəl 15*

| Sıra №-si | İllər | Bütün mədənlərdə çıxarılan neftin ümumi miqdarı | Sıra №-si | İllər | Bütün mədənlərdə çıxarılan neftin ümumi miqdarı |
|---|---|---|---|---|---|
| 1 | 1871 | 1165285 | 26 | 1896 | 408800000 |
| 2 | 1872 | 1395114 | 27 | 1897 | 49200000 |
| 3 | 1873 | 3900000 | 28 | 1898 | 490943348 |
| 4 | 1 874 | 5350000 | 29 | 1899 | 525247415 |
| 5 | 1875 | 500000 | 30 | 1900 | 603763812 |
| 6 | 1876 | 1906000 | 31 | 1901 | 671576263 |
| 7 | 1877 | 10557386 | 32 | 1902 | 643077585 |
| 8 | 1878 | 14929870 | 33 | 1903 | 601546524 |
| 9 | 1079 | 2156231 | 34 | 1904 | 621328705 |
| 10 | 1880 | 201264 | 35 | 1905 | 414106378 |
| 11 | 1881 | 40474731 | 38 | 1906 | 454869646 |
| 12 | 1882 | 50507723 | 37 | 1907 | 479536533 |
| 13 | 1883 | 60375970 | 38 | 1908 | 472371452 |
| 14 | 1884 | 90229915 | 39 | 1909 | 506445019 |
| 15 | 1885 | 115500000 | 40 | 1910 | 502519388 |
| 16 | 1886 | 123500000 | 41 | 1911 | 463203091 |
| 17 | 1887 | 167868759 | 42 | 1912 | 481792358 |
| 18 | 1888 | 194341955 | 43 | 1913 | 463603743 |
| 19 | 1889 | 20700000 | 44 | 1914 | 489300000 |
| 20 | 1890 | 240400000 | 45 | 1915 | 450800000 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 21 | 1891 | 289600000 | 46 | 1916 | 476900000 |
| 22 | 1892 | 296500000 | 47 | 1917 | 403500000 |
| 23 | 1893 | 344700000 | 48 | 1918 | 188100000 |
| 24 | 1894 | 311153000 | 49 | 1919 | 210100000 |
| 25 | 1895 | 401200000 | 50 | 1920 | 155800000 |

"Amerikanın işi bitdi!" — Karl Marvin özünün "Predstonşii potok russkoy nefti" kitabçasında belə yazırdı. ABŞ-ın bütün 25 min neft quyusundan sutkalıq hasilat 1885-ci ildə 260 min qallon, yəni 24375 pud idi. Marvin yazırdı: "Bu rəqəmləri H.Tağıyevin quyusunun bir sutkada verdiyi 260 min qallon neftlə müqayisə edin. Bundan sonra "Hər şeyin yaxşısına malik ölkə" olan Amerika başını aşağı dikə bilər. Amerikanın işi bitdi".

"Nobel qardaşları şirkəti"nin 15 saylı quyusu 595 fut dərinlikdən nəhəng miqdarda — sutkada 73 milyon qallon (6,9 mln.pud) neft verməyə başlayanda bütün kapitalist dünyası, neft maqnatları Bakı neft mənbələri barədə xüsusi heyranlıqla danışmağa başladılar. Amerika qəzetləri öz məqalələrində bu quyudan bəhs edərkən yazırdılar ki, bu quyu Amerikada olsaydı, təkcə onun vasitəsilə ümumi götürüldükdə milyonlarla dollar əldə etmək olardı.

XIX əsrin 70-ci illərində Abşeronun neft mədənlərində olmuş bəzi Amerika və ingilis səyyahları öz ölkələrinin qəzetlərində sübut etməyə çalışırdılar ki, Bakı nefti tükənir. Təxminən 10 il ötdükdən sonra isə onlar artıq belə deyirdilər: "Bu müddəa yanlışdır və elmi cəhətdən əsassızdır. Əlimizdə danılmaz tarixi məlumatlar var ki, hələ 2500 il öncə Abşeron yarımadasından başqa yerlərə neft aparılırmış... Güman etmək çətindir ki, 5 mil$^2$ sahədəki 5000 quyu 1 və ya 2 il ərzində 1600 mil$^2$ sahədə bütün nefti çıxara bilsin. Beləliklə məlum olur ki, tükənən Bakı nefti yox, Amerika neftidir".

Azərbaycanın neft sənayesində ikinci, ən uzun sürən iqtisadi böhran 1902-ci ildə başlandı, bu bir çox xırda və orta sahibkarların müflisləşməsinə gətirib çıxardı.

Azərbaycan neft sənayesində ikinci böyük böhranın bu mərhələsində hasilatın bütünlüklə enməsi 1902-ci ilin ilk günlərindən başlandı ki, bu da öz növbəsində çar Rusiyasının ağır sənayesinin bir çox sahələrində istehsalın kəskin azalmasına səbəb oldu. Böhran Bakı neft mədənləri və zavodlarında neft hasilatı və emalının müvəqqəti dayanmasına gətirib çıxardı. 1905-ci il hadisələri böhranı kəskinləşdirdi və uzatdı.

*Cədvəl 16*

**Bakıda 1905-çi il milli münaqişəsi nəticəsində neft mədənlərində yaranmış vəziyyət**

| | dağıdılmış quyuların sayı və aylıq hasilat | | | |
|---|---|---|---|---|
| | sayı | hasilat tonla | sayı | hasilat tonla |
| Balaxanı | 408 | 67,639 | 194 | 33,696 |
| Sabunçu | 405 | 170,150 | 205 | 92,346 |
| Ramana | 94 | 63,893 | 104 | 71,969 |
| Bibiheybət | 118 | 137,034 | 80 | 98,207 |
| Zabrat | 1 | 102 | - | - |
| Cəmi | 1026 | 438818 | 583 | 296,218 |

Çar agentlərinin qızışdırıcı erməni-azərbaycanlı qırğını neft sənayesində hərc-mərclik və anarxiya yaratdı, uzun müddət bir çox quyuların qazılmasını dayandırdı və işləyən qazma quyularını dağıdaraq, aylıq hasilatı aşağı salaraq neftli layların su ilə dolmasına səbəb oldu. Böhran demək olar ki, 1906-cı ilin sonunadək da- vam etdi və bunun nəticəsində təkcə Bakının 4 köhnə neft rayonunda 231,4 mln. pud neft itirildi.

*Cədvəl 18*

**Yanğın nəticəsində dəymiş ziyan**
*(müxtəlif mənbələrin hesablamalarına görə)*

| | Balaxanı | Sabunçu | Ramana | Bibiheybət | Zabrat | Cəmi | Dağıdılmış neftin qiyməti | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Buruqların sayı | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| mədən sahibinin məlumatına görə | 338300 | 537100 | 122000 200500 | 12000 | 1209900 | - | |
| dağ-mədən nəz-in məlumatına görə | 382000 | 556400 | 119500 184400 | 4000 | 1246300 | - | - |
| | | | Emalatxanalar | | | | |
| mədən sahibinin məlumatına görə | 28000 | 130500 | 3500 13700 | - | 175700 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 21600 | 28500 | 3400 16200 | 4700 | 74400 | - | - |
| | | | Qazanxanalar | | | | |
| mədən sahibinin məlumatına görə | 16000 | 80600 | 10900 3100 | - | 110600 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 5400 | 12400 | 2800 3400 | - | 24000 | - | - |
| | | | Yaşayış binaları | | | | |
| mədən sahibinin məlumatına görə | 69300 | 179400 | 3300 20000 | - | 272000 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 69400 | 68800 | 15500 34900 | 5400 | 194000 | - | - |
| | | | Sisternlərin sayı | | | | |
| mədən sahibinin məlumatına görə | 19200 | 120700 | 3800 14600 | - | 158300 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 19000 | 47700 | 7200 23000 | - | 96900 | - | - |
| | | | Anbarlar | | | | |
| mədən sahibinin məlumatına görə | 60800 | 167000 | 9400 13400 | - | 250600 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 18600 | 20600 | 5200 11200 | 1900 | 57500 | - | - |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Boru kəməri | | | | |
| mədən sahibinin məlumatına görə | 26800 | 148500 | 8200 15200 | - | 108700 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 31800 | 40700 | 8800 11600 | 400 | 93300 | - | - |
| | | | Müxtəlif qurumlar | | | | |
| mədən sahibinin məlumatına görə | 28500 | 41100 | 9500 2100 | - | 81200 | - | - |
| dağ-mədən nəz-in məlumatına görə | 19500 | 20200 | 4400 10500 | 1000 | 55600 | - | - |
| | | | Cəmi | | | | |
| mədən sahibinin məlumatına görə | 586900 | 1404900 | 170600 282600 | 12000 | 2457000 | 134600 | 2591600 |
| dağ-mədən nəz-in məlumatına gərə | 567300 | 795300 | 166800 295200 | 17400 | 1842000 | 134600 | 1976600 |

XX əsrin əvvəllərində Bakıya xarici kapital axını gücləndi və o, neft sənayesində artıq aparıcı mövqe tutdu. Həmin vaxt öz caynaqlarını Bakı neftinə uzadan ingilis şirkətləri xüsusi fəallıq göstərdilər. 1893-1903-cü illərdə ingilis sənayeçiləri Bakı rayonu müəssisələrinə 47 mln. rubldan artıq məsrəf qoymuşdular. 1902-ci ildə Bakıda 39,4 mln.rubl kapitalı olan 11 ingilis müəssisəsi vardı. Neft sənayesinin inhisarlaşması və Abşeronun neft ehtiyatlarının kapitalistlər, xüsusilə də əcnəbi kapitalistlər tərəfindən vəhşicəsinə istismarı kapitalist sisteminin çürüməsinə, texniki tərəqqinin ləngiməsinə gətirib çıxartdı.

XX əsrin əvvəllərində Azərbaycanda neft çıxarılması həcminin kəskin enməsi səbəbləri aşağıdakılardır:

Birincisi — neft sənayeçiləri, xüsusilə də əcnəbilər neft ehtiyatlarının düzgün istismarında qətiyyən maraqlı deyildilər. Hasilatın əsas üsulu fontan üsulu idi. Nəticədə demək olar ki, bütün sahələrdəki çoxsaylı açıq fontanlar lay enerjisinin tükənməsinə və deməli, quyuların debitinin enməsinə səbəb oldu.

Məsələn, 1893-1902-ci illərdə açıq fontan üsulu ilə 924 mln. puddan artıq neft alınmışdı.

Neftlə birlikdə çıxan qazın miqdarı ümumiyyətlə heç yerdə qeydə alınmırdı. O, sadəcə neft hasilatına əngəl kimi atmosferə buraxılırdı.

İkincisi — müasir qazma texnologiyası olmadığından kifayət qədər neft ehtiyatına malik olan quyularda aşağı horizontlaradək qazımağa imkan yox idi.

Üçüncüsü — istismar sisteminin özü bu və ya digər üsulla yer səthinə çıxarılan neft ehtiyatlarının mütəşəkkil utilizasiyasına imkan vermirdi.

Nəhayət, sonuncu və ən başlıca səbəb — neft sənayeçiləri (yerli və əcnəbi) arasında xüsusilə 1905-ci ildən sonra başlanmış amansız rəqabət idi.

Bəzi neft şirkətlərinin neft hasilatını bərpa etmək cəhdləri nəticə vermədi. Təkcə 1910-cu ildə, 1909-cu ilə nisbətən bütün Rusiya üzrə neftin ümumi hasilatının cüzi artması müşahidə edildi ki, bu da Yeni Suraxanı və digər rayonlarda neft hasilatının sürətlə artması sayəsində mümkün olmuşdu.

Neft sənayeçilərinin Abşeronda quyuların sayını və onların dərinliyini artırmaq yolu ilə neft hasilatını yüksəltmək cəhdi ona gətirib çıxartdı ki, quyuların orta dərinliyi və onların debiti bəzi hallarda artdı, həmçinin ayrı-ayrı sahələr üzrə bütövlükdə hasilat da yüksəldi. Lakin quyuların debitinin bu artımı müəyyən həddə qədər davam etdi, bundan sonra daha dərin quyuların qazılması sahəsindəki tədbirlərin heç biri müsbət nəticə vermədi. hərçənd orta hesabla ildə 22-23 quyu qazılır, quyuların dərinliyi isə 133,0 sajendən artıq olmurdu.

Abşeronda neft hasilatının kəskin azalmasına gətirib çıxaran əsas səbəbləri sadalayarkən, biz mədənlərdə açıq fontanların olmasını göstərmişdik. Neft sənayeçiləri maksimum fontan hasilatına nail olmağa can atırdılar, çünki bu, qısa müddət ərzində çox böyük miqdarda, daha ucuz neft əldə etməyə imkan verir, həmçinin rəqib üzərində asan qələbəni təmin edirdi. Daha sonra, hər bir açıq fontan neft sənayeçiləri və səhmdar şirkətlərinə sərfəli birja əməliyyatları aparılmasına imkan verirdi. Buna görə də, ucuz neftdən və birja fırıldaqlarından kapital toplayan neft sənayesi şirkətlərinin sahibkarları yataqların istismarında texniki rejimin ardıcıl təminatına əhəmiyyət vermirdilər.

XIX əsrin 90-cı illərinin əvvəllərində digər ölkələrdə neft sənayesinin coşqun inkişafı və Rusiyada onun qeyri-qənaətbəxş təşkili nəticəsində 1904-cü ildən sonra neft məhsullarının ölkədən ixracı xeyli aşağı düşdü. Buna görə də xarici bazarlar uğrunda mübarizədə uğur qazanmaq şansları zəiflədi. Bütün bu amillər hamısı birlikdə Bakıdan neft və neft məhsulları ixracatının məhdudlaşmasına gətirib çıxartdı.

Qeyd etmək lazımdır ki, neft sənayeçiləri bir-birinin sahəsindən nefti sormaq üsulundan geniş istifadə edirdilər. Bu məqsədlə qonşu sahələrin sərhədlərində qazma quyuları arasında məsafə kiçik olmaqla quyular yerləşdirirdilər. Yer təkinin sərvətlərindən yalnız öz maraqları üçün istifadə etməyə can atan neft sənayeçiləri quyuların sementləşdirilməsi üsullarını bir-birindən gizlədir, quyuların dərinliyi, qazma zamanı rast gəlinən süxurlar barədə yanlış məlumat verirdilər. hətta Abşeron neft yataqlarının geoloji xüsusiyyətlərini hərtərəfli öyrənmiş, Sankt-Peterburq Dağ-Mədən institutunun tələbəsi N.Sokolovskinin 1877-ci ildə təklif etdiyi yeni jelonka konstruksiyası qazma alətini çıxarmadan quyuların dibinin təmizlənməsinə imkan verdiyi halda, bu yenilik bir çox neftçıxarma firma və cəmiyyətlərindən gizli saxlanılmışdı. Sahibkarlar quyuların mexaniki qazılmasının yeni, artezian quyuların qazılmasına oxşar üsuluna o qədər etibarsız yanaşırdılar ki, bu mütərəqqi metod bir müddət tamamilə unuduldu. Qazma texnikasını bilən adamlar demək olar ki, yox idi və buna görə də hamı eyni cür işləyir, yalnız öz iş təcrübəsinə əsaslanırdı. Eksperimentlərə xeyli əmək və vəsait sərf edirdilər. Kapitalistlər, xüsusilə də əcnəbilər yerli azərbaycanlı ustalara saymazyana və inamsız yanaşırdılar. "Nobel qardaşları şirkəti" və digər kapitalistlər başqa ölkələrdən qazma ustaları dəvət edirdilər. Çox vaxt bu ustalar Bakıya gəldikdən sonra, onların hazırlıqsız olduqları aşkara çıxırdı, lakin bu onların yerli ustalardan öyrənməsinə və təcrübə qazanmasına mane olmurdu.

Akademik İ.M.Qubkin Bakı mədənlərinin 1920-ci ilədək olan texniki vəziyyətindən bəhs edərək yazırdı: "İri, ləng və baha başa gələn ştanq qazması, quyuların nuh əyyamından qalma jelonka ilə istismarı, faydalı iş əmsalı son dərəcə aşağı olan buxar maşınının hökmranlığı, neftin saxlanılması üçün açıq torpaq anbarların sonsuz sayda olması, qaz və yüngül neft fraksiyalarının çox böyük miqdarda itkiləri, fontanların öhdəsindən

gələ bilməmək, yer təkinin vəhşicəsinə istismarı, geoloji xidmətin olmaması, əməyin mühafizəsi sahəsində heç bir iş görülməməsi — kapitalizmin mütləq hakimiyyəti dövründə Azərbaycan mədənlərinin mənzərəsi belə idi".

Azərbaycan neftçiləri sərt rəqabət şəraitində qazma texnikası və neftin emalı texnologiyasına bir çox yeniliklər gətirmişdilər. Məsələn, 1905-ci ildə Balaxanıda dünya neft sənayesində ilk dəfə olaraq kompressor istismarı tətbiq edildi. 1911-ci ildə Suraxanıda Qaver ilk dəfə hərlənən qazma üsulundan istifadə etdi. Ramanada ilk dərinlik nasosları işə salındı, qazlift sınaqdan çıxarıldı və i.a.

Bütün bu yeniliklər 1915-1916-cı illərdə yer qabığının daha dərin qatlarında yeni neft mənbələrinin kəşfi üçün şərait yaratdı.

1917-ci il yanvarın 4-də neftin qiyməti məsələsi yanacaq üzrə Xüsusi Müşavirədə müzakirə olunmuşdu. Müşavirədə neftin hər pudunun qiymətini 10 qəpik artırmaq barədə səs çoxluğu ilə qərar qəbul edilmişdi. Neft bölməsi bürosuna daxil olan neft işbazları "Xüsusi Müşavirənin öz qərarını dəyişməsi üçün bütün tədbirləri görməyi və Xüsusi Müşavirənin göstərilən qərarı ilə əlaqədar öz fikirlərini təcili qaydada nazirə çatdırmağı" qərarı almışdılar. Onlar bu fikirdə idilər ki, neftin qiymətini bir pud üçün 15 qəpik artırmaq lazımdır. 1917-ci il yanvarın 20-də neftin qiyməti məsələsinə Nazirlər Şurası da baxmış və burada da yekdillik olmamışdı: Şuradakı azlıq qiymətlərin 10 qəpik, çoxluq isə, o cümlədən də, Ticarət və Sənaye naziri Şaxovski 15 qəpik artırılmasına tərəfdar çıxmışdı. Azlıq neft müəssisələrinin böyük mənfəət qazanmasına dair nümunələr gətirərək, göstərirdi ki, neftin ən iri istehlakçısı dövlətdir və qiymətlərin çox artırılması əlavə xərclərə səbəb olacaqdır. Nəhayət göstərilmişdir ki, neftin qiymətlərinin artırılması labüd surətdə kömürün və metalın qiymətlərinin artırılmasına səbəb olacaqdır. Bu dəlillərə baxmayaraq, Nazirlər Şurası üzvlərinin əksəriyyəti və xüsusən də, Ticarət və Sənaye naziri 15 qəpiklik əlavə haqq üzərində təkid etməkdə idilər. Yeri gəlmişkən qeyd edək ki, yuxarı hədd qiymətləri ilə heç kəs ciddi surətdə hesablaşmırdı. Bunlar kifayət qədər xəyali tənzimləmə vasitəsi idi, çünki duru yanacağın bölüşdürülməsi əslində neft sənayeçilərinin əlində idi.

Neft məhsulları sabit qiymətlərə bəzən yuxarı hədd qiymətlərinin 75%-i qədər əlavə "mükafat ilə" satılırdı. 1917-ci ildə elə bir vəziyyət yaranmışdı ki, "neft kəməri stansiyalarının fevralın əvvəlində 24,5 qəpiklik əlavə haqq ilə qiymətləndirilən ordenləri ayın 15-də artıq 31 qəpik məbləğinə çatmışdı. Bundan sonra neftin qiyməti bir qədər aşağı düşmüş, ayın 20-dən etibarən, yenidən qalxmağa başlamışdı; ayın son günlərində birjada müəyyən edilmiş yeni yuxarı hədd qiymətləri sayəsində mükafat qiymətin artımı məbləğində aşağı düşmüş və bir pud üçün cəmi 14 qəpik olmuşdu".

Sabit qiymətlərin vəziyyəti belə idi. Əslində, onlar heç də sabit deyildi və neft sənayeçiləri üçün çox əlverişli idi.

1916-cı ilin axırlarında neft sənayesi xeyli dərəcədə dağılmışdı. Bunun əsas səbəbi ümumiyyətlə, sənayenin dağılması idi. Bakıda fəhlələrin və xırda qulluqçuların əmək haqqının artımı qiymətlərin bahalaşmasından 70% geridə qalırdı və deməli, əmək haqqının artırılması barədə fəhlələrin tələbləri tamamilə ədalətli idi. Mədənlər üçün lazımi materiallar bazarda yoxa çıxmışdı. Neft sənayesi 1916-cı il üçün nəzərdə tutulmuş 10 milyon pud metal əvəzinə yalnız 5 milyon puddan 6 milyon pudadək, yəni normanın 50%-i qədər metal almışdı; 5500 vaqon həcmində planlaşdırılmış dəmir təbəqəsi əvəzinə 250 vaqon material alınmışdı. Neft mədənlərində hazırlıq işləri təxminən 50% azaldılmışdı.

Donetsk hövzəsinin inhisarçıları kimi, neft sənayeçiləri də neft istehsalının artımı barədə deyil, onun gələcəkdə azaldılmasının mümkünlüyü barədə danışırdılar. Neft sahibkarlarından biri deyirdi: "Belə bir şəraitdə işlərin sürətini artırmaq, ya da mövcud sürəti qoruyub saxlamaq mümkün deyildir... Neft sənayesi indi elə bir vəziyyətə düşmüşdür ki, onu iflasdan başqa heç bir şey gözləmir".

Neft sənayeçiləri öz mənfəətlərinin azalmasına razılıq vermir və metal çatışmazlığını bəhanə gətirərək, qazmanı davam etdirmək istəmirdilər. Bu qıtlıq o dərəcədə deyildi ki, lazım gələrsə, neft sənayesinin tələbatını ödəmək mümkün olmasın. Lakin aydın idi ki, hökumət neftçilərə "kömək etmək", yəni neft inhisarlarının mənfəətinin azalmaması üçün kömək etmək "istəmirdi". Duru yanacaq bölgüsünün tənzimlənməsi məsələsi hərbi sənayenin mənafeyi naminə son dərəcə zəruri idi, çünki sabit qiymətlərdən istifadə edən və Donetsk yanacağının qıtlığından əziyyət çəkən istehlakçı məmnuniyyətlə neft alırdı. Bunun nəticəsində də bazarda neftə və mazuta tələbat duyulmağa başlamışdı. "Mühüm istehlakçılar ilə neft şirkətləri" arasında vasitəçi rolunu oynayan Xüsusi Müşavirə yanında xüsusi müvəqqəti komitə bu cür təzahürlərə qarşı mübarizə aparırdı. 1916-cı il mayın 4-də təsdiq olunmuş qaydalara əsasən, istər hasilat yerindən, istərsə də naviqasiya dövründə neftin gətirildiyi Volqa körpülərindən duru yanacağın daşınmasına icazə sistemi tətbiq olunmuşdu. Bu qaydalara əməl olunmasına nəzarət neft istehlakçılarının təminatı üzrə baş müvəkkilə tapşırılmışdı.

Eyni zamanda Dəmir Yolu İdarəsi yanında Neft Komitəsi yaradılmışdı. Komitə baş müvəkkilin tapşırıqları əsasında plan üzrə daşınmaların yerinə yetirilməsi- nə nəzarət edirdi. Yanacaq üzrə Xüsusi Müşavirə həmçinin su yolları ilə də böyük miqdarda neft yüklərinin daşınması üçün bir sıra tədbirlər görmüşdü ki, bu da dəmir yollarının yükünün azalmasına səbəb olmuşdu.

Duru yanacaq daşınmasının aylıq planlarından başqa 1916-cı ilin iyununda ilk dəfə olaraq onun Xüsusi Müşavirə tərəfindən təsdiq olunmuş illik bölgüsü planı da hazırlanmışdı. 1916-cı ilin sentyabrından etibarən neft məhsullarının daşınması yalnız naryadlar üzrə həyata keçirilirdi. Həmçinin su daşımaları planı tərtib edilmiş,

sisternlərin dəmir yollarına təhkim olunması məsələsi həll olunmuş, hasilat yerlərində neft inspeksiyaları tətbiq edilmişdi və s. Duru yanacaq bölgüsünün tənzimlənməsi təkcə mərkəzdə deyil, həm də yerlərdə yanacaq üzrə Xüsusi Müşavirənin planlarının yerinə yetirilməsinə nəzarət edən xüsusi aparatın yaradılmasını tələb edirdi.

Dövlətə məxsus neftli torpaqlar uğrunda mübarizə müharibə dövründə də davam etmişdi. Bir qrup kapitalist dövlətin 33% həcmində iştirakı ilə Pay şirkəti layihəsini hazırlamışdı. Əvvəlcə 250-300 desyatin neftli torpağın şirkətə verilməsi nəzərdə tutulmuşdu.

Pay şirkəti layihəsinin sənaye və ticarət nümayəndələri qurultayları Şurası tərəfindən hazırlanmış sonuncu redaksiyasında artıq Suraxanıdakı torpaqların, yəni ən az toxunulmuş və "ən çox vəd verən" torpaqların alınması nəzərdə tutulmuşdu. Əslində, layihə Bakının köhnə şirkətlərinə yeni, ən çox neftli torpaqların işlənməsini təhkim etməyi nəzərdə tuturdu. Məhz buna görə də layihə inhisarçılar qrupuna mənsub olmayan burjuaziya tərəfindən etirazlar doğurmuşdu. Burjuaziyanın geniş dairələrinin mənafeyini ifadə edən İ.İlyinski adlı birisi bu məsələyə həsr etdiyi xüsusi məqaləsində belə bir sual qoymuşdu: "Dövlət yeni kəşf olunmuş, neftlə zəngin sahənin işlənməsi üçün bu cür imtiyazlarla nəyin naminə razılaşmalıdır?".

İri neft istehlakçıları olan bir çox burjua nümayəndələri — Volqaboyu gəmi sahibləri, dəmir yollarının, zavod və fabriklərin sahibləri "mədən azadlığı" prinsipinə əsaslanaraq, geniş şirkət yaratmağa çalışırdılar ki, bunun tərkibinə daxil olub, ucuz neft əldə etsinlər. İlyinski onların mənafelərini ifadə edərək, açıq şəkildə deyirdi ki, torpağın Pay şirkətinə verilməsi "neft hasil edən inhisarçıların xüsusi tipini təşviq etmək" cəhdidir.

Pay şirkətinin ilk layihələri xüsusi dəstək qazanmadı və yanacaq üzrə Xüsusi Müşavirənin neft bölməsi 105 desyatin sahədə dövlət tərəfindən neft hasilatının təşkilinə tərəfdar olduğunu bildirmişdi. Deməli, Pay şirkətinin yeni layihəsi onun dövlət tərəfindən neft hasilatı ilə paralel surətdə mövcudluğunu nəzərdə tuturdu. Güman edilirdi ki, dövlət tərəfindən neft hasilatı təşkil edilərsə, Yollar Nazirliyi ildə 27 milyon puddan 34 milyon pudadək, Ticarət və Sənaye Nazirliyi isə 50 milyon pud neft çıxara bilər. Mədənlərin təşkili ilə əlaqədar məsrəflər 49 milyon rubl məbləğində planlaşdırılırdı.

Əvvəllər olduğu kimi, yenə də neft inhisarları, əlbəttə ki, dövlət tərəfindən neft hasilatına qarşı çıxaraq, bunu neft sənayesinin dövlət tərəfindən inhisarlaşdırılmasının ilk addımı kimi qiymətləndirirdilər. Buna görə də onlar nəzərdə tutulan işlərin faydasızlığı haqqında hesablamalarla bu ideyanı gözdən salmağa çalışırdılar. Xeyli şübhə doğuran cürbəcür hesablamalar yolu ilə sübuta yetirilirdi ki, özəl neft hasilatı ilə müqayisədə dövlət neft hasilatının maya dəyəri xeyli yüksəkdir; bununla yanaşı neft sənayeçiləri iddia edirdilər ki, dövlətə məxsus mədənlərin təşkilinə ümumiyyətlə, heç bir ehtiyac yoxdur, çünki dövlət əgər istəsə (yəni, neft inhisarlarına neftçıxan yeni sahələri versə), bunsuz da əlavə olaraq 100-115 milyon pud "ucuz neft" əldə edə bilər. Lakin Fevral inqilabı ərəfəsində neft sənayesi sahəsində neft inhisarlarının və hökumətin siyasətindəki meylləri səciyyələndirən bütün bu layihələr kağız üzərində qaldı.

## AZƏRBAYCANDA NEFT EMALI SƏNAYESİNİN YARANMASI

Almaniyada fotogenlə bağlı hay-küy XIX əsrin 50-ci illərində özünün zirvəsinə çatanda, baron Tornau Rusiyada bir fotogen zavodu tikdirmək qərarına gəldi. Bunun üçün o, Bakını seçdi, çünki bilirdi ki, burada bituminoz materiallara oxşayan bir maye çıxarılır ki, ondan Almaniyada fotogen alınır. Yerli əhali bu mayeyə "qır" deyirdi, özü də onu çox ucuz almaq mümkün idi. Bundan əlavə, o istəyirdi ki, zavodu Afəşgahın yanında tiksin və orda çıxan təbii qazdan yanacaq kimi istifadə etsin. Elə bu vaxtlarda Kokorev və Qubonin Sankt-Peterburqda "Transkaspi ticarət şirkəti" adlı bir nüfuzlu müəssisənin təməlini qoydular. Şirkətin məqsədi Rusiyanın İranla və Xəzər dənizinin şərqindəki türk dilli dövlətlərlə ticarət əlaqələrini genişləndirmək idi.

Məlum olduğu kimi, təmizlənməmiş Suraxanı ağ neftindən lap qədimlərdən işıqlandırma vasitəsi kimi istifadə edirdilər. Lakin tez alışdığına, əlverişli çənlər olmadığından və daşıma zamanı qəza baş verəcəyindən qorxduqlarına görə gəmi sahibləri onu su yolu ilə daşımaqdan imtina edir, ya da nəqli üçün görünməmiş məbləğdə böyük haqq tələb edirdilər. 1834-cü ildə N.Voskoboynikov Suraxanı neftinin satışı qayğısına qalaraq, baş komandan Rozenə müraciətlə xahiş etdi ki, həm Suraxanı quyularından hasil edilən ağ neftin, həm də Balaxanı quyularından qara neftin bir hissəsinin emalına icazə versin. Ağ neftin emalına və 1000 pud qara neftin emalına icazə alan Voskoboynikov 1837-ci ildə "neftayırma məqsədi ilə xüsusi mərmi yaratdı və neftli daşınması üçün dəmirdən kiçik çənlər hazırladı. Lakin Voskoboynikov işdən uzaqlaşdırıldıqına görə bu sahədəki işini sona çatdıra bilmədi.

Sonrakı ildə Moldenhauer zavodun tikintisinə başladı. Lakin avadanlıq xaricdə istehsal olduğundan və buna görə də onların daşınması ilə əlaqədar çətinliklərə görə zavodun tikintisi ancaq 1860-cı ildə sona yetdi və onun istehsal etdiyi məhsul yalnız 1861-ci ildə bazar üzü gördü. Təhkim olunduğu işlərdən başqa Moldenhauer öz sınaqlarını və təcrübələrini davam etdirməkdə idi. İnşaat işləri qurtarana yaxın, yəni 1859-cu ilin sonunda onun araşdırmaları nəticəsində məlum oldu ki, qırdan alınan fotogenin şistdən alınan fotogendən keyfiyyətli olmasına baxmayaraq, onun spesifik ağırlığı həddindən artıqdır, bundan əlavə emal olunan xammaldan on beş — iyirmi faizdən artıq fotogen almaq mümkün deyildir. 1859-cu ildə bütün il boyu aparılan tədqiqatlar Moldenhauerin laboratoriyasından kənara çıxmamış və qırdan alınan fotogen də heç vaxt bazara kifayət qədər daxil olmamışdı. Sonradan Moldenhauer Balaxanıdan və digər yataqlardan çıxan bol xam neftdən fotogen almaq üçün təcrübələr aparmaq barədə fikirləşməyə başladı. Həmin yataqların nefti o vaxt keyfiyyətcə çox yüksək sayılırdı. Nəticə gözlənildiyindən də qat-qat müsbət oldu. Distilədən keçmiş fotogen təmiz və işlədilmək üçün hazır idi. Ən mühüm məsələ isə o idi ki, xammal kimi xam neft qırdan daha çox fotogen verirdi. Afəşgahdan çıxan təbii qazın toplanması üçün xüsusi kollektor tikdirəndən sonra, 1860-cı ildə Moldenhauer Almaniyaya qayıtdı.

1860-cı ildə Eyxler Suraxanıda tikilmiş zavoda baxmaq üçün Bakıya gəldi. Şirkət bu müəssisədən səmərəli istifadə edə bilmədiyindən onu ləğv etmək məqamında idi ki, Eyxler şirkətin meneceri baron Tornauya qırdan fotogen almaqdan əl çəkməyi və Moldenhauerin laboratoriya sınaqlarının üstünlüklərindən istifadə edib neftdən fotogen almağa başlamağı təklif etdi. Eyxler keyfiyyətli və ucuz fotogen alana qədər xammaldan sərbəst istifadə etməkdə baron Tornauya tam sərbəstlik verdi. Almaniyaya qayıtmazdan bir az əvvəl Moldenhauer onun təklif etdiyi üsulla alınmış məhsulu görəndə həddindən artıq fərəh duydu. Onun fikrincə, bu cür foto- genin artıq əlavə emala ehtiyacı yox idi. O, həmin fotogeni dəmir çəlləklərdə doldurtdurub, pudu səkkiz rubla satılmaq üçün Tiflisə göndərtdirirdi. Lakin, fotogen Tiflisə çatanda aşkar oldu ki, rəngdə yola salınan bu malı yolda olduğu müddətdə tədricən qaralmış və nəticədə bozumtul-qara bir mayeyə çevrilmişdi. Bu hadisə Bakı lampa neftinin elmi cəhətdən birinci dəfə olaraq tədqiqata cəlb edilməsinə səbəb oldu. Tiflisdən zavoda qaytarılmış mal Eyxlerin əlinə keçdi, çünki bu zaman Moldenhauer artıq Almaniyaya qayıtmışdı. Eyxler bu fotogenin tərkibində üzvü turşularla, xüsusilə formiat, asetat və doymuş sıradan olan başqa homoloji turşularla birləşmiş çoxlu miqdarda dəmirin olduğunu aşkar etdi. Onun tədqiqatları sübut etdi ki, təmizlənmiş fotogendə olan üzvü turşular dəmirlə reaksiyaya girdiyindən, onların neytrallaşdırılması zəruridir. Bu turşuları neytrallaşdırandan sonra fotogenin keyfiyyəti yaxşılaşdı, indi artıq o, dəmirlə reaksiyaya girmir, rəngini də dəyişmirdi, lakin onun bir qüsuru var idi ki, yanarkən piltəni kömürləşdirirdi. Bu da onun tərkibində sərbəst qələvilərin olduğundan xəbər verirdi. Zərif xlorid turşusunun məhsulu ilə qarışdırmaqla Eyxler bu maneəni də aradan qaldırdı.

Eyxlerin əldə etdiyi bu maye lampada yaxşı yanırdı, ancaq sarı rəngdə idi. Rəqabət olmadığı vaxtlarda, yəni Amerikada istehsal olunmuş lampa nefti 1863-cü ildə gəmi ilə Rusiyaya gətiriləne qədər bunun rənginə fikir verən yox idi. Amerika fotogeni açıq rəngdə, tamamilə şəffaf idi və lampada çox yaxşı yanırdı. Suraxanı fotogeni onunla rəqabət apara bilməzdi. Eyxler onun təmizlənməsi və rənginin dəyişməsi üçün yeni bir üsul tapmalı idi. Bir çox kimyəvi maddələrlə sınaqlardan sonra nəhayət sulfat turşusunu seçdi. Bu, lampa neftinə rəng verən maddələri məhv etməkdən əlavə təmizlənməmiş lampa neftinin məxsus qoxunu da aradan götürürdü.

Lakin, tələb olunan sulfat turşusunu Bakıya daşıtdırmaq olduqca çətin iş idi. Onu Həştərxandan gətirmək mümkün deyildi, çünki gəmi sahibləri belə təhlükəli yükü daşımaqdan imtina edirdilər. Buna görə də Eyxler məcbur oldu ki, onu İngiltərədən Qara dəniz limanı Potiyə gəmi ilə, oradan 530 millik məsafədən araba

ilə Bakıya daşıtdırsın. Nəqliyyat xərci həddindən artıq yüksək olduğundan, zavodda bu turşunun pudu heç vaxt 10 rubldan aşağı düşmürdü. Lazım olunan sodanı isə Eyxler elə yerindəcə, dəniz otlarından alırdı. Əlavə heç bir durulaşdırma aparmadan kaustik soda məhlulundan tarazlaşdırıcı kimi istifadə edirdi. Əvvəlcə tünd sulfat turşusu, sonra kaustik soda ilə təmizlənmiş fotogen yenidən zəif sulfat, yaxud xlorid turşusu ilə təmizlənir və çöküntü vermək üçün saxlanılırdı. Bu üsulla istehsal olunmuş fotogenin ilk kiçik partiyası Tiflisə göndərildi; Rusiyaya isə böyük partiyalarla ancaq 1863-cü ildə, daha dəqiq desək, 1864-cü ildə göndərilməyə başlandı.

Neftdən alınmış lampa nefti yeni məhsul olduğundan Moldenhauer və Eyxler qərara gəldilər ki, qırdan alınan lampa yanacağından ayırmaq məqsədilə, bu yeni məhsula yeni bir ad versinlər. "Fotogen" yunan dilində işıq verən, işıq demək idi. Onlar öz yeni məhsullarına "fotonaftil" adı verdilər, bu da yunan dilində üç sözün ("neft maddəsinin işığı") birləşməsindən ibarət idi. Bu adla onlar məhsulu Rusiyaya nəql etdilər, ancaq ilk vaxtlarda onun ticarətində çətinliyə rast gəldilər, çünki istehlakçılar fotogen və kerosinin (Amerikada yaradılmış ad) mövcudluğundan xəbərdar idilər, ancaq "fotonaftilin" nə olduğunu bilmədiklərindən onu almaqdan imtina edirdilər. Məhsul bu yeni adla heç vaxt məşhurlaşmadı.

Suraxanı fotonaftil zavodunun tikintisindən dərhal sonra Vitte və onun şirkəti Abşeron yarımadasının şərq qurtaracağında Müqəddəs adada (Pirallahı) geniş ərazidə yeni bir parafin zavodu tikdi. Zavod Çələkəndən daşınan ozogeritdən təmizlənmiş parafin istehsal edirdi. Emala buraxılan xammaldan 68% məhsul alınırdı, bunun 60%-i parafin, 8%-i açıq bozumtul rəngli lampa nefti idi. Emal zamanı maye altmış dərəcə buxarla qızdırılır və sonra 1% sulfat turşusu ilə qarışdırılırdı. Qarışdırılma prosesi o qədər davam etdirilirdi ki, məhlul aqappaq aqarır, sonra isə ona yanmış əhəng əlavə olunur və yenidən distilə edilirdi. Alınan birinci maddə tamamilə şəffaf rəngdə, xüsusilə çəkisi 0,750—0,810 idi və xoş efir qoxusu verirdi. Distilənin sonuna yaxın rəngi şəffaflığını itirirdi. Alınan məhsulun ilk 10-13 qalonu (bir qalon 4.546 metrdir—tərcüməçi) təmizlənməmiş parafinin emalında həlledici kimi istifadə üçün ayrıca yığılıb saxlanılırdı.

Suraxanıda və Müqəddəs adadakı zavodların sahibləri çox cəhd etsələr də, axırda onların texnoloji sirləri hardansa sızıb kənara çıxdı və vaxtilə Vittenin zavodunda işləmiş təhsilsiz və şəhərdə o qədər də tanınmayan Cavad Məlikov adlı bir azərbaycanlı 1863-cü ildə ilk neftayırma zavodunu tikdirdi. Onun benzin distilə edən zavod tikmək haqqındakı təklifini hamı məsxərəyə qoyur, dostları da, düşmənləri də onu lunatik kimi qələmə verirdilər. Bütün bunlara baxmayaraq, Məlikov tədricən, inadkarlıqı sayəsində otuz funtsterlinq nizamnamə kapitalı olan və üç nəfərdən ibarət kiçik bir şirkət yaratmaqa nail oldu. Əlbəttə bu pulla böyük bir zavod tikmək mümkün deyildi, ona görə də açıq havada, soyuducu qurğusu olan kiçik bir sex inşa olundu. Bu primitiv sexin tamaşasına bir dəstə adam gəlmişdi. Kamı onu lağa qoyurdu, ancaq bir neçə saatdan sonra qurğudan təmiz şəffaf fotogenin süzülüb keçdiyini görəndə məsxərədən əl çəkdilər və Məlikov bu yerlərdə böyük hörmət qazandı.

Bundan sonra səhm kapitalı 200 funt-sterlinq olan nisbətən böyük bir şirkət yaradıldı və onun idarə olunması Məlikova tapşırıldı. Fotogen istehsalının sirlərini öyrənəndən sonra, yaxud belə qənaətə gələndən sonra artıq bu sirləri öyrəniblər deyib, ixtiraçıdan yaxa qurtarmaq üçün bəhanələr axtarmağa başladılar. Amma Məlikov yeni qüvvə ilə ozokritdən xam parafin almağa girişdi. Burada əvvəlcə müvəffəqiyyətsizliyə uğradı, çünki Bakıda buz yox idi, bir də ki, belə bir iş üçün ona çoxlu pul lazım idi. Məlikov gələcəyi düşünmədən son pulunu da bu işə xərcləməyə hazır idi. Arzu və ideyalarının həyata keçməsini çox istədiyinə baxmayaraq, əksər ixtiraçıların sonu kimi onun da qisməti kasıbçılıq oldu. O, Mirzəyevi sövq etdi ki, Qroznıdakı neft yataqlarını alsın və orada bir neftayırma zavodu tikib, Şimali Qafqazı lampa neft ilə təmin etsin. O, zavodu tikdi, ancaq bu dəfə də aldadıldı və lazımınca dəyərləndirilmədi. Bakı neftayırma sənayesinin bu pioneri kasıbçılıq içində dünyasını dəyişdi. Ancaq onun şərikləri lampa neftinin istehsalı ilə böyük var-dövlət sahibi oldular.

Fotogenin çox sadə üsulla alınmasına baxmayaraq, neft sənayesinin bu sahəsi çox ləng inkişaf edirdi. Bunun da əsas səbəbi müqavilə sistemi və xam neftin qiymətinin bahalığı idi. Buna görə də 60-cı illərin birinci yarısında yalnız bir neçə neftayırma zavodu tikilmişdi. Sənayeçilərin əksəri zavodları necə gəldi, dəqiq çertyoj olmadan tikirdilər, onlar adətən çalışırdılar ki, Suraxanıdakı neftayırma zavodlarında işləyənləri öz müəssisələrinə cəlb edərək, bu fəhlələrdən qiymətli məlumatlar alsınlar. Çox keçmədən belə qənaətə gəldilər ki, fotogenin təmizlənməsi üçün turşu və qələvi lazımdır. Turşunu Moskvadan gətirirdilər. Ancaq soda barədə dəqiq təsəvvürləri olmadığından, onu nə iləsə əvəz etməyə çalışır, bunun üçün bəziləri dəniz suyu, bəziləri də adi duzlu su işlədirdilər. Bu vasitə ilə fotogenin keyfiyyəti yaxşılaşmışdı.

Podratçılar arasında Mirzəyev adlı birisi bilavasitə fotogen istehsalı ilə yox, onun alqı-satqısı ilə məşğul idi. Nijni Novqorod yarmarkasında xam neft və neft məhsullarının qiymətini o təyin edir, heç bir rəqabət yaranmağa qoymurdu. Fotogen sənayesini əlində daha möhkəm saxlamaq üçün, o böyük bir zavodun tikintisinə başladı. Bu məqsədlə o, Qrikurovdan zavod üçün avadanlıq, o cümlədən, 70 pudluq bir distilyator aldı. Qrikurov özü onu 70 funt-sterlinqə almışdı. Mirzəyev Moskvada on ədəd yeni distilyator sifariş etdi. Lakin onlar alınandan sonra məlum oldu ki, bu distilyatorlar nəzərdə tutulan məqsəd üçün yaramırlar, çünki onlar misdən hazırlanmış və qalay ilə qaynaqlanmışlar. Mirzəyev xaricdə hər biri əlli pudluq daha altı distilyator sifariş verdi, bununla eyni vaxtda Suraxanıda özünün fotogenayırma zavodunun inşasını başladı. Bu zavodda o, Afəşgahdan çıxan təbii qazdan yanacaq kimi istifadə etmək niyyətində idi. Bir qədər sonra, əvvəllər Vittenin zavodlarında mexanik işləmiş Veyzer müəyyən qədər yaxşılaşdırılmış və təkmilləşdirilmiş üsulla fotogen almaq

üçün neftayırma zavodu tikdirdi. Buralarda "ingilis potaşı" kimi tanınan kaustik soda ilk dəfə İngiltərədən Bakıya gətirildi. Bununla da əvvəlkilərdən fərqli və keyfiyyətli fotogen istehsalı başlandı. Çox keçmədən fotogen istehsalının sirləri bütün dünyaya yayıldı, 1869-cu ildə Bakıda artıq 23 fotogen zavodu var idi. Onlar birlikdə gündə 100 pud fotogen ayıra bilirdilər.

Müqavilə sistemi ləğv ediləndən iki-üç ay sonra Bakıda fotogenayıran zavodların, sexlərinin sayı sürətlə artmağa başladı. Çox vaxt belə sexləri baziləri öz yaşayış evlərində açırdılar. Sexlərin hamısında yanacaq üçün xam neftdən istifadə edirdilər, o da yaxşı yanmadığından bütün şəhəri his təbəqəsi örtmüşdü. Şəhər sakinləri belə vəziyyətə qarşı etiraz bildirdiklərindən, hökumət yeni fotogenayıran zavod və sexlərin tikilməsini qadağan edir, mövcud olanları bağlayırdı. Yeni zavodların tikintisinə şəhərdən 1,5 mil aralıda bu məqsədlə ayrılmış sahədə icazə verilirdi. 1873-cü ilin yazında həmin sahədə iş qaynayırdı. Yarım il ərzində səksən fotogen zavodu və sexi tikildi və işə salındı.

Bakı nefti başlıca olaraq, əksərən (hasil edilən neftin 9/10 hissəsinədək) İranda satılırdı. İlk baxışdan qəribə görünən bu vəziyyət onunla şərtlənirdi ki, satışa daxil olan xam, emal edilməmiş neft işıqlandırma üçün (o vaxt neftdən yalnız bu məqsədlə istifadə olunur, yanacaq kimi qətiyyən işlədilmirdi) əlverişli deyildi. Bu cür neft yalnız ən az tələbkar istehlakçıları qane edə bilərdi, çünki yandırılarkən həddən artıq tüstü və his verirdi. Parlaq, rəvan və uzun müddət işıq verən ağ neft isə işıqlandırıcı material kimi bütün Avropada çox tezliklə geniş yayıldı. Bundan əlavə, xam neftdən ağ neft alınması prosesinin özü sonradan bütöv bir sıra yeni neft məhsullarının kəşfinə və isitmə məqsədləri, eləcə də texnikanın ən müxtəlif ehtiyacları üçün istehsalına təkan verdi. Xam neftdən ağ neft alındıqdan sonra, yerdə qalan neft tullantılarının utilizasiyası nəticəsində mazut, maşınlar üçün müxtəlif sürtkü yağları, benzin və s. istehsal olunmağa başlandı.

Peterburqda çıxan "Qolos" qəzeti 1880-ci ildə D.İ. Mendeleyevin Bakıdan məktubunu dərc etmişdi. Məktubda deyilirdi: "Uca səslə söylənməli olan başlıca həqiqət budur: burada olan neft qədər zəngin neft hələ indiyədək heç yerdə yoxdur. Mən Pensilvaniyanı və oradakı mədənləri görmüşəm və tam qətiyyətlə bildirirəm ki, burada heç şübhəsiz, daha çox neft var və onun çıxarılması daha asandır... Bu günlərdə Beybətdə (Bibiheybətdə-red.) dənizin lap yaxınlığında Tağıyev cənablarının mədənlərində yeni fontan vurmuş və o, mənim oğlumun adı ilə adlandırılmışdır. 50 sajenlik həmin quyunu orada olan mahir texnik cənab Lents qazmışdır. Onun üsulları son dərəcə diqqətəlayiqdir və yerli torpaq şəratinə uyğunlaşmışdır. Biz orada olarkən qazma quyusunu tamam təmizlədilər və o, 10-15 dəqiqədən sonra elə bir fontan vurdu ki, neft, çəkisi 20-30 fut olan daşları kənara tullayırdı. Həm də burada fontanları dayandırmağı və onların işini tənzimləməyi bacarırlar. Məsələn, cənab Kokorevin 1 fontanı var, o hər yarım saatdan bir açılır. Neft olduqca çoxdur... İndi bu nefti işə cəlb etmək, onunla Rusiyanı, Şərq ilə Qərbi işıqlandırmaq və yağlamaq gərəkdir. Təkcə bakılılar bunun öhdəsindən gələ bilməzlər. Onlar öz işlərini görmüş və bunun öhdəsindən şərəflə gəlmişlər. Yeni qüvvə və ağıl, uzaqgörənlik və cəsarət gərəkdir...".

4 ildən sonra Suraxanı zavodu artıq ildə 100000 pud ağ neft hasil edirdi ki, bununla da Bakı, Tiflis və bir sıra digər şəhərlər işıqlandırılırdı.

D.İ.Mendeleyev bu tövsiyələri ilə işini bitirmədi. O, Bakı neft mədənlərinin iqtisadiyyatını və texniki təchizat vəziyyətini diqqətlə öyrənmişdi. Onun rayonlardan nefti vurmaq üçün neft emalı zavodlarına, eləcə də dəniz gəmilərinə nefti doldurmaq üçün neft zavodlarından limanlara xüsusi borular çəkilməsi barədəki təklifləri daha diqqətəlayiq idi.

Mendeleyevin Bakıya sonrakı üç səfərinin dünyada neft elminin müxtəlif sahələrinə dair biliklərin təkmilləşməsi və genişlənməsində çox böyük əhəmiyyəti olmuşdur. Dahi rus alimi D.İ.Mendeleyev ötən yüz ilin 70-ci illərdə neftin mənşəyinin karbid nəzəriyyəsini yaratmış və neftin fasiləsiz emalı prosesini işləyib hazırlamışdı.

O, özünün "Bakinskoe neftmnoe delo" kitabında 1886-cı ildə yazırdı: "Bakıda gördüklərim və öyrəndiklərim məndə belə bir fikir oyatdı ki, Rusiyanın mərkəzində zavodlar yaradılması barədə daha ucadan və daha təkidlə danışmaq hər şeydən mühümdür — bunun vaxtı çatmışdır".

Hələ Rusiyada sahibkarlıq inkişaf etməmişdən öncə, onun iri manufaktura müəssisələri başqa etibarlı enerji mənbəyinə malik olmadıqlarından, Azərbaycan neftinə və neft məhsullarına kəskin ehtiyac duyulurdu. Azərbaycan neft sənayesinin inkişafının ilk dövrlərində Bakıda rus, xarici və yerli kapitalın hesabına yaradılmış (V.A.Kokorev, Libix, N.İ.Vitte, Veyzer, D.Məlikov və H.Z.Tağıyevin zavodları) iri neftayırma zavodlarının meydana çıxması məhz bununla izah olunurdu. Rusiyanın hər yerində sənaye müəssisələrində qazanların qızdırılması üçün, parovoz, paroxod, maşın və daxiliyanma mühərriklərində onlardan istifadə, demək olar ki, təxminən

1865-ci ildən başlandı — Qafqaz Dağ-mədən idarəsi rəisinin yazdığı kimi, qısa müddət ərzində böyük uğur qazanaraq elə bir mərhələyə çatdı ki, bunu təkcə Qərbi Avropada deyil, hətta Şimali Amerikada da görmürük. Neftlə qızdırma işində Rusiya bütün digər dövlətləri özündən geridə qoydu.

1877-çi ildə xam neftdən ağ neft alınması üçün aksiz vergilərinin ləğvi, Bakının və bütün Rusiyanın zavodlarında neft emalının nəzərə çarpacaq yüksəlişinə səbəb oldu. Bakıda və Rusiyanın digər şəhərlərində neftayırma zavodlarının və neftdən alınan məhsulların miqdarı sürətlə artırdı. 1879-cu ildə yeni inşa edilmiş,

həmin dövr üçün ölkənin və xaricin qabaqcıl texnikası və emal texnologiyası bazası əsasında təkmilləşdirilmiş qurğuların sayı 180-ə çatdı. Qədim ənənələr — neftayırma zavodlarını bilavasitə xammalın çıxarıldığı ərazidə, yəni Abşeronda tikmək ənənəsi ölkə sənayesində amiranə mövqe tutmaq iddiasında olan çar Rusiyasının güclü və hərtərəfli hücumuna uzun müddət dözə bilməzdi. Rusiyanın iri şəhərlərində neft emalı zavodlarının tikintisinə başlandı. Bu da həmin zavodlara Bakıdan gətirilən xam neftin və neft tullantılarının həcmini xeyli artırmağı tələb edirdi.

Kerosin əla qiymətə satılırdı, bu sahədəki işbazların hamısı böyük var-dövlət qazanmaq ümidində idilər. Yüksək qiymətlərin təsiri altında tezliklə hasilat fotogenə olan tələbi ötüb keçdi. Yeni zavod və sexlərin tikintisi sürətlə gedirdi və qısa vaxtda Bakıdan kənarda yerləşən bu sahədə zavod, sex, mağaza, yaşayış evlərindən ibarət böyük bir konqlomerasiya əmələ gəlmişdi. Sonradan bu sahə Qara şəhər adı ilə məşhurlaşdı. Aksiz vergilərinin qoyulması qaydalarında zavod və sex yerləri tapmaq üçün o qədər də çox vaxt lazım deyildi. Aksiz vergisi istehsal olunan məhsula görə yox, distilyatorun istehsal gücünə görə müəyyənləşdirilirdi. Buna görə də sahibkarlar məhsulun keyfiyyətinə məhəl qoymadan bacardıqca daha çox fotogen istehsal etməyə çalışırdılar. Emaldan sonrakı alınmış qalıqlar qazılmış yerlərə axıdılaraq yandırılır, soda və turşu qalıqları isə küçələrdə iri gölməçələr əmələ gətirirdi.

Bakıda neftayırma sənayesinin yarandığı ilk illərdə aksiz vergisi qoyulmasının bu sahənin inkişafında oynadığı rolla tanış olmaq maraqlıdır. Vergi qoyan qurumlar sənayeçiləri təkmilləşdirilmiş avadanlıq və emal üsullarını tətbiq etməyə ruhlandırmaq əvəzinə daha uğurlu istehsalçıların təkidi ilə onları ruhdan salırdılar. Rusiyanın mərkəzində və cənubunda neft tullantıları və qalıqlarından sürtkü yağları, duda, koks və ağır lampa nefti istehsalı ilə məşğul olan iki zavodun sahibləri vergi orqanlarını inandırırdılar ki, onlar aksiz vergisi ödəməməlidir, çünki işlətdikləri xammal üçün vergi artıq bir dəfə neftdən tutulmuşdur. 1872-ci il noyabrın 3-də xüsusi qərarla, 1872-ci il fevralın 1-dən qəbul edilmiş fotogen istehsalını tənzimləyən qaydalarda dəyişiklik edilərək, Mərkəzi Rusiyadakı neftayırma zavodu aksiz vergisindən azad edildi. Sonra isə cənubdakı zavod da vergidən azad olundu. Çünki onlar qapalı distilyator yox, açıq çənlərdən istifadə edirdilər. Bakıda sürtkü yağı istehsal edən zavodun sahibi Veyzer və asfalt istehsalı ilə məşğul olan Bağırov da çalışırdılar ki, bu qayda onlara da şamil olunsun. Lakin, Zaqafqaziya aksiz vergisi idarəsi onlara vergidən azad olunmağa icazə vermədi. Buna görə də həmin iki zavodun sahibləri müəssisələrini bağlamağa məcbur oldular.

Bundan bir xeyli sonra Raqozin xam neftdən yeni emal üsulu ilə lampa nefti və xüsusən sürtkü yağları almağı sınaqdan keçirmək üçün müvəqqəti neftayırma zavodu inşa edilməsinə icazə istədi. Maliyyə naziri onun ərizəsini imperatora çatdırdı. Bunun nəticəsində 1874-cü il noyabrın 6-da qəbul olunmuş qərarla Maliyyə Nazirliyinə səlahiyyət verildi ki, yeni neftayırma zavodlarında sınaqlar keçirmək üçün üç il müddətinə icazə verilsin və bu sınaqlar zamanı istehsal olunmuş lampa neftinin hər pudu üçün 25 qəpik vergi tutulsun.

1874-cü ilin ortalarına yaxın Bakıda tikilmiş yeni zavodlardan birinin meneceri vergidən azad olunmaq üçün Qafqaz aksiz vergisi idarəsinə müraciət etdi, lakin rədd cavabı aldı. Bakı neft şirkətinin ərizəsinin də taleyi eyni cür oldu. Bu şirkət ayrıca bir destilyator tikib, özünün tullantılarını emal edirdi. İstehsal olunmuş hər pud lampa nefti üçün 29 qəpik vergi ödəyirdi. Tullantı və qalıqlardan lampa neftinin emalına, xam neftdən sürtkü yağının alınmasından çox vaxt sərf olunmasına baxmayaraq, qalıq və tullantıların hər puduna 40 qəpiyə yaxın vergi tutulurdu. Başqa sözlə, üç pud xam neft emal edib, ondan bir pud lampa nefti və bir pud sürtkü yağı almaq üçün şirkət 69 qəpik aksiz vergisi ödəyirdi, halbuki qanuna görə aksiz vergisi 25 qəpikdən artıq olmamalı idi.

Sürtkü yağlarının istehsalı ilə məşğul olmaq istəyən Robert Nobel öz neftayırma zavodunda sınaqlar aparmaq məqsədilə icazə almaq üçün müraciət etdisə də, lakin rədd cavabı aldı. Aksiz vergisi idarəsinin işçiləri onu narahat etməmələri, narazılıq yaranmaması üçün, Nobel bir distilyatorun altı aylıq aksiz vergisini qabaqcadan ödəyərək bu distilyatorda qalıq və tullantıları emal etməyə başladı.

Aksiz vergisi idarəsi distilyatorun konstruksiyasında dəyişikliklər edib, ilkin sınağa başlamaq məsələsinə açıq düşmən münasibət bəsləyirdi. Təklif olunan hər bir təkmilləşdirmə cəhdi qanunu pozmaq, qanundan yan keçmək kimi qiymətləndirilir və sınaqları lap ilkin mərhələdə pozmaq, ona icazə verməmək üçün bütün vasitələrdən istifadə edilirdi.

Sahibkar Çakeli Marseldən bir distilyator gətirmişdi. Ona ekonomayzer qoşub xam neftdən daha tez buxarlanan məhsullar almaq niyyətində idi. Aksiz idarəsi belə hesab edirdi ki, ekonomayzer də ayrıca distilyatordu və təklif edirdi ki, ya ikiqat vergi ödənsin, ya da bu köməkçi qurğu oradan sökülüb çıxarılsın, xam neft əvvəlki adi qayda ilə, yəni bir destilyatorda emal edilsin. Çakeli məcbur olub nefti hamı kimi bir distilyatorda emal etməyə başladı.

Fasiləsiz distilə prosesinin tarixi rəsmi orqanların daha bir kütlüyünü üzə çıxarır. həmin dövrün şəraitinə görə neftayırma üçün vaxt hər şey demək idi. Adi (periodik) distilyator işlədildikdə çox vaxt və xərc sərf olunurdu. Çünki həm distilyator, həm də qalıq soyumaq üçün dayandırılırdı. Emalçılara öyrədilmişdi ki, bu prosesdən yan keçmək mümkün deyil. Çünki qızmar halda distilyatorun qapağı açılsa idi, dərhal alışma və böyük yanğın baş verə bilərdi. Bakının neftayırma sənayeçilərindən Təvrizov adlı birisi 1875-ci ildə fasiləsiz emal prosesi üçün patent aldı. Bu əslində araq çəkən zavodda işlədilən distilyatorun neftin ayrılması üçün uyğunlaşdırılmış forması idi. Qəbul edilmiş 1872-ci il qaydalarında fasiləsiz emal barədə heç bir maddə yox idi,

ancaq buna baxmayaraq, bu uyğunlaşdırılmış qurğunu quraşdırmaq üçün ona icazə verilmədi. Digər tərəfdən etiraf etmək lazımdır ki, neftayırma ilə məşğul olanların özlərində də müəyyən qədər günah vardı. Əksər sənayeçilər sürtkü yağlarının istehsalını ancaq aksiz vergisindən yan keçmək üçün modernləşdirirdilər. Məhz buna görə aksiz vergisi ləğv olunanda, cəmi üç sürtkü yağı emal edən zavod vardı ki, onlardan da heç biri Bakıda yerləşmirdi. Faktiki olaraq Bakıda sürtkü yağları sənayesinin yaranması və inkişafı 80-ci illərin əvvəllərindən başlanır.

1880-ci ildə Abşeron yarımadasında 195 neftayırma sexi var idi. Bakının özündə isə cəmi bir sex vardı, 32 sex şəhərlə qara şəhər arasında səpələnmişdi. Qara şəhərdə əksəriyyəti dəniz sahilində yerləşən 118 sex işləyirdi. 44 sex isə şəhərdən kənarda, Bakının kəndləri ərazisində idi. 39 sex Qara şəhərdən şərqə sahil boyu düzülmüşdü. Biri lap şərqdə Sultan buxtasında, ikisi Suraxanıda, ikisi də Bibiheybətdə idi. Bütün bu kiçikli-böyüklü neftayırma zavod və sexlərində 505 distilyator var idi ki, bunlar da bir dəfəyə 89000 pud xam neft qəbul edir və gündə minimum 204000, maksimum 300000 pud neft emal edirdilər.

# NEFT TİCARƏTİNİN İNKİŞAFI VƏ BAKI NEFTİNİN NƏQLİ

Bakıda neft istehsalı başlayandan sonra birinci səkkiz ildə, yəni müqavilə sisteminin ləğv olunduğu vaxtdan 1880-cı ilin sonunadək neftin nəqli və qazma işlərində bir çox yeniliklər edilmişdi. Bu dövr əsasən onunla səciyyələnir ki, neft quyularının primitiv şəkildə əl ilə qazılması üsulu buxarla işləyən maşınlar vasitəsilə qazılması üsulu ilə əvəz olundu. 1872-ci ildə, yəni mexanizmlərlə quyu qazılmasının başlandığı dövrdən bir il əvvəl Bakıda ancaq iki quyu və bir neçə yüz əl ilə qazılmış çala (bunların sayı təxminən 415 idi, bir çoxu nəzarətsiz atılıb qalmışdı) var idi. Maşınla quyu qazmaq sahəsindəki irəliləyişi aşağıdakı cədvəldə yaxşı görmək olar:

*Cədvəl 1*

| İllər | Maşınla qazılan quyuların sayı | Əl ilə qazılan quyuların sayı |
|---|---|---|
| 1873 | 17 | 158 |
| 1874 | 50 | 185 |
| 1875 | 65 | 170 |
| 1876 | 101 | 62 |
| 1878 | 301 | - |

Nobel qardaşları neft istehsalı işinə başlayan kimi qazma metodunu təkmilləşdirmək qərarına gəldilər. Amerikada geniş istifadə olunan tros sistemini tətbiq etmək və sınaqdan keçirmək üçün altı nəfər amerikalı qazmaçını Bakıya gətirtdilər. Bu üsul Bakıdakı tələblərə tam cavab vermirdi, ancaq Nobel qardaşları bir sıra modifnkasnyalar aparmaqla mürəkkəb bir sistem yaradaraq tezliklə geniş şəkildə tətbiq etməyə başladılar. Bu üsul indi də öz populyarlığını itirməyib. Neft istehsalçılarının üzləşdikləri ikinci çətinlik quyulardan çıxarılan məhsulun neftayırma zavodlarına daşınması və sonradan hazır məhsulun, yaxud xam neftin istehsalçılara çatdırılması idi. Əvvəllər xam neft və neft məhsulları qoyun-keçi dərisindən hazırlanmış 2-3 pudluq tuluqlarda at, yaxud dəvə ilə daşınırdı. Bu cür tuluqlarla yüklənmiş dəvə karvanları Bakıdan Zaqafqaziyanın uzaq yerlərinə və İrana yollanırdılar. Yetmişinci illərdə bu tuluqlar oval şəkilli dörd pudluq çəlləklərlə əvəz olundu, hər dəvəyə onlardan ikisini yükləyirdilər. Yaxın məsafələrə yük arabalarla daşınırdı (yerli arabaların təkəri 6-7 fut hündürlükdə idi). Araba torpaq yollarda asanlıqla hərəkət edir və ortabab bir at 20-25 pud yükü çəkib apara bilirdi. Çəllək arabanın üstünə qoyulmurdu, arabanın önünə və yanlarına iplə möhkəm sarınırdı. Bu nəqliyyat növünün hələ də işlənildiyi bir dövrdə tuluq ilə daşınmanı artıq 1877-ci ildə ləğv edib, nefti boru kəmərləri və dəmir yolu vasitəsi ilə nəql etməyə başladılar.

Arnold özünün yol qeydlərində (1875) İrandan karvanla necə keçdiyini, bu nəqletmə sisteminin mahiyyətini çox gözəl təsvir etmişdir. O yazırdı: "Bütün günü neft hər cür arabalarda Bakıya daşınır. Neapol küçələrindəki kimi tək at qoşulmuş on beş nəfərlik iki təkərli arabaya Bakıda çox nadir halda rast gəlmək olar, ancaq neft arabaları adi haldır. Çox az adam cürət edər ki, belə bir araba alıb lap yüksək muzda belə Rekent Stritdə, yaxud Pol Molda sürdürsün. Görürsən, bir barrel neft tutan çəlləkli arabanın üstündə, təkərlərinin diametri 7 fut olan hündürlükdə sürücü quş budağa qonan kimi oturub, arabanı idarə edirdi. Arabanın oxundan palçıq sallanır, çəlləyin üstündə qövsi-quzeyin bütün rəngləri var. Arıq bir at qoşulmuş araba dartıldıqca cırıldayır. At o qədər balacadır ki, arxası elə ox səviyyəsinə güclə çatır. Lakin bütün bunlara baxmayaraq, istehsalçılar deyirlər ki, onlar hamısı birlikdə neftin araba ilə bu cür daşınması üçün ildə 100000 funt-sterlinqdən çox pul vermirlər".

Birinci boru kəməri və mədənlərdə ilk dəmiryolu çəkilib işə düşməmişdən, arabalar gündə bir neçə dəfə mədənlərə gedib qayıdardı. Ancaq hava pis olanda sürücülər işləmək istəmirdilər, çünki yağış yağanda yollar palçıq gölünə dönür, hətta at belində belə mədənlərdən şəhərə və əksinə gedib-gəlmək olmurdu. Neftçıxaranlar tamamilə hava şəraitindən asılı idilər, havanın pis keçməsi xüsusilə aksiz vergiləri şəraitində tez-tez onlara çoxlu ziyan vururdu. Çox vaxt elə olurdu ki, altı gün aksiz vergisini qabaqcadan ödəmiş zavod sahibi xam neftin daşınmaması üzündən distilyatoru dayandırmalı olurdu. Bundan əlavə, araba sürücüləri tez-tez nefti daşımaqdan imtina edir, haqqın artırılmasını tələb edirdilər. Belə ki, hər pud neftin daşınması üçün tədricən qiymətləri beş qəpikdən səkkiz qəpiyə qaldırırdılar. Belə vəziyyət 1875-ci ilədək davam etdi. Neftayıranlar bu işin bütün ağırlığını hiss etsələr də, şikayətlənsələr də, ancaq Nobel qardaşları Bakıda neftayırma sənayesi meydanında görünənədək, bu çətinlikləri aradan qaldırmaq üçün heç nə edilməmişdi. Məsrəfləri azaltmaq və xam neft təchizatını artırmaq və sürətləndirmək üçün Nobel qardaşları digər şirkətləri müştərək boru kəməri çəkməyə inandırmağa çalışırdılar. Çox vaxt sağlam düşüncəyə qalib gələn paxıllıq, hərislik, mənəm-mənəmlik xüsusiyyəti başqa şirkətlərə bu layihədə iştirak etməyə imkan vermədi. Buna alternativ bir layihə kimi, onlar 1877-ci ildə hökumətə müraciət etdilər ki, onların öz riski və maliyyə vəsaiti hesabına mədənlərlə neftayırma zavodlarının yerləşdiyi ərazini birləşdirən dəmir yolunun tikintisinə icazə verilsin. Yerli hakimiyyət orqanları bu

fikri dəstəkləsələr də, yuxarı orqanlar bu müraciəti siyirmələrinə atıb saxladılar. Bütün bunlara baxmayaraq, sonrakı il (1878) hökumət dəmir yolunun çəkilməsinə başladı və 1879-çu ilin aprelində onun açılışı oldu. Dəmir yolunun son stansiyalarından biri Sabunçu ərazisində idi. Bunun üçün göl əvvəlcədən torpaqla doldurulub qurudulmuşdu. Dəmir yolu burada haçalanır, bir qol Suraxanıyadək, ikinci qol isə on ikinci sahə boyu Balaxanıyadək uzanırdı. O biri stansiya isə Bakı ilə Qara şəhər arasında tikilmişdi. Neft dəmir yolu ilə ya çəlləklərlə, ya da sisternlərlə daşınırdı. Neft istehsalçılarından birinin xahişi ilə dəmir yolu idarəsi Sabunçu stansiyası ilə onun mədəni arasında boru kəməri çəkdi. Nasos stansiyası dəmir yolu stansiyasından hündürdə yerləşdiyindən, neft öz ətaləti ilə boru ilə axaraq sisternlərə doldurulurdu. Nobel qardaşları 1877-çi ildə özlərinin xüsusi boru kəmərinin çəkilişinə başladılar, 100000 funt-sterlinqə başa gələn bu kəmər işə düşdüyünün birinci ili ona qoyulan xərci çıxartdı. Sənayenin bu sahəsinin bugünki əhəmiyyətini nəzərə alaraq, bu ilk boru kəməri haqqında bəzi məlumatları oxucuya çatdırmaq maraqlı olar. 108000 pud neft tutan çənlərin quraşdırıldığı mərkəzi dəmir yol stansiyası Balaxanıda, 15-ci sahənin yanında Qara şəhər səviyyəsindən 210 fut hündürlükdə tikilmişdi. Neft mədənindən 27 at gücündə olan buxarla işləyən nasosun köməyi ilə xam neft 5 düymlük boru ilə saniyədə 3,5 fuq sürətilə bu stansiyaya vurulurdu. Boru kəmərinin maksimum gücü gündə 80000 pud idi. Xam neft Balaxanıdakı əsas çənlərə ayrı-ayrı mədənlərdə quraşdırılmış kiçik nasosların köməyi ilə vurulurdu. Mərkəzi stansiyada neft dəmir çənlərə yığılır, buradan da az həcmli boru kəmərləri vasitəsilə bəzi neftayırma zavodlarına ötürülürdü, çünki artıq bu zavodların sahibləri neftin belə nəqlinin əhəmiyyətini və üstünlüyünü başa düşmüşdülər. Zavodlara neft Balaxanıdakı böyük və güclü nasos vasitəsilə vurulurdu. Neftayıranlar bir neçə il Nobel qardaşlarına 6,25 mil məsafəyə nəql olunan neftin hər pudu üçün beş qəpik ödəyirdilər. Bir neçə ildən sonra onun qiyməti 1,5 qəpiyə düşdü. İlk boru kəmərinin inşası və neftin onunla nəqli araba sürücülərinin işinə son qoydu. Qəzəblənmiş arabaçılar gəlirli işləri əllərindən çıxdığı üçün bu kəmərə çoxlu ziyan vururdular. Buna görə də Nobel qardaşları müəyyən məsafədə gözətçi postları qoymaqla öz ilk neft kəmərlərini qorumağa məcbur oldular. Nobel qardaşlarının boru kəməri tikilib başa çatandan çox keçməmiş, Bakı neft şirkəti onun nümunəsini təkrar etdi, özünün 15-ci sahəsini boru kəməri ilə Suraxanı neftayırma zavoduna, ordan da Zıq burnundakı limana birləşdirdi. Bu boru kəmərinin ümumi uzunluğu 9-11 milə qədər idi.

1878-ci ilin sonuna yaxın daha 3 yeni kəmərin inşasına başlandı. Sahibkar Mirzəyev 9-cu sahə ilə Bakıdakı neftayırma zavodu arasında 4 düymlük borudan 9 mil məsafəlik kəmər çəkdirdi. Bu kəmər hər gün 50000 xam neft nəql etməyə qadir idi. Ondan sonra Lianozov özünün 7-ci sahəsindən Qara şəhərə boru çəkdirdi, kəmərin uzunluğu 9,3 mil, borunun diametri 3 düym, gündəlik nəqletmə gücü 25000 pud idi. "Kaspi" şirkətinin çəkdirdiyi üçüncü boru kəməri sonra davam etdirilməyib. Bu kəmər vasitəsilə quyulardan neft Sabunçu dəmiryolu stansiyasına vurulur, buradan da sisternlərlə Kapsıla daşınır, sonra yenə boru vasitəsilə şirkətin yaxınlığındakı neftayırma zavoduna nəql olunurdu. Bu boru kəmərinin ümumi uzunluğu 60 mil idi.

Mexanizmlərlə quyu qazılmasının ikinci ili Xəzər dənizi ilə neftin daşınması yaxşılaşdı. O vaxta qədər neft çəlləklərdə gəmilərlə daşınırdı. 25 pud neft tutan çəllək Bakıda 10-12 rubl idi, istifadə olunandan sonra Rusiyada 3 rubla satılırdı. Beləliklə, emaldan sonrakı qalığın qiyməti Bakıda 1 pud üçün 5 qəpik olanda, o Nijniyə 83 qəpikdən ucuz daşına bilməzdi. həmin dövr üçün qiymətlər aşağıdakı şəkildə idi:

*Cədvəl 2*

| | Rubl | Qəpik |
|---|---|---|
| Bakıda 25 pud qalığın qiyməti | 1 | 25 |
| Çəlləyə görə çəkilən xərc | 9 | 0 |
| Nijniyədək daşınma və boşaltma hər pud üçün 42 qəpik | 10 | 50 |
| Cəmi | 20 | 75 |

Çəlləyin və daşınma qiymətinin yüksəkliyi Amerikadan idxal olunan lampa nefti ilə müvəffəqiyyətlə rəqabət aparmağa imkan vermirdi. Belə ki, neftayırma sənayesinə tətbiq olunan aksiz vergisinin ləğvindən sonra bir neçə il Amerikadan idxal olunan lampa neftinin həcmi Rusiyanın bu məhsulla təchizatını ötüb keçmişdi. İlk dəfə Xəzər dənizi ilə nefti tankerlə daşımaqa 1874-çü ildə həştərxanlı tacir Artimiyev, sonra isə Raqozin və Şipov cəhd etdilər. Bu taxta gəmilərin bir xüsusiyyəti ondan ibarət idi ki, neft birbaşa gəmiyə doldurulmurdu. Dəniz suyunun təzyiqi gəminin gövdəsini sıxdığından, gəmidəki neftin kənara təzyiqi gövdəni dağılmağa qoymurdu. Ancaq neft elə doldurulmalı idi ki, neftin səviyyəsi dəniz suyunun səviyyəsindən aşağı olsun. Ancaq bu gəmilər elə tikilmişdi ki, dibləri dəniz suyu səviyyəsində idi. Buna görə də göyərtəyə əlavə çən qoyulur və qalan yerlərə də çəllək yerləşdirilirdi. Neftin tankerlə Volqa çayı ilə daşınması hər pud üçün qiyməti hətta 30 qəpiyə endirdi.

Boru kəməri işlərini qurtarandan sonra Nobel qardaşları nəzərlərini dəniz nəqliyyatına yönəltdilər. Lakin onların Xəzər dənizində tanker xidməti işinə "Qafqaz və Merkuri" şirkətini sövq etmək cəhdləri baş tutmayandan sonra özləri bir tanker inşa etdirib, 1879-cu ildən bu sahədə fəaliyyətə başladılar.

Nəzərdən keçirdiyimiz bu dövr ərzində neftə olan tələbatla təchizat bir-birinə uyğun gəlmirdi, yəni təchizat tələbatdan qat-qat çox idi. Bəzi istehsalçılar işi dayandırmağa məcbur olur, depressiya baş verirdi. Əgər sənaye heç olmasa, bir az düzgün təşkil olunsa idi, istehsalçılar neft böhranı ilə üzləşməzdilər. Yeni erada, yəni mexanizmlərlə quyuların qazılmasına başlanması dövründə tələbat kimi mühüm bir məsələyə azacıq da olsun diqqət yetirilməmişdi. Çıxarılan neftin əsas qismi fotogen istehsalı üçün istifadə edilmirdi, əgər hər hansı səbəbdən neftayırma zavodparı dayansa idi, neft sənayesi məhv olardı. Belə bir hadisə az qala 1874 və 1875-ci illərdə baş vermişdi. Neftayırma zavodlarında vəziyyət yaxşı deyildi. Bir-biri ilə rəqabət aparan çoxlu zavodlar olduğundan, istehsal edilən məhsulun həcmi tələbatdan qat-qat artıq idi. Digər tərəfdən də zavodlar çıxarılan bütün nefti emal edə bilmirdilər. 1876-cı ildə qiymətlər qalxdı, neft çıxarma və emal müəssisələri 1878-ciilədək adi qaydada işləməyə başladılar. Lakin çox keçməmiş üçüncü böhranla üzləşməli oldular.

1883-cü ilin sonunda Bakı ilə Batum arasında Transqafqaz dəmir yolu açılanadək mədənlərdən çıxarılan neft, emal müəssisələri arasında qeyri-bərabər bölünürdü. Bu da ona görə belə idi ki, neft sənayesi öz məhsullarının ixracı üçün yalnız bir marşrutundan — Xəzər dənizindən istifadə edirdi. Gəmi ilə yükdaşıma da ancaq mart ayından oktyabradək mümkün olduğu üçün qalan müddət ərzində istehsal edilmiş məhsul yığılıb qalırdı. Qış aylarında ancaq anbarları olan emal müəssisələri işləməkdə davam edir, qalanları isə dayanırdı.

Bakı neft sənayesinin inkişafının hələ ilk dövrlərində mədənlərdən, əsas etibarı ilə Qara şəhərdə toplanmış neft emalı zavodlarına xam neft daşınması ilə bağlı böyük çətinliklər ortaya çıxırdı. İkitəkərli arabalar o vaxt xam neft və neft məhsullarının daşınması üçün başlıca vasitə olsalar da, milyonlarla pud neftin daşınmasına getdikcə artan mədəndaxili ehtiyacı, eləcə də çıxarılmış neftin neftayırma zavodparına daşınması tələbatını ödəyə bilmirdilər.

1879-cu ildə inşa edilmiş ilk dəmir yolu — neft rayonlarını neftayırma sənayesi mərkəzi ilə birləşdirən Bakı—Sabunçu—Qara şəhər xətti neft hasilatı və emalının gələcək inkişafına əngəl törədən nəql problemini tam həll edə bilməzdi. Mədənlərlə Qara şəhərin zavodları arasında neft boru xətlərinin inşası birinci dərəcəli məsələyə çevrildi. İlk təşəbbüsü "Nobel qardaşları şirkəti", həmçinin "Bakı neft cəmiyyəti", Mirzəyev və Lianozovun şirkətləri hələ 1877-ci ildə göstərdilər. 1890-cı ildə uzunluğu 260 verst olan 25 neft boru xətti çəkilmişdi. Bunlarla sutka ərzində mədənlərdən zavodlara 1,5 milyon pud neft və Qara şəhərdən mədən rayonlarına, buxar qazanlarını işlətmək üçün dəniz suyu vurmaq mümkün idi.

Bununla belə xam neft və neft məhsullarının, xüsusilə də Avropa və Asiyanın bir çox şəhərlərində istifadə olunan Bakı ağ neftinin ixracını, ən qısa yolla — Qara dəniz vasitəsilə nəqlin yoxluğu çox ləngidirdi. Gəmilər Xəzərlə neft və neft məhsullarını yalnız 6 ay çəkən naviqasiya dövründə Həştərxana daşıyaraq, Rusiya şəhərlərində və xaricdə sata bilirdilər. Bu müddət isə kifayət deyildi. Rusiya və yetərincə xam neft ehtiyatına malik olmayan xarici neftayırma zavodları Abşeron neftinin daxil olmaması ilə əlaqədar payızın sonlarından başlayaraq, bütün qış ərzində boş dayanırdılar. Eyni zamanda 1880-82-ci illərdə Bakıda o qədər böyük miqdarda xam neft toplanmışdı ki, neft sənayeçiləri bir müddətə neft hasilatını və zavodlarda neft emalını dayandıraraq, neft qalıqlarını dənizə tökməyə, yaxud da yandırmağa məcbur olmuşdular. Neftin lazım olandan artıq istehsalı ilə bağlı belə bir böhranlı vəziyyət ilk dəfə 1883-cü ildə baş vermiş və 4-5 il davam etmişdi. Daşımaq imkanı, eləcə də neftin və neft məhsullarının saxlanılması üçün tələb olunan miqdarda çən və saxlanc yerləri olmadığından, 1886-cı ildə 25747520 pud neft qalığı yandırılmış və ya dənizə axıdılmışdı.

Bakı rayonunun özündə isə 80-ci illərdə neftə olan tələbat onun istehsalının 5%-indən az idi. Buna görə də, Bakıdan neft məhsullarının daşınması problemi neft hasilatı və neft emalı sənayesinin gələcək mövcudluğu və gələcək inkişafının zəruri şərti kimi birinci dərəcəli iqtisadi əhəmiyyət kəsb edirdi və heç təsadüfi deyil ki, bu məsələ Bakı neft sənayeçilərinin və müxtəlif hökumət instansiyalarının diqqət mərkəzində idi. Bu, Bakının dünyada neft sənaye mərkəzinə çevrilməsi prosesində mühüm amil oldu. Hələ neft sənayeçilərinin I qurultayında göstərilirdi ki, regionda üstünlük təşkil edən Bakı sənayesi yalnız Avropaya nüfuz etməklə, nəinki milli, həm də transmilli ola bilər. Neft Avropaya daşınmadan, heç vaxt sənayenin mühüm sahəsinə çevrilə bilməz. Buna görə də, artıq iri sənaye mərkəzi sayılan (onunla artıq dünya bazarlarında hesablaşırdılar) Bakını dəmir yolları ilə Qara dənizlə birləşdirmək zəruri idi.

1883-cü ildə Bakı ilə Tiflis arasında Zaqafqaziya dəmir yolunun çəkilişinin başa çatması və Poti vasitəsilə Qara dənizin gözəl Batum limanı ilə əlaqə yaranması neft artıqlarının satışı sahəsində dönüş nöqtəsi oldu, həmçinin Bakı neft sənayesinin Rusiya və dünya bazarlarına kütləvi çıxışını təmin etdi. Təkcə 1884-cü ildə Zaqafqaziya dəmir yolu sistern və çəlləklərlə Bakıdan 5575018 pud müxtəlif neft yükləri daşımışdı. Görkəmli maarifçi-demokrat Həsən bəy Zərdabi Azərbaycanın iqtisadi həyatındakı yeni əlamətləri həssaslıqla duyaraq, belə hesab edirdi ki, Bakı—Tiflis dəmir yolunun tikintisi neft sənayesindən sonra Azərbaycan iqtisadiyyatına güclü təsir göstərən ən mühüm amildir. XIX əsrin 90-cı illərinin sonlarında Zaqafqaziya dəmir yolunun bütün yükdaşımaları arasında Bakı—Tiflis xəttinin payı 98% idi. Bakı stansiyası bu xətdə daha intensiv işləyirdi. Təkcə 1890-cı ildə buradan qərb istiqamətində 55,2 mln. pud yük daşınmışdı. Bakı — Tiflis xəttinin digər

stansiyalarından isə həmin vaxt cəmi 20,86 mln. pud yük daşınmışdı. Zaqafqaziya dəmir yolu təcili sifariş verərək, 1891-ci ildə 5397 vaqon - sistern almışdı (neft sənayeçilərinin özlərinin aldığı təkərli sisternlər buraya daxil deyildi).

Beləliklə, Bakı nefti ABŞ və Almaniyanın neft sənayesi ilə sərt rəqabətə girərək özü üçün dünya bazarlarına çıxış tapdı. Bir sözlə, neft və neft məhsullarının Qara dəniz limanlarına, oradan isə Avropa bazarlarına daşınması üçün ucuz nəql vasitəsi təmin etmiş dəmir yolu kapitalistləri istehsalı genişləndirməyə həvəsləndirirdi. 1877-ci ildən 1882-ci ilədək neft hasilatı 11,6 mln. puddan 50 milyon pudadək, yaxud 4 dəfə, neft və neft məhsulları daşınması isə 6 milyon puddan 31 milyon pudadək, yaxud 5 dəfə artmışdı. 1883-cü ildən 1900-cu ilədək həm hasilatın, həm də daşınmanın çox böyük artımı müşahidə edilmişdi. Hasilat 60,4 mln. puddan 603,8 mln. pudadək, yaxud 10 dəfə, neft və neft məhsulları daşınması isə 34,2 milyon puddan 443,1 milyon pudadək, yaxud 13 dəfə çoxalmışdı. XIX əsrin sonlarında neft və neft məhsullarının ümumi nəqlində daşımaların 20%-i dəmir yolunun payına düşürdü.

Rusiya iqtisadiyyatını ayrılmaz hissəsi olan neft sənayesinin bütün sahələrinin coşqun inkişafı yalnız islahatın sonrakı dövründə, ölkənin bütün təsərrüfatının inkişafının təsiri altında mümkün idi. Bakı şəhəri sürətlə ən iri kapitalist mərkəzinə, bölgənin "sənaye sahəsinə" çevrilirdi. Bakıda çoxsaylı müəssisə və idarələr, ticarət — sənaye kontorları, sənaye və mexaniki müəssisələr yarandı. Bakı Rusiyanın ikinci dərəcəli şəhərindən iri neft sənayesi mərkəzinə, sənaye ocaqlarından birinə çevrildi. Həsən bəy Zərdabi haqlı olaraq qeyd edirdi ki, uzun müddət "Zaqafqaziyanın şərq hissəsinə tauna tutulmuş ölkə kimi baxırdılar... Nəhayət, Bakı qəzasının daşkəsəkli və susuz düzənliklərində neft fontanları vuranda, hamı təbiətin bu möcüzəli hadisəsinə heyrətlə baxdı. Fontan sahibləri çox tezliklə milyonlar qazandılar və hər tərəfdən buraya kapital və bilik axıb gəldi, keçmiş inzibati sürgün yerində həyat çağladı...".

Neft sənayesinin tənzimlənməsində nəqliyyatın rolu təkcə bununla müəyyənləşmirdi ki, o, neft məhsullarının daşınması və satışını sürətləndirmişdi. Həm də 1883-cü ildən başlayaraq dəmir yolu özü neft yanacağının istehlakçısına çevrildi. Əvvəllər neftayırma zavodlarında tullantı kimi atılan mazutdan indi yanacaq kimi istifadə edilməyə başlandı. Elə həmin illərdə Xəzərin dəniz və Volqanın çay donanmaları, eləcə də Rusiyanın iri şəhər və rayonlarının bütün sənayesi neft yanacağı istehlakçıları cərgəsinə keçdi.

Aşağıdakı cədvəldə Zaqafqaziya dəmir yolunun neftin nəqli ilə bağlı tarifləri göstərilmişdir:

*Cədvəl 3*

| | Hər pud üçün qəpiklə |
|---|---|
| 1894-cü ilin əvvəlindən martın 1-dək | 19 qəpik |
| Martın 2-dən iyulun 1-dək | 14 qəpik |
| İyulun 1-dən 1895-ci ilin mayın 15-dək | 9 qəpik |
| 1895-ci il mayın 15-dən iyulun 1-dək | 14 qəpik |
| 1895-ci il iyulun 1-dən 1897-ci il dekabrın 3-dək | 19 qəpik |
| 1897-ci il dekabrın 3-dən 1900-cü il yanvarın 15-dək | 12 qəpik |
| 1900-cü il yanvarın 15-dən 1904-cü ilin aprelinədək | 16 qəpik |
| 1904-cü ilin aprelindən | 19 qəpik |

Bakı nefti xarici bazarlarda qiymətdən düşmüşdü. Hökumət ancaq tarifləri xeyli azaltmaqla vəziyyəti düzəldə bilərdi. Tariflərin dəyişkənliyi Bakının neft ixracına ciddi şəkildə ziyan vururdu. Sonrakı hesablamalarda Bakı hadisələrinin Qafqazda neft işinə mənfi təsiri məlum olacaq.

Mərkəzi Rusiyanın sənaye bölgələrinin nümayəndələri Maliyyə nazirindən xahiş etmişdilər ki, Bakı və Petrovskidən neftin nəqli tarifini bir pud və bir verst üçün 1/70 qəpikdən indi kömürün daşınması üçün mövcud olan 1/125 qəpiyə endirsin. Bu, Moskvadan neftin nəqlini 19 qəpiyə, Petrovskidən 16 qəpiyə endirərdi. Bakıdan və Petrovskidən neftin mövcud nəqli tarifi həddindən artıq baha idi. Neftin nəqli tarifləri aşağıdakı kimi hesablanırdı: bir pud və bir verst üçün başlanğıc tarif 1/24 qəpikdən tədricən azalıb, 532 millik məsafədə hər pud və verst üçün minimum olan 1/70 qəpiyə enir və sonra bu tarifdə heç bir dəyişiklik edilmir. Tariflərin dəyişdirilməsində əsas məqsəd də kömür istehlakı qiymətlərini hər yerdə bərabərləşdirmək idi. O dövrdə duru yanacağın qiymətinin həddindən artıq yüksək olduğu bir zamanda, Moskva və Volqaboyu bölgələrini kömür istehlakı mərkəzləri ilə bir səviyyədə tutmaq mümkün deyildi. Qış zamanı Volqa çayı ilə nəqliyyat dayandıqda, Moskvaya və Volqaboyu bölgələrinə yeganə marşrut ya buz bağlamayan Petrovsk limanından, ya da birbaşa Bakının dəmir yolundan açılırdı. Neftin nəqli üçün mövcud tarifi (1/70 qəpik) və Bakıda neft qalıqlarının qiymətinin bir pud üçün 20 qəpik olduğunu nəzərə alsaq, görərik ki, Moskvaya nəql olunan duru yanacağın bir pudu 55 qəpiyə başa gəlirdi ki, bunu da uzun müddət ödəmək mümkün deyildi. Müraciətdə Maliyyə nazirindən

xahiş olunurdu ki, Moskvaya və qonşu sənaye mərkəzlərinə duru yanacağın nəqli tarifini münasib bir rəqəmə endirsin. Aşağıda neft məhsulları və kömürün nəqli üçün tariflərin və məsafələrin müqayisəsi verilmişdir:

Cədvəl 4

| Haradan | məsafə (verstaə) | məsafə (miplə) | neftin nəqli tarifi (Bakıdan, mis qabda bir pud üçün) | | kömürün tarifi |
|---|---|---|---|---|---|
| | | | mövcud olan | təklif olunan | |
| Sarıteli | 1,563 | 1,036 | 22,73 | 14,93 | 12,90 |
| Saratov | 2,297 | 1,522 | 33,21 | 19,01 | 18,78 |
| Nijni | 2,782 | 1,844 | 40,14 | 22,66 | 22,66 |
| Moskva | 2,386 | 1,681 | 34,49 | 19,50 | 19,49 |
| Vladimir | 2,549 | 1,689 | 36,81 | 20,79 | 20,79 |
| İvanovo-Voznesensk | 2,680 | 1,776 | 38,69 | 21,69 | 21,84 |

Azərbaycanda neft hasilatının əsas mənbəyi olan Abşeron yarımadasının şərq hissəsi Xəzər dənizi sahilindədir. Buradan Xəzər dənizi Volqa çayı vasitəsilə həm Avropa Rusiyasının böyük hissəsi ilə, həm də Zakaspi diyarı və İranla əlaqə saxlayırdı. Qərb tərəfdən yarımada dəmir yolu vasitəsilə bütün Cənubi Zaqafqaziyanın mərkəzi hissəsi və Qara dənizlə, Qara dəniz vasitəsilə isə Mərkəzi Rusiya və Avropa ilə əlaqə saxlaya bilərdi. Deməli, Bakı neft sənaye rayonunun neft satışı bazarlarına çıxmaq üçün 2 yolu vardı — dənizlə və dəmir yolu vasitəsilə. Qeyd etmək lazımdır ki, o dövrdə dünyanın 2 ən iri neft sənayesi mərkəzləri — Amerika və Bakı müntəzəm olaraq müqayisə edilirdi. Belə ki, "Bakı neft sənayesinin 1891-1915-çi illər dövründəki vəziyyətinin icmalı" illik sistematik nəşrində neft sənayesi barədə oçerk xüsusi fəsil tuturdu. Burada göstərilirdi ki, Bakıda əməyin differensasiyası heyrətamiz sistematikliklə aparılıb. Amerikada neft hasilatı, emalı və nəqli kimi sahələr çoxdan ayrıldığı halda, Bakı sənayesində lap əvvəldən nefti çıxarıb emal edən və hazır məhsullarını nəql edən şirkətlər mövcud idi. Üzü də bu şirkətlər həmin istehsalatları tədricən ələ keçirirdi. Lap əvvəldən nefti çıxarıb emal edir, daşıyır və satırdılar. Odur ki, "İcmalın" tərtibçiləri istehsalın kombinə olunmuş formalarının Bakı neft sənayesi şirkətlərində rəqabət qabiliyyətini artırdığını qeyd edirdilər.

Neft məhsullarının gəmilərlə ilkin mərhələlərdə nəqli hava durumundan asılı idi. Bu üsul qətiyyən neft sənayeçilərinin sənaye və kommersiya haqq-hesabları üçün stimul ola bilməzdi. O, yalnız neft işinin inkişafının rüşeym mərhələsinə müvafiq idi. 1840-cı ildə Bakı və Həştərxan şəhərləri arasında gəmi yolunun açılması ilə bağlı ağ neftin çəlləklərlə yelkənli gəmilərdə Volqanın mənsəbinə daşınması üzündən, çox vaxt ticarətdə fasilələr əmələ gəlirdi və nəticədə bəzi şəhərlərdə ağ neftin qiyməti görünməmiş dərəcədə yüksəlir, digər şəhərlərdə isə aşağı düşürdü. Yanacaq materiallarının su yolu ilə daşınmasının təkmilləşdirilməsi ən zəruri məsələyə çevrilmişdi. Neftin gəmilərlə daşınma ideyası təkcə Rusiya üçün deyil, amerikalılar üçün də təzə idi. Onlar yüz min pudlarla ağ neft tutan çəllək və yeşiklərlə əhatə olunmuş paroxodun maşın bölməsində yüksək temperaturu azalda bilmədiklərindən, gəmi ilə daşıma sahəsində tam uğursuzluğa məruz qalmışdılar.

Çar hökumətinin ölkədə neftin və neft məhsullarının daşınmasına necə əhəmiyyət verdiyini belə bir fakt göstərir ki, 1864-cü ildə Rusiyanın su magistrallarında fəaliyyətdə olan 439 sərnişin, yük və yedəkli paroxodpardan 296-sı, yəni 67,4%-i Xəzər dənizində üzürdü. Ancaq paroxodların bu miqdarı da Bakıdan neft daşınmasını təmin etmirdi. Buna görə də, 1880-ci ildə Xəzər hövzəsini 11 yeni paroxod və 40 yelkənli şxuna ilə təmin etmək qərara alındı. Bu kiçik donanmanın naviqasiya dövründə 10-15 milyon pud yük daşımalı olduğuna baxmayaraq yenə də azlıq edirdi.

Təxminən 1875-ci illərdə Londonun neft biznesmenləri Bakıda baş verən hadisələri diqqətlə izləyirdilər. Onlardan çoxları tam əmin idilər ki, nə vaxtsa Bakı nefti Avropa bazarlarına yol açacaq. Çox keçməmiş Bakı-Batum neft kəməri tamamlanıb 1883-cü ildə işə düşdü. Bakıdan neft məhsullarının idxalı məsələsi müzakirə obyektinə çevrildi. Bu müzakirələr gedən dövrdə Avropaya neft Amerikadan palıd ağacından düzəldilmiş çəlləklərdə gəmilərlə Atlantik okeanı vasitəsilə daşınırdı. Rusiyada lampa neftini təhlükəsiz şəkildə daşımaq üçün çəllək düzəltməyə keyfiyyətli ağac olmadığından, Batumdan Avropanın müxtəlif bazarlarına neftin digər münasib vasitələrlə daşımaq haqda düşünmək lazım idi.

Həmin vaxt "Fium" neftayırma zavodunun direktorları Leyn və Makendrunu Bakıya dəvət etdilər. Onlar Bakı nefti ilə maraqlanır və onunla bağlı məsələləri öyrənmək istəyirdilər. Məsələnin bütün mərhələlərdə öyrənilməsinin nəticəsi bu oldu ki, Xəzər dənizində neftin daşınması üçün okean gəmiçiliyi sisteminin tətbiqi münasib bilindi. Onlar tövsiyə etdilər ki, neft Batumdan iri paroxodlarla Avropanın müxtəlif bazarlarına daşınsın. Gərgin əmək və çoxlu əleyhdar qazanmaqla, xüsusilə Lloyd sığorta şirkətinin böyük etirazına baxmayaraq, onlar bir sıra ingilis gəmi sahiblərini (bunların arasında Alfred Stüart da var idi) inandıra bildilər ki, mövcud paroxodları okean vasitəsilə neftin daşınması üçün yenidən qurub uyğunlaşdırsınlar, ya da yeni

neftdaşıyan gəmilər inşa etdirsinlər. Məhz bu minvalla gəmi sahibləri, neft sənayeçiləri və tacirləri Bakı mədənlərindən çıxan neftin Avropa bazarlarına yola salınması imkanının mümkün olduğunu dərk etdilər.

Dünya neft ticarətində yeni bir mərhələ olan gəmi ilə yük daşınması üsulunun inkişafı onunla nəticələndi ki, neft istehsalçıları özləri məhsulun Avropanın və Uzaq Şərqin ən kiçik nöqtələrdə yerləşən kiçik istehlakçılara belə çatdırmağa başladılar. Rusların bu sahədə birinciliyi amerikalıları da bu üsuldan istifadə etməyə ruhlandırdı.

Bakıda məşhur neft şirkətinin təsisçisi L. Nobelin sifarişi ilə "Motalo" şirkətinin zavodunda inşa edilmiş ilk neft daşıyan "Zoroastr" paroxodu Xəzərdə 1877-ci ildə göründü. Onun polad korpusunun uzunluğu 184 fut, eni 27, suya oturma həcmi 9 fut idi.

Çox keçməmiş Lyüdviq Nobel İsveçin "Motalo" şirkətində özü üçün "Svist" və "Lyüdviq Nobel" adlı iki gəmini inşa etdirdi. Onların hər birinin uzunluğu 286 fut olmaqla, on bir dəniz mili sürət götürürdü. "Svist" gəmisi birinci yükü — xam nefti Batumdan Londona gətirdi. Nobel qardaşları İsveç tərsanələrində ayrı gəmilər də inşa etdirmişdilər, onlardan biri, "Blesk" adlı gəmi 1890-cı ildə inşa olunmuşdu. Bu gəmilər hissə-hissə kanallar vasitəsilə Həştərxana gətirilir, burada quraşdırılır və Bakıya yola salınırdı. Onlar uzun illər Xəzər neft donanmasını təşkil edən ilk və ən uqurlu gəmilər idi. "Lyüdviq Nobel" gəmisi uzun illər Baltik dənizində Sankt-Peterburqla Finlandiya arasında müntəzəm olaraq neft daşımışdı.

Atlantik okeanında ilk neft daşıyan "Ferqusons" gəmisi 1880-cı ildə Midlsboroda "Kregerlər və oğlu" şirkəti tərəfindən inşa edilmiş, sonralar "Petram Kasuel və şirkəti" tərəfindən tanker halına salınmışdı. Bu gəmi 1885-ci ildə "Lennard və oğlu" şirkətinin mülkiyyətinə keçdi. Gəmidə çənlər elə düzəldilmişdi ki, şey saxlanılan anbarı xatırladırdı. "Ferqussons" Sena çayında lövbər atıb dayandığı zaman baş vermiş partlayış nəticəsində məhv oldu.

Atlantik okeanında üzən neftdaşıyan gəmilərindən olan "Qlukauf" gəmisi 2600 ton təmizlənməli nefti Nyu-Yorkdan Bremenə daşıyırdı. Bu gəmi həmin vaxtlarda iri tankerlərin inşası ilə dərindən maraqlanan H.F.Suenin layihəsi əsasında Nyu-Kaslda "Armstronq və Mitçel" şirkəti tərəfindən tikilmişdi.

Çən qoyulmuş gəmi ilə İngiltərəyə ilk dəfə neft "Müqəddəs helen" gəmisi ilə, ikinci dəfə isə sonradan tanker halına salınmış "Petrnana" gəmisi ilə gətirilmişdi. Bu gəmi 1880-cı il dekabrın 11-də Liverpulda 2000 ton neft boşaltdı. həmin gəmi İngiltərəyə çatmamışdan bir həftə qabaq, "Markiz Sikluna" (sonralar "Atlant" adlandırılıb) gəmisi Avstriyanın Fiuls şəhərinə kerosin gətirmişdi. Foksa məxsus birinci tankerlər arasında "Çiquel", "Çarlz harvard" (sonralar "Mineralo" adı verilib) və "Titian" da var idi. Bunlar hamısı sonradan tanker halına salınmışdı.

Leyn və Makendru buxarla işləyən və çənlərlə təchiz olunmuş gəmilər üçün müqavilələr bağlanmasını təşkil etdilər. Həmin dövrdən Bakının lampa nefti Avropa bazarlarında tez bir zamanda özünə yer tapdı.

Bu vaxt amerikalılar dünyanın digər bazarlarında da inhisarı ələ keçirmişdilər, ancaq 1886-cı ildə Leyn və Makendru Rotşildin nəzarət etdiyi şirkətlə, daha dəqiq desək, Xəzər neft sənayesi ticarəti cəmiyyəti ilə danışıqlar aparаraq Bakı neftini şərq bazarlarına çıxarmağa başladılar. Tezliklə, 1886-cı ilin noyabrında gətirilən böyük miqdarlı neft və neft məhsullarını Şərq ticarətində ən böyük şirkətlərdən sayılan Uollis qardaşları şirkətinə satmağa nail oldular. Bundan sonra Leyn və Makendru Uollis qardaşları və Xəzər neft sənayesi ticarəti cəmiyyəti ilə müştərək olaraq, Bakı neftinin metal dördkünc qablarda Uzaq Şərq ölkələrinə ixracını xeyli artırdılar.

1887-ci ildə onların neft və neft məhsullarını gəmi ilə Birləşmiş Krallığa gətirdikdən sonra Uollis qardaşları ilə birlikdə tədricən "Kerosin" şirkətinin yaranmasına və neft biznesinin qərarlaşmasına nail oldular. Bakı neftinin İngiltərədə satışı sürətləndi, əgər 1886-cı ildə Bakı neftinin idxalı 46.814 barrelə və "Kerosin" şirkətinin təsis olunduğu 1888-ci ildə isə 549.126 barrelə çatdı. Bakı ilə Batum arasında dəmir yolunun çəkilişi başa çatandan sonra Bakıdan sürtkü yağlarının ixracını parisli Avqust Andrey, antverpenli Çarlz Qud, hamburqlu doktor Albrext ələ keçirdilər. Onlar bu işin başlanğıcından Bakıda sürtkü yağlarının satışı və distribusiyası sahəsində aparıcı yeri tutmuş, bu ticarət sahəsini elə inkişaf etdirmişdilər ki, hazırda sürtkü yağlarının ticarətinin təxminən əlli faizini təşkil edirdi.

1886-cı ildə hartpulda "VII Qrey və şirkəti" tərəfindən Alfred Stüart üçün inşa olunmuş "Bakuin" gəmisi İngiltərə tərsanəsindən çıxan ilk tanker idi. O, sürtkü yağları daşıyan gəmilər arasında tanker halına daha yaxşı salınmış gəmi sayılırdı. Gəmidə elektrikdən istifadə olunur, kayutlar kömür əvəzinə buxarla qızdırılır, yemək də buxar vasitəsilə hazırlanırdı. Bu tanker Perunun Sallao limanında yanğın nəticəsində məhv oldu. Həmin vaxt o, Talaradakı "London və Sakit okean" neft şirkəti üçün müntəzəm çarter reysləri edirdi.

"Petriana" gəmisi işə düşəndən bir neçə həftə sonra tankerləşdirilmiş "Çiquil" gəmisi Batumdan Fiumeyə neft daşımağa başladı. Sanderlenddə "R.Tompson və oğlu" şirkətinin tərsanəsində 1889-cu ildə inşa edilmiş gəmilər arasında birincilərdən olan "Yayflauer" gəmisi Filadelfiyadan çıxandan sonra bütün heyəti ilə yox oldu. Hebburn-on-Taynda "Hotorn, Lesli və şirkəti" tərəfindən 1886-cı ildə inşa edilmiş "hafiz" tangeri öz dövrünün uğurlu gəmilərindən idi. 1887-ci ildə gəmi inşası sahəsində tanınmış mütəxəssis E.C.Ridin layihəsi əsasında "Palmer" şirkəti tərəfindən "Era" (sonra "Abşeron" adını daşımağa başladı) tangeri istifadəyə verildi. Ondan 15 ay sonra həmin şirkət tərəfindən inşa edilmiş "Oka" (sonrakı adı "Broudmayn"dır) tangeri kimi, o da bu tipli

gəmilərin ən yaxşı nümunəsi idi. 334 fut uzunluğu, 3000 ton tutumu olan bu tanker əsasən Atlantik okeanında üzürdü. "Oka" tangeri "Era"dan böyük idi. "Era", "Oka" və "Çarlz" ("Rassel və şirkəti" və "Qrinok" şirkəti tərəfindən inşa edilmişdi) gəmiləri tankerlə neft daşımaq məsələsini həll etdilər. "Roklayt" (1888-ci ildə Sauthatrtonda "Leyn və Makandu" şirkəti tərəfindən inşa olunub), "Tankervil" ("Kreyq, Teylor və şirkəti", Stokton tərəfindən 1889-cu ildə Stüart üçün inşa edilmişdi) gəmiləri Amerika ilə Qara dəniz arasında işləyirdilər. Alfred Stüart üçün tikilmiş konteynerli birinci gəmi iki səfərdən sonra sıradan çıxdı. 1887-ci ildə "Şell" şirkətinə məxsus olan "Robert Dikson" gəmisi "Lesli" şirkəti tərəfindən Stüart üçün tankerə çevrilmişdi, həmin il artıq daşımaq üçün 25-30 saz tanker var idi.

80-ci illərdə tikilmiş neft daşıyan gəmilər tonnajına görə bu son zamanda inşa edilmiş iri həcmli tankerlərin 1/3-i böyüklüyündə idi. Tankerlərin təhlükəsizliyi, sürəti və səmərəliliyi ilə bağlı lazım olan bütün əsas biliklər demək olar ki, 1886-1889-cu illərdə toplanmışdı. 1890-cı ildən sonra tankerlərin görünüşü çox az dəyişikliyə məruz qalmışdı. İlk tankerlərin inşaatçıları o qədər diqqət və ehtiyatla işləyirdilər ki, həmin illərin tankerlərində çox az qəza baş verirdi. Dənizçilər tamamilə yeni tipli yük daşıyırdılar, bu da ona münasibətdə barıtdan da çox ehtiyatlı olmağı tələb edirdi. Təcrübəsizlik üzündən onlar bilmirdilər ki, partlayıcı qazın gücü nə qədərdir. Sonradan tankerə çevrilmiş gəmilərdə elektrik sistemi qeyri-kamil, qeyri-mükəmməl idi və mühəndislər onlardan o qədər xəbərsiz idilər ki, birinci 2-3 ilə heç gəmilərdə elektrik işığını yandırmırdılar.

1880-cı ildə cəmi 8 neft daşıyan paroxod və yelkənli gəmi vardı (4-ü motorlu, 4-ü yelkənli idi) bunlardan da ancaq yerli xətlərdə istifadə olunurdu. 1887-ci ilə yaxın daha 14 paroxod və 2 yelkənli gəmi inşa edildi. Onların ümumi yük tutumu 42047 ton idi. həmin ildə bir dənə də tutumu 1254 ton olan yelkənli gəmi inşa edilmişdi. 1893-cü il bu sahədə gəmi inşası ili oldu, həmin il ümumi tutumu 94568 ton olan ən azı 30 paroxod inşa edilmişdi. Bu həmin il idi ki,"Şell Transport və Treydinq" şirkəti "Qrey və şirkəti" üçün "Bulmout", Ceyms Laynq üçün "Trokas", "Qrey və şirkəti" üçün "Elaks" və digər gəmiləri inşa etmişdi. Bu ildə ingilis-amerikan neft şirkətinin "Potomak" gəmisi Qlazqoda yaşayan ingilislər A. və C. tərəfindən uğurla tankerə çevrildi. Eyni ildə "Danlar və şirkəti" Qlazqo limanında "Lakovanna" gəmisini, Atlantik okeanında üzən məşhur "Çesapik" gəmisini (sonralar ingilis-amerikan neft şirkətinə məxsus idi) tankerə çevirdilər.

1898-ci ildə neft daşıyan 150 paroxod və 15 yelkənli gəmi var idi. Bunlardan ancaq bir paroxod və bir yelkənli gəmi Nyu-Yorkda qeydiyyatdan keçmişdi, 70 paroxod və iki yelkənli gəmi İngiltərənin limanlarında, hər birində 10-12 gəmi Hamburq, Rotterdam, Həştərxan və Bakının gəmi tərsanələrində idi. Həmin illərdə İngiltərə tərsanələrindən çıxmış 121 neft daşıyan paroxodun 70-i Nyu-Kastl-on-Tayndа, 10-u Sanderlendə, 8-i isə çay tankerləri ilə məşhur olan Klaydda inşa edilmişdi.

Ümumi tutumu 1000000 fut$^3$ olan 160 yelkənli gəmidən başqa, əlavə olaraq daha 140 paroxod da neft daşımaqla məşğul idi. Bu gəmilərin ümumi yük tutumu 5500000 fut$^3$ idi. 1892-ci ildən sonra Xəzər dənizində tankerlərin artımı aşağıdakı cədvəldə öz əksini tapmışdır:

*Cədvəl 5*

| İl | Paroxodların sayı | Cəmi tutumu, fut$^3$-la |
|---|---|---|
| 1892 | 58 | 1720825 |
| 1893 | 59 | 1758463 |
| 1894 | 66 | 1992947 |
| 1895 | 87 | 2728217 |
| 1896 | 92 | 2942327 |
| 1897 | 93 | 2998447 |
| 1898 | 112 | 3804746 |
| 1899 | 129 | 4616702 |
| 1900 | 134 | 48846992 |
| 1901 | 126 | 4690312 |
| 1902 | 126 | 4753658 |
| 1903 | 127 | 4917259 |
| 1904 | 134 | 5328094 |
| 1907 | 137 | 5428112 |
| 1910 | 138 | 5449113 |
| 1914 | 138 | 5449113 |
| 1918 | 140 | 5500000 |

Havalar yaxşı keçəndə bəzi gəmilər Volqa çayı ilə 60-a qədər səfər edirdilər. Daha çox reysə tələbat olduğundan gəmi sahibləri hökumət dairələrindən Xəzərdən Həştərxanadək olan keçid yolunu dərinləşdirmək üçün tədbirlər görülməsini tələb edirdilər. Əgər bu məsafə dərinləşdirilərdisə, tankerlər bir başa Həştərxana girə bilər, onda Volqanın Xəzərə tökülən yerində (buranın dərinliyi 14 fut idi) tankerlərdən nefti baraklara boşaltmağa lüzum qalmazdı.

Əgər biz Xəzərdəki tankerləri də saysaq (bunlardan bəziləri iri, "Ç.M.Taffey", "Polkovnik Dreyk" kimi güclü gəmilər idi, bunlardan biri "Standart oyl" şirkətinə məxsus barjı dartaraq Atlantik okeanından keçmişdi) bu dövrdə dünyada təxminən 5000-dək neft daşıyan paroxod olmalı idi. Uzaq Şərqdə "Şell" və "Royyal Datç" şirkətlərinə məxsus çoxlu kiçik tanker var idi. Bundan əlavə yelkənli, hər cür avadanlıqla tam təchiz olunmuş gəmilər, sahilyanı sularda üzən çoxlu gəmilər və "Standart oyl" şirkətinin Meksika körfəzindən neft daşımaq üçün istifadə etdiyi dəniz barjları mövcud idi. Dünya tankerlərinin böyük bir hissəsi, həm də iri tonnajlı tankerlərin təqribən 150-yə qədəri İngiltərənin bayrağı altında üzürdü. Bu siyahıya daxil olan iri gəmilərdən "Qafqaz", "Oriflam", "Rossiya", ingilis-amerikan şirkətinə məxsus "Bulisis", "Pinna", "Kardium", "Pektan", "Qoldmaut" və "Silverlie" tankerlərinin, "Prins" və "Moss" laynerlərin və digər çoxlu neft daşıyan gəmilərin adını çəkmək olar .

20-ə qədər şirkətin özlərinə məxsus tankerləri vardı. Çoxlu rus gəmi sahiblərini, "C.M.Qufarey" şirkətini, "Standart oyl" şirkətini (bu şirkət özünün şimal donanmasının hamısını tankerləşdirib, Texasda neft daşınmasına qoşulmuşdu), daha bir çoxlarını, o cümlədən Sakit okeanında sahilyanı sularda üzən gəmiləri demirik. Tez-tez Nyu-York və Batuma laynerlər göndərən məşhur Prins xətti ilə də bağlı dörd-beş tanker var idi, onlardan biri — "Çərkəz şahzadəsi"

Sakit okeanın sahilyanı sularında neft daşıyırdı. Avropada "Standart oyl" şirkəti ilə əlaqəli bəzi şirkətlərin də öz tankerləri vardı. Bəzi holland konsernləri, xüsusilə "Royal Datç" öz tankerlərindən Uzaq Şərqdə istifadə edirdi. "Burmah neft" şirkətinin (London və Qlazqoya məxsus idi) bir donanma əla tankerləri, eləcə də çox gözəl layihələşdirilmiş və inşa edilmiş, sürətlə üzən yelkənli gəmiləri var idi. Dörd maçtlı "Brilliant" və "Deylayt" yelkənli gəmiləri də onlara məxsus idi. Bu yelkənli gəmilərdə yerləşdirilmiş çənlər onlardan dərhal tanker kimi istifadə etməyə imkan verirdi.

Heç 2-3 il keçməmiş Bakı və Batum limanlarından neft daşıyan gəmilərin bütöv bir flotiliyası Abşeron ağ neftini dünyanın bir sıra limanlarına çatdırmağa başladı. Əcnəbilər — amerikalılar, ingilislər, almanlar da bu böyük kəşfdən istifadə edərək, ağ nefti daşımaq üçün xüsusi gəmilər inşa etməyə başladılar.

Bakıdan Londona qayıtdıqdan sonra tanınmış ingilis səyyahı, 1886-cı ildə nəşr edilmiş "Bakı — Avropanın nefti" ("Baku—The Petrolium of Europe") kitabının müəllifi Karl Marvin ingilis neft şirkətlərinə təklif etmişdi ki, İngiltərədə neftin xüsusi paroxodlarla daşınmasını təşkil etsinlər. Lakin ona etiraz etmişdilər ki, belə paroxodpar Atlantik okeanı və Biskay körfəzi küləklərinə tab gətirə bilməzlər. Onlar Xəzəri sakit dəniz hesab edirdilər. O zaman bütün Avropa üçün bu məsələ — neftin və neft məhsullarının dünya magistralları ilə gəmilərlə daşınması məsələsi yalnız "Qara dəniz gəmiçiliyi" şirkətinin "Svet" gəmisi 1886-cı ilin iyununda tezalışan yanacaq materiallarının daşınması üzrə dünya təcrübəsində ilk dəfə olaraq Bakıdan Londona 1700 ton Bakı ağ neftini nəql etdikdən sonra həll edildi.

Bir çox ölkələrdə neftdaşıyan gəmilər yaradıldı, neft və neft məhsullarının dəniz nəqli erası başladı. Neftdaşıyan tankerlərin tətbiqi Xəzərdə donanmanın inkişafına böyük təsir göstərdi. Yük, sərnişin və neftdaşıma gəmilərinin miqdarı ildən-ilə artırdı. Keniş Bakı buxtasında müxtəlif növlü və təyinatlı gəmilər dayanırdı. Onlar dünyanın 40-a yaxın ölkəsini təmsil edirdi. Həmin ölkələrlə canlı ticarət əlaqələri yaradılmışdı. Əmtəə, neft məhsulları və sərnişin daşıyan gəmilərin sayına görə Bakı limanı 1900-cü ildə dünyada birinci yerə çıxmışdı.

Bakıdan Həştərxana qədər dəniz yolu 595 milə yaxındır. İlk 490 mil məsafə rahat idi, ondan sonra isə gəmilərin hərəkəti çox çətinləşirdi. Çaylarda suyun çoxaldığı dövrün 50 günü ərzində Volqa 1.000.000 tondan çox qumu yuxarılardan öz mənsəbinə gətirirdi. Bu qum 8.000 $m^2$ sahədə nəhəng bir delta yaradır, çayı qollara bölürdü. hətta ən dərin qollarda da çox dayaz yerlər var idi ki, gəmi üzüb keçə bilmirdi. Bunun nəticəsində Xəzərin şimal-şərq tərəfi çayın mənsəbindən xeyli məsafədə xeyli dayaz olub dərinliyi 112 futa çatırdı. Sahildən dənizə doğru yolun 42 milinin dərinliyi ancaq 15 fut idi, çayın ağzında dərinlik 9 futa çatırdı, bəzi yerlərdə su lap dayazlaşırdı. Ona görə də Volqa və onun mənsəbi iri gəmilərin hərəkətinə imkan vermirdi. Möhkəm əsən şimal (xəzri) küləyi də gəmiçiliyə mane olurdu. Külək suyu çayın mənsəbi tərəfdən dənizə qovur, dərinlik 10-12 futdan 2-4 futa enirdi. Bu vaxtlar çayın mənsəbində və sahilə yaxın yerlərdə naviqasiya tamamilə dayanır, gəmilər cənub küləyi əsənə qədər lövbər atıb dayanmalı olurdular. Bu, Xəzər dənizindəki neft donanmasının üzləşdiyi təbii çətinlik idi. Gəmilər birinci 495 mili keçəndən sonra 12 fut dərinliyə çatıb lövbər atırdılar. 80-ci illərin ortalarınadək neftin gəmidən gəmiyə daşınma yeri Həştərxana yaxın idi. Sonralar həmin vasitədən adi yük gəmiləri də istifadə edirdi. Lap dəqiq desək, Volqadakı Baxtemir kanalı Birutziya Kosa adasının yaxınlığında qurtarırdı. Buradan Həştərxana 60 mil idi. Bəzi gəmilər su 15 fut dərinliyə çatanda lövbər atırdı. Burada Bakıdan gələn tankerləri Həştərxanın çay gəmiləri gözləyirdi. Gündə bura orta hesabla 70-100 gəmi gəlirdi. Bəzi şirkətlərin həmin yerdə xüsusi gəmiləri var idi. Burada gömrükxana, teleqraf, ərzaq mağazası, kiçik bir xəstəxana fəaliyyət göstərirdi. Bir sözlə, bu 12 fut dərinlik başlayan yerdə əsl bir yaşayış məntəqəsi fəaliyyət göstərirdi. Naviqasiyanın başlanması ilə burda həyat da qaynayır, gediş-gəliş qurtaranda isə, lövbər atmış gəmilər Həştərxana çəkilirdi.

Bakı neft sənayesindəki son dərəcə böyük yüksəliş Bakı limanından daşımaların miqdarını kəskin surətdə artırdı. Belə ki, 1893-cü ildən 1901-ci ilədək Xəzər dənizində yük dövriyyəsi 2 dəfədən artıq çoxalmışdı. Gəmiçilik genişləndikcə Petrovsk, Krasnovodsk, Həştərxan və Bakı kimi ticarət limanları da inkişaf edirdi. XX

əsrin əvvəllərində Bakı ticarət limanı yük dövriyyəsinin həcminə görə Rusiyanın bütün ticarət limanları arasında 1-ci yeri tuturdu. Yük daşınmalarında emal edilmiş neft məhsulları üstünlük təşkil edirdi. Bu, iri neft sənaye şirkətlərinin — "Nobel qardaşları şirkəti"nin, "Xəzər — Qara dəniz cəmiyəti"nin, H.Z.Tağıyevin öz neftdaşıma donanmalarının yaratmasını şərtləndirdi.

1907-ci ildə Bakı—Batum neft kəmərinin istismara verilməsi Amerika neft sənayesi ilə uğurlu mübarizədə əvəzsiz rol oynadı.

Bakı neft limanından Qara dəniz sahilindəki Batuma kerosin vurmaq məqsədilə rus mühəndisi və alimi V.T.Şukovun rəhbərliyi ilə bu iki liman arasında 860 km-lik neft kəməri çəkilmişdi. 1889-cu ildə bu kəmər vasitəsilə xarici bazarlara nasosla neft vurulmağa başlanmışdı.

Batumu Batum edən Bakı idi. Yarım əsrə yaxşı bir müddətə neft Bakıdan Qafqaz dağlarını aşaraq Batuma gəlmiş, Bakının nefti sayəsində o, Avropada tanınmışdı. Bu iki liman neftin gəmi ilə daşınması və neft sənayesinin bu sahəsinin inkişafı tarixində mühüm rol oynamışlar. Aşağıdakı rəqəmlər Batumda neft biznesinin miqyasını göstərir:

*Cədvəl 6*

| illər | pudla | tonla |
|---|---|---|
| 1899 | 71202200 | 1148422 |
| 1900 | 65377000 | 1054477 |
| 1901 | 77519700 | 1250317 |
| 1902 | 84234000 | 1358613 |
| 1903 | 82211500 | 1325976 |
| 1904 | 79526900 | 1282692 |
| 1905 | 43666803 | 381723 |
| 1906 | 40501547 | 653251 |

Batum limanından dənizyanı dövlətlərin gəmiləri və iri tankerlər istifadə edərək, müntəzəm (yaxud qeyri-müntəzəm) şəkildə neft və digər məhsullar daşıyırdılar. Bu limanın müəyyən üstünlükləri olmasına və onun tikilməsi üçün böyük məbləğdə pul sərf edilməsinə baxmayaraq, gəmilərin adicə dayanma yeri təhlükəsizlik baxımından əlverişsiz idi. Belə ki, dənizdə qabarma baş verdikdə buxtada su qalxır və tankerlər üçün təhlükə yaradırdı. Təhlükəni aradan qaldırmaq məqsədilə limanın yenidən qurulması üçün layihələr işlənib hazırlandısa da, ancaq qəbul edilmədi. Çünki limanın müdiriyyəti belə hesab etdi ki, layihənin xərci bir neçə milyon rubla başa gəldiyindən məqsədə uyqun deyil. Belə hesab olundu ki, limandan gələn gəlir kifayət qədər olmadığından, çəkilən xərclər özünü doğrultmayacaqdır.

Kerosin daşıyan tankerlər üçün yüklənmə yeri dalğaqıranın içində idi. Bütün nasos stansiyalarından boru kəmərləri bu dalğaqırana gəlib çıxırdı və hamısı dörd ayrı-ayrı yüklənmə körpüsündə qurtarırdı. Burda eyni zamanda dörd gəmi yüklənə bilirdi. Çəllək və konteyner daşınarkən isə dalğaqıranın içərisində eyni vaxtda altı gəminin yük götürməsi mümkün idi.

1903-cü ildə 241 tanker 642194 ton qeyri-neft məhsulları daşımışdısa, 157 gəmi də 318871 ton xam neft daşımışdı. 1903-cü ildə limana 5226 gəmi daxil olmuşdu, Sahilyanı ticarət gəmilərinin sayı isə 723 paroxod və 1763 yelkənli gəmidən ibarət idi.

Bizim fikrimizcə, dünyada elə bir qeydalma sənədi qalmayıb ki, neft daşıyan gəmilərin sayını müəyyənləşdirə bilsin, yəni gəmilərin adını, yükdaşıma gücünü, gəmi həyati haqqında məlumatı, Rusiyaya hansı dövlətlərin bayrağı altında üzdüyünü göstərsin. Neftdaşıyan gəmilər sayına və yükdaşıma qabiliyyətinə görə böyük bir donanma təşkil edirdi. həm neft istehsalı, həm də istehlakı ilə bağlı fəaliyyət sahələrinin sürətlə artması, gəmiçinin maliyyə və naviqasiya baxımından böyük sərmayəyə malik olması, neft sənayesinin özünəməxsus tələblərinə həddindən tez bir müddətdə uyğunlaşması dünya ticarətinin ən böyük uğurlarından idi.

1891-ci ildə "Markus Semyuel və şirkəti" Bakı neftinin qablaşdırılmadan Uzaq Şərq ölkələrinə nəqli sistemini genişləndirmək planını ortaya atdı. Bu planı həyata keçirmək üçün Leyn və Makendru Markus Semyuel və Rotşildin şirkətləri ilə müqavilə bağlayıb, lazımi qədər neft təchizatına təminat verdilər və bu yolla Bakı neftinin qablaşdırılmadan şərqə ixracı inkişaf etməyə başladı. 1891-ci ildə Bakı neftinin Uzaq Şərq ölkələrinə qablaşdırılmadan ixracı, dördkünc metal qablarda ixrac olunanlar da əlavə olunmaqla, 9.000.000 qaba çatdı.

1904-cü ildə İngiltərəyə qablaşdırılmadan Batumdan — 13.304.835 pud, Novorossiyskdən — 5.456.087 pud həcmində təmizlənmiş Bakı nefti göndərilmişdi.

1905-ci ilin birinci yarısında Bakıdan təmizlənmiş və qablaşdırılmadan Böyük Britaniyaya göndərilən neft aşağıdakı miqdarda olmuşdu: Batumdan — 2.455.334 pud, Novorossiyskdən — 2.604.272 pud, 1906-cı ildə isə müvafiq olaraq 8.093.655 və 3.217.487 pud.

Bütün Avropa və İngiltərə bazarlarında neft barrellə satılırdı. Hamburq və Bremendə isə bu qaydadan istifadə olunmurdu. Bazar qiymətləri aşağıdakı kimi idi:

İngiltərədə 1 qallon — penslə, Almaniyada 50 kq — marka ilə, Fransa, Belçika, İspaniyada 100 kq — frankla, İtaliyada 100 kq — lirə ilə, Avstriyada 100 kq — Avstriya quldeni ilə satılırdı.

Bakı neftayırma zavodlarının yeganə narahatçılıq mənbəyi qablaşdırılmadan satılan neftin Batumdan gəmi ilə (FOB), Bakıdan isə dəmir yolu ilə daşınma (FOR) qiymətləri idi. Ona görə də Bakı qiymətlərinin xarici qiymətlərlə ekvivalentini tapmaq məqsədilə neftin bir pudu üçün qəpiklə qiymətdən aşağıdakılar çıxılmalı idi:

a) Batuma qədər nəqliyyat xərci (hər pud üçün 19 qəpik), liman və gəminin dayanma xərci (hər pud üçün təxminən 3 qəpik);

b) Batumdan son məntəqəyədək nəqliyyat, sığorta və baş verə biləcək sızıntı xərci. Yük həmişə brutqo ilə, hər ton üçün 1 şillinq hesablanırdı. 1 funt - sterlinqin orta mübadilə kursu 940 qəpik idi. Beləliklə hər pud üçün 0,7577 qəpik alınırdı. Neftin qablaşdırılmadan gəmi ilə daşınması üçün ümumiyyətlə üç qiymət vardı. Ən yüksək daşınma haqqı İngiltərə və Almaniyanın okeana çıxan limanlarında, nisbətən ucuzu Fransanın limanlarında, lap ucuzu isə İtaliya və Fransanın Aralıq dənizi limanlarında idi.

Bir qayda olaraq gəmi sığortası yükün dəyərinin 1/2%-inə bərabər idi, sızıntı vasitəsilə itki adətən 1%-lə hesablanırdı.

v) Qiymətlər çəlləklər doldurulmuş neft üçün hesablandıqda, onda bura gəminin dayanma, nefti qəbuletmə, gəmidə çəlləklərin tərpənməməsi üçün onların bağlanması, çəlləyin üstünə etiget yapışdırılması, üstünün rənglənməsi, çəlləyin doldurulması və bağlanması, taraya görə çəkinin itkisinə əlavə azalma (yerli istifadəyə görə), komission haqqı, nağd ödəmə zamanı güzəşt, kapitala görə faiz daxil edilirdi. Bütün bunlar hamısı birlikdə yuvarlaq şəkildə hər pud yük üçün 11 qəpik edirdi.

Taraşsız neftin daşınmasından söhbət gedəndə qiyməti təşkil edən əvvəl dediyimiz elementlərdən bəziləri çıxılırdı, onda hər pud neftin daşınma haqqı yuvarlaq şəkildə 5 qəpiyə enirdi.

q) Boş çəlləklərin qiyməti. Bu haqda heç yerdə deyilmir, ancaq hər pud üçün 24 qəpikdən 25,05 qəpiyə qədər hesablanırdı.

d) Amerika və Bakı neftinin qiymətləri arasındakı fərq. Neftin daşınması zamanı gəmilər arasında rəqabət olmadıqda Bakı ilə London qiymətləri arasında fərq hər pud üçün 2 qəpiyə qalxır. Digər bazarlarda bu fərq əksər hallar- da 10 qəpikdən də yuxarı qalxırdı.

# AZƏRBAYCAN NEFT SƏNAYESİNİN İNHİSARLARI

Azərbaycanda başlanan sosial-iqtisadi və ictimai dəyişikliklər zərurətindən irəli gələn kapitalist cəmiyyəti quruculuğu prosesi sənayenin və ticarətin inkişafı üçün əlverişli şərait yaratdı. Bu, Azərbaycan sahibkarlarının nümayəndələrinə imkan verdi ki, çarizmin siyasəti ilə bağlı məhdudiyyətlərə, rus və əcnəbi kapitalistlərinin kəskin rəqabətinə baxmayaraq, sənaye, ticarət və nəqliyyat sahələrində Azərbaycan iqtisadiyyatının inkişafı, mədəniyyəti ocaqlarının yaradılması, Azərbaycan milli cəmiyyətinin intellektual potensialının yüksəlişi, xalqın milli mənlik şüurunun inkişafı üçün obyektiv surətdə ümummilli əhəmiyyəti olan bir sıra müəssisələr yaratsınlar. Rusiyanın iri burjuaziyası çoxmillətli idi. Onun tərkibində ruslardan başqa, azərbaycanlı kapitalistlər — H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimiləri də var idi.

Nisbətən qısa müddət ərzində milli kapital iqtisadiyyatın bir sıra mühüm sahələrində və xüsusən də neft sənayesində kifayət qədər möhkəm mövqe tutmağa başladı.

Əgər milli sahibkarlar əvvəllər ticarət evi formasında ənənəvi və adi müəssisələrin təşkilini üstün tuturdularsa, sonradan səhmdar cəmiyyətləri yaratmaq yolunu tutaraq, XIX əsrin 70-ci illərinin əvvəllərində məhsuldar neft quyularının 80%-ini öz əllərində cəmləşdirdilər. Milli kapitalın nümayəndələri getdikcə neft emalı sənayesində də çox möhkəm mövqe tutmağa başladılar. Bakı rayonunda fəaliyyət göstərən 46 zavoddan 25-i və ya 54%-i azərbaycanlılara məxsus idi. Bu onu sübut edir ki, islahatlardan sonrakı dövrdə Azərbaycanın neft sənayesinin inkişafı, bütün ölkə miqyasında kapitalist sisteminin yaranması prosesinə ümumrusiya zəminində təkan verdi. Lakin istehsalatın yüksəlişi onun bütün sahələrini texniki cəhətdən təkmilləşdirmədən mümkün deyildi. Xarici sahibkarlardan müəssisə və şirkətlərin təşkilini, idarəetməsini, neft hasilatı və emalını, eləcə də nəqlinin müasir formalarını öyrənən milli sahibkarlar bununla öz şirkətlərinin inkişafına nail oldular. Bunun nəticəsində həmin şirkətlər çox tezliklə o dövrün ən sabit və kifayət qədər əhəmiyyətli neft şirkətləri sırasına çıxdılar. Düzdür, belə müəssisələrin sayı çox deyildi. Məsələn, 1883-cü ildə neft sənayesi müəssisələrinin 135 sahibi sırasında 17 azərbaycanlı var idi. Əsrin axırlarında 167 neft sənayesi şirkətindən və müəssisəsindən 49-u və ya 29,3%- i azərbaycanlılara məxsus idi. İstehsal gücü 10 milyon rubldan çox olan müəssisələr qrupunda milli kapitalı yalnız H.Z.Tağıyev, M.Nağıyev və Ş.Əsədullayev təmsil edirdilər. XX əsrin əvvəllərində milli sahibkarların mövqeyi bir qədər möhkəmləndi. 1914-cü ilin məlumatlarına görə, 58 nəfər azərbaycanlı sahibkara 83 şirkət məxsus idi.

Hacı Zeynalabdin Tağıyev Azərbaycanın ən iri sahibkarı və sənaye-maliyyə və ticarət sahəsində milli sahibkarların yuxarı təbəqələrinin ən nüfuzlu simalarından biri idi. O, hökumətin Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatına aid bütün məsələlərin müzakirəsində çox fəal iştirak edirdi.

1878-ci ildə Tağıyevin mədənində neft quyusu fontan vurdu. Mədən iri bir müəssisəyə, Tağıyevin özü isə Azərbaycanın ən varlı adamlarından birinə çevrilərək bir sıra sənaye sahələrində, nəqliyyatda və ticarətdə mühüm mövqe tutdu.

1897-ci ilin axırlarında Tağıyev özünün neft mədənlərini, kerosin-yağ zavodunu, habelə Xəzərdə neft məhsulları daşıyan gəmilərini İngiltərə bankının direktorlarından biri olan E.Qubbardonun başçılıq etdiyi Britaniyanın ən iri sahibkar şirkətinə 5 milyon rubla satdı. H.Z.Tağıyev puldan savayı, təsis edilmiş ingilis şirkətinin 100 min funt-sterlinq (o vaxt təxminən 1 milyon rubl) məbləğində səhmdar paketini də aldı və onun direktorlarından birinə çevrildi. İngilis kapitalı ilə sıx bağlı olan H.Z.Tağıyev Britaniya sahibkarlarının və maliyyəçilərinin Bakıda təsis etdikləri başqa şirkətlərdə də iştirak edirdi. Sonralar o, 1896-cı ildə Londonda yaradılmış ingilis şirkətinin — "Bakı Rus Nefti Cəmiyyətinin direktorlarından biri oldu. Bu cəmiyyət Bakıda Arafelovun və Budaqov qardaşlarının mədənlərini də aldı. Müəyyən dövr ərzində ingilis kapitalistləri çar qanunvericiliyinin hətta son dərəcə yumşaq məhdudiyyətlərindən yan keçərək, Bakı neft mədənlərini almaq üçün H.Z.Tağıyevin adından pərdə kimi istifadə edirdilər. H.Z.Tağıyev Azərbaycan neft sənayesi inkişafının bir çox mühüm məsələlərinin həllində iştirak edirdi. O, Bakı neft sənayeçilərinin bir sıra birliklərinin yaradılmasının, "Bakı standartı", "Bakı kerosin zavodları sahiblərinin ittifaqı", "Xəzər gəmi sahiblərinin ittifaqı" kimi iri sazişlərin təşəbbüsçüsü idi. Bu qrupların məqsədi Rusiyanın daxili bazarında iri şirkətlərə müqavimət göstərmək və Vətənin neft məhsullarını dünya bazarına çıxarmaq idi.

1913-cü ilədək neft sənayesində milli kapitalın mövqeyi xeyli gücləndi. Qeyd etmək lazımdır ki, artıq səkkiz milli şirkət bir milyon puddan çox neft hasil edirdi, o cümlədən Musa Nağıyev — 6,8, Şəmsi Əsədullayev — 6,7, "Naftalan Neft Sənayesi Cəmiyyəti" — 4,9 milyon pud. Bakının milyonçu şirkətləri arasında ümumi neft hasilatının 30%-ə qədəri həmin müəssisələrə məxsus idi.

Musa Hacıəli oğlu Nağıyev öz sahibkarlıq fəaliyyətinə manufaktura ticarətindən başlayaraq 1862-ci ildə kiçik bir dükan açmışdır. XIX əsrin son illərində o, Balaxanıda, Sabunçuda, Əmircanda, Ramanada neft çıxan torpaq sahələrini icarəyə götürdü. Əvvəllər onun mədən fəaliyyəti çox da uğurlu deyildi, lakin artıq XX əsrin ilk illərində onun mədənlərindəki quyular fontan vurdu. Məhz bu hadisə 1887-ci ildə yaradılmış "M.Nağıyev" şirkətinin istehsalat fəaliyyətinin xarakterinə təsir göstərdi. Artıq 1913-cü ildə bu şirkət Bakının ən sabit işləyən şirkətləri sırasına daxil idi **.**

Şəmsi hacı Əsədulla oğlu Əsədullayev XIX əsrin 60-cı illərinin axırlarında — 70-ci illərinin əvvəllərində bir qədər pul yığıb dövlət duz mədənini icarəyə götürdü. Eyni zamanda Musa Nağıyev ilə birlikdə Ramanada üzüm-meyvə bağı aldı. Bu cür fəaliyyətdən əldə etdiyi gəlir ona daha mənfəətli işə başlamağa imkan verdi. 1872-ci ildə neft sənayesində icarə sisteminin ləğv olunması təşəbbüskar adamlar üçün neft işi sahəsində böyük perspektivlər açdı. Belələrindən biri də Ş.Əsədullayev idi. O, 1874-cü ildə kiçik bir torpaq sahəsi alıb orada neft hasilatı müəssisəsi yaratdı. 1893-cü ildə onun yeganə neft quyusundan 23 milyon pud neft çıxarıldı, 1895-ci ildə isə neft fontanı 40 milyon pud neft verdi. Nəticədə onun müəssisəsi "Ş.Əsədullayev" neft hasilatı və emalı kontoruna çevrildi. Bu kontor əsas kapitalı 10 milyon rubldan çox olan iri neft sənayesi müəssisələri sırasına çıxdı. XX əsrin əvvəllərində kontor səhmdar cəmiyyətinə çevrildi.

Həmin cəmiyyət Bakı rayonunda bütün neft hasilatının təxminən 60%-ini verən 12 şirkətdən biri oldu. "Podrat qazma" kontoru başqa bir milli sahibkar Murtuza Muxtarovun adı ilə bağlıdır. O, əsrin axırlarında Bibiheybətdə qazma avadanlığı zavodu inşa etdi. Bu zavod Rusiyada neft avadanlığı istehsalı üzrə ilk xüsusi müəssisə idi. 1906-cı ildə o, "Qazma avadanlığı sahibləri sindikatı"nın və "Neft quyularının qazılması üzrə Bakı podratçılar cəmiyyəti"nin əsas iştirakçılarından biri oldu. Onun 1903-cü ildə yaratdığı neft emalı şirkəti 1913-cü ildə əsas kapitalı 4 milyon rubl olan səhmdar cəmiyyətinə çevrildi. Cəmiyyət əsasən neft quyularının qazılması və neft avadanlığının təmiri işləri ilə məşğul olurdu. Bütövlükdə neft sənayesinin bu sahəsində milli sahibkarlar kifayət qədər möhkəm mövqe tutmuşdular. 34 podrat qazma müəssisəsindən 3-ü, 1913-cü ildə isə 45 belə müəssisədən 7-si azərbaycanlılara məxsus idi.

Neft emalı sənayesində Azərbaycan kapitalının xüsusi çəkisi getdikcə artırdı. 1883-cü ildə Bakının 100 kerosin zavodu sahibindən 41-i azərbaycanlı idi.

Neft emalı sənayesində Azərbaycan sahibkarlarının iştirakının azalması meyli əsrin əvvəllərində də davam etmişdi. Məsələn, 1904-cü ildə Azərbaycan sahibkar- larına məxsus 19 neft emalı müəssisəsindən 11-i başqa millətlərdən olan sahibkarlara icarəyə verilmiş, 4-ü isə il ərzində işləməmişdi. Fəaliyyət göstərən başqa müəssisələrdən 4-ü Azərbaycan kapitalının iri nümayəndələrinə məxsus idi. Həm də bu müəssisələrdə istehsal olunan neft məhsullarının ümumi həcmi 1904-cü ildə Bakı rayonunda onların istehsalının yalnız 4,7%-ini təşkil edirdi. 1906-cı ilə dair məlumatlara görə isə, fəaliyyət göstərən 77 müəssisədən artıq 20-si azərbaycanlılara məxsus idi ki, bu da onların mövqeyinin möhkəmlənməsini sübut edirdi. 1913-cü ildə isə Ş.Əsədullayevin və M.Nağıyevin zavodları bütün neft emalı zavodlarının 45%-ə qədərinə sahib olan və Rusiyanın neft məhsullarının 60%-ə qədərini istehsal edən 6 ən güclü müəssisə qrupuna daxil idi.

Kimya sənayesinin inkişafı neft emalı ilə sıx bağlı idi. XX əsrin əvvəllərində Azərbaycan sahibkarları kimya (sulfat turşusu, kaustik soda və s.) müəssisələri sahiblərinin ümumi sayının 10%-ini təşkil edirdilər.

Maşınqayırma sənayesində milli kapital istər müəssisələrin və işçilərin sayına, istərsə də istehsalın həcminə görə zəif mövqe tuturdu. Metal emalı sənayesində Azərbaycan kapitalı daha sanballı təmsil olunmuşdu. Bakının mexaniki zavodlarından birinin şərikli sahibi K.Z.Tağıyev idi. XIX əsrin axırlarında bu sahədə M.Muxtarova, Cavanşirov qardaşlarına və başqalarına məxsus xeyli müəssisə qazma avadanlıqlarının təmiri üzrə ixtisaslaşmışdı. Bunların ən məşhuru M.Muxtarovun podrat qazma ilə məşğul olan iki mexaniki zavodu idi. Onlardan ən böyüyü isə Sabunçu zavodu idi. Bu iki nəhəng müəssisədə fəhlələrin bir qismi qazma işləri ilə, digər qismi isə qazma ləvazimatının istehsalı və təmiri ilə məşğul idi. M.Muxtarovun müəssisələri tədricən genişlənirdi. 1913-cü ildə daha bir mexaniki zavod inşa edildi. Bu zavod mədənləri iri qazma texnikası ilə təmin edirdi.

Senator Kuzminskinin verdiyi məlumata görə, Azərbaycan sahibkarları "gəmiçilik sahəsində çox iri sahibkarlar idilər, onların bəzilərinin payına isə sənayenin bu sahəsi üzrə rüsumların və gəlirin 3/4 hissəsindən çoxu düşürdü".

XX əsrin əvvəllərində Xəzərdə bütün ticarət donanmasının say tərkibinin 44,4%-i və yükqaldırma qabiliyyətinin 42,1%-i Azərbaycan kapitalının nümayəndələrinə məxsus idi. 1907-ci ildə Xəzərin buxarla işləyən yanacaqdoldurma donanmasının 129 gəmisindən 20-si öz neftayırma zavodları olan gəmi sahiblərinə — "Nobel qardaşları", "Ş.Əsədullayev", "M.Nağıyev", "M.S.Manafov" şirkətlərinə məxsus idi. Xəzər dənizinin cənub limanları və İran ilə əlaqə saxlayan Xəzərdəki ən iri müəssisələrdən biri H.Z.Tağıyevin "Kür — Xəzər cəmiyyəti" idi. Cəmiyyətin çox böyük sərnişin və yanacaqdaşıma donanmaları var idi.

Bakı tacirlərinin ticarət əməliyyatlarında neft məhsullarının ixracı kifayət qədər mühüm yer tuturdu. Nəqliyyat vasitələrinə malik olan Bakı sahibkarları nəinki böyük miqdarda neft məhsulları apara bilirdilər, həm də Rusiya və xarici bazarlarda onları yaxşı sata bilirdilər. Ş.Əsədullayevin, M.Nağıyevin, H.Z. Tağıyevin apardıqları neft məhsullarının həcmi ildə 10 milyon puddan çox idi. XX əsrin əvvəllərində H.Z. Tağıyevin ticarət şirkətinin Rusiyanın bir çox şəhərlərində çoxsaylı nümayəndəlikləri var idi. O, Moskvada ticarət əməliyyatları keçirmək üçün çoxmərtəbəli mülk, İranda karvansaray almışdı. Bakıda Tağıyevin pasajı alıcılar arasında böyük populyarlıq qazanmışdı. Neft məhsulları ticarətində onun illik dövriyyəsi 5 milyon rubl məbləğində idi. XX əsrin əvvəllərində "Ş.Əsədullayev" şirkətinin ticarət istehsal əməliyyatları genişləndi. Onun müəssisələrinin ticarət dövriyyəsi 2 milyon rubldan çox idi. Rusiyanın bir çox sənaye mərkəzlərində —

Peterburqda, Moskvada, eləcə də Orta Asiyada, İranda, Polşada neft məhsullarını saxlamaq üçün anbarlar tikilmişdi.

Milli sahibkarların nümayəndələrindən K.Z.Tağıyev, M.Naqıyev, Ş.Əsədullayev, K.Dadaşov və bəzi başqaları eyni zamanda sənaye müəssisələrinin, dəniz gəmilərinin, ticarət müəssisələrinin də sahibləri idilər ki, bu da onların iqtisadi mövqelərini möhkəmləndirir və sərəncamlarında iri kapital olduğunu göstərirdi.

XIX əsrin axırlarında — XX əsrin əvvəllərində Azərbaycanda bank sahibləri arasında milli sahibkarların nümayəndələri yox idi, hərçənd ki, onlar mövcud kredit-bank müəssisələrindən gen-bol kredit alır, onlardan bəzilərinin isə (məsələn, Ş.Əsədullayev, M.Nağıyev və başqalarının) öz bankir kontorları var idi. Bakı birja cəmiyyətində azərbaycanlılar yalnız 14 nəfər və ya 5% təşkil edirdilər. 1904-1913-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə "K.Z.Tağıyev" bankir kontoru da daxil oldu. Tağıyev Dövlət bankir uçot komitəsinin üzvü seçildi. Ona və milli kapitalın bəzi nümayəndələrinə Rusiyanın iri bankları kreditlər verirdilər. Dövlət bankının Bakı şöbəsi Tağıyevə böyük kreditlər verərkən, onun böyük sərvətə malik olduğunu nəzərə alırdı. 1907-ci ildə Tağıyevin sərvəti 16 milyon rubl məbləğində qiymətləndirilirdi.

1914-cü ildə K.Z.Tağıyevin M.Nağıyev ilə fəal iştirakı sayəsində 3 milyon rubl məbləğində əsas kapitalı olan Bakı Tacir Bankı açıldı. Bankın Şurasına milli kapitalın nümayəndələrindən K.Z.Tağıyev (şuranın sədri), Ş.Əsədullayev, A.Ə.Hmədov, S.Z.Tağıyev, A.Q.Tağıyev, idarə heyətinin üzvlüyünə M.Nağıyev (idarə heyətinin sədri), F.B.Rüstəmbəyov, təftiş komissiyasının tərkibinə Ə.Ə.Kərimov, M.Ə.Miriyev daxil oldular. Bank təsisçilərinin başlıca məqsədi sənaye və ticarət müəssisələrinin geniş məbləğdə maliyyələşdirilməsi, ilk növbədə Azərbaycan sahibkarlarına kömək göstərilməsi idi. Onlar müxtəlif təsərrüfat sahələrinin inkişafına, mədəni-maarif müəssisələri şəbəkəsinin genişlənməsinə kömək göstərməyi qarşılarına vəzifə qoymuşdular və perspektivdə diyarın bir sıra digər şəhərlərində bankın şöbələrini açmaq niyyətində idilər. 1915-ci ildə Bankın Şurasına Azərbaycan sahibkarlarının daha bir neçə nümayəndəsi — Əli bəy Aşurbəyov, Murtuza Muxtarov, Zeynal bəy Səlimxanov seçildilər. Çox tezliklə Bankın səhmlərinə şəhərin kredit müəssisələri arasında böyük tələbat yarandı. Üz növbəsində Bank da Rusiya banklarının səhmlərinə maraq göstərirdi. Petroqrad kommersiya bankı ilə onu daha sıx əlaqələr birləşdirirdi. Bank müstəqilliyini saxlamaqla daim Petroqrad bankı ilə əlaqələri genişləndirirdi, 1915-ci ildə isə meşə sənayesinin maliyyələşdirilməsini genişləndirmək məqsədi ilə Rusiyanın bütün əyalət banklarını birləşdirmək ideyasını irəli sürdü. Tacir Bankının açılması və fəaliyyəti Azərbaycanda özünə nəhəng əjdaha şəkilli bir saray tikdirdi. Evinin kirişi əjdahanın ağzını xatırladırdı. Qonaqlar bu əjdahanın ağzından keçib içəri girirdilər. Əjdahanın burun pərələrindən iki fənər sallanırdı. Bunlar bütün binanı işıqlandırır və evin əjdaha şəklində olduğunu nəzərə çarpdırırdı...

Bu neft şəhərinin küçələri də memarlıq qəribəliklərindən azad deyildi. Burada bütün üslublar öz əksini tapmışdı. Mavritan üslubunda tikilmiş saraylarla qotik üslubla inşa edilmiş binalar yan-yana dayanmışdı. Birinin üstündə Vizantiya, o birinin üstündə rokoko üslubunda kümbəz ucalırdı. Saray tikdirmək neft krallarının şakəri idi. Hər biri bu saraylarda öz qəlbinin qəribə bir arzusunu, istəyini təcəssüm etdirirdi.

Şəhərdə ən nəzərə çarpan, görünüşlü bina neft m a q n a t l a r ı n ı n klubu idi. Onun tikintisinə milyonlar sərf edilmişdi, özü də bu binadakı otaqlardan ictimai tədbirlərin keçirilməsi üçün yəqin ki, bütün Şərqdə yaxşısı yox idi. Neft sahibkarları binanın hansı üslubda tikilməsi barədə ümumi razılığa gəlmədiklərindən, işi Avropa qurumlarından birinə sifariş verib, ona ucuz-bahalığına baxmadan geniş bir torpaq sahəsində əzəmətli və qeyri-adi bir tikili ucaltmağı tapşırdılar.

Tikintiyə başlamazdan qabaq inşaat işini öz üzərinə götürmüş şəxs qumlu çöllükdə bir park saldırdı. Elə bunun özünə böyük məbləğdə pul sərf olundu. Şübhəsiz ki, qumlu neft mədənini tropik bağa çevirmək asan deyildi. Bundan sonra binanın inşasına başlandı. Memar binanın üslubu haqqında heç bir söz demirdi, ancaq bir neçə ildən sonra bina tikilib başa çatanda onun üslubu qızğın müzakirə və mübahisəyə səbəb oldu. Ağ mərmərdən tikilmiş bu klub Berlindəki Reyxstağın binasından iki dəfə böyük idi. Buna baxmayaraq, binadakı klassik, sadə cizgilər neft maqnatlarının xoşuna gəlmədi, onları razı salmaq üçün parkda ümumi bir tağ altında təmtəraqlı sütunlar tikildi, binanın dəhlizləri boyunca güzgülər düzüldü. Bu klub binasında üzvlər həm öz işlərini müzakirə edir, həm də istirahət edirdilər.

Azərbaycan sahibkarlarının formalaşmasının və inkişafının başlıca mərkəzi Bakı şəhəri idi. XIX əsrin axırlarında — XX əsrin əvvəllərində sahibkarların ən iri nümayəndələri, Azərbaycan ziyalıları Bakıda cəmləşmişdi.

Rusiya hökumətinin 17 fevral 1872-ci il tarixli qanunundan sonra Bakıda neft sənayesində əcnəbilərə və xarici şirkətlərə imkan verildi ki, neftlə zəngin olan torpaq sahələrini icarəyə götürsünlər və satın alsınlar, sonra isə sahibkarlıqla məşğul olsunlar. Belə olduqda neftə hədsiz maraq artdı. Çox keçməmiş, yəni 1873-cü ildə R.Nobel İjevsk şəhərində Nobellərə məxsus fabrikdə tüfəng istehsalı üçün ağac axtarıb tapmaq məqsədi ilə Bakıya gəldi. Bakıda neft xəstəliyinin qızışdığını görən Robert öz qardaşı Lyüdviq Nobeldən xəbərsiz 25000 rubla bir kiçik kerosin fabriki aldı.

Beləliklə, Nobel qardaşlarının Bakıda ən böyük neft konserninin əsası qoyuldu. Nobel — dünyada çox tanınmış bir soyaddır, bu məşhurluq Nobel qardaşlarının tükənməz var-dövləti və malik olduqları çoxlu sənaye müəssisələrinin sayı ilə yox, hər şeydən əvvəl Bakı neft sənayesinin formalaşmasında, eləcə də dünyada

tanınmış böyük humanist Nobel sülh mükafatı, elm və texnikanın ayrı-ayrı sahələri üzrə mükafatların əsasını qoymuş və təsisçisi olmuş Nobel ailəsinin adı ilə bağlılığıdır.

Bakının neft sənayesi üçün Nobel qardaşlarının gördükləri işi əsl inqilab adlandırsaq səhv etmərik. Onların Bakı neft sənayesinin inkişafında misilsiz rolu diqqətəlayiqdir.

Onların gördükləri işin həcminin ayrı-ayrı illərdəki mənzərəsinə baxsaq hər şey bizə məlum olar. Belə ki, 1904-cü ildə onlar məhsulun nəqli üçün 95000 funt-sterlinq dəmir yoluna, 6000 funt-sterlinqdən çox xarici gəmi sahiblərinə, 295000 funt-sterlinqdən çox Xəzər dənizindəki gəmilərin sahiblərinə, 16000 funt-sterlinqə yaxın Qara dəniz gəmi sahiblərinə, 335000 funt-sterlinqdən çox Volqa çayındakı gəmilərin sahiblərinə haqq ödəmişdilər ki, bu da hamısı birlikdə 1072000 funt-sterlinqdən artıqdır. Bu illər ərzində onlar 1100000 aksiz vergisi ödəmişlər.

Onlar həmçinin avadanlığın amortizasiyasına 142279 funt-sterlinq xərcləmiş və 43873 funt-sterlinq borcların qaytarılmasına sərf etmişlər. Digər məqsədlər üçün (o cümlədən idarə heyəti və işçilərə verilən 60000 funt-sterlinq bonus da bura daxildir) böyük məbləğdə pul ayırdılar. Gəlirdən 150000 funt-sterlinq, yaxud 10% dividend kimi səhmdarlar arasında bölüşdürmüşdülər.

Onların şirkətinə məxsus neft mədənlərində 3800 işçi çalışır, bunlardan yüz nəfəri ofislərdə işləyir, Bakıdakı neftayırma zavodlarında və emalatxanalarda 3615 nəfər, bunlardan da 110 nəfəri ofislərdə çalışırdı. Xəzər dənizində, Volqa və digər çaylarda üzən gəmilərin heyəti 2300 nəfər idi, bunlardan da 250 nəfəri zabit idi. Hamısı bir yerdə götürüldükdə Nobel qardaşlarının 12135 işçisi var idi ki, onlara mütəşəkkil olaraq 500000 funt-sterlinqdən çox məvacib verirdilər. Məhsul istehsalına görə bu şirkət dünyada birinci, neftayırma standartları və neft sənayesi məhsullarının satışının təşkilinə görə ikinci yeri tuturdu.

"Nobel qardaşları" şirkətinin təsisçilərinin atası Emmanuel Nobel özünün ixtira etdiyi rezindən hazırlanmış əsgər çantaları və sürətlə güllə atan tüfəng layihələrini İsveç hökumətinə təqdim etdi. Sonra o, sualtı mina ixtira etdi, həmin mina 1837-ci ildə sınaqdan keçirildi. Sınaqdan sonra rus hökuməti ona Rusiyada qalmaq şərtilə 2500 funt-sterlinq verdi və tapşırdı ki, bu cür minaların istehsalı üçün zavod tiksin. O, general Oqarev ilə birlikdə kiçik bir maşın sexi tikdi, ancaq hökumətdən çox böyük sifariş aldığına görə məsləhət bildi ki, 1846-cı ildə Sankt- Peterburqda daha böyük bir zavod inşa etsin. Kronştadtdaki zavodları avadanlıq və tokar dəzgahları ilə təchiz etdi, birinci dəfə olaraq mərkəzi isitmə sistemi üçün özünün layihəsi ilə. Krım müharibəsi başlandıqda hökumət düşmən gəmilərinin hücum edəcəyi təqdirdə minalarla Kronştadtı və Sveaberq qalasını mühafizə etməyi ona tapşırdı. Bu işi o, oğlu Robertlə birlikdə yerinə yetirdi. Müharibənin ikinci ili Emmanuel hökumətdən gəmilər üçün mühərrik istehsal etmək barədə sifariş aldı. Baltik dənizindəki "Volqa" və "Qanqut", Aralıq dənizindəki iki göyərtəli "Retvizan" gəmisi Nobellərin icad etdiyi mühərriklərlə təchiz olunmuşdu.

İnşa etdiyi zavodlar Rusiyada ən aparıcı müəssisələr olduğuna baxmayaraq, Emmanuelin özünün şəxsi maliyyə vəsaiti yox idi. Ona görə də çoxlu borcları vardı. Rusiya hökumətində dəyişikliklərlə əlaqədar gəmiçiliklə bağlı sifarişlər xaricə verilməyə başladı. O, ayrı-ayrı şirkət və şəxslərdən sifarişlər qəbul etməklə vəziyyətini düzəltməyə çalışdı, bu minvalla "Qafqaz və Merkuri" şirkəti üçün Volqa çayında üzən 50 gəmi və digər şirkətlər üçün mühərriklər işləyib hazırladı, sonra isə Sankt-Peterburqla Şlüsselburq arasında daimi gəmi gəliş-gedişinin açılmasını təşkil etdi. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Emmanuel Qərbdə mühəndis-texniki tərəqqini yaxından izləyir, özünün müstəqil praktik işi ilə elmi və mühəndis problemlərinin təkmilləşdirilməsi üzərində çox zəhmət çəkdi. Tikdiyi zavod və emalatxanalarda avadanlığın çoxunu, o cümlədən buxarla işləyən beş tonluq presi özü düzəltmişdi, onun icad etdiyi bütün mühəndis işi baxımından və kamilliyi nöqteyi-nəzərindən özündən əvvəlkiləri geridə qoyurdu.

Lakin onun işləri maliyyə cəhətdən pisləşirdi və nəhayət Emmanuel işlərini dayandırıb özünün müflisləşdiyini elan etməyə məcbur oldu. Əlindəki bütün vəsaiti tükənəndən sonra İsveçə qayıdıb partlayıcı maddələr üzərində tədqiqatlarını davam etdirməyə və oğlanları ilə birlikdə kiçik bir zavod inşa edib partlayıcılar istehsalına başladı. O, 1872-ci ildə vəfat edərkən vəsiyyət etmişdi ki, 2000000 funt-sterlinq dəyərində konsol və təminatı səhmlərdən ibarət olan bütün var-dövləti hesabına Nobel fondu yaradılsın, həmin vəsait bu fondun hesabına keçirilsin və ondan hər il bəşəriyyətə böyük xidmətlər göstərmiş şəxslərə mükafat verilsin.

Robert Nobel 1829-cu ildə avqustun 4-də Stokholm şəhərində anadan olmuş və təhsilini də orada almışdır. Atası Rusiyadan İsveçə qayıdanda o da atası ilə gəldi, lakin bir azdan Finlandiyaya gedib bir nitroqliserin zavodu tikdi. Çox tez-tez qəza hadisələrinin baş verməsinə görə Finlandiya senatı bu partlayıcı maddənin istehsalını qadağan edəndə, Robert yenidən İsveçə qayıtdı, burda atası və qardaşlarının nitroqliserin zavodunda mühüm vəzifələrdə çalışdı. 1870-ci ildə qardaşı Lyüdviqin dəvətilə Sankt-Peterburqa qayıtdı. Lyüdviq İjevskdə tüfəng istehsalı üçün müqavilə bağlamışdı, ancaq məsələ qalxmışdı ki, tüfəngin qundağı üçün xaricdən gətirilən qoz ağacı yerli məmulatla əvəz olunsun. Belə məmulatı da kifayət miqdarda ancaq Qafqazda əldə etmək mümkün idi. Bu məsələnin həyata keçirilməsi Robertə həvalə olundu. Onun Qafqaza səfəri ayrı bir sahədə də öz bəhrəsini verdi. Ağac emalı ilə bağlı layihə uğursuzluqla nəticələndiyindən, 1873-cü ildə Sankt-Peterburqa qayıdıb diqqətini neft sənayesi üzərində cəmləşdirdi. Çünki o, Bakıdan keçib İrana gedərkən, neftin necə əhəmiyyətli sahə olduğunu dərk etmişdi. Neft sənayesi ilə həddindən çox maraqlandığından qardaşı Lyüdviqi də bu işə sövq etməyə nail oldu və qardaşını inandırdı ki, kiçik bir neft müəssisəsinin yaradılmasında ona

kömək etsin. Bundan sonra Bakıya qayıdıb 1875-1876-cı illərdə neft sənayesi sahəsində ilk addımlarını atdı. O, neft sənayesinin böyük imkanları və gələcəyinə inanırdı, ancaq bütün bunlar Bakı neft sənayesində istifadə olunan üsulların zəif cəhətlərini görməkdə ona mane olmurdu. 1875-ci ildə o, Tiflis şirkətindən Qara şəhərdə 1000 funt-sterlinqə kiçik bir neftayırma zavodu aldı. Burda yenidənqurma işləri apardıqdan sonra neft emalına yeniliklər tətbiq etməyə başladı. Həmin zavodu almamışdan az əvvəl Bakıda bir neçə neftli sahə almış və neft istehsalını təşkil etmişdi. Balaxanı mədənlərindən gələn xam neft emalına başlayan kimi Robert başa düşdü ki, çəlləklərlə xam neftin daşınması gec və baha başa gəlir, çoxlu məsrəf tələb edir. Mövcud şirkətlər onunla birlikdə neft kəməri çəkmək təklifini rədd etdilər. Məcburiyyət qarşısında qalıb o, yenə də qardaşı Lyüdviqə üz tutdu. 1000 funt-sterlinq sərf etməklə Balaxanıdan Qara şəhərə neft kəməri çəkdirdi. Elə birinci il neft kəməri ona çəkilmiş xərcləri çıxartdı ki, bu da Nobel qardaşlarının böyük hörmət qazanıb məşhurlaşmasına səbəb oldu və digər şirkətlərin də belə kəmərlər çəkilişinə ruhlandırdı. Bu minvalla onlar Bakıda müasir neft sənayesi və neft işinin əsasını qoydular.

Deyilənlərə görə nefti çəlləklə daşıyan minlərlə arabaçı bu iş üçün ildə 150000 funt-sterlinqə yaxın pul qazanırdılar, neft kəmərlərinin çəkilişi bu qazancın onların əlindən çıxmasına səbəb oldu. Buna görə Nobel qardaşlarına qarşı o qədər kin-küdurət artmışdı ki, acıqla boruları kəsirdilər, qardaşlarsa məcbur olub kəmər boyu gözətçi budkaları tikdirib nəzarətçi qoyurdular. Nobel qardaşları dərin qazma sahəsində öncül olmuşlar. Onlar Bakıdakı neft mədənlərini saxlamaqla Pensilvaniyadan qazmaçılar gətirmişdilər. Lakin onların istifadə etdiyi qazma üsulları yaxşı deyildi, buna görə də onlar müəyyən dəyişikliklər etməklə mürəkkəb bir qazma qurğusu ixtira etmişdilər. Bu qurğu sonralar Bakı mədənlərində istifadə olunan bütün sistemlər üçün nümunə rolunu oynadı. Onlara məxsus neft mədənləri də neftayırma zavodları kimi tədricən böyüyüb Bakıda ən böyük neft mədənləri oldu. Heç bir şirkət iddia edə bilməz ki, Xəzər dənizi ilə neftin nəqli və ticarətini inkişaf etdirmək sahəsində Nobel qardaşları qədər iş görmüşlər. Onlar Müqəddəs adada və Çələkəndə neft quyusu qazdırmış, Berekeydə yeni bir mədəni işlətməyə başlamış və qazmaçılarını bir sıra daha ümidverici bölgələrə göndərmişdilər. Onlar nəinki neft istehsalı və emalı ilə məşğul olan ingilis-rus şirkətləri ilə dostluq və həmrəylik şəraitində işləyirdilər, həm də Rotşildin neft və neft məhsullarının satışı ilə məşğul olan nəhəng birgə neft şirkətində payçı idilər. XIX əsrin sonu — XX əsrin əvvəllərində Bakının indiyədək "Qara şəhər" adlandırılan yeni sənaye rayonunda 200-ə yaxın neftayırma zavodu vardı. Bu, Nobel qardaşlarının hakim olduqları çox iri sənaye sahəsi idi. Nobel qardaşlarının fəaliyyət dairəsinin geniş hüdudlarını qeyd edərkən çox təəssüflənirik ki, Azərbaycan neft sənayesindən istədikləri kimi əldə etmələrinə baxmayaraq Bakı şəhəri üçün heç nə etmədən, tükənməz var-dövlət aparmışdılar. Dünyanın məşhur milyonçularının Qara şəhərdə kiçik bir villası qalmışdır. Bax bu da xarici sahibkarların özlərinə məxsus uzunmüddətli maliyyə siyasətinin nəticəsidir. Tarix bir daha sübut edir ki, milli burjuaziyanın, zəif də olsa, öz imkanı daxilində inkişafı xalqımızın milli mənafeyi, onun milli şüurunun, iqtisadi və mənəvi inkişafının naminə yönəldilmişdir. XX əsrin əvvəllərində Bakı neft sənayesində yaranmış ən iri ittifaq "Nobel qardaşları" və "Mazut" şirkətləri arasında neft məhsullarının daxili bazarda birgə satışı haqqında bağlanmış saziş idi. "Nobmazut" adlı bu saziş aydın ifadə olunmuş kartel xarakteri daşıyırdı. O, bazarların göstərilən şirkətlər arasında bölüşdürülməsi işində fəal siyasət yeridir, rəqiblərə satmaq yolu ilə böyük mənfəət götürmək məqsədi güdərək, yanacaq bazarlarında öz hökmran vəziyyətini möhkəmləndirirdi. Halbuki saziş formal olaraq neft məhsullarının daşınması və satışına çəkilən xərcləri azaltmaq üçün bağlanmışdı. Rotşildlər və "Nobel qardaşları" arasında əldə olunmuş bu saziş, Nobellərin Rusiyanın neft sənayesində aparıcı rol oynadıqlarının etiraf edilməsi demək idi. Lakin bu, onlar arasındakı mübarizənin ancaq formasını dəyişdirirdi.

Bazarların iri şirkətlər tərəfindən zəbt olunması təhlükəsi digər neft sənayesi şirkətlərini də birləşməyə sövq etdi. İngilis iri kapital sahiblərinə mənsub olan müəssisələr Rusiyanın daxili bazarları uğrunda mübarizədə "Nobmazut"a qarşı öz səylərini birləşdirməyə cəhd göstərdilər. 1904-çü ildə "S.M.Şibayev və K°" və "Bibiheybət neft sənayesi cəmiyyəti" şirkətlərinin direktoru, eyni zamanda Böyük Britaniyanın Bakıdakı konsulunun müavini Urkvartın təşəbbüsü ilə ümumi neft ticarəti aparmaq üçün dörd ingilis şirkətinin birləşməsi nəzərdə tutulurdu. Gələcəkdə bu iki şirkətə ümumi illik hesabı 81,9 mln. pud olan "Oleum" və "Born" şirkətləri də birləşdirilməli idi. Bu cür samballı kömək Urkvarta 1904-cü ildə "Mazut" şirkətinin nümayəndələri ilə daxili bazarda birgə fəaliyyət barədə danışıqlar aparmağa imkan verdi. Danışıqlar 1905-ci ilin yazında "Nobmazut və K°" və "Oleum" şirkətlərinin anbarlarını və Rusiyada neft malları satışı ilə məşğul olan təşkilatlarını icarəyə götürdü və hər il ingilis şirkətlərinə məxsus 40 mln. neft qalığını və 9 mln. pud çıraq yağlarını mal komissiyasına qəbul etdi. Bu saziş birləşmiş neft şirkətlərini ixracatçı ingilis şirkətlərinin inhisar yolu ilə özünə tabe etməsinin möhkəmləndirilməsi demək idi. Müqavilənin şərtlərinə görə ingilis şirkətləri "Nobel qardaşları" və "Mazut"un vasitəçiliyi olmadan Rusiyanın hər hansı bir rayonunda neft məhsulları satmamağı öhdələrinə götürməklə öz neft qalıqları və ağ neftlərini Bakıda "Nobmazut"a təhvil verməli idilər. Eyni zamanda bunu da qeyd etmək vacibdir ki, "Nobel qardaşları" və "Mazut" özlərinə daxili bazarda ingilis şirkətlərinin yeganə nümayəndələri kimi çıxış etmək hüququ da qazandılar.

Mərkəzi Rusiya bazarlarında ticarət müstəqilliyini tamamilə itirən ingilis şirkətləri onlara məxsus olan anbarları, rezervuarları (çənləri) və nəqliyyat vasitələrini yerli şirkətlərə vermək məcburiyyətində qaldılar.

Nəticədə, ölkənin müxtəlif yerlərində ümumi tutumu 17 mln. puda yaxın olan anbarlar, bir hissəsi xüsusi, bir hissəsi isə ingilis şirkətləri tərəfindən icarəyə götürülmüş 1169 vaqon-sistern "Nobmazut"un ixtiyarına keçdi.

Tezliklə, "Nobmazut" ölkənin bütün neft bazarında hökmran mövqe tutmağa müvəffəq oldu. Ağ neft, yağ istehsalının onun inhisarına keçməsi də buna kömək etdi. 1909-cu ildə Bakıətrafı rayonda istehsal edilən bütün yağların topdan satışının 50 və 40%-i müvafiq olaraq, "Nobel qardaşları" və "Mazut"un payına, 10%-i qalan müəssisələrin payına düşürdü.

1908-ci ildə sulfat turşusu sindikatının əmələ gəlməsi də əhəmiyyətli hadisə idi. Sulfat turşusu satışının ümumi həcmində şirkətlərin iştirakı aşağıdakı paylarla müəyyənləşdi: "Nobel qardaşları" — 33%, Q.A.Dyuken — 27%, S.L.Şifrin — 20%, "Qoldlyüst və oğlu" — 11%, "S.M.Şibayev və K°" — 9%. Sindikatın bütün iştirakçıları öz ticarət əməliyyatlarını yalnız ümumi kontor vasitəsilə həyata keçirməyi öhdələrinə götürdülər. Sindikat müqaviləsinin fəaliyyət müddəti 1909-cu il yanvarın 1-dən 1912-ci il yanvarın 1-dək müəyyənləşdirildi.

Müqavilə şərtlərinə görə sindikat Bakıya başqa yerlərdən sulfat turşusu gətirilməsi imkanını ləğv etdi. O, "Rusiya və zavodları" sindikatı ilə öz məhsullarını Bakıətrafı rayona göndərməməsi barədə xüsusi saziş imzaladı. Sulfat sindikatı özü isə sulfat turşusunun satışı üçün yüksək sabit qiymətlər müəyyənləşdirdi, pudu 1 manatdan aşağı düşməyə imkan vermədi. Sindikatın işində aparıcı rolu "Nobel qardaşları" oynayırdı və o, 1910-cu ilin oktyabrında "Qoldlyüst və oğlu" şirkətinin sulfat turşusu və ağ neft-yağ zavodlarını satın alıb onları konservasiyada saxlayaraq, sindikatda öz mövqeyini daha da qüvvətləndirdi.

Birinci dünya müharibəsindən əvvəlki illərdə Azərbaycanın neft sənayesində bir neçə maliyyə-sənaye qrupu və trest təşkilatı əmələ gəldi. Ölkə bankları ilə sıx qarşılıqlı əlaqədə olan bu birliklər o qədər güclü idi ki, öz müstəqilliklərini nəinki hər hansı bir bankdan, hətta bank qruplarından belə qoruyub saxlaya bildilər. Həm də onlara "dost" olan bəzi banklardan öz məqsədləri üçün istifadə etməyə başladılar. Onlardan ən iriləri "Royyal Datç-Şell K°" ("Şell") və "Nobel" trestləri idi.

1912-ci ildə ingilis-holland "Şell" tresti Rotşildlərin Parisdəki bankir evinə məxsus olan "Xəzər — Qara dəniz cəmiyyəti" səhmlərini əlinə keçirdi. Bu müəssisələrin kapitalı o vaxt müvafiq surətdə 10 və 12 mln. rubl təşkil edirdi, onlar öz güclərinə görə ən iri Bakı şirkətləri idilər və yalnız "Nobel qardaşlarından geri qalırdılar.

Beləliklə Rusiyada o vaxta qədər müstəqil olan bir sıra müəssisələr üzərində maliyyə nəzarəti qoymaq yolu ilə nəhəng müəssisələr yaradılırdı. "Oyl", "Şell" və "Nobel qardaşları" inhisarçı ittifaqları ilə yanaşı, Bakıətrafı rayonda, həmçinin Londonda yaradılan daha bir trest — "Neft sənayesi və maliyyə korporasiyası" qrupu da fəaliyyət göstərirdi. Bu korporasiya əvvəllər Bakıda fəaliyyət göstərən ingilis neft müəssisələrinin birləşdirilməsi və onlar üzərində maliyyə nəzarəti qoyulması əsasında yaradılmışdı. Müharibənin başlanğıcında onun kapitalı 28 mln. manata bərabər idi. Korporasiyanın bütün ticarət fəaliyyəti "Şell"in ixtiyarında idi.

Birinci dünya müharibəsi ərəfəsində bu iri maliyyə-sənaye birlikləri Bakı neft müəssisələrinin bilavasitə xarici kapital qoyuluşlarından bir neçə dəfə çox olan böyük kapital məbləğindən istədikləri kimi istifadə edə bilirdilər. 1914-cü ildə "Oyl"un səhm kapitalı 143,2 mli. rubl, "Şell"inki 77 mln.rubl, "Nobel qardaşları"nınkı 44,0 mln. rubl, "Neft sənayesi və maliyyə korporasiyası"nınkı isə 28,2 mln. manata bərabər idi. İlk üç qrupun 1911 — 1914-cü illərdəki ümumi neft hasilatı isə 1.127,8 mln. pud idi.

Bu, ən iri neft sənayesi birlikləri "iştirak sistemi" və "şəxsi ittifaq" vasitəsilə bir-birilə qarşılıqlı surətdə bağlı idilər. Belə ki, "Oyl"da fransız kapitalının həcmi təqribən 6 milyon manat idi. "Mazut" vasitəsilə fransız mənafeyi həmçinin "Şell"də və "Nobel" qrupunda təmsil olunmuşdu. Həmin dövrdə alman kapitalı nisbətən az payla "Nobel qardaşları"nın tərkibinə daxil idi. Qeyd etmək lazımdır ki, Amerikanın "Standart oyl K°" şirkətinin "Nobel qardaşları"nı özünə tabe etmək və onun vasitəsilə Rusiya neft sənayesinə yol tapmaq üçün göstərdiyi inadkar cəhdlərə baxmayaraq, Nobelin mahir siyasəti sayəsində bu şirkət öz müstəqilliyini düz 1920-ci ilədək qoruyub saxlaya bildi. Bu siyasətin nəticələrindən biri "Şell" və "Nobel" qrupları arasında "mənafe" birliyinin yaranması oldu. Hər iki qrupda bir sıra ziddiyyətlər qalsa da, "mənafe" birliyinin yaranması onlara bir sıra məsələlərdə "Oyl"a qarşı birgə çıxış etməyə imkan verdi. Birinci dünya müharibəsi illərində ən iri şirkətlərin bütün neft işini daha da inhisarlaşdırmaq meylləri aydın təzahür edirdi. Bu mərhələdə aparıcı proses istehsalın birləşdirilməsinin daha da inkişaf etdirilməsi idi. Bu və ya digər dərəcədə bu proses iqtisadiyyatın bütün sahələrini əhatə etmişdi.

Üç ən qüdrətli maliyyə sənaye birliyinin ("Oyl", "Şell" və "Nobel") ümumrusiya neft hasilatında xüsusi çəkisi yüksək səviyyədə olaraq qalırdı. Artıq müharibə başlananda bütün səhm kapitallarının 86%-i bu birliklərin payına düşürdü. Ağ neft və mazut istehsal edən neft emalı zavodlarının, demək olar ki, hamısı, 15 ən iri Qafqaz neft kəmərindən 12-si onların ixtiyarında idi. Bu da zavodlara və limanlara göndərilən sənaye neftinin 90%-inə, bütün neft məhsulları satışının isə 3/4-nə nəzarət etməyə imkan verirdi. Əgər 1913-cü ildə bu üç qrupun birgə neft hasilatı ümumrusiya neft hasilatının 60,2%-ini təşkil edirdisə, 1914-cü ildə 64,1, 1915-ci ildə 63,5, 1916-cı ildə isə təqribən 65%-ini təşkil edirdi. Lakin belə bir faktı da təkzib etmək olmaz ki, yerdə qalan, yəni göstərilən birliklərin tərkibinə daxil olmayan və kapitalları bütün səhm kapitalının 14%-ini təşkil edən səhmdar müəssisələri bütün hasilatın təqribən 40%-ini verirdilər. Beləliklə, "Mazut" şirkəti "Şell" rus qrupunun

bütün məhsullarını saxta qiymətə almaqla, onun buradakı bütün sənaye müəssisələrini və zavodlarını tam nəzarət altına aldı.

Fransız kapitalı ilə əlaqədar qeyd etmək lazımdır ki, hələ 1912 — 1913-cü illərdə "Mazut" və "Xəzər — Qara dəniz" şirkətləri ingilis-holland "Şell" qrupuna keçdikdən sonra, onun rolu xeyli zəifləmişdi. Buna baxmayaraq, bəzi müəssisələrdə fransız kapitalı müharibə illərində çox yüksək fəallığa malik idi.

Müharibə şəraitində Bakıətrafı rayonda ingilis-fransız ziddiyyətləri bir qədər zəifləmişdi. İngilis sahibkarları bu fürsəti əldən buraxmadılar. Onların fəaliyyətləri nəticəsində ingilis kapitalına məxsus bir sıra neft sənayesi müəssisələri müəyyən artıma nail oldular. Əldə etdikləri şirkətlər ətrafında süni surətdə hay-küy qaldıran ingilis sahibkarları onların səhmlərini ən çox İngiltərədə yerləşdirməyə səy göstərdilər. Bu siyasət nəticəsində həmin müəssisələr çox böyük səhm məbləğləri müqabilində dövriyyə vəsaitlərindən məhrum oldular.

1890-cı ilin əvvəli idi. Batum limanında heç kəsin tanımadığı bir əcnəbi şəxs peyda oldu. hər şeyə böyük diqqət yetirən bu şəxs Londonda yerləşən kiçik bir şirkətin başçısı Markus Semyuel idi. Bakı neftinin Batum limanı vasitəsilə geniş miqyaslı ixrac əməliyyatı cənab Semyueli son dərəcə heyrətləndirdi və o, tezliklə bu qərara gəldi ki, Uzaq Şərq ölkələri Bakı kerosini üçün əlverişli bazar ola bilər. "Standart oyl"un inhisarına son qoymaq üçün ilk növbədə məhsulu daha ucuz qiymətə satmaq lazım idi. Bunu isə yalnız Süveyş kanalı vasitəsilə əldə etmək mümkün idi. Lakin o dövrün gəmiləri ilə neft daşınması heç də təhlükəsiz deyildi. Odur ki, "Süveyş kanal kompani" belə daşımaların qəti əleyhinə çıxdı. Belə olduqda, tezliklə bütün tələblərə cavab verən yeni neftdaşıyan gəmi-tanker inşa edildi və 1892-ci il avqustun 24-də "Müreks" adlı ilk tanker 4000 ton Bakı kerosini ilə Batumdan yola düşdü. Süveyş kanalını uğurla qət edib, Sinqapura və Banqkoka doğru üz tutdu.

Çox keçmədən Uzaq Şərq limanlarında kerosin saxlamaq üçün Markus Semyuel iri həcmli anbarlar inşa etdi. Kerosinin aramsız olaraq nəql edilməsini təmin etmək məqsədilə, o hətta Rotşild ailəsinin nəzarəti altında olan bir şirkətlə uzunmüddətli bir müqavilə da bağladı.

Ancaq Uzaq Şərqdə Markus Semyuelin planlarını poza biləcək qüvvələr də vardı. Bu, ilk növbədə Çon Rokfeller idi. O, artıq Çində möhkəmlənmişdi və "Standart oyl trest"in filialını yaratmaqla məşğul idi. Digər rəqib isə Hollandiyaya məxsus "Royyal datç petroleum kompani" idi. Bu kiçik neft şirkəti özünün bacarıqlı direktoru Avqust Kesslerin rəhbərliyi altında xeyli müvəffəqiyyət əldə etmişdi. Elə bu zaman Asiyanın neft bazarlarında gərgin rəqabət gündən-günə şiddətlənirdi. Belə bir vaxtda Avqust Kessler cavan bir bank işçisi ilə tanış olur və çox keçmədən onu şirkətin işlər müdiri təyin edir. Bu, Avqust Henrix Deterdinq idi. Onun gəlişi "Royyal datç"ın fəaliyyətini daha da canlandırırdı. Markus Semyuelin gətirdiyi Bakı nefti ilə rəqabət aparmaq üçün Deterdinq tankerlərin və rezervurların geniş miqyaslı inşasına təkan verir.

Markus Semyuel və "Royyal datç" bir-birilə mübarizə aparmaqla yanaşı, eyni zamanda Amerika nəhəngi "Standart oyl" ilə də çox ciddi rəqabətə düçar olmuşdular.

1897-ci ildə Semyuelin neft əməliyyatları o qədər genişləndi ki, o, əldə olan bütün imkanlarını birləşdirib böyük bir şirkət yaratdı və onu atasının şərəfinə "Şell" adlandırdı. 1901-ci ildə Texas neft yatağı aşkar edildikdə, "Şell" həmin neftin də nəqlini və satışını öz üzərinə götürdü. Beləliklə, çox keçmədən "Şell" istər xam neftin, istərsə də benzin, kerosin və mazutun nəqli, satışı üzrə dünyanın ən böyük neft şirkəti oldu, Rokfellerin neft imperiyası üçün ciddi təhlükəyə çevrildi. "Standart oyl" təcili tədbirlərə əl atdı və "Şell"i öz tərkibinə əritmək üçün çox səy göstərdi. Lakin Markus Semyuel bu təklifləri qətiyyətlə rədd etdi.

1900-cü ildə Avqust Kessler vəfat edir. Onu əvəz edən Henrix Deterdinq İndoneziyanın zəngin neft yataqlarını alır və geniş fəaliyyətə başlayır. Ancaq Rokfellerlə təkbaşına rəqabətin mümkünsüzlüyünü tezliklə dərk edir və tanker kralı Markus Semyuellə birləşməyi qərara alır. Bu birləşmə hər iki şirkətin maraqlarına tam uyğun idi. Çünki "Şell" güclü tanker donanmasına, "Royyal datç" isə zəngin neft mədənlərinə malik idi. Birlikdə isə "Standart oyl trast"a qarşı rəqabətdə qələbə reallaşa bilərdi. Belə də oldu. Hər iki şirkət birləşmək yolunda bir sıra addımlar atdı. "Standart oyl"la başlayan neft müharibəsi də onları qorxutmadı. Bu, ikinci neft müharibəsi idi. Olduqca kəskin və ciddi neft müharibəsi.

Nəhayət, 1907-ci ildə Markus Semyuel və Kenri Deterdinq "Royyal datç" və "Şell Transport" şirkətlərinin birləşdiyini elan etdilər. Bir müddətdən sonra Bakıya gələcək möhtəşəm şirkət — "Royyal Datç-Şell" belə yarandı .

Bu şirkətin maraqlı tarixi ilə yanaşı və onlarla əməkdaşlıq etmiş erməni milyonçusu Q.Gülbenkyanın da haqqında bir neçə söz oxucuya çatdırmağımızı vacib sayırıq. Çünki bu erməni milyonçunun əldə etdiyi milyonlarının əsası Bakı nefti hesabına toplanmışdır. Bu haqda çox az adamda məlumat ola bilər.

Qalust Gülbenkyan neft biznesi ilə məşğul olan ailənin ikinci nəslinin nümayəndəsi idi. O, varlı erməni neft sahibkarı və bankirinin oğlu idi. Onun atası öz taleyini Bakı neftinin Osman imperiyasına ixracı üzərində qurmuşdu. Sultan onu Qara dəniz limanının qubernatoru təyin etmişdi. Ailə Konstantinopolda yaşayırdı. Qalust öz ilk maliyyə transaksiyasını burada etmişdi. Yeddi yaşında ikən valideynləri ona xərclənməyə gümüş türk pulu verdilər. Balaca oğlan pulu götürüb bazara gəlir, lakin özünə şirniyyat almaq əvəzinə antik sikkə alır (sonralar onun qızıl sikkələr kolleksiyası dünyanın ən böyük kolleksiyalarından biri olacaqdır). Məktəbdə çox qeyri-populyar şagird sayılan Qalust vaxtının çox hissəsini bazarda keçirirdi. Bununla o, alverin incəliklərini

öyrənir, Şərq alverində danışıqlar prosesinin dərinliklərini qavrayır və bəzən də özü xırda işlər görürdü. Məktəbi bitirdikdən sonra onu Fransaya, Marselə fransız dilini öyrənməyə göndərdilər. Daha sonra o, Londona Kral kollecinə gəldi və orada neft mühəndisi və qazma işləri texnoloqu ixtisaslarına yiyələndi. Kral kollecindəki professor ona təklif etdi ki, təhsilini davam etdirmək üçün Fransaya getsin. Lakin atası bunu "mənasız akademiya" adlandırıb, Qalustu Bakıya yola saldı. Ömründə görmədiyi nəhəng neft sənayesi Qalusta böyük təsir bağışladı. Bakını tərk edərkən geri dönəcəyinə söz verdiyinə baxmayaraq, o, bir də heç zaman neft ölkəsinə qayıtmadı. Qayıtmağa ləyaqəti də qalmamışdı. Çünki Bakı neftinə birdəfəlik sahib olmaq üçün min bir hiylə ilə Türkiyədə və Bakıda milli münaqişə üçün xeyli vəsait ayırıb, minlərlə günahsız azərbaycanlının qanına bais olmuşdur.

Gülbenkyan Britaniya və alman maraqlarını və daha sonra "Royyal Datç-Şell" şirkətini "Törkiş Petroleum Kompani" şirkəti ilə bir araya gətirdi. Üzünün dediyi kimi, bu iş böyük bacarıq tələb edirdi və çox da xoşa gələn deyildi. İngilis-fars qrupu yeni konsorsiumda 50% qazanmışdı. "Deyçe-Bank" və "Şell" isə hərəsi 25%-ə malik idilər. Bircə Gülbenkyan qalmışdı. Uzun mübahisələrdən sonra ingilis-fars qrupu və Şell hərəsi 2,5%-ini bu erməniyə verdilər. Cənab 5% belə doğuldu. Sazişə əsasən Osmanlı imperiyasında Gülbenkyanın razılığı olmadan bu şirkətlər heç cür iş görə bilməzdilər.

Bakı isə XX əsrdə dünya neft istehsalının lideri kimi daxil olmuşdu. Şöhrətin zirvəsində olan Bakı şirkətlərinin səhmləri Avropanın mötəbər birjalarında ən nüfuzlu şirkətlərin diqqət mərkəzində olardı. Bakı neftinə doğru can atanlardan biri də təbii ki, "Şell" idi.

Nəhayət, 1912-ci ildə Parisin "Dreyfus və Rotşild" bankına məxsus olan 80%-i, bir qədər sonra isə daha 10% "Şell"in ixtiyarına keçdi. Bakı neftinə aparan yollar "Royyal Datç-Şell"in üzünə belə açıldı. Tezliklə "Mazut" cəmiyyətinə məxsus səhmlərinin də böyük bir hissəsi "Şell"in əlində cəmləşdi.

Beləliklə də, Rotşild Bakı səhnəsindən çəkildi. Bunun əsas səbəbi vardı. Birincisi, Rotşild xarici bazarda "Standart oyl"a qarşı rəqabət apara bilmədi, daxildə isə Nobel qardaşlarının üstünlüyünü inkar etmək mümkün deyildi. Rotşildi əvəz edən "Şell" bununla Nobel qardaşları ilə Rotşild arasında nəzərdə tutulan blok yaradılması təhlükəsini də birdəfəlik aradan qaldırdı və əksinə, Nobellə birləşib "Standart oyl"un Bakıya girmək planlarını xülyaya çevirdi. Bu, həmçinin Henri Deterdinqin şəxsi qələbəsi idi.

Neft yataqlarına, məhsullarına tələbat Avropada gündən-günə artırdı. Səbəbi isə məlum idi — texniki və texnoloji sıçrayış. Bakı neftindən alınan sürtkü yağlarının keyfiyyəti ən yüksək tələblərə cavab verirdi. Bunu "neft Napoleonu" adlandırılan Deterdinq də yaxşı bilirdi. Odur ki, tezliklə Bakı markalı sürtkü yağları ilə dünya bazarına yol açdı.

Birinci dünya müharibəsinin başlanmasına hələ xeyli qalmış, neftin gələcək müharibədə aparıcı rol oynayacağı artıq yaxşı məlum idi. "Neft Napoleonu" Deterdinqin adyutantı Elliot Alvesin müharibənin ilk günlərində söylədiyi sözlər obyektiv gerçəkliyi bir daha sübut edir. O deyirdi: "Ordu da, donanma da, dünyanın bütün qızılları və xalqları da neftə sahib olanlar qarşısında gücsüz və acizdilər". Tarix sübut etdi ki, bu, həqiqətən belədir.

Bununla da müharibə ərəfəsində Böyük Britaniya misilsiz neft potensialına malik oldu. Bu, tədriclə ingilis hərb gəmilərini neft yanacağına keçirməyə imkan verdi. Mütəxəssislərin fikrincə, duru yanacaq gəmilərin döyüş qabiliyyətini 50% artırırdı.

Uinston Çerçill icma palatasına məlumat verdi ki, Deterdinq "Royyal Datç-Şell" şirkətinin bütün neft ehtiyatlarını Britaniya taxt-tacının sərəncamına verməyə hazırdır. Döyüş gəmilərinin artıq 50%-i neft yanacağı ilə işləyirdi. Britaniya donanması müharibəyə tam hazır idi. Dünya okeanındakı gələcək hadisələr bunu birmənalı təsdiq etdi...

Əsrlərlə Abşeron ərazisində müxtəlif üsullarla neft əldə edilməsinə baxmayaraq, iri miqyaslı əsl neft sənayesi XIX əsrin ikinci yarısından sonra formalaşmağa başladı. Elə sənaye ki, o qədər də böyük olmayan Bakı şəhəri bütün dünyanın neft paytaxtına çevrildi. Qədim Abşeron torpağından püskürən neft fontanlarının əks-sədası dünyanın ən uzaq nöqtələrində belə eşidildi. Var-dövlət qazanmaq ehtirasları gündən-günə coşurdu. Dünyanın hər hansı ölkəsindən başlayan yol əvvəl-axır Bakıya doğru üz tuturdu. Şəhər misli görünməyən bir qızdırmaya düçar olmuşdu. Bu neft qızdırması idi. Onun hərarəti gündən-günə yüksəlirdi. Və onun son həddinin hansı səviyyədə olacağını heç kim bilmirdi. Əslində bilmək də mümkün deyildi. Çünki tarixi bir mərhələnin lap başlanğıcı idi.

# AZƏRBAYCAN NEFT SƏNAYESİNDƏ XARİCİ KAPİTALIN ROLU

Bakı neftinin XIX əsrin axırlarında iqtisadi və strateji əhəmiyyəti get-gedə artır, o, iri kapitalist dövlətlərinin kəskin rəqabət obyektinə çevrilirdi. Amerika və Bakı şirkətləri arasında gedən "kerosin müharibəsi" Rusiyanın daxili bazarından Amerika məhsullarının tamamilə sıxışdırılıb çıxarılması, Avropa və Yaxın Şərq bazarlarında Amerika kapitalının mövqeyinin zəifləməsi ilə nəticələndi. Azərbaycan neft sənayesi hasilatın artım sürətinə görə dünyada birinci yerə çıxdı. Abşeron torpağının təkində yerləşən zəngin yataqlar, işçi qüvvəsinin ucuzluğu və mütləqiyyət rejiminin himayədarlığı əcnəbi sahibkarlara əvvəllər xəyallarına belə gətirmədikləri yüksək mənfəət vəd edirdi. Buna görə də Bakı həmin sahibkarları özünə cəlb etməyə başlamışdı.

Xarici kapitalın Azərbaycan neft sənayesinə nüfuz etmə formaları çox müxtəlif idi. Əcnəbi sahibkarların buradakı şirkətlərinin fəaliyyətinə rəsmi icazə verilmiş olduqda, onlar leqal formada çıxış edir, əks halda əvvəllər mövcud olan və Rusiya nizamnamələri əsasında təsis edilmiş əcnəbi şirkətləri satın alırdılar. Neft sənayesinə bu cür nüfuz etmənin formalarından biri də ondan ibarət idi ki, əsas müəssisə ayrı-ayrı kiçik şirkətləri almaq və daha böyük şirkətlərdə "İştirak sistemi" əcnəbilərin mənafelərini elə səhmdar cəmiyyətlərində təmsil edirdi ki, həmin cəmiyyətlərin səhmlərinin müəyyən hissəsi əcnəbi cəmiyyətlərin səhm portfellərində, yaxud neft sənayesi ilə xarici ölkələrin valyuta bazarları arasında vasitəçi kimi çıxış edən yerli bankların nəzarət etdikləri müştərək sindikatlarda olurdu.

Qərbi Avropa nümunəsi əsasında yaradılmış iri neft sənayesi şirkətləri Azərbaycanın neft sənayesinə təsir göstərməkdə çətinlik çəkmirdi. Onların vəziyyəti sabit, iqtisadi fəaliyyətləri rentabelli və rəqabət qabiliyyətli idi. Həmin şirkətlərdə istehsalın təşkil səviyyəsi xeyli yüksək olduğu və onlar bütün sənayesinin mənafelərini daha yaxşı təmsil edə bildikləri üçün çar hökuməti bu şirkətləri dəstəkləyirdi. Xarici ticarət balansının fəallaşdırılması, valyuta şəklində gəlir əldə edilməsi çarizmin konkret məqsədlərinə və ümumi iqtisadi siyasətinə uyğun idi.

XIX əsrin 80-ci illərində ölkədə yaranmış sosial- iqtisadi şərait Bakı neft sənayesi regionuna müdaxilə etmək fikrinə düşmüş əcnəbi sahibkarların ürəyincə idi. Rusiyadan maliyyə naziri, borc kapitalını cəlb etmək yolu ilə çarizmin iqtisadi siyasətini həyata keçirməyə çalışan S.Y.Vittenin dəstəyi bu planların xeyrinə sanballı arqument idi.

90-cı illərdə Fransa Rusiyadan yeni siyasi və iqtisadi güzəştlər tələb edirdi. Bununla əlaqədar Rusiya—Fransa münasibətləri xeyli gərginləşmişdi. Bu vəziyyətdə S.Y.Vitte İngiltərəyə müraciət etdi və bundan sonra oradan Rusiyaya, xüsusən onun neft sənayesinə kapital axını gücləndi. Xarici kapitalın neft sənayesinə cəlb edilməsi 90-cı illərin axırlarında Rusiyanın daxilində və dünya kerosin bazarında maye yanacağın qiymətlərinin sürətlə artması və sənayedə güclü tərəqqi ilə bir vaxta düşdü. Avropalıların ən çox istifadə etdikləri üsul Rusiyadakı mövcud neft sənayesi şirkətlərini və həmin şirkətlərə məxsus olan zəngin neft yataqlarını satın almaqdan ibarət idi.

İri xarici kapitalın Bakı neft sənayesinə nüfuz etməsinin tarixi ardıcıllıqlarını qeyd edərkən, öncə alman, sonra ingilis, fransız və nəhayət Amerika kapitalını xatırlamaq lazımdır. Bakı neft sənayesində alman kapitalının təmsilçisi İsveç təbəəsi R.Nobel və onun qardaşları haqqında kitabda ətraflı qeyd olunduğundan, bu fəsildə onlar haqqında qeyd etmirik. Lakin onların ardınca Bakıya gəlmiş fransız kapitalının daşıyıcısı, məşhur Paris bankiri Rotşild, ingilis kapitalının Bakıda yerləşdirilməsində xüsusi xidməti olan Ceyms Vişaunun və amerikalı tükənməz kapital sahibi Rokfellerin rəhbərlik etdikləri maliyyə-sənaye qrupları haqqında məlumat alacaqsınız.

Azərbaycanda ən güclü fəaliyyət göstərən ingilis kapitalistlərindən ibarət üç qrup yeni səhmdar şirkətlərinin təşkil edilməsi və neft müəssisələrinin satın alınması ilə məşğul idi. Bu qruplardan birinin rəhbəri İngiltərə bankının direktoru E.Qubbard, digər iki qrupun rəhbərləri A.Stüart və F.Leyn idilər. Həmin qruplar əsasən Azərbaycanın neft sənayesi ilə bağlı çox geniş planlar işləyib hazırlamışdılar. E.Qubbardın başçılıq etdiyi, Q.Uladstonun, D.Kistonun, Ç.Murun, B.Consonun, həmçinin K. və V. Vernerlərin daxil olduğu qrup 1897-ci ilin sentyabr ayında Rusiyanın bir sıra şəhərlərində H.Z.Tağıyevin şirkətinə məxsus olan mədənləri, kerosin yağı və sulfat turşusu zavodlarını, neft boru kəmərini, neftdaşıma donanmasını, dəmir yol sisternləri parkını, eləcə da kerosin-mazut anbarlarını 5 milyon rubla almağa müvəffəq oldu. İngiltərə bankının direktoru E.Qubbard Rusiyanın maliyyə naziri Y.Vitteyə ünvanlanmış 10 aprel 1898-ci il tarixli məktubunda bu məsələ ilə əlaqədar yazmışdı: "... c-b Tağıyevin müəssisəsinin xarakteri ilə tanış olduqdan sonra biz həmin müəssisəni almaq barədə onunla müqavilə bağladıq. Əlbəttə, İngiltərə şirkətinin fəaliyyəti üçün xüsusi icazə istəmək yalnız həmin şirkət həqiqətən yaradılandan sonra mümkündür. Biz bu cür icazə alana qədər öz hərəkətlərimizi Rusiya qanunları ilə uyğunlaşdırmaq üçün zəruri olan bütün işləri görmüş və aldığımız bütün daşınmaz əmlakın Rusiya təbəəsi, Sankt-Peterburq şəhərinin fəxri vətəndaşı olan dostumuz Ceyms Vişaunun adına keçirilməsi barədə sərəncam vermişik...". "Göstərilən şirkət üçün Tağıyevin müəssisələrini almış Vişau"nun adı başqa bir sənəddə də göstərilir. Görəsən, ingilislər nəyə görə D.Vişaunun vasitəçiliyindən istifadə etməli olmuşdular. İş burasındadır ki, 1893-cü ildə nəşr edilmiş dağ-mədən nizamnaməsinin 547-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq, əcnəbi cəmiyyətlərə icazə verilirdi ki, onlar "Qafqaz" diyarında neftli torpaqlardan istifadə etmək və ya

onları mülkiyyət kimi almaq, eləcə də bu diyarda neft hasil etmək məqsədilə xüsusi ayırma almaq hüququna malikdirlər. Bundan ötrü hər dəfə müvafiq idarələrdən xüsusi icazə alınmalıdır. Bu cür icazə isə, ümumiyyətlə, əcnəbi səhmdar cəmiyyətlərindən yalnız elələrinə verilə bilər ki, onların Rusiya hüdudlarında fəaliyyətlərinə icazə verilmiş olsun". Bununla belə, bürokratik əngəllərlə qarşılaşacağından ehtiyat edən və H.Z.Tağıyevin şirkətini tezliklə satın almağa çalışan ingilislər qanunla müəyyən edilmiş tələblərə riayət etmədən sövdəni həyata keçirmişdi. Lakin nəzərə almaq lazımdır ki, 1898-ci il iyunun sonunda Ali həzrətləri tərəfindən təsdiq edilmiş Nazirlər kabineti haqqında Əsasnaməyə görə icazə verilmişdi ki, ingilislər Tağıyevə məxsus olan və onun tərəfindən... Vişauya güzəşt edilmiş hazır mədənləri, o cümlədən dövlətə məxsus bəzi neftli torpaqları alıb istismar etsinlər. H.Z.Tağıyevin müəssisələri əsasında 1897-ci ilin oktyabrın 29-da Londonda "Rusiyada neft maye yanacaq çıxaran cəmiyyət" ("Oleum") yaradılmışdı. Bu cəmiyyət Abşeron yarımadasında neft mədənlərini istismar etmək məqsədilə 1898-ci il dekabrın 2-də Rusiyada fəaliyyətə başladı. Cəmiyyətin direktorlar şurasının 6 üzvü vardı: D.Kiston (sədr), Q.Uladston, K. və V.Vernerlər, eləcə də Londonda C.Mur və Bakıda H.Z.Tağıyev (direktorların hər birinə məxsus olan səhmlərin dəyəri 100 min funt-sterlinq idi. Bu, təqribən bir milyon rubl qızıl pula bərabər idi). Cəmiyyətin məsul agenti M.M.Şumaxer Bakıda yaşayırdı. Rusiyada aparılacaq əməliyyatlar üçün 1,2 milyon funt-sterlinq dəyərində əsas kapital nəzərdə tutulmuşdu.

İngilis kapitalistləri H.Z.Tağıyevin müəssisələrini aldıqdan sonra sanballı gəlir əldə etdilər. Onlar aldıqları quyularda qazma işlərini başa çatdırmağa macal tapmamış, həmin quyular güclü fontan vururdu.

Təkcə dörd ay ərzində (1897-ci ilin noyabrından 1898-ci ilin martına qədər) "Oleum" 40 milyon pud neft hasil etmiş, bu isə həmin cəmiyyətə 300 min funt-sterlinqdən, yaxud 3 milyon rubldan artıq xalis gəlir gətirmişdi. Həmin satış müqaviləsi bağlanandan sonrakı iki il dörd ay ərzində ingilislər 7,25 milyon rubl xalis gəlir əldə etmişdilər.

H.Z.Tağıyevin şirkətinin alınması ingilislərdən ötrü özlərinin gözlədiklərindən daha uğurlu oldu. 1898-ci il yanvarın 28-də Rusiya Maliyyə Nazirliyinin Londondakı nümayəndəsi Q.P.Kamenski yazırdı ki, "son zamanlar İngiltərədə neft yataqları ilə zəngin olan torpaqları yeni qayda ilə istismar etmək və ya həmin torpaqların istismarını daha səmərəli üsullarla davam etdirmək üçün bu cür torpaqları almaq cəhdləri yaranmışdır... İngilislər özləri bu yataqların istismarını son dərəcə sərfəli iş hesab edirlər...".

H.Z.Tağıyevin şirkətinin alınması Azərbaycanın neft sənayesinə İngiltərədən kapital axınının güclənməsinə təkan verdi. 1897-1901-ci illərdə ingilislərin təşkil etdikləri 11 səhmdar şirkət tezliklə neft sənayesində mühüm yer tutdu. 1901-ci ildə Bakıda fəaliyyətdə olan buruqların ümumi sayının 11%-i ingilis şirkətlərinə məxsus mədənlərdə yerləşirdi. Neftin ümumi hasilatının təqribən 1/6 hissəsi İngiltərə şirkətlərinin payına düşürdü. Həmin illərdə yaradılmış İngiltərə şirkətləri əsas kapitalının məbləği 3,67 milyon funt-sterlinq olan "Neft-sənaye maliyyə korporasiyası" adlı, trestə oxşar bir qurumda birləşmişdilər. İngilis kapitalı fəaliyyət sərbəstliyinə nail olmuşdu. Bəzi tədqiqatçıların obrazlı şəkildə dedikləri kimi, XX əsrin əvvəllərində bu kapital "Neft Bakısında kök salmışdı". K.Z.Tağıyevin neftlə bağlı işlərinin alınması ingilislərin strateji niyyətlərinin yalnız birinci mərhələsi idi. 1901-ci ildə ingilis maliyyəçisi d"Arsi İranda neft yataqlarının işlənməsinə razılıq aldıqda, daha mühüm addım atılmış oldu. Britaniyanın bu müəssisəsi, neft yataqlarının işlənməsindən ibarət xalis iqtisadi məqsədlərlə yanaşı, Yaxın Şərqin bu mühüm strateji rolunu öz nəzarəti altına almaq məqsədi güdürdü.

Bütün bunlar göstərirdi ki, neft probleminin əhəmiyyətini Avropada tez başa düşmüşdülər. Britaniyanın ən iri ticarət şirkəti sayılan Samuelin şirkəti tezliklə neft alverinə qurşandı. Samuellə bərabər, digər Britaniya şirkətləri da neft alverinə qoşulmuş və neftlə bağlı əməliyyatlar hesabına yüksək gəlir əldə etmişdilər.

90-cı illərin axırlarında İngiltərə şirkəti öz paroxodlarında neft yanacağından istifadə etməyə başladı. Samuel Britaniya donanmasının rəhbərliyini ondan nümunə götürməyə sövq etmək üçün çox fəal təbliğat aparır, donanmanı lazımi miqdarda neftlə təmin etməyə hazır olduğunu bildirirdi. Britaniya şirkətlərinin zəif cəhəti ondan ibarət idi ki, onların özlərinin neft yataqları yox idi. Buna görə də onlar əcnəbi şirkətlərdən tam asılı vəziyyətdə idilər. Əslində Britaniya şirkətlərinin neft aldıqları yeganə mənbə həmin şirkətlər idi.

Tağıyevin şirkətinin yerində Britaniyanın ən iri neft şirkəti - işgüzar yazışmada və ədəbiyyatda "Oleum" adı ilə tanınmış, kapitalının həcmi 12 milyon rubla bərabər olan "Raşen Petroleum ənd likvid fyuel K" limited" şirkəti yaradılmışdı.

Rusiyanın neft sənayesində birinci olaraq "özlərinə yer edən" Stüart və Uladston oldu. Lakin Samuel də öz rəqiblərindən geri qalmaq fikrində deyildi. Tağıyevin işlərinin alınması demək olar ki, eyni zamanda, "Şell"in tərkibinə daxil olan və bir neçə ildən bəri Samuellə əməkdaşlıq edən "Leyn ənd Makendru" şirkəti Şibayevin müəssisəsini almış və onun bazasına kapitalının həcmi 6,5 milyon rubl olan "Şibayev Petroleum K°" şirkətini təşkil etmişdir.

Britaniya şirkətləri yaradılandan sonra elə ilk aylarda onlar yəqin etdilər ki, aldıqları müəssisələr gəlirlidir. Bu mənada "Oleum"un işləri xüsusilə uğurlu gedirdi. Əvvəllər Tağıyevə məxsus olmuş mədənlərdəki quyular elə güclü fontan vururdu ki, şirkətin qarşısında yaxın vaxtlarda öz xərclərini çıxarmaq perspektivi açılmışdı. Tağıyevin işini almaq üçün 5 milyon rubl verildiyi halda, yeni şirkət təkcə ilk dörd ay ərzində təqribən 40 milyon pud neft hasil etmişdi. "Fayneşial nyus" qəzetinin hesablamalarına görə, bu qədər neftin

satışından 3 milyon rubldan çox gəlir alınmalı idi. Qəzet yazırdı ki, bu "çox böyük mənfəətdir" və ingilislərin satın aldıqları mədənlər "praktiki olaraq tükənməz" olduqlarına görə, qəzet həmin şirkətlərə "əla perspektiv" vəd edirdi.

Bu cür proqnozlar üçün doğrudan da hər cür əsas var idi. ABŞ-ın Batumdakı konsulu Çembers qeyd etmişdi ki, "Oleum"un fəaliyyətinin ilk ilinin yekunlarına görə ingilislər həm mədənləri almaq üçün çəkdikləri xərci çıxarmış, həm də xeyli gəlir əldə etmişdi".

Çembersin dediyinə görə, ingilislərin "heyrətamiz dərəcədə uğurlu təşəbbüsü və Bakı mədənlərinin dəyəri məsələsi Böyük Britaniyada güclü hay-küyə səbəb olmuşdu. Neft mülkiyyətinin qiyməti kəskin şəkildə artmışdı, eyni zamanda Bakıda sərmayə qoymaq arzusunda olan britaniyalı kapitalistlərin sayı durmadan artırdı".

Rusiyadakı neft yataqları ilə zəngin torpaqların alınması elə güclü ajiotaja səbəb olmuşdu ki, Çembersin fikrincə, günlərin bir günü "Bakının bütün biznesi" alqı-satqı predmeti ola bilər. Bakını sözün əsl mənasında Britaniyanın maliyyə ekspansiyası təhlükəsi gözləyirdi. Asan qazanc dalınca buraya gəlmiş ingilis işbazlarının sayı-hesabı yox idi. Bununla əlaqədar, digər Amerika konsulu Smit yazırdı: "Əcnəbilərə hər yerdə rast gəlmək olar. Onların sayı o qədər çoxalıb ki, tezliklə Bakı ingilis şəhərinə çevriləcəkdir. Burada kapital qoyuluşu üçün əlverişli şərait vardır və əgər bunun qarşısı alınmasa, yaxın gələcəkdə neft ticarəti bütünlüklə ingilislərin əlinə keçəcək və bu, heç kəsi təəccübləndirməyəcəkdir".

İngilis biznesmenləri çar hökumətindən hələ də lazımi icazə almamışdılar, buna görə də çar Rusiyasının maliyyə nazirliyinin nümayəndəsi Q.Vilenkin yaranmış vəziyyətdən narazılığını bildirmək üçün təklif etmişdi ki, İngiltərə qəzetlərində əcnəbilərin Rusiyada neft işi ilə məşğul olmalarına icazə verilməsi qaydaları haqqında məqalə dərc edilsin. 1899-cu ilin baharında İngilis—rus bankının təşkil edilməsi layihəsi irəli sürüldü. Bu ideya əslində təzə deyildi. 1896-cı ilin axırlarında "Rusiyada sənayenin inkişafı üzrə əsas cəmiyyət" adlanan analoji Rusiya-Fransa cəmiyyəti yaradıldı. Fransa maliyyə amilinin ən qüdrətli qüvvələrini birləşdirən bu cəmiyyət Peterburq Beynəlxalq Bankının iştirakı ilə yaradılmışdı. İngilis—rus bankı ideyası araya çıxanda "Əsas cəmiyyət" faktiki olaraq öz mövcudluğuna xitam verdi. Almaniyanın "Diskonto Kezelşaft K°" bankının iştirakı ilə yaradılması nəzərdə tutulan Rusiya— Belçika bankının layihəsi də meydana çıxmış, lakin tezliklə bu layihə də öz yerini ingilis variantına güzəşt etməli olmuşdu. Məhz İngilis-rus bankı lap əvvəldən Britaniya kapitalının neft sahəsindəki maraqları ilə ayrılmaz surətdə bağlı idi.

1899-cu ilin yanvar ayında ingilis kapitalistlərinin hər iki əlaqədar qruplaşması elə bir təkliflə çıxış etdilər ki, bu təklif onların bircə anda Rusiya neft maqnatları ilə eyni vəziyyətə düşmələrini təmin edə bilərdi. Leyn və onun şəriki Offenheym, eləcə də Uladstonun nümayəndəsi Verner çar hökumətinə "Abşeron yarımadasındakı neftli torpaqları İngiltərə kapitalının köməyi ilə istismar etməyin yeni və xəzinə üçün daha sərfəli" üsulunu təklif etmişdi.

İngilislərin bu təklifini çar hökumətinə çatdırmaq missiyasını öz üzərinə götürmüş Rusiyanın maliyyə akenti Tatişev isə deyirdi ki, "Dövlətə məxsus olan saysız-hesabsız sərvətlərin ömürlük istifadə üçün tamamilə müftə şəkildə hərracdan paylanmasından ibarət zərərli sistem kökündən dəyişdirilməli, bunun əvəzində ingilis kapitalına əsaslanan yarımhökumət şirkəti yaradılmalı, neftlə zəngin geniş sahələr isə heç bir alqı-satqı keçirilmədən ingilis kapitalının sərəncamına verilməlidir".

İngilis biznesmenləri elə güman edirdilər ki, mənfəətin xeyli hissəsini müntəzəm olaraq çar hökumətinin hesabına köçürməyi vəd etməklə, bu hökumətin rəğbətini qazanacaqlar. Vernerin layihəsi dövlətdən alınacaq torpaqlarda çıxarılan neftin satışı hesabına əldə ediləcək gəlirin 70%-ini, Leynin layihəsi isə müvafiq gəlirin 61,7%-ini dövlətə verməyi və bundan əlavə çıxarılmış bütün neftin 70%-inin sərfəli qiymətlərlə dövlətə satılacağını vəd edirdi. Verner yazırdı: "Bu cür müştərək fəaliyyət sistemi bir tərəfdən, bu iş üçün Rusiyadan ötrü müstəsna əlverişli şərtlərlə İngiltərə kapitalını cəlb etməyə kömək edər, digər tərəfdən, Qafqazdakı neft sərvətlərinin gələcək istismarı xəzinə üçün sərfəli olardı".

İngilislər ən perspektivli yataqlardan olan Bibiheybət zonasındakı geniş yataqları ələ keçirmək iddia-sında idilər. Verner H.Z.Tağıyevin mədəninə bitişik 40 desyatin, o cümlədən Bibiheybətdə və dənizin ona bitişik hissəsində 60 desyatin əlverişli torpaq sahəsini ələ keçirmək fikrində idi. Əkinçilik və dövlət əmlakı naziri A.Yermolov sonradan ingilislərin təkliflərinin mənasını təhlil edərək yazırdı ki, "təkcə adları çəkilən bu şəxslər Bibiheybət sahəsinin ən yaxşı hissələrindəki neft yataqlarını ələ keçirməyi və onların işlənilməsini özlərinin başlıca məqsədi hesab edirlər". Bununla bərabər, hökumət ingilislərə bu cür güzəştlər edəcəyi halda, özünün də mənfəətinin təmin olunacağına heç bir zəmanət yox idi. Yermolov göstərirdi ki, Uladstonun qrupu tərəfindən Tağıyevin müəssisələrinin qonşuluğunda yerləşən torpaqların alınması aşkar göstərir ki, bu qrupun məqsədi "başqa sahibkarları həmin torpaqların işlənilməsindən kənarlaşdırmaq və bununla da öz mədənlərindən neftin sorulmasının qarşısını almaqdır. Bu torpaqlar qrupun öz sərəncamında olduğu halda isə o, həmin yataqları son dərəcə məhdud həcmdə istismar edəcək və Tağıyevə məxsus sahələrdə qazılan quyuların köməyi ilə bu ehtiyatları qonşuluqda yerləşən, dövlətə məxsus yatağın təkindən sorub çıxaracaq və elə həmin səbəbə görə bu neft xəzinəyə heç bir gəlir gətirməyəcəkdir". Leynin layihəsinə gəldikdə isə, çar maliyyə naziri bu layihə barəsində də mənfi fikir söyləmiş və bildirmişdi ki, ingilis kapitalistlərinin xahişinə əməl edilməsi, "cənab

Leynin və cənab Offenheymin gətirdikləri kapitalın müqabilində onlara külli miqdarda müftə neft çıxarmaq hüququ bəxş edilməsinə bərabər olacaqdır".

Yermolov bu fikrini hər iki layihənin müzakirəsi üçün çağırılmış xüsusi müşavirədə söyləmişdi. 1899-cu ilin fevral ayının axırlarında keçirilən həmin müşavirə ingilis layihələrini rədd etmiş və ingilislər bu qərarla razılaşmaq istəməyərək təkrarən, çar hökumətinə müraciət etmişdilər.

Elə həmin vaxt İngiltərə tərəfinə İngilis—rus bankının layihəsi təklif edildi. Rotşteynin fikrincə, bu bank Britaniya kapitalının bu işdə maraqlı olmasından istifadə edərək onu Rusiya sənayesinin, o cümlədən neft müəssisələrinin maliyyələşdirilməsi qəbilindən olan işlərə cəlb etməli idi. Beynəlxalq bank ingilislərə təklif edirdi ki, onlar beynəlxalq bank tərəfindən layihələşdirilmiş "Sənaye kredit bankı"nın fəaliyyətində iştirak etsinlər və İngiltərədəki rus sənaye müəssisələrinin aktivlərini və istiqrazlarını yerləşdirmək məqsədilə Londonda bu bankın şöbəsini açsınlar.

Əcnəbilərin iştirakı ilə bank yaratmaq ideyası Rotşteyni çoxdan maraqlandırırdı. Çox güman ki, Bakıda müştərək ticarət bankı yaratmaq ideyası fransızların "Əsas cəmiyyəti" yaradılandan daha əvvəl — 1896-cı ilin əvvəllərində Tağıyevin müəssisələrinin maliyyələşdirilməsi barədə Rotşildlərlə danışıqlar yenicə başlayan vaxt yetişmişdi. Yeri gəlmişkən Nobeldən 10 il sonra, yəni 1883-cü ildə Bakıya gəlmiş, özlərinin fəaliyyət miqyasına görə ikinci şirkətin sahibi olmuş məşhur Paris bankiri Rotşild haqqında ayrıca qeyd etmək istərdik.

Öz fəaliyyətini genişləndirmək üçün o, hər şeydən öncə 1883-cü ildə "Bakı neft sənaye cəmiyyəti"nin səhmlərinin xeyli hissəsini, sonradan 1885-ci ildə isə "Batum neft sənaye və ticarət cəmiyyəti" (BNSTC) şirkətinin bir hissəsini satın aldı. Hər iki müəssisəni ruslar yerli kapital hesabına yaratmışdılar. 1893-cü ildə Rotşild BNSTC-ni "Xəzər — Qara dəniz ticarət və sənaye cəmiyyəti"nə çevirdi. 1898-ci ildə o, "Mazut" cəmiyyətini təşkil etdi. Bu 2 cəmiyyətin köməyi ilə Rotşild, demək olar ki, bütün Rusiya neft sənayesinə öz təsirini genişləndirməyə və bununla da həm daxili, həm də beynəlxalq bazarlarda böyük rol oynamağa nail oldu.

"Bakı neft sənaye cəmiyyəti" və BNSTC-nin Rotşild şirkətinin sərəncamına keçməsi belə olmuşdur. "Bakı neft sənaye cəmiyyəti" özünün yaranmasından az sonra kəskin maliyyə çətinliklərinə məruz qaldı və daha güclü şirkətlərlə rəqabət aparmaq iqtidarında olmadığından, onun fəaliyyəti ildən ilə zəiflədi. Belə ki, onun 1874-cü ildə 7,5 mln. rubl olan ilkin kapitalı 1877-ci ildə 4 mln. rubladək, 1891-ci ildə 3,2 və 1894-cü ildə 2 mln. rubladək azalmışdı. Fəaliyyəti zəiflədikcə bu cəmiyyət tədricən öz müstəqilliyini itirib, Rotşildin Paris bankir evinin güclü təsiri altına düşdü. 1907-ci ildə "Bakı neft sənaye cəmiyyəti"nin səhmləri Paris fond birjasında kotirovka edildi və bunun nəticəsində fransız kapitalı burada öz mövqelərini daha da möhkəmlətdi. Bundan bir qədər sonra cəmiyyət öz fəaliyyətini genişləndirmək məqsədilə yeni səhmlər buraxmağı qərara aldı, buna görə də növbəti buraxılışa təminat vermək xahişilə kredit müəssisələrinə müraciət etdi. Rotşild ona qəti müəyyən edilmiş səhmlər paketi verilməsinə və bu cəmiyyətin idarəsinin yenidən təşkil edilməsinə nail olaraq, yeni səhmlər buraxılışını təmin etdi. Beləliklə, həmin vaxtdan etibarən "Bakı neft sənaye cəmiyyəti" öz müstəqilliyini itirərək Rotşildin bank kapitalından tam asılı vəziyyətə düşdü. BNSTC-yə gəldikdə isə, onun aqibəti də sözü gedən cəmiyyətin aqibətilə eyni oldu. BNSTC-nin ilkin kapitalı cəmi 1,5 mln. rubl idi. Belə nisbətən kiçik məbləğ ona öz fəaliyyətini genişləndirməyə imkan vermirdi. Buna görə də, yaranmasından lap az keçdikdən sonra BNSTC 750 min rublluq səhmlər buraxdı. Bunların demək olar ki, hamısı 2 illiyə baron Feleyzenə girov şəklində verildi. Lakin həmin müddət bitdikdən sonra cəmiyyət öz səhmlərini satın ala bilmədiyindən baron Feleyzen özünün payçı kimi cəmiyyətə daxil olması və onun işlərinin birgə idarə edilməsi barədə BNSTC rəhbərləri ilə razılığa gəldi.

Sonradan Feleyzen cəmiyyətin fəaliyyətinin daha da zəiflədiyini görərək, Rotşildpə saziş bağladı və öz səhmlərinin hamısını nominal dəyərindən aşağı qiymətlə ona verdi. Beləliklə, 1885-ci ildən başlayaraq Rotşild bu cəmiyyətin əmlakının böyük hissəsinin mülkiyyətçisi oldu. BNSTC-nin Rotşildin sərəncamına keçməsindən sonra onun 1883-cü ildə 1,5 mln. rubl olan ilkin əsas kapitalı 1895-ci ildə 6 mln. və 1913-cü ildə 10 mln. rubladək artdı.

Nəhəng kapitala və kredit-ticarət əməliyyatları təcrübəsinə malik olan Rotşildin şirkəti öz fəaliyyətini sürətlə genişləndirərək Azərbaycandakı sahibkarlara güclü təsir göstərdi. Rotşild özünün özəl mədən və zavodlarını həddən artıq genişləndirmək yolu ilə getmək "istəmirdi". O, əsasən, kredit-ticarət əməliyyatları ilə məşğul olmağı daha sərfəli sayırdı. Rotşild özünün bütün işgüzar əməliyyatlarını "Xəzər— Qara dəniz ticarət və sənaye cəmiyyəti" vasitəsilə aparırdı. "Mazut" cəmiyyəti isə onun ən iri neft ixracı və neft ticarəti şirkəti idi. Belə ki, misal üçün o, "Xəzər—Qara dəniz ticarət və sənaye cəmiyyəti" vasitəsilə bir çox neft emalı zavodlarının sahiblərinə kreditlər verərək, müqaviləyə əsasən onlar üzərinə belə bir öhdəlik qoymuşdu ki, istehsal etdikləri ağ nefti xarici bazarlarda satış üçün irəlicədən müəyyən edilmiş qiymətlərlə ona təhvil versinlər. Beləliklədə, Rotşildə borcları olan onlarca zavod sahibi ondan tam asılı vəziyyətdə qalaraq, öz kreditorlarının bütün tələblərini itaətlə yerinə yetirirdilər.

1910-cu ildə Rusiyanın "Neft" şirkətinin paylarının mühüm hissəsi—təxminən 1 mln. rublluğu fransız kapitalistlərinin əlinə keçdi, o biri il isə onlar "Q.M.Lianozov və oğulları" şirkətinin də təxminən elə bu məbləğdə paylarını ələ keçirdilər. Yuxarıda sadalanan cəmiyyət və şirkətlərin əksəriyyətinin səhmləri Paris birjasında kotirovka olunurdu.

"Nobel qardaşları" şirkəti ilə sərt mübarizə aparan Rotşild şirkəti daim qüvvətli rəqibinə ağır zərblər endirərək onu zəiflətməyə can atırdı.

Rusiya neft sənayesində fransız kapitalının çox yüksək fəallığını bir sıra faktlar sübut edir. Məsələn, 1916-cı ilin əvvəllərində Rusiya neft sənayesinin 15 müəssisəsinin səhm kapitalı 176767 min rubl, burda fransız kapitalının payı isə 62380 min rubl idi. Beləliklə, Rusiya neft sənayesinin 16 müəssisəsinin səhm kapitalının ümumi miqdarının 35,3%-ə qədəri Rotşild şirkətinin əlində idi. 1912-1913-cü illərdə "Mazut" və "Xəzər—Qara dəniz ticarət və sənaye cəmiyyəti"nin "Şell" ingilis—holland şirkətinə keçdi. Bu cəmiyyətlərdə Rotşildin iştirak payı xeyli azaldı. Əvəzində "Bakı neft sənaye cəmiyyəti"nin səhm kapitalının 38,7%-ə qədəri, "Q.MLianozov və oğulları" şirkətinin kapitalının 50%-ə və Rusiyanın "Neft" şirkətinin səhmlərinin 88,9%-ə qədəri fransız kapitalistlərinin əlində idi. Bütün bu cəmiyyətlər Bakıda fəaliyyət göstərirdilər.

Qeyd etmək lazımdır ki, zaman keçdikcə Rotşildin şirkəti yalnız kredit-borc əməliyyatları ilə məşğul olmağı nəzərdə tutan nizamnamə müddəasının əksinə olaraq öz caynaqlarını neft sənayesinin bütün sahələrinə uzadırdı. Belə ki, Rusiya neftinin ixracı işində öz mövqeyini tam möhkəmləndirdikdən sonra o, həmçinin "Xəzər—Qara dəniz ticarət və sənaye cəmiyyəti" vasitəsilə geniş neftli torpaqları məqsədyönlü şəkildə icarəyə götürməyə və satın almağa başladı.

Balaxanı, Sabunçu, Ramana, Suraxanı, Bibiheybətdə bir çox neft mədənləri, Keşlədə ağ neft və yağ zavodları Rotşildə məxsus idi. Rusiyanın mühüm məntəqələrində onun anbarları, Batum limanında neft məhsullarını daşımaq üçün çoxlu gəmiləri vardı. Rotşildin şirkəti ölkəmizin hüdudlarından kənarda neftin bir çox satış bazarlarını ələ keçirə bilmişdi. Özünün əlavə maliyyə imkanlarını genişləndirmək məqsədilə Rotşild Zaqafqaziya dəmir yolunda hərəkət edən qatarların sayının artırılmasına xeyli kömək edirdi. Belə ki, 1883-cü ildə bu dəmir yolunun açılması zamanı burada cəmi 600 vaqon-sistern vardı. Hökumət ayrı-ayrı şəxslərə Zaqafqaziya dəmir yolu üçün vaqonlar göndərməsinə icazə verdikdən sonra isə "Xəzər—Qara dəniz ticarət və sənaye cəmiyyəti" 300 sistern istismara buraxdı. Neft istehsalı üzərində özünün bölünməz inhisarını yaratmaq məqsədilə Rotşild öz neftinin daşınması üçün zəruri olan tənəkə qablar istehsalı zavodlarının yenidən qurulması və genişləndirilməsinə xeyli vəsait ayırdı. Daha sonra Rotşildlərin verdikləri borc Bakını Batumla birləşdirən dəmir yolunun çəkilişini başa çatdırmağa imkan verdi. Beləliklə, 1883-cü ildə Batum dünyanın ən mühüm limanlarından birinə çevrildi.

1899-cu ilin əvvəllərində Rotşteyn Rotşildlərlə danışıqlar aparmağın faydasız olduğunu yəqin edəndən sonra İngilis—rus bankı ideyasını irəli sürdü. Bu ideya həyata keçiriləcəyi halda ingilis kapitalistlərinin gəlirlərinin bir qismi həmin cəmiyyətə çatmalı idi. Bundan əlavə, təsisçilik və emissiya əməliyyatları hesabına xeyli mənfəət əldə etmək imkanı yaranırdı. Bankın layihəsi elə tərtib edilmişdi ki, Rotşteyn bütün təşəbbüsü və nəzarət funksiyalarını öz əlində saxlaya bilirdi.

Lakin işin bu cür təşkil olunması İngiltərə tərəfini əsla qane etmirdi. Bu barədə ilk siqnal Londondan, Leyndən alındı. Leyn Peterburqa məktub yazıb bildirmişdi ki, "Bibiheybətdəki torpaq sahələrinin yeni sahibləri onlarla danışıqlar stolu arxasında görüşməyi çətin ki, arzu edələr". Məhz həmin məktub göndərilən ərəfədə İngilis—rus bankının layihəsini açıqlayan məktub Londona çatmışdı. Leyn həmin məktubda münasibətini çox qəzəbli bir tərzdə ifadə etmişdi. Məktubun əvvəlində o, yazırdı ki, Sənaye-Kredit bankı məhz bizim İngilis—rus torpaq kredit bankı formasında təşkil etmək istədiyimiz şeydir. Bu zaman o, Bakıdakı dövlətə məxsus neft yataqları ilə zəngin torpaqların ingilislər tərəfindən maliyyələşdirilməsi və işlənməsi barədə özünün təklif etdiyi layihəni nəzərdə tuturdu. İngilislərin fikrincə, Rotşteynin layihəsi vəziyyəti həddən artıq mürəkkəbləşdirirdi. Leyn özünün peterburqlu tərəfdaşlarına açıqca bildirirdi ki, onların planı ümumiyyətlə səmərəli deyil və "britaniyalılar yalnız ingilis bankları tərəfindən buraxılan qiymətli kağızları alacaqlar". Onun dediyinə görə, Rotşteynin təklifi yalnız bu şərtlə qəbul edilə bilərdi ki, gələcək bankın bütün işləri sonradan ingilislərə—məxsusi olaraq Sənaye-Kredit bankından ötrü yaradılmış və onu idarə edən xalis ingilis müəssisəsinə həvalə olunsun. Beləliklə, Rusiya Sənaye- Kredit Bankı əslində ingilis bankı olacaq, lakin başqa cür adlanacaqdı. Britaniya kapitalistləri isə bu variantı müzakirə etməkdən əvvəl çar hökumətindən bu cür bankın təsis olunmasına icazə veriləcəyi haqda zəmanət almaq istəyirdilər.

Bununla bərabər, Leyn geri çəkilmək imkanını da nəzərdə tutmuşdu. O, Koxa ünvanlanmış məktubunda yazırdı: "Lakin əgər siz Rusiya Sənaye-Kredit bankının tamamilə məxsusi müəssisə kimi qalmalı olduğunu qərara alsanız, mənə belə gəlir ki, cənab Offenheym və mən həmin bankın bir neçə min funt-sterlinq səhmini almaq istəyərik". Leyn bir növ özünü yoxlamaq və hər şeyi qəti müəyyənləşdirmək üçün Koxdan soruşurdu ki, "Bu fikir bizim nəzərdə tutduğumuz bankın yaradılmasına mane olmayacaqmı?" O, məsələnin tam təfsilatı ilə tanış olmasının zəruriliyini qeyd edərək konkret təkliflər irəli sürürdü: "Bizim məqsədlərimiz üçün Rotşteynin lütfkarlıq göstərərək surətini bizə təqdim etdiyi nizamnaməni bir qədər dəqiqləşdirmək lazım gəlirdi, çünki bizim nəzərdə tutduğumuz məqsədlər baxımından həmin nizamnamə müəyyən mənada məhduddur". Beləliklə, Leyn və onun şərikləri bildirirdilər ki, müəyyən şərtlər daxilində onlar İngilis-rus bankının fəaliyyətində iştirak etməyə hazırdırlar.

Eyni zamanda ingilis kapitalistləri Uladston və Stüart da boş dayanmırdılar. Lakin onlar öz talelərini Beynəlxalq bankla bağlamayıb, müstəqil fəaliyyət göstərməyi qərara almışdı. 1899-cu ilin mart ayında Stüart və

Uladston "İstern oyl K°" adlı müştərək müəssisə yaratmışdılar. Bu, Şərqdə təxminən eyni adlı —"İstern oyl Assoşieyşen" inhisarçı birliyinin yaradılması yolunda hazırlıq addımı idi. Layihə təşəbbüsçülərinin niyyətinə görə, Rusiyada Stüarta və Uladstona məxsus Britaniya şirkətləri birləşərək, gələcək assosiasiyasının dayağı və "Şell"in əsas rəqibi olmalı idilər. Bu şirkətin yaradılması ingilis kapitalistlərinin Bakıda fəaliyyət göstərən müəssisələrinin birləşdirilməsi deyil, yalnız gələcəkdə müştərək fəaliyyət xətti yeritməyin başlanğıcı demək idi. Yeni yaradılmış şirkət xalis kommersiya müəssisəsi olub, ilk vaxtlar heç bir daşınmaz əmlaka malik deyildi və hətta, özünün kapitalının həcmini də müəyyən etməmişdi. Şirkətin Rusiyadakı fəaliyyətini yalnız bir müddətdən sonra leqallaşdırmaq fikrində olan çar hökumətindən icazə almaq məqsədilə ingilis kapitalistləri "İstern oyl K°" üçün hələ 1899-cu ilin lap əvvəllərində aldıqları neftli sahə şəklində real baza yaratmağı qərara almışdılar. Stüartın bakılı neft sənayeçisi Tsovyanovdan aldığı həmin sahəyə qoyduğu kapitalın məbləği 250 min funt-sterlinq həcmində müəyyən edilmişdi.

İngilis—rus bankının layihəsi ilə əlaqədar çətinliklərlə qarşılaşan Rotşteyn ingilis kapitalistlərinə təklif etdi ki, yaxın vaxtlarda təşkil edilmiş Bibiheybət neft şirkətindən onların vaxtilə sahib çıxmaq iddiasında olduqları neftli torpaqların bir hissəsini alsınlar. Fevralın 16-da keçirilən hərracda Beynəlxalq bank özü həmin torpaqları məxsusi olaraq Bakıya ezam edilmiş kənar adamın adına aldı və bu torpaqlar lap əvvəldən xalis spekulyativ müəssisə kimi nəzərdə tutulan yeni şirkət üçün bir növ baza oldu. Vasitəçi rolunda çıxış edən Rotşteyn isə əslində ingilislərə təklif edilən şirkətin sahibi idi. Bu vəziyyətin yaranmasının səbəblərindən biri də o idi ki, Rotşteyn həmin sövdənin həyata keçirilməsinə təkidlə nail olmaq istəyirdi.

Beynəlxalq bank bu məsələ ilə əlaqədar əvvəllər Parisdə fəaliyyət göstərən Rotşildlərin "ağzını aramışdı". Onlar bir qədər götür-qoy etmiş, amma sonra razılıq verməmişdi. Bu əhvalatın başlanğıcı müəyyən mənada Tağıyevin işlərinin alınmasına bənzəyirdi: hər iki halda ingilislər əvvəlcə fransızların təkliflərini rədd edir, sonra isə özləri işə girişirdilər. Bu iki məsələnin fərqli cəhəti isə ondan ibarət idi ki, daha münasib variant olan Polyakın şirkəti peyda olandan sonra Rotşildlər Tağıyevlə danışıqları kəsib, özləri fəal alqı obyekti axtarmağa başlamışdılar. Bu dəfə isə onlar bu şirkəti alıb, onun əsasında "Mazut" şirkəti yaratmış, bundan sonra isə yeni şirkətin fəaliyyətində iştirak etməkdən vaz keçmişdilər. Görünür, ingilislər ehtiyat edirdilər ki, bu şirkət onların pullarını havaya sovuracaq və yeni təşkil edilmiş müəssisənin işinə zərər gətirəcəkdir.

Lakin adını çəkdiyimiz hallarda ingilislərin vəziyyəti də eyni deyildi. Birinci dəfə tam işçi vəziyyətdə olan müəssisənin alınmasından söhbət gedirdi. Bu müəssisə böyük məbləğdə əlavə vəsait sərf etmədən dərhal gəlir əldə etməyə imkan verirdi (Rusiyada fəaliyyət göstərən əcnəbi sahibkarların əksəriyyəti bu amilə üstünlük verirdi). İkinci halda isə söhbət hələ mənimsənilməmiş neft yataqlarından gedirdi. Lakin bu da əsas deyildi, çünki ingilislər özləri müvafiq xahişlə müraciət etmişdilər. Əsas məsələ ondan ibarət idi ki, bu torpaqları onlara çox baha — spekulyativ qiymətlə təklif edirdilər.

Buna görə Rotşteyn Bibiheybət neft şirkəti ilə sövdəni "mürəkkəb və çətin reallaşdırıla bilən sövdə" adlandırmışdı. O vaxt Rotşildlərin açıq-aşkar düşmən mövqe tutması isə mövcud vəziyyəti daha da gərginləşdirmişdi. Spitser yazırdı: "Bibiheybət məsələsi üzündən bizim bank yeni hücumlar üçün hədəfə çevrilmişdi". Rotşildlər yeni şirkətin müdiriyyətinə qara yaxır və bütün bu işləri "çürük əməllər" adlandırırdı. Onlar ehtiyat edirdilər ki, Bibiheybət şirkəti özlərinin əlində olduğu halda, "Mazut" ilə rəqabət aparmağa və ona zərər vurmağa qadirdirsə, həmin şirkət ingilislərin əlində olacağı halda nələr baş verəcəyini təsəvvür etmək çətin deyil. Buna görə də fransızlar özlərinin imtina etdikləri sövdənin ingilislərlə danışıqların predmetinə çevrildiyindən xəbər tutanda bu şirkətə daha çox qara yaxmağa başladılar. Hər şeydən əlavə, parisli bankirlərin şəstinə toxunan o idi ki, Rusiya tərəfi onların xidmətlərindən asanlıqla imtina edib ingilislərə üz tutmuşdur. Rusiyanın Parisdəki maliyyə agenti Rafaloviç haqlı olaraq deyirdi ki, fransızların xoşuna gəlmək çox çətin məsələdir, çünki Parisdən borc istəyəndə "onları istismar etmiş olursan", kənardan borc alanda isə "fransızların mənafelərinə xəyanət etmiş olursan".

Bununla belə, Rotşteyn Bibiheybət neft şirkəti ilə sövdələşməyi Leynə təklif edəndə yanılmadığını Azərbaycan nefti dünya siyasətində bilirdi. Stüartın və Uladstonun "İstern oyl K°" qrupu Rusiyanın neft sərvətlərini ələ keçirmək baxımından Leynin qrupunu onsuz da xeyli qabaqlamışdı. Ona görə də Leynin qrupu itirdiklərinin əvəzini çıxmağa çalışırdı. Rotşteyn bunu hamıdan yaxşı başa düşdüyü üçün qarşıya çıxan çətinliklərə və ingilislərin tərəddüd etmələrinə baxmayaraq, daxilən əmin idi ki, vaxt gələcək, ingilis kapitalistləri onun təklif etdiyi sövdəni imzalayacaqdır. Doğrudan da belə bir gün gəlib yetişdi.

Bağlanmış sövdə bir vaxt İngilis-rus bankının yaradılmasında iştirak etmək üçün razılıq verməkdən ötrü Leynin irəli sürdüyü şərtlərin eyni ilə təkrarı idi. İngilislər Bibiheybət şirkətində iştirakçı kimi onu idarə edən "Bibiheybət Petroleum K°" Britaniya şirkətini yaratmışdı. Rusiya şirkətinin bütün səhmləri bu şirkətin mülkiyyətinə keçmişdi. Bu barədə 1900-cü ildə yayın axırlarında razılıq əldə edilmişdi, lakin sövdələşmənin son nəticəsi Londondakı ingilis şirkətinin səhmlərinin satışının nə dərəcədə uğurlu olacağından asılı idi. Bu iş beynəlxalq bankın nümayəndəsi A.Koxun müşahidəsi və onun iştirakı ilə Siti birja maklerlərinin bir qrupuna tapşırılmışdı. Sövdənin baş tutması bu barədə rəsmi müqavilə imzalanması mərasimi ilə başa çatmalı idi.

İngilislərin bu işdə marağı olması təsdiq ediləndən sonra Siti ilə danışıqlarda qarşıya çıxan uğursuzluqlara və bitib-tükənməz maneələrə görə əsəbiləşən Rotşteyn danışıqlarda aşkar təcavüzkar mövqe tutmuşdu. "Bibiheybət Petroleum K"-nın səhmlərinin satışı isə uğurla davam edirdi.

Keçmiş Bibiheybət ieft şirkətinin 10 min səhminin hamısı (hər səhmin qiyməti 250 rubl idi) ingilislərə verildi. Peterburq Beynəlxalq Bankı isə yeni ingilis səhmlərinin satışından əldə edilmiş mədaxildən ona çatası 329 min funt-sterlinqin və bundan əlavə müqavilədə nəzərdə tutulduğu kimi, "Bibiheybət Petroleum K°" şirkətinin 126 min funt-sterlinqlik səhm paketinin sahibi oldu. Bu, sanballı məbləğ idi. Əlavə xərclər çıxılandan sonra köhnə səhmlərin hər birinə görə xalis gəlirin məbləği 250 rubl nəğd pul və yeni şirkətin 13,4 funt-sterlinqlik səhmləri dəyərində idi.

Lakin Rusiyadakı neft işinin vəd etdiyi gəlirlərlə müqayisədə bunlar hamısı cüzi məbləğ idi. Leyn—Samuel qrupunun əsas müəssisəsi olan Şibayevin şirkəti öz fəaliyyətinin təkcə ilk beş ili ərzində təqribən 3,5 milyon rubl gəlir gətirmişdi ki, bu da həmin müəssisənin alınmasına sərf edilmiş məbləğə bərabər idi. Uladstonun "Oleum" şirkəti isə həmin müddətdə təqribən 10 milyon rubl xalis gəlir götürmüş və beləliklə, Tağıyevin mədənlərini almaq üçün sərf edilmiş vəsait ikiqat artıqlaması ilə ödənilmişdi. Doğrudur, "neft azarı" dövründə meydana çıxmış bəzi İngiltərə şirkətləri sonradan zərərlə işləməyə başladı və onları ləğv etmək lazım gəldi. Lakin bu cür müəssisələrin xüsusi çəkisi ingilislər tərəfindən nəzarət edilən bütün kapitalın 1/10 hissəsindən də kiçik idi. Britaniya konsul xidmətinin məlumatına görə, kiçik istisnalar nəzərə alınmasa, ingilis şirkətlərinin hamısı gəlirli müəssisələr idi.

Həmin illərdə neft işinin sürətli tərəqqisi, xüsusən neft yanacağına tələbatın hədsiz artması daha yüksək gəlir əldə etmək perspektivi yaradırdı. Bakıya ingilis kapitalı cəlb etməyin tərəfdarlarının əsas dəlillərindən biri kerosin istehsalını inkişaf etdirmək zərurəti idi. Bununla belə, yeni yaradılmış ingilis müəssisələrinin əsasən ağır neft yanacağı istehsal etmək məqsədi daşıyırdı. Bu mənada "Oleum"un və Şibayevin ingilis şirkətinin yaradılması "Mazut" şirkətinin təsis edilməsi ilə müqayisə oluna bilər. 1899-cu ilin fevral ayında ingilislərə yeni konsepsiyalar verməyin məqsədəuyğun olması məsələsi xüsusi müşavirədə müzakirə edilərkən müzakirə iştirakçıları mazut istehsalını özlərinin əsas məqsədi hesab edən ingilis şirkətlərinin bu istiqamətdə fəaliyyətindən narazı olduqlarını bildirmişdilər.

XIX əsrin axırlarında ingilislər Bakı ətrafında ümumi kapitalı təqribən 40 milyon funta bərabər olan 11 neft sənayesi şirkəti yaratmışdılar.

Həmin illərdə ingilislər Bakıda və Rusiyanın neftlə zəngin olan digər rayonlarında ümumi kapitalının həcmi 6,5 milyon funt-sterlinqə çatan 24 şirkət yaratmışdılar. Əldə edilən nəticə ingilislərin ilkin hesablamalarına görə gözləniləndən xeyli az idi. O vaxt haqlı olaraq belə hesab edirdilər ki, ən qiymətli neft yataqları Abşeron yarımadasında yerləşir və Rusiyanın bütün neft sənayesi bu yataqlara böyük maraq göstərir.

1910-cu ildə ingilislərin Rusiyaya qoyduqları sərmayənin məbləği Avropa ölkələrindən hər hansı birinə Britaniya kapitalı ixracından artıq idi. Burada neftə daha böyük əhəmiyyət verilirdi. Gəmilərdə maye yanacaq tətbiq edilməsi genişləndikcə, neft qıtlığı İngiltərə ticarət donanmasının hegemonluğuna, dəniz ticarətinə və sənayeçilərin gəlirinə təhlükə yaradırdı. Britaniya hərbi donanmasının gücünü artırmaq üçün neft lazım idi. Dünya müharibəsi ərəfəsində İngiltərə hərbi donanmasını texniki cəhətdən yenidən təchiz etmək məsələsi hökumətin qarşısında çox ciddi şəkildə qarşıya çıxmışdı. Neft məsələsini həll etmək üçün kral komissiyası yaradılmışdı. Hərbi donanmada duru yanacaqdan istifadə edilməsinə keçid barədə admiral Fişerin ideyaları müəyyən dairələrdə etirazla qarşılanmış olsa da, Kral komissiyası bu ideyanı bəyənmişdi. Buna görə də "Royal Datç-Şell" müştərək İngiltərə—Hollandiya neft şirkətinin direktoru Q.Deterlinqin çıxışları da bu ideyanın qəbul edilməsində müəyyən rol oynamışdır. Neft məsələsinin komissiyada həll edilməsində İngiltərənin xarici siyasət sahəsində yaranmış mürəkkəbliklər mühüm rol oynamışdı. "Royal Datç-Şell" tresti ingilislərin planlarının həyata keçirilməsində mühüm rol oynayırdı.

İngiltərə kapitalının xeyli hissəsi Rusiyanın neft ehtiyatlarını ələ keçirmək məqsədilə sərmayə kimi qoyulurdu. Nəticədə 1910-cu ildən 1914-cü ilə qədər Rusiyada yaradılmış İngiltərə müəssisələrinin əsas kapitalının həcmi əvvəllər misli görünməmiş bir həddə — 209,3 milyon rubla çatmışdı. Lakin bu kapitalın heç də bütün məbləğindən istifadə edilmirdi. Neftlə bağlı ajiotaj və səhmdar cəmiyyətlərinin İngiltərə qanunları əsasında qeydiyyata alınmasının asanlığı bu cür coşqun inkişafa şərait yaradırdı.

Bakı neftini idarə edən adamlarla Deterlinqin yazışmalarının bir qismi salamat qalmışdır. Bu materiallar əsasında belə qənaətə gəlmək olar ki, Deterlinq Rusiya neft ixracatçılarını öz trestinə tabe etməklə Avropa bazarlarını ələ keçirmək niyyətindədir. Bu trestin əsas rəqibi olan "Standart oyl" ilə mübarizə aparmaq üçün trestin neft bazasını gücləndirmək lazım idi. Buna görə də Deterlinqin ən mühüm vəzifəsi dünyanın ən zəngin neft yataqları yerləşən rayonları və o cümlədən, Rusiyadakı neft işini bütünlüklə öz əlinə keçirmək idi. Bu trestin 1912-ci ildə Rotşildlərin ən böyük müəssisələri olan "Mazut" və "Xəzər — Qara dəniz cəmiyyəti"ni alması onun ən sanballı sövdəsi idi. Bundan sonra bir sıra başqa müəssisələr də alındı. Müharibə ərəfəsində bu trestin Rusiyada 10 neft müəssisəsi vardı ki, onların ümumi səhmdar kapitalının məbləği 77 milyon rubldan artıq idi.

Rusiyanın neft müəssisələrinin alınması "Royyal Datç-Şell"in istər neft sənayesində, istərsə də neft məhsulları ticarətində aparıcı mövqeləri ələ keçirmək baxımından ən iri əməliyyatlardan biri idi. "Royyal Datç-Şell" trestinin bu hücumu Nobel qardaşları yoldaşlığının ciddi müqaviməti ilə qarşılaşdı. Əvvəllər Deterlinq Nobellərlə razılığa gəlmək istəyirdi, lakin Rusiyada bir neçə uğurlu əməliyyat keçirdikdən sonra bu cür sazişə ehtiyac qalmadı.

Birinci Dünya müharibəsinin başlanğıcında Rusiyada hasil edilən neftin təqribən 1/5 hissəsi "Royyal Datç-Şellin tərkibinə daxil olan neft sənayesi müəssisələrinin payına düşürdü. Bakıda fəaliyyət göstərən müəssisələrin səhmdar tresti kapitalının məbləği Azərbaycanın neft sənayesinə sərmayə qoyulmuş ümumi səhmdar kapitalının 10%-indən çox idi. "Royyal Datç-Şell"in Rusiyadakı fəaliyyətinin ən mühüm nəticəsi neft sənayesinin inhisarlaşdırılması prosesinin xeyli sürətlənməsi idi.

Bu vaxt Londonda trest tipli daha bir inhisarçı neft təşkilatı yaradılmışdı. Bu, əvvəllər Bakıda fəaliyyət göstərən ingilis neft müəssisələrinin birləşməsi və onların maliyyəsinə nəzarət edilməsi əsasında yaradılmış "Neft sənaye və maliyyə korporasiyası" idi. Yeni korporasiya Azərbaycandakı neftlə bağlı mülkiyyəti ələ keçirməklə kifayətlənməyib "iştirak sistemi" və "şəxsi uniya" vasitəsilə Rusiyanın müxtəlif neft müəssisələrində öz maraqlarını təmsil edirdi.

Birinci Dünya müharibəsi ərəfəsində neft sənayesi üç iri əcnəbi inhisarçı şirkətin — "Şell Petroleum kompani" (ixtisar edilmiş şəkildə "Şell"), Nobel qardaşlarının yoldaşlığı və "Raşen General Oyl korporeyşn" (ixtisar edilmiş şəkildə "Oyl") şirkətlərinin əlində cəmləşmişdi. Bu şirkətlərdən sonuncusu 1912-ci ildə Londonda yaradılmışdı. Onun məqsədi Rusiyanın neft sənayesi müəssisələrinin səhmlərini almaq yolu ilə bu müəssisələrin əksəriyyətini öz əlində cəmləşdirməkdən ibarət idi. Artıq 1913-cü ildə bu şirkətin kapitalının həcmi 23,6 milyon rubla çatmışdı.

Bu üç maliyyə-sənaye qrupundan Azərbaycanın neft sənayesində ən güclü mövqeyə malik olan "Oyl" tresti idi. Neft sənayesi müəssisələrinin səhmdar kapitalının 50%-i barədə sərəncam vermək hüququ qazanmış bu trest Azərbaycanda neft hasilatının təqribən 40%-ini ələ keçirmişdi.

1910-1914-cü illərdə ingilis, fransız və alman inhisarları arasında mübarizə çox kəskinləşmişdi. Onlardan hər biri Azərbaycandakı neft yataqlarına şəriksiz sahib olmaq istəyirdi. İngilis biznesmenləri bu mübarizədə üstünlüyü ələ keçirərək, tədricən öz rəqiblərini sıxışdırıb aradan çıxardılar. 1913-cü ildə İngiltərənin "Oyl" tresti Nobel qardaşları şirkətinin səhmlərini almağa başladı.

Birinci Dünya müharibəsinin başlanğıcında Bakı neft sənayesi rayonunda ümumi məbləği 112,6 milyon rubla çatan əcnəbi səhmdar kapitalının 54,3 milyon rublu ingilislərin, 48,3 milyon rublu fransızların və 10 milyon rublu almanların payına düşürdü.

Bakı neft sənayesi hələ XIX əsrin sonu — XX əsrin əvvəllərində Amerika neft kralı Rokfellerin və onun başçılıq etdiyi "Standart oyl" trestinin diqqətini cəlb etmişdi. Lakin Amerika kapitalının Azərbaycan neft sənayesində iştirakı son dərəcə zəif idi. Amerika kapitalı burada yağ istehsalı ilə məşğul olan "Vakuum oyl və K°" şirkəti vasitəsilə təmsil edilirdi. Bu cəmiyyətin əsas kapitalı 2,4 mln. rubl idi, bunun 1,2 milyonu Amerikanın payına düşürdü, lakin XX yüzilliyin əvvəllərində Amerikanın iri kapital sahiblərinin Bakı neft mədənlərinə axını nəzərə çarpacaq dərəcədə gücləndi.

Amerika inhisarçıları özlərinin Azərbaycan neft sənayesinə münasibətlərində heç də onun uğurla inkişafına kömək etmək arzusunda deyildilər, əksinə, onlar beynəlxalq bazarlarda "Standart oyl"un təhlükəli rəqibi olan neft ixracını ləngitmək məqsədi görürdülər. Amerika neft krallarının Bakı məsləhətçisinin fikrincə, "Standart oyl"u Amerika neft inhisarını saxlamaq naminə Bakıdan neft ixracını qəsdən azaltmaqda günahlandırmasınlar deyə, bu şirkət Nobel və Rotşildlə saziş bağlayıb, onlarla birgə işləyirdi.

Amerika neft krallarının Azərbaycan neftinə marağı Birinci Dünya müharibəsi illərində xüsusilə yüksəldi. S.A.Kaderin yazdığına görə, Rotşild və Nobelin ümumi tabeliyi altında olan və məxsusən Amerika neft sənayeçilərinə qarşı mübarizə üçün yaradılmış "Konsolibated Petroleum K°" xüsusi müqaviləyə əsasən 1916-cı ildə "Standart oyl"un London bölməsilə birləşdi. "Xəzər — Qara dəniz ticarət və sənaye cəmiyyəti", "Mazut" və "Russki novı standart" cəmiyyətlərinin direktorları Rusiya neft sənayesini təmsil edir və eyni zamanda Amerikanın "Standart oyl" şirkətinin London bölməsinin direktorları sayılırdılar.

Azərbaycan neft sənayesində xarici kapitalın böyük uğur qazanmasında Rusiya hökumətinin kənardan gətirilən kapitala müsbət münasibəti az rol oynamışdı. Bunun tərəfdarı hər şeydən öncə Qafqazda mülki hissəsinin baş rəisi knyaz Qolitsın idi. O, 1898-ci ildə yazırdı: "Bakı başqa bir vəziyyətdədir və burada hələlik xarici kapitalsız keçinmək çətindir. Xüsusilə də rus iri kapital sahibləri burada təşəbbüskarlıq göstərirlər... Xarici sahibkarların Qafqazdakı fəaliyyətinin hər cür məhdudlaşdırılması, şübhəsiz, ölkənin sənaye inkişafına ciddi əngəl törətmək deməkdir".

Xaricilərin Bakı neft işinə qoyduqları kapitalın xeyli hissəsi xaricdən gətirilir, bir hissəsi isə yerli ehtiyatların səfərbər edilməsi hesabına əldə olunurdu. Əcnəbilər bu ehtiyatları öz əllərində cəmləşdirmək üçün kiçik dəyəri olan çoxsaylı səhmlər buraxır, onların satışı üçün mümkün olduqca daha çox geniş əhali təbəqəsi cəlb edirdilər.

Xarici kapitalistlər, xüsusilə də ingilislər öz kapitallarının böyük hissəsini çox vaxt yeni istehsal obyektlərinin yaradılması və neft istehsalının artmasına deyil, artıq mövcud olan müəssisələri əvvəlki sahiblərindən almağa sərf edirdilər.

Bakı neft sənayesindən alınan gəlirin böyük hissəsi Bakı neft mədənləri üzərində öz inhisarını yaratmış aparıcı xarici iş adamlarının əlinə keçirdi.

1913-cü ildə müxtəlif şirkətlərin pay və səhmlərinin qiymətinin görünməmiş dərəcədə artması müəyyən dərəcədə neft sənayesində müharibədən əvvəlki canlanmanın nəticəsi idi. Yuxarıda deyildiyi kimi, xarici kapitalın Bakı neft sənayesinə axını xeyli dərəcədə güclənmişdi. Bakıda öz aparıcı mövqeləri ilə "Oyl korporeyşn" və "Şell" kimi iri şirkətlər Abşeron neft ehtiyatlarının böyük hissəsini öz əllərində cəmləşdirərək, neft sənayesində öz inhisarını yaratmış şirkətləri öz nüfuz dairələrinə salmışlar.

Bütün qeyd edilənlərlə yanaşı Bakı neft sənayesinə xarici kapitalın güclü axını yerli sahibkarlar və iş adamlarının kəskin narazılığına səbəb olmuşdu. Belə ki, hələ 1885-ci ildə — Bakıda neft sənayesində iri kapitala əsaslanan xarici kapitalın coşqun fəaliyyəti dövründə Kəsən bəy Zərdabi Nobelin işğalçılıq fəaliyyətini nəzərdə tutaraq ürək ağrısı ilə yazırdı: "Savadsız (təhsilsiz) yaşamaq qeyri-mümkündür, xüsusilə də bizim diyarda. Onun sərhədləri xaricindəki sivil qonşular gündən-günə irəliləyərək bizim əmlak və varidatımıza sahib olur. Bir az da keçsə, biz onların rəncbərləri və mallarını daşımaları üçün arabaçılara çevriləcəyik".

Həsən bəy Zərdabidən sonra, 1887-ci ildə Dmitri İvanoviç Mendeleyev xarici kapitalın Bakı neft sənayesinə müdaxiləsi əleyhinə öz səsini qaldıraraq yerli sahibkarları "fransız, alman, isveç, ingilis və amerikalıları Bakı neftini istismar etməyə" imkan verməməyə çağırırdı. Xarici kapitalistlərin Bakı nefti ilə bağlı apardığı talançılıq siyasətinə qarşı etirazlar bir sıra əsərlərin səhifələrində də öz əksini tapmışdır. Bütün bunları nəzərə alaraq çar hökuməti əcnəbilər haqqında bir sıra xüsusi qanunlar qəbul etməyə və neft işi ilə məşğul olmaq sahəsində onların hüquqlarını məhdudlaşdırmağa məcbur oldu.

Əcnəbilərin müvəqqəti istifadə üçün, yaxud da mülkiyyət kimi torpaq sahələri və daşınmaz əmlak almasına çar qanunları ən müstəsna hallarda icazə verirdi. Əcnəbilərin hüquqlarının məhdudlaşdırılması əsas etibarilə daşınmaz əmlak və torpaq sahələri sahibliyinə aid idi. Lakin bu məhdudiyyət Bakı neft sənayesinə xarici kapitalın cəlb edilməsi sahəsində Rusiya hökumətinin qəbul etdiyi qərarların icra olunmasına təsir etmirdi. hökumət bir tərəfdən torpaq sahiblərinin maraqlarını əcnəbilərin qazanc cəhdlərindən qoruyur, digər tərəfdən isə Rusiyaya xarici kapital axınının yolunu kəsmək istəmirdi. Çarizm siyasətinin bu cür "ikiliyi" onunla izah edilir ki, Rusiya iqtisadi cəhətdən Avropanın iri sənaye-maliyyə maqnatlarından asılı olan bir ölkə idi.

## AZƏRBAYCAN NEFT SƏNAYESİNİN SONRAKI İNKİŞAFINDA 9 fevral 1890-cı il QANUNUNUN ƏHƏMİYYƏTİ

Ultizam sisteminin ləğvindən sonra Azərbaycan neft sənayesinin inkişafında (canlanmasında) baş vermiş üzvü dəyişiklər, qəbul olunmuş qanun və qərarların vaxtlı-vaxtında yeniləşdirilməsini tələb edirdi.

Bu baxımdan Abşeron yarımadasında yaşayan kəndlilərin istifadəsinə verilmiş torpaq paylarından istifadə qaydalarına yenidən baxılaraq, onların tərkibindən neftli torpaqların çıxarılması haqqında Nazirlər Kabineti tərəfindən imzalanan 9 fevral 1890-cı il tarixli yeni qanun neft işi sahəsində 1872-ci il 1 fevral qanunundan sonra qəbul edilmiş istər siyasi, istərsə də iqtisadi cəhətdən çox əhəmiyyətli bir sənəd idi. Məlum qanuna qədərki neft qanunvericiliyində qəbul edilmiş aktların heç biri ümumi xarakter daşımadığından, bu sənədlər yalnız neft işinin ayrı-ayrı sahələrinə qismən şamil edilirdi. Məsələn: "Xam neftin və neft məhsullarının dəniz yolları vasitəsi ilə daşınması" (1886-cı il qanunlar toplusu 24, maddə 254), "Xəzər və Qara dəniz arasında Neft Kəməri Cəmiyyətinin yaradılmasına icazə verilməsi haqqında" (yenə orada, maddə 252), qanunları, Rəhbərlik tərəfindən "Yüksək imtiyaza malik hərbi və mülkü məmurlara neftli sahələrin bağışlanması haqqında" aktlar (1877-1881-ci illər) və s.

Qeyd olunanlarla yanaşı, yalnız 1890-cı il 9 fevral tarixli qanun Bakı neft sənayesinin ümumi ehtiyaclarını nəzərdə tuturdu. Neft yataqlarının maneəsiz işlənilməsi və neftli sahələrin genişləndirilməsinə yönəldilmiş bu qanunun verilməsinin zəruriliyi Abşeron yarımadası istiqamətində xəzinənin sərəncamında olan torpaq fondunun müəyyən qədər məhdudluğundan, Bakı neft sənayesi rayonuna xas olan bəzi çətinliklərdən irəli gəlirdi. Müqayisə üçün qeyd etmək lazımdır ki, Amerikanın neft sənayesi çox böyük ərazidə (Pensilvaniya, Kaliforniya, Texas və s.) yerləşdiyi, eyni zamanda yerin təkindəki neftin çox da böyük olmayan həcmlərdə bərabər qaydada bölündüyü halda, Bakı neftinin qeyri - adi zənginliyinə baxmayaraq, əhatə dairəsi məhdud bir sahədə, cəmi bir neçə desyatində yerləşdi. Bir sıra geoloji axtarışlar nəticəsində Abşeron yarımadasının bir çox yerlərində istismar üçün kifayət dərəcədə neft ehtiyatlarının olduğu aşkar edilmişdi. Buna görə də bu yarımadanın torpaqları, xüsusən də, mədən sahəsinə yaxın olan torpaqlar xüsusi qiymət və əhəmiyyət kəsb edirdi. Bəzi istisnalarla Abşeron yarımadasının bütün torpaqları 11 kənd icmasının kəndli torpaq paylarının tərkibinə daxil idi. Kəndlilər ictimai torpaqlardan istifadə edərək, bunları şəxsi istifadəyə verə bildiklərinə və həqiqətən də qanun ilə hökumətə məxsus olan yerin təkini istismara verdiklərinə (uzunmüddətli icarə müqavilələri üzrə) görə, hökumət adları çəkilən kənd icmalarının torpaq paylarından neftli torpaqların alınmasını zəruri hesab etmişdi.

Bu tədbir Dövlət Əmlak nazirinin təşəbbüsü ilə qanunvericilik qaydasında həyata keçirilmişdi. Nazirlər Kabinetinə 1890-cı il 18-19 yanvar tarixli 63 saylı təqdimatında torpaqların alınmasının zəruriliyini əsaslandıraraq qeyd edilirdi ki, "Abşeron" yarımadasının dövlət kəndliləri həm də yüksək qiymətli neftli torpaqların kəndlilər üçün əhəmiyyəti yoxdur, çünki onlar münbit deyildir və yalnız otlaq kimi istifadə oluna bilər. Kəndçilər buna görə də həmin torpaqlara kənd təsərrüfatı baxımından əhəmiyyət verməyərək yerin təki barəsində istifadə hüququna malik olmadıqlarından xəzinəyə məxsus neftli torpaqları əldə etməyə çalışan neft sahibkarları ilə qanunsuz sövdələşmələr aparır, qanun pozuntularına yol verirlər.

Nazirlər Kabineti qeyd olunan məlumatla razılaşmış həmin torpaqların kəndlilərdən alınmasını 1893-cü il Qanunlar Məcmuəsinin 7-ci cildinə 543-cü maddəyə əlavə edərək onların hüquqlarını müəyyən etmişdir. Bununla yanaşı 1890-cı il 9 fevral qanunu ilə Dövlət Əmlak nazirinə aşağıdakı səlahiyyətlər verilmişdi:

Qafqazda mülki işlər üzrə Baş rəisin razılığı əsasında aşağıdakılar barədə qayda və şərtlər müəyyən edilsin: a) Abşeron yarımadasının dövlət kəndlərinin xəzinə torpaqlarının tərkibindən neftli torpaqların çıxarılması; b) Bununla, torpağı təhvil vermiş adı çəkilən kəndlilərin mükafatlandırılması təmin edilsin; v) Neft çıxarılması təcili hesab edilməyən belə torpaqların həmin kəndlilərin müvəqqəti istifadəsində saxlanılması nəzərə alınsın.

1890-cı il 9 fevral qanununun göstərilən qaydalarında Abşeron yarımadasında neftli kəndli torpaq paylarının bilavasitə xəzinənin sərəncamına verilməsinin şərtləri və qaydası sonralar Dövlət Əmlak nazirinin təsdiq etdiyi 1891-ci il 20 fevral tarixli "Abşeron yarımadasında neftli dövlət torpaqlarının dövlət kəndlilərinin torpaq payları tərkibindən çıxarılması üçün qaydalar"da öz əksini tapdı. Torpaqların alınmasının qayda və üsullarını müəyyən edən əsas müddəalar aşağıdakı 11 bənddə ifadə olunmuşdur. Bu bəndlər vaxtı ilə neft sənayesi tarixində torpaq məsələsinin düzgün izahatı üçün böyük əhəmiyyət daşıdığından, bəndlərin bütövlükdə verilməsi məqsədəuyğundur.

1. Nazirlər Kabinetinin 1890-cı il 9 fevral tarixli əmri əsasında Abşeron yarımadasında dövlət kəndlilərinin torpaq payları tərkibinə daxil olmuş və Dövlət Əmlak nazirinin Qafqazda mülki işlər Baş idarəsi rəisi ilə birgə razılaşmaqla xəzinənin neftli torpaqlarının onların torpaq payı tərkibindən çıxarılması məqsədəuyğun hesab edilsin;
2. Kəndlilərin tamamilə və daimi istifadəsində qalan həyətyanı yerlər istisna edilməklə, kəndli torpaqlarının bütün kateqoriyaları onlardan alınsın;

3. Kəndlilərdən torpaqlar alınarkən, onlar tamamilə yararlı olan başqa sərbəst xəzinə torpaqları hesabına mükafatlandırılsın, yaxud xəzinə və torpaq vergilərini ödəməkdən azad edilsinlər;
4. Neftli torpaqların alınması və onların əvəzində başqa xəzinə torpaqlarının ayrılması, Dövlət Əmlak nazirinin razılığı ilə Baş rəis tərəfindən, istifadə etmək məqsədi ilə, təsdiq edilmiş rayonların ərazilərində həyata keçirilsin. Torpaqla təmin olan şəxslərin razılığı ilə onların vergilərdən tamamilə və ya qismən azad olunma məsələləri bir qayda olaraq həll edilsin;
5. İcmaların ayrı-ayrı üzvləri tərəfindən özbaşına olaraq istifadəyə verilmiş xəzinə-icma torpaqların icarə haqqı, başqa şəxslərin istifadə məqsədi ilə bağladıqları müqavilələr öz qüvvəsində qalmaqla, xəzinənin xeyrinə daxil olsun;
6. Bağlar, əkin və becərmə üçün yararlı torpaqlar müqavilələr üzrə hər disyatin torpaq üçün xəzinəyə 25 qəpik töycü ödənilməklə kəndlilərin müvəqqəti istifadəsində saxlanılsın;
7. Eyni qayda ilə, otlaq və örüşlər də müqavilələr əsasında xəzinəyə ildə hər disyatin torpaq üçün 5 qəpik töycü ödənilməsi şərtilə icmaların istifadəsində saxlanılsın;
8. Bu "Qaydalar"ın 6 və 7-ci bəndlərində göstərilmiş torpaqları öz müvəqqəti istifadəsində saxlamaq istəyən icmalar və onların ayrı-ayrı üzvləri qanunun elan edilməsindən 2 həftə müddətində öz istək və təkliflərini öhdəlik qaydasında təsdiq etməlidirlər. Əks təqdirdə bu torpaqlar onların əlindən alınır və Dövlət Əmlak İdarəsinin sərəncamına keçirilir ki, sonradan ümumi əsaslarla hərraca qoyulub satılsın;
9. Torpaq paylarının tərkibindən çıxarılan torpaqları müvəqqəti istifadədə saxlamaq istəyini bildirən icma və ayrı-ayrı şəxslər, bu "Qaydalar"ın 3-cü bəndinə uyğun olaraq, qiyməti ödənilmədən başqa torpaq sahəsi ala bilərlər. Becərilməsi xeyli məsrəf tələb edən bağlardan və başqa torpaqlardan imtina edənlər isə həmin torpaqların əvvəllər müəyyən edilmiş qiymətlərə uyqun olaraq pullarını almaq hüququnu özlərində saxlayırlar;
10. 9 fevral qanununun faktiki icrası, yəni, neftçıxan torpaqların faktiki olaraq kəndlilərdən alınması Bakı quberniyasının Dövlət Əmlak İdarəsinə həvalə olunur. Yerli administrasiya bu işdə ona tam kömək göstərməlidir;
11. Torpaqların kəndlilərdən alınması xalq nümayəndələrinə yerindəcə kəndli torpaq paylarının tərkibindən çıxarılması, torpaqların geriyə alınması barədə akt tərtib edilməklə həyata keçirsin. Həmin akt tərtib edildikdən, kənd hakimiyyət orqanlarına və kəndli nümayəndələrinə elan edildikdən sonra torpaqlar torpaq payı tərkibindən çıxarılmış hesab olunsun.

Bundan başqa İdarəyə iki sahə verilmişdi: 1896-cı ildə Dəniz İdarəsi tərəfindən Bibiheybət kəndinin bağlarından 247 des. 1320 kv.saj. və 1905-ci ildə Dağ-Mədən İdarəsi tərəfindən keçmiş Ramana gölünün dibini təşkil edən 154 des. 2135 kv.saj. Beləliklə, Dövlət Əmlak İdarəsinin bilavasitə ixtiyarına 5370 des. 1055 kv.saj. neftli torpaq keçmişdi ki, bunun da neft hasilatı üçün bərabər qaydada icarəyə verilmiş 397 des. 181 kv.saj. həcmində olan sahəsi Qafqaz Dağ-Mədən İdarəsinin sərəncamına keçmişdi. Bu sahə çıxılmaqla Dövlət Əmlak İdarəsinin sərəncamında qalan neftli torpaqlar 4973 des. 874 kv.saj. təşkil edirdi.

Bu sahənin bir qismi-364 des. 1180 saj. kustar üsulla neft hasilatı üçün, qalan hissəsi isə ev, neft-mədən tikintisi məqsədi ilə müxtəlif qurğular və qismən də kənd təsərrüfatı üçün Əkinçilik İdarəsinə icarəyə verilirdi.

## BİR HİSSƏSİ BAKI DÖVLƏT ƏMLAK İDARƏSİNİN, DİGƏR HİSSƏSİ İSƏ QAFQAZ DAĞ-MƏDƏN İDARƏSİNİN NƏZARƏTİ ALTINDA QALMIŞ NEFTLİ XƏZİNƏ TORPAQLARINA SAHİB OLMAQ İŞİNDƏKİ İKİLİ SİYASƏT

Abşeron yarımadası kəndlərinin torpaq payı tərkibindən çıxarılmış torpaq sahəsi Bakı Dövlət Əmlak İdarəsinin sərəncamına verilərək, neft sənayesinin ehtiyacları üçün nəzərdə tutulduğundan, Qafqaz Dağ-Mədən İdarəsinin nəzarətinə tabe olmayan xüsusi torpaq fondu yarandı.

Beləliklə, öz təbii (geoloji) şəraitinə görə vahid xarakterə malik olan, eyni iqtisadi əhəmiyyət daşıyan və dövlətin xəzinə tədbirləri üçün eyni obyekt kimi xidmət etməli olan Bakı neft rayonu xəzinə torpaqlarının ümumi sahəsi iki idarə arasında bölündü. Bununla yanaşı belə bir cəhəti də qeyd etmək lazımdır ki, bir-biri ilə əlaqəsi son dərəcə az olan və o zaman bir-birindən asılı olmayan bu idarələr - Qafqaz Dağ-Mədən İdarəsi və Bakı Dövlət Əmlak İdarəsi - keçmiş Əkinçilik Nazirliyinə tabe idilər. Sonradan yaranmış Ticarət və Sənaye Nazirliyi Dağ-Mədən İdarəsinin bütün müəssisələrini öz tərkibinə götürərək, xeyli çətinliklər yaratmışdı. Bununla da neftli torpaqlara sahiblik və neft sənayesinin bu və ya digər ehtiyacları üçün onların düzgün istismarına nəzarət işi xeyli çətinləşmişdi. Belə ikili xarakter istər xəzinə üçün, istərsə də neft işi ilə əlaqəsi olan yerli əhali üçün xeyli çətinliklər yaradırdı.

Əgər bütün neftli torpaqlara sahiblik bir əldə cəmləşsəydi, Dağ-Mədən İdarəsi qarşıya qoyulan xüsusi vəzifələri mütəşəkkil həyata keçirmək üçün bu sahədə bütün tədbirlərə birlik və vahid sistem təmin edə bilərdi.

Güman etmək olar ki, neftli torpaqlara ikili sahibliyin göstərilən mənfi nəticələri sonralar, 1912- ci il 25 iyun tarixli yeni qaydalar - "Abşeron yarımadasında neftli torpaqların dövlət kəndlilərinin istifadəsindən alınıb xəzinənin sərəncamına verilməsi qaydaları və şərtləri" elan edildikdən sonra alınmış torpaqların bilavasitə Dağ-Mədən İdarəsinin sərəncamına verilməsi barədə qərar qəbul olunmasına səbəb olmuşdu.

## NEFT SƏNAYESİ HAQQINDA QAYDALARIN KODLAŞDIRILMASI
***(1892-ci il 3 iyun tarixli qanun)***

Neft qanunvericiliyinin qısa xronoloji icmalına qayıdaraq, hər şeydən əvvəl neftli torpaqların kəndlilərin istifadəsindən alınması barədə 1890-cı il 9 fevral tarixli qanundan sonra bu sahədəki ən mühüm faktı - 1892-ci il 3 iyun tarixli qanun üzrə neft sənayesi haqqında qaydaların kodlaşdırılmasını göstərmək lazımdır (1892-ci ilin qanunlar toplusu, maddə 781).

Bu qanun qismən sistem yaratdı, məqsədəuyğunluğu təcrübədə sübuta yetirilmiş və əvvəllər verilmiş qaydaları dəqiq ifadə etdi, qismən də yeni normalar yaratdı. Bütün bu material 1893-cü ilin Dağ-Mədən Nizamnaməsinin yeni nəşrinə ayrıca bir fəsil - 4-cü fəsil kimi daxil oldu. Bu normalar həmin fəsildə bölmələrlə verilmişdi. Bu bölmələrin hər birində qanunvericinin neft işi sahəsində güddüyü bu və ya digər xüsusi məqsədə uyğun olaraq maddələr verilmişdi. "Xüsusi neft işi haqqında" ümumi başlığı ilə verilmiş bu fəsildə belə bölmələrin sayı 6 idi: "Ümumi qərarlar" (541-556-cı maddələr), "Xəzinə torpaqlarında neft mənbələrinin axtarışı haqqında" (557-566); "Xəzinə torpaqlarında neft hasilatı üçün torpaqların ayrılması haqqında" (567-585); Məlum olan "neftli xəzinə torpaqları haqqında" (586-593), "Xəzinə torpaqlarında və xüsusi torpaqlarda neft mənbələrinin işlənilməsi şərtləri haqqında" (594-607) və "Neft kəmərləri haqqında" (607-615).

75 maddədən ibarət olan (Qanunlar toplusunun 7-ci fəslinin 541 -615-ci maddələri) və yuxarıda sadalanan rubrikalar üzrə qruplaşdırılmış 1892-ci ilin xüsusi neft işi haqqında qanunu zahiri cəhətdən bitkin bir qanun və neft işinin bütün əsas sahələrini əhatə edən qanunvericilik aktı kimi görünsə də, hökumətin reqlamentləşdirici fəaliyyətini heç də tam əhatə etmirdi. Çünki qanunverici hər hansı bir canlı işdə labüd olan bütün halların və çətinliklərin nəzərə alınmasının qeyri-mümkünlüyünü, yəqin ki, bilərək, Dövlət Əmlak nazirinə, neft işi haqqında qanunların tətbiq edilməsində yarana biləcək bütün məsələləri və anlaşılmazlıqları həll etmək hüququ vermişdi. habelə bütün neft sənayeçiləri üçün icbari olan izahatların hamıya elan edilməsi üçün hökumət Senata təqdim məqsədilə neft sənayeçiləri üçün ümumi təlimatlar və ayrı-ayrı qərarlar qəbul etməli idi. Yalnız öz xassəsinə görə məhkəmə və ya qanunvericilik qaydasında baxılmalı olan məsələlər və işlər barəsində istisnaya yol verilirdi. Dağ-Mədən Nizamnaməsinin 556-cı maddəsi ilə müəyyən edilmiş bu ümumi qaydalardan başqa, neft işinə dair qərarlar və təlimatlar qəbul etmək barədə Dövlət Əmlak nazirinin hüququ başqa məsələlərlə əlaqədar bəzi maddələrdə də (545, 554, 555, 562-ci və s. maddələr) təsdiq olunurdu.

Neft sənayesinin bütün sonrakı tarixi göstərir ki, nazir özünün bu hüququndan geniş istifadə etmişdir. Bu qanunda qəbul edilmiş qaydalar və qərarlar arasında neft sənayeçilərinin qurultayları və onların seçdikləri şuralar və komissiyalar haqqında qanunun ümumi müddəalarının inkişafı kimi hazırlanmış qaydalar və qərarlar xüsusi diqqətəlayiqdir.

1892-ci il 3 iyun tarixli qanuna əsasən, mədənlərdə hasil edilən bütün neft üçün sahibkarlardan pud hesabı ilə (mədəndən buraxılan neftin hər pudu üçün 1/50-dən 1/20-dək, indi isə 1/10 qəp.) vergi tutularaq, əldə edilən vəsait hesabına neft sənayesinin ümumi ehtiyaclarının ödənilməsi üçün xüsusi fond yaradılması, həmin fondda əldə olunan vəsaitlər cəmləşdirilib mədənlər rayonunun ümumi abadlığı (yolların çəkilməsi, xəstəxanaların, məktəblərin tikilməsi və s.) üçün nəzərdə tutulmuş xərclərin ödənilməsinə yönəldilməli idi.

Qanunla əlaqədar müəyyən məsələlərin həyata keçirilməsi üçün məhz "Neft sənayeçilərinin qurultayını" keçirmək zəruriyyəti yarandığından, bu haqda əsasnamə qəbul edildi. Əsasnamədə qurultayların keçirilməsinin məqsədi, tərkibi, keçirilmə vaxtı, yeri, qurultay şurasının təşkili və fəaliyyət dairəsi, onun tərkibinə daxil olan şəxslərin seçilmə qaydası, nümayəndələrin hüquq və vəzifələri, məcburi pul vergisinin dəqiq məbləği və tutulma üsulu, qurultay təsisatlarından istifadə qaydasını müəyyənləşdirən bir sıra digər müddəalar da daxildir.

Neft sənayeçilərinin hər il çağırılan qurultaylarında Şuranın simasında daimi icra orqanının yaranması, Bakı mədənlər rayonunun ümumi həyat şəraitinin qaydaya salınması baxımından çox böyük əhəmiyyət kəsb edirdi. Bu Şuranın vəzifələri sırasına hər bir əvvəlki növbəti qurultayın qərarlarının yerinə yetirilməsi, iki qurultay arası dövrdə Şuraya daxil olan məsələlərin nəzərdən keçirilməsi və neft sənayeçiləri qurultayının bütün mürəkkəb təsərrüfatının idarə edilməsi daxil idi.

Müxtəlif vaxtlarda Dövlət Əmlak nazirinin, sonradan isə Ticarət və Sənaye nazirinin təsdiq etdiyi və mədən işinin texniki tərəfinin tənzimlənməsinə aid olan təlimat və qaydalar da mühüm əhəmiyyət kəsb edirdi. Bunlar arasında Bakı neft mədənlərinin qorunması üzrə texniki komissiyanın 1893-cü il fevralın 12-də Dövlət Əmlak naziri tərəfindən təsdiq edilmiş və 1896-cı il mayın 11-də əlavələr edilmiş təlimatı; Qafqaz diyarı neft mədənlərinə nəzarət üzrə 1893-cü il 9 oktyabr təlimatı (Qanunverici aktlar məcmuəsi, 1893-cü il, № 175, səh.

1347) və elə həmin il oktyabrın 9-da qəbul edilmiş, neft sənayeçiləri üçün icrası məcburi sayılan texniki qaydalar (həmin məcəllənin göstərilən nömrəsində dərc edilmişdir) xüsusi qeyd olunmalıdır.

Sözü gedən təlimatlardan birincisi yerli Dağ-Mədən dairəsi Dağ-mədən nəzarəti məmurlarından və yerli neft sənayeçilərinin 10 nəfər təmsilçisindən ibarət tərkibdə, ikincisi Qafqaz Dağ-Mədən dairəsi dairə mühəndisinin sədrliyi altında yaradılan komissiyanın işinə rəhbərlik üçün qəbul edilmişdir. Həmin komissiya Bakı neft hasilatı sənayesinə aid olan müxtəlif texniki məsələlərin yerində həll edilməsi üçün yaradılmışdı. 1893-cü il 9 oktyabr tarixli texniki qaydalar mədənlərdə fəhlələrin təhlükəsizliyinin təmin edilməsinə və neft yataqlarının korlanmasının qarşısının alınmasına yönəldilmiş texniki xarakterli bir sıra tədbirləri müəyyənləşdirirdi.

Nəhayət, neft mədənlərinə nəzarət üzrə 1893-cü il 9 oktyabr tarixli təlimat (qeyd etdiyimiz "Texniki qaydalar" da onunla eyni vaxtda qəbul edilmişdi və bu təlimata əlavə idi) neft mədənlərinə, həmçinin oraya aid olan bütün qurğu və tikililərə, neft kəməri stansiyalarına, mədən sahələri hüdudlarında birləşən mexaniki emalatxanalara və su kəmərlərinə nəzarəti yerli dairə mühəndisinə tapşırırdı.

Neft sənayesi ilə bağlı olan, Dövlət Əmlak naziri, sonralar isə Ticarət və Sənaye naziri tərəfindən qəbul edilən, həm haqqında söhbət acdığımız, həm də bundan sonra qəbul edilən təlimat və qaydalar hökumət senatına təqdim edilir və "Hökumətin qanunverici akt və fərmanları məcmuəsi"nin növbəti buraxılışlarında dərc olunurdu.

"Əllə (kustar üsulla) neft hasilatı" bölməsində haqqında ətraflı danışacağımız sərəncamda isə bunlar birincilər kimi qanunun müsbət tələblərinə əsaslanmır, hökumətin Qanunverici aktlar toplusunda dərc olunmur və kustar neft hasilatının tənzimlənməsi işində müvəqqəti tədbirlər xarakteri daşıyırdı.

## TORPAQ MƏSƏLƏSİ ÜZRƏ TƏDBİRLƏR

Neft işi sahəsində hökumət sərəncamlarının xüsusi kateqoriyası torpaq məsələsinə dair tədbirlərdən ibarətdir.

"Neft sənayesi haqqında" 1892-ci il iyunun 3-də çar tərəfindən təsdiq edilmiş qaydaların 45-ci maddəsinə uyğun olaraq neft verəcəyi qabaqcadan bəlli olan dövlət torpaqlarında neft axtarışları qadağan edilir, həmin torpaqların siyahısı Dövlət Əmlak naziri tərəfindən tərtib olunur və yalnız onun razılığı ilə dəyişdirilə bilərdi.

1905-ci ildə Dağ-Mədən İdarələrinin Ticarət və Sənaye Nazirliyi tabeliyinə keçməsi ilə əlaqədar olaraq nazirin sərəncamı ilə bir sıra rayonların torpaqları geoloji araşdırmalar nəticəsində neftli torpaqlar elan edilmişdi:

1. Abşeron yarımadası hüdudlarına daxil olan 67° şərq uzunluğundan şərqdə yerləşən torpaqlar (1892-ci il qanun toplusu, maddə 790)
2. Xəzər dənizinin Abşeron yarımadasına yaxın adalar: Narkin, Qum, Svinoy, Bulla, Los, Vulf, Qlanyanı, Oblivnoy, Şıxov, Urunusa adalarının torpaqları (1899-cu il qanun toplusu, maddə 807)
3. Xəzər dənizində, Abşeron yarımadası yaxınlığındakı Jiloy adasının torpaqları (1899-cu il qanun toplusu, maddə 1521)
4. Ağca Məhəmməd və Böytal qışlaqları; Bakı quberniyası və qəzasının tərkibinə daxil olan torpaqlar (1899-cu il qanun toplusu, maddə 1654)
5. Xəzər dənizində, Abşeron yarımadası yaxınlığında Pirallahı adasının torpaqları (1904-cü il qanun toplusu, maddə 1959).

Sadaladığımız bütün torpaqları Ticarət və Sənaye naziri 1912-ci il 17 iyun qanununun ("Dövlət torpaqlarının müqavilələr üzrə icarəyə verilməsi haqqında") birinci maddəsinə əsasən, neft çıxarmaq üçün ayrı-ayrı adamlar tərəfindən verilən sifarişlər üçün bağlı elan etməyi zəruri hesab etmiş və bu barədə hökumət senatına məlumat vermişdir (1912-ci il qanun toplusu, maddə 2310).

"Neft sənayesi haqqında" 3 iyun 1892-ci il qaydalarının 20 il ərzində - 1912-ci il iyunun 17-də yeni neft qanunu qəbul edilənədək elə bir mühüm dəyişiklik və əlavələrə məruz qalmamasını, yəqin ki, məhz 1892-ci il qanununa əsasən Dövlət Əmlak nazirinə (1905-ci ildən Ticarət və Sənaye nazirinə) hər cür qayda, izahat və təlimatların qəbul edilməsində geniş təşəbbüs hüququ verilməsi ilə izah etmək olar.

1892-ci il 3 iyun tarixli "Özəl neft sənayesi haqqında qaydalar"ın qısa xülasəsindən belə nəticəyə gəlmək olar ki, bu "Qaydalar" neft sahəsi üzrə əsas müddəaların yaxşı sistemləşdirilmiş toplusundan ibarətdir. həmin müddəaların sonrakı inkişafının Dövlət Əmlak Nazirliyinin, sonralar isə Ticarət və Sənaye Nazirliyinin sərəncamına verilməsi, qarşıya çıxan çətinliklərin və tələblərin tezliklə həll edilməsinə, qanunun icrasının maneəsiz həllinə təkan oldu. Buna baxmayaraq, uzun fasilədən sonra Rusiya neft sənayesində 1892-ci ildən başlayaraq dəyişən iqtisadi siyasətlə əlaqədar neftlə bağlı qanunvericiliyə yenidən baxılması, yeni neft qanununun qəbul edilməsi zəruriyyətini ortaya çıxartdı.

Cari dövrədək Bakı neft mədənlərində çıxarılan neftin ümumi miqdarı ildən-ilə artırdı.

Bu artım sonrakı illərdə də (1901-ci il də daxil olmaqla) müşahidə olunurdu. Aşağıdakı cədvəldə 1895- 1901-ci illər ərzində hasil olunmuş neftin artım dinamikası göstərilmişdir.

| | | |
|---|---|---|
| 1895 | 377 | mln. pudla |
| 1896 | 386 | II |
| 1898 | 422 | II |
| 1899 | 525 | II |
| 1900 | 600 | II |
| 1901 | 671 | II |

Bütövlükdə isə 1901-ci ildən Rusiyada, Qroznı rayonu da daxil olmaqla, 706 mln. pud neft çıxarılmışdı ki, bu da bütövlükdə dünya neft hasilatının 51,5%-ni təşkil edirdi (elə həmin il Birləşmiş Ştatlarda 555 mln. pud, yaxud dünya neft hasilatının 40%-i qədər neft çıxarılmışdı). 1901-çi il Bakı rayonunda mütləq və maksimum neft hasilatına nail olmağa imkan verdi. həmin ildən sonra isə bu vəziyyətin əksi yarandı: çıxarılan neftin miqdarı cüzi dəyişikliklərlə tədricən enməyə başladı. Bu, xüsusilə 1906-cı ilədək neft hasilatı üçün səmərəli istismar edilən torpaqların məhdudlaşdığı 4 əsas rayonu — Balaxanı, Sabunçu, Ramana və Bibiheybəti əhatə edirdi.

1901-ci ildə bu 4 sahədə çıxarılmış 671 mln. pud neft, 1902-ci ildə 636 mln. puda, 1903-cü ildə 597, 1909-cu ildə 490, 1910-cu ildə 478, 1911-ci ildə 425, 1912-çi ildə 419, 1913-cü ildə 389 mln. pudadək azaldı və nəhayət, 1914-cü ildə 338 mln. pud oldu, yəni son 13 il ərzində 2 dəfədən də çox azaldı. Bu nisbi enmə hər şeydən öncə qazma quyularının orta məhsuldarlığının azalması ilə izah edilir və həmin vaxtadək neft ehtiyatlarının tükənməz olduğu fikrini sübut edən əlamətlərdən biri idi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu azalma xeyli dərəcədə son illərdə istismara verilmiş neftli sahələrdən (Pirallahı adası, Binəqədi, xüsusilə də Suraxanı) neft çıxarılması ilə kompensasiya edilirdi. Lakin bu vəziyyət əsas mədən sahələrində neft ehtiyatlarının tədricən tükənməsi faktlarının üstündən keçə bilməzdi və bununla bağlı bütün nəticələri aradan qaldırmağa qadir deyildi. Neft sənayesində məhsuldarlığın azalmasının ən ilkin nəticəsi isə neftin qiymətinin sürətlə artması oldu.

1902-ci ildə xam neftin bir pudunun qiyməti orta hesabla 6,7 qəpik idi. Sonrakı illərdə:

| | |
|---|---|
| 1903 | 9 qəp. |
| 1904 | 14,7 qəp. |
| 1905 | 19,9 qəp. |
| 1906 | 25,6 qəp. |
| 1907 | 27,7 qəp. |
| 1908 | 21,6 qəp. |

Qiymətlərin səviyyəsi 1912-ci ilədək dəyişməz qaldı (1910-cu ili nəzərə almasaq). 1912-ci ildə neftin qiymətləri dərhal 34,6 qəpiyə qalxdı, 1913-cü ildə isə görünməmiş həddə — 43 qəpiyə çatmış, hətta 52,5 qəpik olmuşdu. Nəhayət, 1914-cü ildə neftin qiyməti 38,5 qəpik olmuşdu.

Çox zaman eyni bir il ərzində ayrı-ayrı aylarda müşahidə edilən kəskin qiymət dəyişmələrinə təsir edən amilləri yanacağa olan yeni tələbat, fəhlə tətilləri, xarici siyasətlə bağlı hadisələr və nəhayət, ayrı- ayrı hallarda şəxsi məqsədlər naminə əlavə qazanc əldə etmək məqsədi ilə izah etmək daha doğru olardı.

Beləliklə, XX yüzilliyin birinci onilində Bakının əsas neft mədənlərində neft ehtiyatlarının tükənməsinin aşkara çıxması və bununla bağlı yeni sahələrin (Suraxanı, Binəqədi və s.) intensiv istismarı və müxtəlif ərazilərdə sürətlə neft axtarışı, bazar qiymətlərinin görünməmiş dərəcədə kəskin artıb-enməsi və neft sənayesinin iqtisadi şəraitinin dəyişilməsi ilə bağlı hökumət qarşısında 1892-ci il 3 iyun tarixli "Özəl neft sənayesi haqqında qaydalar"a yenidən baxılması və əlavələr edilməsi zərurətini yaratdı.

## 1912-ci il 17 iyun TARİXLİ<br>YENİ NEFT QANUNU VƏ ONUN ÜMUMİ MƏZMUNU

1912-ci il iyunun 12-də qəbul edilmiş yeni neft qanunu Dağ-Mədən Nizamnaməsinin son nəşrinə, özəl neft sənayesi haqqında fəslin ayrıca IV bölməsi kimi daxil oldu və o, "Neft üçün xüsusi sifarişlərin qapalı hesab edildiyi dövlətin neftli torpaqlarının istismara verilməsi haqqında" başlığı ilə adlandı (775-816-cı maddələr). Bunlar da "Dövlət neftli torpaqlarının müqavilələr üzrə istismara verilməsi haqqında qaydalar"a (775- 798-ci maddələr) və "Özəl neft sifarişləri üçün qapalı sayılan dövlət neftli torpaqlarının kəşfiyyat işləri, neft və təbii karbohidrogen qazı hasilatı üçün hərracsız verilməsi qaydalar"ına (799-816-cı maddələr) bölündü.

1912-ci il 17 iyun qaydalarının qəbul edilməsindən asılı olmayaraq, onlarla demək olar ki, eyni vaxtda, elə həmin il iyunun 25-də, 1890-cı il 9 fevral qanunu ("Abşeron yarımadasında neftli torpaqların dövlət kəndlilərinin torpaq paylarının tərkibindən çıxarılması haqqında," 1893-cü il nəşrinin VII cildində 543-cü

maddəyə qeyd) ləğv olundu və dövrədə olan, 1891-ci il fevralın 20-də Dövlət Əmlak nazirinin təsdiq etdiyi "Müsadirə haqqında qaydalar" əvəzinə "Abşeron yarımadasındakı neftli torpaqların dövlət kəndlilərinin istifadəsindən alınaraq xəzinənin sərəncamına verilməsi üsulları və şərtləri haqqında" yeni Qaydalar tətbiq edildi. Bunlar 1912-ci il nəşrinin VII cildinin 736-cı maddəsində "VII" əlavəni təşkil edir.

Həmçinin bunu da qeyd etmək çox mühümdür ki, 17 iyun qanunu qəbul edildikdən sonra, "irəlicədən neftli hesab edilmiş" dövlət torpaqları haqqında bütün maddələr (586-591 və 593) Dağ-Mədən Nizamnaməsindən çıxarıldı. Bundan belə nəticəyə gəlmək olar ki, yeni qanun "irəlicədən neftli sayılan torpaqlar" anlayışının özünü ləğv etmişdir.

Beləliklə, 1912-ci ildə qəbul edilmiş, neft sənayesini tənzimləyən sənədlər öz mahiyyəti etibarilə 3 ayrı-ayrı qanundan ibarət oldu:

1. "Hərraclar haqqında mədən qanunu"— bunun obyekti neft yataqları ilə zəngin olan yerin təki, məqsədi isə yer təkinin mülkiyyətçisi kimi xəzinənin maraqlarının daha yaxşı təmin olunması şərti ilə işlənilməsidir;
2. "Kəşfiyyat qanunu" — məqsədi geoloji kəşfiyyatdır, orada neft olduğu güman edildiyinə görə həmin torpaqlar özəl sifarişlər üçün bağlı olaraq qalır;
3. "Kəndli pay torpaqları tərkibindən dövlət torpaqlarının müsadirəsi haqqında qanun" — obyekti kəşfiyyat aparılmış dövlət torpaqları, məqsədi isə dövlət neftli torpaq fondunun artırılmasıdır.

Kustar neft hasilatı məsələsinin formal tərəfdən lazımınca işıqlandırılması üçün 17 iyun qanununun müstəsna əhəmiyyət kəsb edə biləcəyini nəzərə alaraq, sözü gedən qanunun hər üç bəndinin ətraflı nəzərdən keçirilməsi zəruridir:

***1.Hərraçlar haqqında qanun***

Dövlətə məxsus neftli sahələrin təkindən istifadə üçün onların ayrı-ayrı şəxslərə icarəyə verilməsi zamanı icarə şərtlərinin tənzimlənməsi neft qanunvericiliyinin ən başlıca vəzifəsidir. Bu çətinlik hər şeydən öncə, dövlət torpaqlarının yerin təkindən istifadə üçün işlədilməsinin öz xüsusiyyəti ilə izah edilir. Çünki, əvvəla, konkret sahədə yerin təkində məhz hansı ehtiyatların gizləndiyini qabaqcadan təyin etməyin mümkün olmaması, ikincisi, neftin bazar qiymətlərinin hansı ölçüdə dəyişiləcəyini irəlicədən müəyyən etməyin çətinliyi, çox kəskin ola bilər.

1912-ci il 17 iyun qanunu qəbul edilənədək dövlət neftli torpaqlarının istismar (işlədilmə) üçün hərraclar vasitəsilə verilməsi zamanı aşağıdakı 3 icarə forması tətbiq edilirdi: birdəfəlik ödənc (haqq), pud hesabı ilə ödənc və paylı ayırma. Və buna uyğun olaraq, hərracın predmeti 3 ödəmə formasından biri olurdu:

a) Birdəfəlik ödənc (haqq). Bu üsulu xəzinə 1872-ci ildəki uğursuz təcrübədən sonra ləğv etdi. O zaman aydın oldu ki, yalnız formaca icarə sayılan bu cür üsul əslində qiymətli neftli sahələrin müddətsiz olaraq özgəninkiləşdirilməsinə gətirib çıxarmışdır. Xəzinə üçün bunun nə qədər ziyanlı olduğu sonradan daha aşkar göründü.

Bu uğursuzluq xəzinəni pud hesabı ödənc prinsipinə keçməyə sövq etdi (1892-ci il iyun qanunu, maddə 589; 1893-cü il nəşri, c. VII).

b) Pud hesabı ödənc. Bu şərtlərlə 4 dəfə (1896, 1898, 1899 və 1900-cü illərdə) hərrac keçirilmişdi. hərrac üçün zəmin kimi bu kimi ödənc, şübhəsiz, birdəfəlik ödəncə nisbətən üstünlüyə malik idi. Belə ki, bu halda hərracda xəzinə üçün böyük və ya kiçik olsa da, daimi gəlir təmin edilirdi ki, bu da bilavasitə neftin miqdarından, hərracda təklif edilən pud hesabı ödəncdən asılı idi. Lakin bu sistemin tətbiqi də təcrübədə mənfi nəticələrini tezliklə göstərdi.

Məsələ ondadır ki, hasil edilən neftin bir pudunun müəyyən qiyməti qeydə alındığına görə, bu sövdə icarəçi üçün böyük risklə bağlı idi. Çünki onun maraqları bilavasitə bazar tərəddüdlərindən asılı vəziyyətə qoyulurdu. İcarə sisteminin tətbiqi təcrübəsi də bunu sübut etdi.

İlk hərraclarda nisbətən aşağı qiymətlər təklif edilmişdi və sahələr də bu qiymətlərlə verildi; gözlənilmədən bunun ardınca gələn əlverişli konyuktura (bazar qiymətlərinin 2 dəfə artması) icarəçilər üçün böyük gəlir gətirdi. Sonrakı 3-cü və 4-cü hərraclarda, qiymətlərin gələcək artımı ümidi ilə xeyli artıq məbləğdə pud hesabı ödənc təklif olundu. Özü də sövdələşənlərin bəziləri hay-küyə o qədər uydular ki, hətta bazar qiymətlərindən də yüksək qiymətlər təklif etdilər. Lakin sonra gerçəklik şişirdilmiş ümidləri doğrultmadı, neftin qiymətləri aşağı düşməyə başladı və 3-cü, 4-cü hərracların bir çox iştirakçıları qoyduqları girovu, həmçinin başladıqları qazma işlərinə görə bütün xərcləri itirərək icarəyə götürdükləri sahələrdən imtina etməyə məcbur oldular.

v) Paylı ayırma. Bu sistemin qüsurlarını aradan qaldırmaq üçün icarənin yeni növü işlənib hazırlandı.

Bu paylı ayırma yolu ilə icarə idi. Elə bu zəmində 1903-cü il iyunun 2-də Balaxanı və Bibiheybət sahələrindəki dövlət torpaqlarının verilməsi üçün hərrac keçirildi. Dövlət neftli torpaqlarının istifadəyə verilməsinin bu üsulu icarənin forması olmasa da, öz çevikliyinə görə daha səmərəli üsul idi. Çünki bu halda neft sənayeçisi bazar təsadüflərindən asılılıq risqi qarşısında qalmırdı, digər tərəfdən isə qiymətlər artdığı halda sahibkarın mənfəətindən xəzinəyə də pay düşürdü.

Lakin sonrakı təcrübənin göstərdiyi kimi, paylı ödənc də neft işi sahəsində elə şərait yarada bilmədi ki, bunu dövlətin mənafelərinə tam cavab verən üsul saymaq mümkün olsun. İlk baxışdan sanki paylı ödənc icarənin daha ədalətli növüdür, çünki bu halda həm xəzinə, həm də sahibkar bazarda neftin qiymətlərinin qalxıb-enməsinin nəticələrini eyni dərəcədə bölüşdürür. Bir halda ki, bu qiymətlər müntəzəm qalxıb-enir, deməli həmin üsul xəzinənin maraqları baxımından daha sərfəlidir. Bu müddəa yalnız o halda mübahisəsiz olardı ki, xəzinənin və onun kontragentinin məqsədləri yalnız müəssisənin maddi gəliri ilə məhdudlaşardı. Lakin məsələ ondadır ki, xəzinə, yaxud daha dəqiq desək, dövlət qarşısında son nəticədə yalnız müəyyən sənaye sahəsində öz mənfəətini güdən və digər rəqabət aparan sənaye sahəsinin (bu halda daş kömür) tənəzzülündə maraqlı olan özəl sahibkarın mənafeləri hüdudlarından çox-çox kənara çıxan vəzifələr dururdu. Dövlət həm təsərrüfatın ümumi ehtiyaclarını, həm də istehlakçıların maraqlarını nəzərə almalı idi. Əgər hökumət hər hansı sənaye sahəsinin normallaşdırılmasında bu ümumi məqsədləri unutmamalı idisə, deməli bütün Xəzər və Volqa gəmiçiliyinə, dəmir yollarının bir qisminə (Zaqafqaziya, Vladiqafqaz) və Mərkəzi sənaye rayonunun böyük hissəsinə (Moskva, İvanovo — Voznesensk) xidmət edən neft sənayesinin vəziyyətinə xüsusi diqqət yetirməli idi. Başqa sözlə, dövlət təkcə neft sənayesinə kommersiya mənfəəti əldə edilməsinə görə deyil, həm də ona görə maraqlı idi ki, neft sənayesi ölkənin ümumi iqtisadi həyatında lazımi yeri tutsun və bu sənayenin gəlirliliyi digər sənaye sahələrinin və istehlakçıların maraqlarına ziyan vurmadan artsın. Eyni zamanda paylı ödənc sisteminin tətbiqi zamanı xəzinənin neftli sahələri icarəyə verməklə, onlardan istifadə bütövlükdə neftin bazar qiyməti kimi dəyişkən və qeyri-sabit amildən birbaşa asılı vəziyyətə salınırdı. Bazardan bu sıx asılılıq yüksək qiymətlər şəraitində xəzinə üçün əlverişli olsa da, hökumət üçün sərfəli deyildi, çünki neftin qiymətlərini müəyyən edən ümumi şərtlərlə (bazarın vəziyyəti, yerin təkinin məhsuldarlığı və i.a.) yanaşı, iri neft sənayesi şirkətlərinin (Nobel qardaşları şirkəti, Xəzər — Qara dəniz şirkəti və s.) qiymətlərə təsir göstərmək və bəzi hallarda bu qiymətləri diktə etmək imkanını istisna etmirdi. Buna görə də 1912-ci il 17 iyun tarixli yeni neft qanunu neftin bazar qiymətinə xüsusi diqqət yetirərək, onun hər ay üçün müəyyənləşdirilməsini qanun məxsusən bu məqsədlər üçün təsis edilmiş komitələrə (bu komitələrə Ticarət və Sənaye Nazirliyindən, Maliyyə Nazirliyindən, Əkinçilik və Torpaq Quruculuğu Baş İdarəsindən və dövlət nəzarətindən, həmçinin neft sənayeçilərindən və yerli birja komitəsindən nümayəndələr daxil idi) həvalə edərək hərraclar üçün tamamilə yeni prinsip — neftin şərti qiymətini tətbiq etdi. 81-ci maddəyə uyğun olaraq bu şərti qiymət hərraclar vasitəsilə müəyyən edilir, özü də sənayeçinin üzərinə çıxarılması zəruri olan miqdarda neftin bazar qiymətləri ilə dəyəri və onunla şərti qiymət arasındakı fərqi xəzinəyə ödəmək vəzifəsi qoyulurdu. Məcburi normadan artıq çıxarılmış neft isə paylı ayırma hədlərinə görə natura ilə və yaxud pulla ödənilməli idi. 784-cü maddənin 3-cü bəndinə əsasən, sahə daha aşağı şərti qiymət təklif etmiş şəxslərə verilirdi, bir şərtlə ki, bu qiymət ticarət və sənaye nazirinin müəyyən etdiyi məxfi şərti qiymətdən yüksək olmalı idi, 1912-çi il 17 iyun qanununun hərraclar üçün yeni qaydalar müəyyənləşdirən digər maddələrindən danışarkən, 177-çi maddəni (VII cild) xatırlatmaq lazımdır. Bu maddə dövlət neftli torpaqlarının 30 il müddətinə icarəyə verilməsini nəzərdə tuturdu. Əvvəlki əsaslarla isə bu sahələr müddət göstərilmədən icarəyə verilirdi. Daha sonra 789-796-cı maddələri qeyd etmək lazımdır. Bunlar Tiçarət və Sənaye nazirinə, Maliyyə naziri və Dövlət Nəzarətçisi ilə, zəruri hallarda isə həmçinin Əkinçilik və Torpaq Quruçuluğu İdarəsinin rəisi və Qafqaz canişini ilə razılaşdırmaqla neftli sahələri müsabiqə üsulu ilə icarəyə vermək hüququnu və həmin müsabiqənin keçirilməsi şərtlərini müəyyən edirdi. Belə müsabiqəyə 790-cı maddə əsasında aşağıdakı hallarda yol verilirdi: 1) sahə bir desyatindən az olduqda; 2) mədənin fəaliyyəti üçün bilavasitə qazma ilə bağlı dağ-mədən işlərindən başqa, daha hansısa əsaslı tikili və qurğular tələb olunduqda; 3) artıq istifadədə olmuş sahə icarəyə verildikdə; 4) sahələr neft sənayesinin yaranmadığı ərazilərdə yerləşdikdə. Bu maddənin 2-ci və 4-cü bəndlərində göstərilən şərtlər mövcud olduqda, bir neçə sahə ümumi böyüklüyü 100 desyatindən artıq olmayan bir qrupda birləşdirməklə hərraclara çıxarıla bilərdi,

2. ***Kəşfiyyat qanunu (790-816-cı maddələr)***

1900-cü il 14 may tarixli qanuna əsasən müəyyən edilmiş "Neftli olduğu qabaqcadan məlum olan bəzi sahələrin kəşfiyyat və neft hasilatı üçün hərracsız icarəyə verilməsinə dair müvəqqəti qaydalarda" (593-cü maddəyə əlavə) olduğu kimi burada da neft hasilatının istismar olunan sahəsinin genişləndirilməsi məqsədi güdülürdü. Bu “Qaydalar" köhnəsindən əvvəla onunla fərqlənirdi ki, burada "neft verəcəyi qabaqcadan bilinən" termini yetərincə dəqiq olmadığına gərə çıxarılmışdı və yeni qaydalarda yalnız ayrı-ayrı şəxslərin sifarişləri üçün qapalı olan torpaqlardan danışılırdı. İkincisi, bu qanunda neft kəşfiyyatı aparılan dövlət torpaqlarının ayrı-ayrı şəxslərə hərraclarsız verilmə şərtləri və qaydaları daha ətraflı müəyyənləşdirilirdi (belə ki, misal üçün, 806-cı maddədə nəzərdə tutulduğuna görə, kəndlilərin daimi istifadəsində olan sahələrin ayrılması zamanı kəşfiyyat nəticəsində kəndlilərə ziyan dəyərsə, bunun müqabilində onlara haqq ödənilməli idi. Bu barədə keçmiş "Qaydalar"da heç nə danışılmırdı).

***3. Neftli torpaqların müsadirəsi haqqında qanun***

Kəndli pay torpaqları tərkibində neftli torpaqların alınması barədə 25 iyun 1912-ci il qanunu Dağ-Mədən Nizamnaməsinin 1912-ci il nəşrində 736-cı maddədə və ona əlavə edilmiş "Qaydalar"da əks olunmuşdu. Bunlar Qanunlar Külliyyatının VII cildinə əlavəyə daxildir. Yeni qanuna uyğun olaraq Abşeron yarımadasında xəzinənin sərəncamına dövlət kəndlilərinin istifadəsində olan elə neftli torpaqlar keçirilə bilərdi ki, Ticarət və

Sənaye naziri tərəfindən müqavilələr üzrə bilavasitə neft hasilatı üçün icarəyə verilməyə yararlı hesab edilsin. Beləliklə, burada torpaqların, dərhal, dəqiq və aydın surətdə alınmasının məqsədi — torpaqların dərhal istismara verilməsi göstərilirdi. Torpaqların alınması haqqında 1890-cı il 9 fevral qanununda isə nə bu tədbirin məqsədləri, nə də müsadirə üçün nəzərdə tutulan torpaqların istismarı üsulu göstərilmirdi.

## "NEFTLİ TORPAQLARIN MÜSADİRƏ QAYDASI VƏ ŞƏRTLƏRİ HAQQINDA" YENİ QAYDALAR VƏ ONLARIN 1891-ci il 20 fevral QAYDALARINDAN FƏRQİ

"Abşeron yarımadasında neftli torpaqların dövlət kəndlilərinin istifadəsindən alınıb xəzinənin sərəncamına verilməsi üsulları və şərtləri haqqında" qaydalar qüvvədə olan 1891-ci il 20 fevral tarixli "Torpaqların alınması qaydası"ndan formal cəhətdən onunla fərqlənirdi ki, sonuncular qanunvericilik qaydasında qəbul edilmiş və Qanunlar Külliyyatına daxil edilmişdi. Əvvəlki "Qaydalar" isə idarəetmə qaydasında Dövlət Əmlak naziri tərəfindən 1890-cı il 9 fevral qanunu əsasında təsdiq edilmişdi. Mahiyyət etibarilə birinci və ikinci "Qaydalar" aşağıdakılarla fərqlənirdi:

a) Kəndlilərin pay torpaqları arasından geri alınan sahələrin sərhədləri Dövlət Əmlak nazirinin razılığı ilə Qafqazda mülki hissə baş rəisi tərəfindən, yeni qaydalarda isə Ticarət və Sənaye naziri, Əkinçilik və Torpaq Quruculuğu Baş İdarəsi rəisi və Qafqaz canişini ilə razılaşdırılmaqla müəyyən edilirdi (1912-ci il 25 iyun "Qaydalar"ının 12-ci maddəsi).

b) Əvvəlki qaydalara əsasən yerli hökumətin köməyi ilə bilavasitə Bakı quberniyası Dövlət Əmlak İdarəsinin rəisinə həvalə edilən iş neftli torpaqların faktik müsadirəsi, yeni "Qaydalar"a məxsusən bu məqsəd üçün Qafqazda Əkinçilik və Torpaq Quruculuğu Baş İdarəsi rəisinin sərəncamı ilə yaradılan xüsusi torpaq - quruculuq partiyasına həvalə edilirdi.

v) 1891-ci il "Qaydalar"ında həyətyanı sahələr qəti göstərişə əsasən, kəndlilərin tam və daimi istifadəsində qalmalı, elə buna görə də xəzinənin sərəncamına keçən pay torpaqları tərkibindən çıxarılmalı idi (bənd 2); 1912-ci il "Qaydalar"ında isə həyətyanı sahələrə dair nəinki hər hansı bir qeydə rast gəlinmir, hətta tikinti və qurğular yerləşəcək belə torpaqların da alınması açıq-aşkar nəzərdə tutulurdu (3 və 4 maddələr). "Qaydalar"ın mətnində göstəriş olmadığından, bu torpaqların tərkibindən həyətyanı sahələrin ayrılması üçün heç bir əsas yox idi. Həmçinin yeni "Qaydalar"da pay torpaqlarının ayrı-ayrı kateqoriyaları (icmanın töycü verdiyi sahələr, bağlar, otlaqlar, şumlama sahələri) arasında heç bir fərq qoyulmur və müsadirə (torpaqların alınması) haqqında qanun icra edilərkən bunlar üçün heç bir məhdudiyyət nəzərdə tutulmurdu.

q) Kəndlilərin istifadəsindən alınıb, xəzinənin sərəncamına verilən neftli torpaqlar müqabilində kəndlilərin mükafatlandırılması 1891 və 1912-ci il "Qaydalar"ında bir-birindən tamamilə fərqli üsulda müəyyən edilirdi. Əvvəlki "Qaydalar" əsasında kəndlilər aşağıdakı iki üsuldan biri ilə mükafatlandırılırdı: ya onlara digər sərbəst dövlət torpaqlarından pay ayrılırdı, ya da xəzinə və yerli idarəetmə orqanları (zemstvo) vergiləri ödəməkdən azad edilirdilər. Özü də bu iki üsulun müəyyən nisbətdə birləşdirilməsinə yol verilmirdi. Torpaqların dəyərləndirilməsinə görə xəzinədən xüsusi pul mükafatı almaq hüququ yalnız elə şəxslərə verilirdi ki, onlar əkilib-becərilməsi çox böyük çətinliklərlə əlaqədar olan bağlardan və digər sahələrdən imtina etmiş olsunlar (bənd 10). Hazırda qüvvədə olan 1912-ci il "Qaydalar"ı isə, əksinə, ümumi əsas kimi pul mükafatı prinsipini nəzərdə tutur və onun şərtləri dəqiq müəyyən edilirdi (1-3 və 7-11-ci maddələr). Və yalnız sakinlərin özlərinin xüsusi vəsatəti olduqda, onlara başqa yerlərdə sərbəst dövlət torpaqlarından həmin həcmdə sahələr ayrıla bilərdi (maddə 2). Ümumiyyətlə, 1912-ci il "Qaydalar"ı kəndlilərin mükafatlandırılması məsələsinə xüsusi diqqət yetirirdi. 1891-ci il "Qaydalar"ında isə bu məsələyə çox səthi toxunulurdu. Məsələn, qiymətləndirmə məsələlərindən danışılarkən nə qiymətin təyin edilmə üsulu, nə də onu həyata keçirməli olan şəxslər barədə bir söz deyilmirdi.

d) 1912-ci il 25 iyun "Qaydalar"ında 6 və 7-ci maddələr xüsusilə mühüm əhəmiyyətə malikdir. Həmin maddələrə əsasən, müsadirə edilməli torpaqların, eləcə də orada inşa edilmiş qurğu və tikililərin verilməsi barədə müqavilələr, həmin torpaqların xəzinə sərəncamına keçməsindən sonra fəaliyyətlərini dayandırır və orada yerləşən qurğuların sabiq icarəçiləri isə, bu müsadirə nəticəsində özlərinə vurulmuş həqiqi ziyanlar həcmində xəzinədən mükafat alırdılar.

Aydın ifadə olunmuş və heç bir istisnaya yol verməyən bu müddəa əvvəl qüvvədə olan qaydanı ləğv etdi. Əvvəlki qaydaya görə, neftli torpaqların alınmasından öncə, kənd icmalarını, yaxud da bu icmanın ayrı-ayrı üzvlərinin müxtəlif şəxslərə töycü verilən torpaqlar, yaxud da ümumiyyətlə ictimai-dövlət torpaqlarına dair bağladıqları müqavilələr öz qüvvəsini müsadirədən sonra da saxlayırdı (1812-ci il "Qaydalar"ı, 5 və 6-cı bəndlər). Bu zaman birinci halda icarə haqqı kəndli icmalarının xeyrinə daxil oldu, ikinci halda, yəni ayrı-ayrı kəndlilərlə dövlət-ictimai torpaqların bir hissəsinə dair əvvəl bağlanmış müqavilələrin qüvvədə qalması, xəzinə üçün sərfəli olmayan maddi nəticələr verirdi və hüquqi xarakterli bir sıra çətinliklər yaradırdı. Bu əngəllər, 1891-ci il 21 fevral qanununun icrası gedişində dərhal özünü büruzə verdi və xüsusi olaraq bu məqsəd üçün Dövlət Əmlak Nazirliyinin ümumi işlər Departamenti nəzdində, bu departamentin direktorunun sədrliyi altında,

Bakı Dövlət Əmlakları İdarəsinin, nazirliyin hüquq məsləhətçisinin və digər vəzifəli şəxslərin iştirakı ilə yaradılmış xüsusi müşavirənin müzakirə predmeti oldu. Müşavirə 1892-ci il 22 noyabr tarixli iclasında, müqavilə bağlanma şərtləri və məqsədləri nəzərə alınmaqla, onların qüvvədə saxlanılmasının xəzinə üçün nə dərəcədə sərfəli olması, icarə haqları, icarəyə götürülmüş sahələrdəki tikililərin saxlanılmasının xəzinə üçün zəruri olub-olmaması məsələlərini müzakirə etdi.

e) Nəhayət, 1891-ci il 20 fevral "Qaydalar"ında müsadirə edilmiş neftli torpaqların kimin tabeliyində qalmalı olduğu barədə heç bir müsbət göstəriş yoxdur. Və yəqin 1890-cı il 9 fevral qanununun faktik icrası Bakı quberniyası Dövlət Əmlakları İdarəsinin rəisinə həvalə edildiyinə görə, ("Qaydalar", 1891-ci il nəşri, bənd 11) həmin torpaqlar məhz Dövlət Əmlaklar İdarəsinin tabeliyində saxlanıldı. 1912-ci il qanununa görə isə ("Torpaqların müsadirəsi üsulları və şərtləri" haqqında, maddə 14) dövlət kəndlilərinin pay torpaqlarından alınmış neftli torpaqlar Dağ-Mədən İdarəsinin bilavasitə sərəncamına verilirdi; idarə isə həmin torpaqların faktik olaraq neft hasilatı üçün istifadəsi başlananadək, onları Qafqaz canişini ilə razılaşmaya uyğun olaraq, Ticarət və Sənaye nazirinin təsdiq etdiyi qaydalar əsasında hərraclar yolu ilə icarəyə verə bilərdi.

Neftli sahələrin Dağ-Mədən İdarəsinin sərəncamına keçdikdən sonra icarəyə verilməsi, müsadirənin özünün məqsədinə tamamilə uyğun gəlirdi. Belə ki, yer təkinin istismarı üçün nəzərdə tutulmuş torpaqların istismarı, yalnız faydalı qazıntı növləri hasilatının idarə olunmasını ələ almaq kimi xüsusi vəzifəni qarşısına qoymuş idarələr tərəfindən daha uğurla həyata keçirilə bilirdi.

## ƏLLƏ (KUSTAR ÜSULLA)
## NEFT HASİLATI

Neftin getdikcə bahalaşması nəticəsində, neft sənayesinin az qala dayanmış primitiv üsulu — neftin əllə (kustar üsulla) hasilatı təzədən dirçəldi. Həm hasil edilən neftin miqdarı, həm bu işlə məşğul olan əhalinin sayı, həm də hasilatın yayılma sahəsi ildən-ilə geniş miqyas almağa başladı. Bu hal təbii ki, yerli hakimiyyət orqanlarının diqqətini cəlb etməyə bilməzdi, odur ki, onların qarşısında əllə neft hasilatını tənzimləmək vəzifəsi durdu. Həmin vəzifə bir də ona görə mürəkkəb idi ki, qüvvədə olan qanunvericilikdə bu sahə ilə bağlı heç bir rəhbər göstəriş yox idi.

Dağ-mədən Nizamnaməsinin 1-ci maddəsində deyilir: "Dağ-mədən sənayesi dedikdə, yer səthində və ya yerin təkində olan aşağıdakı mineral təbii ehtiyatların (maddələrin) axtarılması, hasilatı, əridilməsi, qaynadılması və emalı nəzərdə tutulur...".

Deməli, mahiyyət etibarilə, əllə neft hasilatı Dağ-mədən Nizamnaməsinin 1-ci maddəsində sadalanan əlamətlərə və dağ-mədən sənayesi üçün zəruri anlayışa tam müvafiq idi. Lakin Nizamnamənin, neft istehsalına həsr edilmiş xüsusi bölməsində neftin əllə hasil edilməsi barədə heç nə deyilmirdi. Məhz qanunvericilikdəki boşluq nəticəsində, ayrı-ayrı vaxtlarda bu sahədə işlənib hazırlanmış tədbirlər qanunun müddəalarında möhkəm zəmin tapmadığından zəruri sabitliyə və daimiliyə malik olmamış, bu və digər dərəcədə əlaqəsiz və təsadüfi səciyyə daşımış, hətta bəzən bir-birinə zidd olmuşlar.

Neftin əllə (kustar üsulla) tənzimlənməsi sahəsindəki tədbirlərin hazırlanmasının qüsurlu olmasının digər bir səbəbi — neftli sahələrin, Abşeron yarımadası kəndlilərinin pay torpaqlarından müsadirə edildikdən (alındıqdan) sonra Bakı Dövlət Əmlakları İdarəsinin sərəncamına keçməsi oldu. Halbuki, bu torpaqlarda geniş yayılmış kustar neft hasilatı, yuxarıda qeyd etdiyimiz kimi, dağ-mədən sənayesi növü olduğundan bilavasitə Dağ-Mədən İdarəsinin fəaliyyət predmeti olmalı idi. Neftin əl əməyi ilə hasil edilməsinə dair əvvəlki tədbirlərin mənfi cəhətləri, eləcə də neft sənayesinin bu növünün sonrakı taleyi ilə bağlı bəzi məsələlərdə ayrı-ayrı idarələr arasında fikir ixtilafı məhz həmin iki əsas səbəblə izah edilir.

Buna görə də əl əməyi ilə (kustar üsulla) neft hasilatı şəraitinin tənzimlənməsi üçün ayrı-ayrı vaxtlarda görülmüş işlərin icmalına keçməzdən öncə qeyd etmək lazımdır ki, hər bir sonrakı müddəanın özündən əvvəlkindən doğduğu və Xüsusi Məsələlər nazirinin verdiyi müxtəlif təlimat və qaydaların, Dağ-mədən qanunun dəqiq göstərişlərinə əsaslandığı və elə həmin qanunla müəyyənləşdirilən çərçivədə fəaliyyət göstərdiyi ümumi neft qanunvericiliyi tarixində mövcud planauyğunluq, ardıcıllıq və sistem dəqiqliyini bu sahədə (kustar neft hasilatında) müşahidə etmək mümkün deyil.

Əl əməyi ilə neft hasilatının və tənzimlənməsi tədbirlərində göstərilən ardıcıllıq və sistemlik olmadığından, bizcə, bundan sonrakı qeydlərimizdə məsələnin tarixi hissəsinə həddən artıq çox yer ayırmaq məqsədəuyğun deyil. Buna görə də, tarixi hissədə neft sənayesinin bu növünün başlıca səciyyəvi cəhətlərini göstərməklə, nisbətən sonrakı dövrün faktları üzərində daha ətraflı dayanmaq lazımdır.

Neft sənayesinin inkişafının ilk fazasında əllə neft çıxarılması neftli layların istismarının yeganə üsulu idi və bu dövrdə onun tarixi bütövlükdə neft sənayesinin tarixi ilə üst-üstə düşürdü. Yerin təkinin istismarında yeni mükəmməl üsullar hakim mövqe tutduğu andan Bakı rayonunda əllə neft hasilatı uzun müddətə dayansa da, cüzi miqyasda mövcud idi. Və yalnız XX əsrin əvvəlində məlum şərtlərdən asılı olaraq əllə (kustar üsulla) neft hasilatı geniş miqyas almağa başladı və yerli hökumət orqanlarının diqqətini cəlb etdi. Onlar qarşısında bu sənayeni məcraya salmaq, onu məlum qaydaların təsirinə tabe etmək vəzifəsi yarandı. İlk dəfə neft hasilatı haqqında məsələ rəsmi olaraq 1904-cü ildə qaldırılmışdı. O zaman Qafqaz Dağ-Mədən İdarəsi "Bəxt" Neft Sənaye və Ticarət cəmiyyətinin Sabunçudakı səthi istifadədə olan 27 saylı dövlət sahəsinin icarəçilərindən (onlar adı çəkilən cəmiyyətin mədəninin bilavasitə yaxınlığında neft hasilatı üçün şaxtalar quraşdırmışdılar) şikayəti barədə məlumat verərkən Bakı Əkinçilik və Dövlət Əmlakları İdarəsinin nəzərinə çatdırırdı ki, ümumiyyətlə, sahələrin bir çox icarəçiləri səthi nefti toplamaq üçün quyu, çala və arxlardan istifadə edir. Bu zaman Dağ-Mədən İdarəsi izah edirdi ki, öz tərəfindən neftin bu cür səthi üsulla əldə edilməsinə etirazı yoxdur. Lakin bir şərtlə ki, bu cür hasilat qonşu sahələrin icarəçilərinə ziyan vurmasın və işlərin təhlükəsizliyini təmin edən məlum qaydalara tabe olsun. Dağ-Mədən İdarəsi bununla bağlı Əkinçilik İdarəsinin fikrini öyrənmək istəmişdi. Sonuncu cavab vermişdi ki, torpağın altından neftin nisbətən dayaz quyular qazmaqla və arxlar vasitəsilə çıxarılmasını ciddi surətdə tənzimləmək, birdəfəlik müəyyənləşdirilən qaydalarla etdirmək zəruridir. Bu qaydaların işlənib hazırlanması yerli Dağ-Mədən Nəzarəti və Neftin Uçotuna Nəzarət İdarəsinə həvalə edilməlidir.

Əkinçilik İdarəsi qeyd edirdi ki, torpağın altındakı neftin şaxta və quyular vasitəsilə, su ilə bərabər arxlara axan neftin isə dolayı arxlar vasitəsilə toplanılması Balaxanı, Sabunçu, Ramana və Bibiheybət mədənlərində geniş miqyas almışdır. Bu iş təkcə Əkinçilik İdarəsinin tabeliyində olan dövlət torpaqlarında deyil, həmçinin Dağ-Mədən İdarəsinin sərəncamında olan və neft hasilatı üçün icarəyə verilən ərazilərdə, hətta şəxsi mülkiyyət sayılan bir çox sahələrdə də həyata keçirilir.

Bu sənədə cavabında Qafqaz Dağ-Mədən İdarəsi Əkinçilik İdarəsinə məlumat vermişdi ki, İkinci Qafqaz Dağ-Mədən Dairəsinin mühəndisinə səthi laylardan neft çıxarılması və neftin kənar qollarla arxlardan yığılması qaydalarını işləyib hazırlamaq tapşırılmışdı və bu komissiyaya Əkinçilik İdarəsindən nümayəndə təyin edilməsi xahiş olunur.

İkinci Qafqaz Dağ-Mədən Dairəsi dairə mühəndisinin sədrlik etdiyi bu komissiyanın tərkibinə neftin uçotu üzrə nəzarətçi, onun köməkçisi, dairə mühəndisinin iki köməkçisi, Bakı Əkinçilik və Dövlət Əmlakları İdarəsinin nümayəndəsi və Bakı neft mədənlərinin mühafizəsi üzrə texniki komissiyanın 3 üzvü daxil idi. Onun cəmi bir iclası olmuşdu (20 iyul 1904-cü il). Görünür, üzvləri arasında yaranmış fikir ixtilafı ilə bağlı həmin iclas heç bir müsbət nəticə verməmişdi və bundan sonra komissiya fəaliyyət göstərməmişdi. Sonradan Qafqaz Dağ-Mədən İdarəsi rəisinin məlumatı üzrə imperatorun Qafqazdakı canişini 1907-ci ilin sentyabrında yenidən həmin məqsədlə əvvəlki tərkibdə komissiya yaratmışdı. Lakin sədrlik vəzifəsi Bakı quberniyası və Dağıstan vilayəti Əkinçilik və Dövlət Əmlakları İdarəsinin rəisinə həvalə edilmişdi. Sözü gedən komissiya işə başladıqdan sonra 1907-ci ilin noyabr, dekabr aylarında keçirdiyi bir sıra iclaslarda 1890-cı il 9 fevral qanunu əsasında Abşeron yarımadasının 11 kəndində kəndli pay torpaqları tərkibindən müsadirə edilmiş neftli torpaqlarının bir illik icarəyə verilməsi üçün normal müqavilə layihəsi işləyib hazırlanmışdı. Müqavilədə həmin torpaqlardan neft yığılması hüququ nəzərdə tutulurdu. Üzü də müqavilənin mətninə komissiyanın işləyib hazırladığı — quyular qazmaqda əl əməyi ilə neft hasilatının cəhətlərini tənzimləyən qaydalar — daxil edilmişdi.

Qaydaların qəbul edilməsinin bu üsulu onları tezliklə həyata keçirmək məqsədilə seçilmişdi. Belə ki, müqavilə və deməli, onun tərkibinə daxil olan bütün şərtlər imzalandığı andan kirayəçi üçün məcburi sayılır və dərhal təcrübədə tətbiq edilirdi. Neftin əllə hasil edilməsi üzrə hamı üçün zəruri olan normaların ümumi qaydada qəbul edilməsi isə xeyli vaxt tələb edirdi. Ancaq bu məsələdə ləngimək olmazdı.

Əllə neft hasilatı haqqında məsələnin təxirəsalınmaz həlli bir də ona görə zəruri idi ki, 1907-ci ildə Əkinçilik İdarəsi quyuların dərinliyinin 3 arşından çox olmadığını hesab edərək, neft quyuları olan sahələri ümumi əsaslar üzrə cüzi haqq müqabilində səthi istifadəyə verir, lakin müqavilələrdə istifadə qaydasını göstərmirdi. Bunun nəticəsində xəzinə bu istismar növündə əldə edə biləcəyi böyük gəliri itirirdi. Artıq həmin dövrdə, yəni 1907-ci ilin sonlarında quyuların orta dərinliyi göstərilən normadan (3 arşın) bir neçə dəfə artıq idi. Özü də bir çox hallarda quyuların dərinliyi 40-50 sajenə çatır, hətta bundan da artıq olurdu. Belə bir vəziyyətdə isə əllə neft hasilatıkı səthi istifadə ilə eyniləşdirmək və neft quyuları olan sahələri neft quyularının olmadığı və icarəçilərin həqiqətən torpaqlardan yalnız səthi istifadə ilə kifayətləndikləri digər sahələrlə eyni şərtlər əsasında icarəyə vermək məqsədəuyğun deyildi.

Əllə neft hasilatı işinin müasir vəziyyətinin təhlilinə keçərkən, hər şeydən öncə, hazırda neftin əllə çıxarılması üçün istifadə edilən torpaq sahələri haqqında məlumat vermək lazımdır.

Abşeron yarımadasında kəndlilərin pay tornaqlarından 1890-cı il 9 fevral tarixli qanunu ilə müsadirə edilmiş neftin torpaqların ümumi sahəsi 4973 desyatnn 874 kv, sajen idi. İdarə həmin sahənin 288 desyatin 449 kv, sajenini sərbəst dövlət torpaqlarından, 76 desyatin 711 kv. sajenini kəndlilərədən alınmış və müvəqqəti olaraq dövlət kəndlilərinin istifadəsinədə saxlanmış torpaqlardan, 90 desyatan 1208 kv. sajenini isə dövlət-ictimai torpaqlarından əllə neft çıxarılması üçün icarəyə verirdi.

Bu torpaqların ayrı-ayrı ərazilər üzrə bölünməsi və əllə neft çıxarılan sahələrin sayı aşağıdakı cədvəllərdən görünür:

**Sərbəst dövlət torpaqları**

| Ərazinin adı | Mədənlərin sayı | Sahəsi | Desyatin |
|---|---|---|---|
| Binəqədi | 126 | 132 | 620 |
| Xırdalan | 30 | 12 | 2058 |
| Biləcəri | 21 | 26 | 1538 |
| Masazır | 4 | 3 | 690 |
| (Tngçh | 1 | - | - |
| Balaxanı | 76 | 82 | 823 |
| Cəmi: | 276 | 288 | 449 |

*Cədvəl 2*

**Dövlət tərəfindən alınmış və kəndlilərin müvəqqəti istifadəsində qalmış torpaqlar**

| Ərazinin adı | Məlumatların | Sahəsi | Desyatin |
|---|---|---|---|

| | sayı | | |
|---|---|---|---|
| Binəqədi | 4 | 3 | 1275 |
| Xırdalan | 1 | — | 600 |
| Biləcəri | 1 | 1 | 970 |
| Digah | 1 | 14 | 1110 |
| Balaxanı | 38 | 56 | 1556 |
| Cəmi: | 45 | 76 | 711 |

Beləliklə, kəndli torpaq paylarından müsadirə edilmiş sahədən əllə neft çıxarılması üçün ümumi sahəsi 364 desyatin 1160 kv. sajen olan 321 sahə icarəyə verilirdi. Həmçinin Qafqaz canişininin dərc etdiyi qaydalara uyğun olaraq, Əkinçilik İdarəsi Abşeron yarımadasının dövlət-ictimai torpaqlarında da illik müqavilələr əsasında əllə neft çıxarılmasına icazə verirdi.

Bu sonuncu kateqoriyaya daxil olan torpaqlardan aşağıdakı ərazilərdə əllə neft çıxarılırdı:

*Cədvəl 3*

**Əllə neft hasilatı üçün istifadə olunan dövlət-ictimai torpaqları**

| Ərazinin adı | Mədənlərin sayı | Sahəsi | Desyatin |
|---|---|---|---|
| Qobu | 260 | 65 | 1006 |
| Hökməli | 73 | 16 | 1452 |
| Xırdalan | 31 | 7 | 550 |
| Masazır | 2 | 1 | 600 |
| Cəmi: | 366 | 90 | 1208 |

Bütövlükdə Abşeron yarımadası hüdudlarında əllə neft hasilatı üçün ümumi sahəsi 454 desyatin 2368 kv. sajen olan 687 sahə istismar edilirdi. Buraya həm kəndli pay torpaqlarından müsadirə edilmiş sahələr, həm də dövlət-ictimai torpaqları tərkibində qalan sahələr daxil idi. Əllə neft hasilatının ümumi iqtisadi əhəmiyyətini yalnız ümumilikdə neft sənayesi ilə bağlı qiymətləndirmək mümkündür. Bu zaman qeyd etməliyik ki, kustar neft hasilatını adi üsullu neft istehsalına qarşı qoymaq üçün heç bir əsas yoxdur, çünki kustar üsulla çıxarılan neftin miqdarı bazar qiymətlərinin vəziyyətinə nəzərə çarpan təsir göstərə bilməzdi. Bu qiymətlər bütövlükdə iri sənayeçilərin bazara çıxardığı yüz milyonlarla pud neftdən asılı idi.

İşin iqtisadi tərəfindən danışarkən başlıca olaraq, əllə neft hasilatının yerli və gəlmə əhali üçün əhəmiyyəti məsələsi üzərində dayanmaq lazımdır.

Bu istehsal kustar xarakterli olduğundan, geniş əhali kontinkentini özünə cəlb edirdi. Əllə neft hasil edilən bütün rayonlar üzrə aparılmış anget sorğusu haqqında 4 №-li cədvəl məlumat verir. Kustar neft sənayesi ilə məşğul olan şəxslərin ümumi sayı 13615 nəfər idi. Buraya daxildir:

a) sahibkarlar — 2579 nəfər (18,8%); b) qulluqçular 678 (5,1%); v) fəhlələr - 10358 (76,1%).

Sadalanan 3 kateqoriyadan hər birinə müxtəlif millətlərin nümayəndələri daxil idi. Onlar belə bölünürdü:

1.Sahibkarların ümumi sayından: müsəlmanlar — 2321 nəfər (90%), ruslar (və digər avropalılar) — 85 nəfər (3,3%), gürcülər — 29 nəfər (1,1%), ermənilər — 144 nəfər (5,6%).

2.Qulluqçuların ümumi sayından: müsəlmanlar — 579 nəfər (85,4%), ruslar və s. — 25 nəfər (3,7%), gürcülər — 22 nəfər (3,3%), ermənilər — 52 nəfər (7,6%).

3.Fəhlələrin ümumi sayından: müsəlmanlar — 9908 və ya (95,6%), ruslar — 254 və ya (2,4%), gürcülər — 123 və ya (1,2%), ermənilər — 72 və ya (0,8%).

Fəhlələrin 5235 nəfəri (50,5%-i) — daimi, 5121 nəfəri (49,5%-i) — müvəqqəti (gəlmə) idi.

Əllə neft hasilatı ilə məşğul olan bütün kateqoriyalardan şəxslərin ümumi sayı (13615) millətlər etibarilə belə bölünürdü:

müsəlmanlar — 12808 (94,1%),
rus və başqaları — 364 (2,7%),
gürcülər — 175 (1,3%),
ermənilər — 268 (1,9%).

Qulluqçu və sahibkarlar arasında İran təbəələri yox idi. Fəhlələr arasında isə sonuncuların sayı əksəriyyət (90%-dən artıq) təşkil edirdi. Bu, bir tərəfdən, əllə neft hasilatının şərait və vəziyyəti — onun son dərəcə gərgin fiziki qüvvə tələb etməsi və müqabilində çox cüzi məvacib ödənilməsi (sutkada 1 rubldan az) və buna görə də fəhlələrin daha mədəni təbəqələrini qətiyyən cəlb etməməsi ilə izah olunurdusa da, digər tərəfdən Bakı mədən rayonlarına axışıb gələn İran təbəələri kütləsi heç bir ağır işdən imtina etmədiyindən, bunlar sahibkarlar üçün daha çox arzuolunan idilər.

Kustar neft hasilatı işində əsas rol, bütün fəhlələrin 95,6%-ni, sahibkarların 90%-ni və qulluqçuların 85,4%-ni təşkil edən müsəlmanlara məxsus idi. Neft sənayesinin bu sahəsini qidalandıran əsas kapital da onların əlində cəmlənmişdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Arnot R. "Neftnnam politika". M.D925.
2. Balaev S.Q. "Neftv stranı "veçnoqo oqnl". B.,1969.
3. Bibi-Tomson A. - "Rusiyanın neft mədənləri və neft sənayesi". "Rusiyanın neft sərvətlərinin kəşfiyyatı və istismarı". London, 1908.
4. Boqaçev V.V., Abix T.V. "Trudı qeoloqiçeskoqo instituta Azerbaidjanskoqo filiala AN SSSR", t.XP/31, 1939
5. Boqdanovskii A. "Pravda o neftlnom voprose". SPb, 1913.
6. Qeneral-mayor Denstervil. "Britanskii imperializm v Baku i Persii. 1917-1918 q.q. "Vospomina- nil". Tiflis, 1925.
7. Dokumentı po istorii Baku. B.,1978.
8. Əsəd bəy "Şərqdə neft və qan". Paris, 1933.
9. İbrahimov N.S. "Köhnə Bakı". B.,1997.
10. "İstoril Azerbaidjana", 1-2 t., B.,1958.
11. Kraçkovskii İ.K). "Arabskal qeoqrafiçeskan literatura". İzb.soç., t.1Ü, M.-L.D957.
12. Lebedev D.M., Esakov V.A. "Russkie qeoqrafiçeskie otkrıtil i issledovania s drevneişix vremen do 1917 q." M.,1971.
13. Lqadendorf 3. "Moi vospominanil o voine" 1914- 1918 qq." t.P, 1924.
14. Marvin K. "Predstolodii potok russkoi nefti". London, 1985.
15. Marvin K. "Bakı-Avropanın nefti". London, 1886.
16. Marvin K. "Əbədi odlar ölkəsi". London, 1896.
17. Mendeleev D.İ. "Bakinskoe neftnnoe delo". 1886.
18. Nevskii V.V. "A.Qumbolvd-vıdakzşiisn puteşestvennik i qeoqraf". M.,1959.
19. Nikişin A.A. "20 let azerbaidjanskix qornoraboçix", B.,1926.
20. Paxomov E.A. "Kratkii kurs istorii Azerbaidjana". B.,1923.
21. Petrov-Uralçev V. "Neft-çariça mira". M.-L., 1925.
22. Seyidzadə D. "Azərbaycan XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar". B., 19.
23. Starnev T.E. "Bakinskan neftlnan promışlen- NOSTB", B.,1901.
24. Tixonravov V. "Neftv". M.,1933.
25. Henri C. "Petroleum Uorld". London, 1905.
26. Eyxvald Z.B. "Opisanie Kaspiiskoqo morya". 1850.
27. "Azerbaidjanskoe neftmnoe xoznistvo".
28. "Qornıi jurnal". SPb. 1828-1917.
29. "Neftnnoe delo". N4,6. 1908.
30. Pentralvnıi Qosudarstvennıi istoriçeskii arxiv Azerbaidjana. Fondı: N94, 1874-1920 qt. N1, 1908-1917 q.q. N634, 1909-1910 qq


.

***Xarici jurnallardan, qəzet və arxiv materiallarından da istifadə olunmuşdur.***

*Çoxçildliyin hazırlanmasında dəyərli məsləhətlərinə görə akademik Azad Mirzəcanzadəyə, Milli Məclisin üzvü Həsən Həsənova, istifadə olunmuş ədəbiyyatın və arxiv materiallarının əldə olunmasında etdiyi əsaslı köməyə görə Milli Məclisin üzvü, Böyük Britaniyadakı səfirimiz Mahmud Məmmədquliyevə və professor Elmira Muradəliyevaya dərin minnətdarlığımızı bildiririk.*

**İlham Əliyev**
**Akif Muradverdiyev**

Kitabın nəşri və çapa hazırlanması
**Nazim İbrahimov**

Redaktor
**Nahad Əliyev**

Rəssam
**Zaur Əliyev**

*İkinci kitab*

Sifariş 1320. "Azərbaycan" nəşriyyatı
370146 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.